# Fatimə Mernisi



# Pərdələr arxasında gizlədilən tarix

**Çevirən: Güntay Gəncalp**
Redaktor: Ilahə Cəfərova

Kitabın orijinal adı:
Harem politique= The veil and the male elite: a Feminist

# İçindəkilər

- Tərcüməçidən önsöz.
- Kitabın ingilis dilində nəşrinə müəllifin giriş sözü.
- Ön söz.
- Müsəlman və zaman.
- Peyqəmbər və hədis.
- Peyqəmbərin vəfatı.
- Siyasi konfliktlər.
- Hədisin ortaya çıxışı
- Qadına inamsızlıq gələnəyi (ənənəsi).
- Qadına inamsızlıq gələnəyi.
- Hicab.
- Peyqəmbər və onun sosial mühiti.
- Peyqəmbər və qadınlar.
- Peyqəmbərin qadınları
  Mutlu illər.
- Qadınlar və səfihlər.
- Qadınlar və savaş qənimətləri.
- Ömər və Mədinə kişiləri.
- Seksual ilişkilərlə bağlı dialoq.
- Köləlik.
- Qadınlara qarşı şiddət.
- Hərbi rəhbər olaraq peyqəmbər.
- Hicab Mədinədə nazil olur.
- Sonuc
- Tarixi olayların özəti

## Tərcüməçinin

## önsözü

Əlinizdə bulunan bu kitabı oxumaqla eyni mövzuyla bağlı sanki yüzlərcə kitab oxumuş olacaqsınız. Mətnşünaslıq, tarix metodologiyası və dinşünaslıq baxımından yeni bilgilər əldə edəcək, özəlliklə islam tarixi üzərinə dərin bilgi və fikir sahibi olacaqsınız. Ancaq bunlar olayın hamısı deyildir. VII əsrdə tək başına meydana çıxıb və ictimai ədalətdən danışan, qumsal çöllərin ərəblərini bir hədəf istiqamətində birləşdirib onları millət olaraq tarixə soxan, insanlıq tarixini etkiləyən bir insanın mübarizəsi ilə tanış olacaqsınız. Hz. Məhəmmədin özəl və sosial həyatı ilə elmi şəkildə tanış olmaq kimi bir fürsəti yaxalayacaqsınız. Bu günə qədər peyqəmbərin ictimai-siyasi şəxsiyəti və ədalət anlayışı islam tarixində olduğu kimi göstərilməmiş, ərəb milliyətçiliyi mərkəzli islam qavrayışını ortaya qoyan Əməvilərdən başlayaraq günümüzə qədər Hz. Məhəmməd adına yüzlərcə saxta hədislər uydurularaq, onun gerçək missionunu ört-basdır etmişlər. Kitabı oxuduqca siyasi islamla, peyqəmbər islamının fərqinə varacaqsınız. Kiminsə inanıb inanmaması önəmli deyil. Əsas odur ki, Hz. Məhəmmədi tanıyacaqsınız, gerçək kimliyi ilə tanıyacaqsınız. İnanmasanız belə, onun mübarizəsinə, siyasi davranışlarına, hərbi, ictimai-siyasi münasibətlərinə heyrət edəcək, sayqı ilə yanaşacaqsınız. Əgər Hz. Məhəmmədə inanırsanız, o zaman öz peyqəmbərinizi yenidən tanıyıb kəşf edəcəksiniz. Görəcəksiniz ki, bu günə qədər islamı siyasətə alət edən dargörüşlü insanlar, siyasi təşkilatlar necə də Hz. Məhəmmədin idealına ihanət etmiş, onun böyük və Tanrısal idealını qısıtlamağa, göylərin qutsallığını yerdəkilərin mənafeyinə fəda etməyə çalışmışlar.

Vətənimiz böyük bir sınaqdan keçmək üzrədir. Türk tarixində heç bir zaman öz ana dilimizdə islami dəyərləri öyrənmək üçün bir proje ortaya qoyulmadığı üçün əli qılınclı türklər ərəb- fars mərkəzli siyasi islama yem edilmişlər. Hz. Məhəmmədin həyatını araşdıran Buxari kimi böyük bilim adamlarının türk olmasına baxmayaraq, türk ulusuna bu araşdırmalar anlayacaqları dildə çatdırılmamışdır. Beləliklə də Səlcuqlu, Osmanlı, Səfəvi dönəmlərində türklər, ərəb-fars milliyətçiliyi mərkəzli sapdırılmış islamın "fədai"ləri olmuşlar. Oysa bu kitabı oxuduğunuzda peyqəmbərin özəl və

ictimai-siyasi həyatından zövq alacaqsınız. Onu yenidən sevmək istəyəcəksiniz. Onun kimi səbirli, uzaqgörən və təmkinli olmaq istəyəcəksiniz.

Hz. Məhəmmədin dönəmindən uzaqlaşdıqca saysız təriqətlərin, məzhəblərin ortaya çıxışına şahid oluruq. Qardaşlığın carçısı olan Hz. Məhəmməddən sonra bu məzhəblər öz çıxarları adına nə qədər qan tökdülər. Xüsusən ərəb və fars irqçilərinin ortaya qoyduqları məzhəblər islamdan irqçi bir din görüntüsü ortaya qoymaq istəmiş, qanlar axıtmışlar. Müaviyənin öndərliyində qurulan Əməvi dövləti, islamı bir sülalə dini, qəbilə məzhəbinə dönüşdürmək istədi. Əməvilərin islamı bu şəkildə sapdırmalarına ilk etiraz Əlioğlu Hüseyn tərəfindən edilmişdir. Əlioğlu Hüseyn bu yolda böyük fədakarlıq göstərdi və öz çevrəsi ilə bir yerdə Kərbəlada şəhid oldu. Əməvi dövləti böyüdükcə islamı sapdırmağa çalışmışdır. Qənimətlər yolu ilə yalnız zəngimləşməyi hədəfləyən Əməvilər vardığı ölkələrdə ancaq və ancaq yağmaçılıqla məşğul olurdular. Əməvilərin islamı sapdırmalarına etiraz daha sonra alimlər tərəfindən edilmişdir. Siyasətin dışında Quranı və hədisləri öyrənmə zərurəti bu şəkildə yaranmışdır. İlk dörd xəlifə zamanında xəlifə müsəlmanların həm siyasi, həm də dini rəhbəri idi. Lakin daha sonrakı dönmlərdə xilafət öz mənəvi dəyərini itirdi, sadəcə siyasi bir instituta dönüşdü. Bu siyasi institut, ancaq sülalənin mənafeyini qorumaqla məşğul olurdu. Həm Əməvilər, həm Abbasilər, həm Osmanlılar, həm də Səfəvilər dönəmində islam zahirdə var idi, batində isə nəfslərini kontrol edə bilməyən qəddar sultanlar, şahlar, xəlifələr islam adına olmazın cinayət törədirdilər. Bu üzdən də islama içdən və könüldən bağlı olan alimlər siyasətin dışında Quranın və peyqəmbərin təlimlərini elmi şəkildə araşdırmağa başladılar. Bu baxımdan islam tarixində üç növ islam anlayışının orataya çıxdığına tanıq oluruq: 1. Dövlət islamı. Bu növ islam anlayışı islamı dövlətin mənafeyi yolunda kullanmışdır. Buna siyasi islam da demək mümkündür. 2. Mədrəsə islamı. Fiqh elmi mədrəsələrdə gəlişdi. Mədrəsə islamı Quran və hədislər üzərinə elmi təfsirlər yapırdı. Zaman zaman siyasət mədrəsə islamının da araşdırmalarına müdaxilə etmişdir. 3. Təsəvvüf islamı. Sufilər siyasətdən uzaq dinin təməl təlimləri əsasında yaşamağa özən göstərirdilər. Bir çox hallarda da siyasi və mədrəsə islamı tərəfindən təzyiqlərə məruz qalıb Mənsur Həllac kimi dəriləri soyulurdu. Təsəvvüf, siyasət və mədrəsə islamına antitez olaraq orataya çıxdı. Onlar Tanrını yoxluqda deyil, varlıqda axtarırdılar. “Tanrı var” önərməsini “Tanrı yoxdur” önərməsinə qarşı qoyurdular. Təsəvvüfə görə Mədrəsə və siyasət islamı “Tanrı yoxdur” önərməsi əsasında düşündüyü üçün yoxluğu axtarmış, yoxluqda qərq olmuşlar, oysa Tanrı insana şahdamardan da yaxındır. O zaman “Tanrı var” önərməsi üzərində düşünmək gərəkir. “Tanrı var” önərməsi Tanrını qeyblərdə axtarmamış, varlığın içində axtarmışdır. Bu üzdən də elmlə məşğul olmaq ibadət sayılır. Nədən?

Çünkü elm varlığı araşdırır. Varlıq nə qədər araşdırılsa, bir o qədər də Tanrıya olan ehtiyac insanın ağlını və qəlbini daha da dərindən saracaqdır. “Tanrı var” önərməsi insanın ağlını, diqqətini, fikrini varlığa sövq edir. Yəni Tanrıya inanc yetərli deyil, Tanrının əsəri olan varlıq didik-didik araşdırılmalıdır. Fəlsəfə də bu görüşdən doğmuşdur. Çünkü fəlsəfənin doğuşu üçün üç tür varlıq bir yerdə bütünləşməlidir. Bu varlıqlar bunlardır: 1. Dil varlığı. Haydeger kimi bir çox filosoflar dili varlığın evi sanmışlar. Varlıq özünü dil aracılığı ilə tanımlayır, tanıdır. Varlıq sözlərə daşınır, söz varlığın əsrarəngiz təzahür şəklinə dönüşür. Füzulinin də “söz” rədifli qəzəlində dediyi kimi varlığı öyrənmək, dilin özünü, cövhərini öyrənmək kimi ortaya çıxır. Dil, yalnızca varlığın simgələrlə (rəmzlərlə) göstərgəsi deyildir. Dil, varlığın tanımlandığı mənəvi məkandır. Şərq aləmində fəlsəfənin doğmamasının səbəbi varlığı araşdıran dil etkəninin olmamasıdır. Fəlsəfənin doğuşu üçün öncə dil, daha sonra özgürlüyün olması şərtdir. İslam şərqində, xüsusən islam siyasətə alət edildikdən sonra varlıq araşdırılmamış, varlığı araşdıra biləcək dil gəlişdirilməmişdir. Özgürlük də olmamışdır. Hətta varlığın araşdırılmasına yasaq da qoyulmuşdur. Bir halda ki Quranda israrla söylənilir ki, varlığa baxın və düşünün. 2. Düşüncə. Düşünmək var oluşun səbəbidir. Düşüncədə geniş dış varlıq öz-özü ilə qarşılaşır. Düşünmək, varın varla örtüşməsidir. Hər bir varlıq türü mücərrəd və tanımlanmaz şəkildə ideyaların içində məxfidir. Tanımlanmazlığın tanımlanır olması düşüncə yolu ilə sağlanır. Bu bağlamda düşüncənin də birimi dil olaraq bəlirlənir. 3. Varlıq. İnsan, həyat və uzay (fəza). Bunlar da bağımsız varlıq. Ancaq bu bağımsız varlıq türləri, yəni dil, düşüncə və varlıq birləşdiyində fəlsəfə yaranmış olur.

Təsəvvüf də basqı altında olduğu üçün başarılı ola bilməmişdir. VIII əsrin ikinci yarısından başlayaraq IX əsrin birinci yarısına qədər iqtidarın rəsmi ideolojisi olan Mötəzilə məzhəbi zamanında cüzi bir gəlişmə oldu. Mötəzilə rasionalist bir axım olduğu üçün Yunan fəlsəfəsini, riyaziyatını, bir sözlə yunan zəkasını ərəb dilinə tərcümə etdi. Bu tərcümə geniş miqyaslı oyanışa səbəb oldu. Farabi, İbni- Rüşd, İbni-Sina kimi böyük mütəfəkkirlər bu oyanış dalğasının uzantısı kimi ortaya çıxdılar. Bu dönəmdə dinin fəlsəfi dərki üçün nisbi imkan yarandı. Daha sonra Qəzzalizm islam dünyasına hakim oldu. İmam Məhəmməd Qəzzali Tanrını riyazi yolla isbat etmənin küfr olduğunu yazdı. Filosofları xülyalı insanlar olaraq tanımladı. Səlcuq imperatorluğuna hakim olan Qəzzalizm Şərqin zehinini qaranlıqlara gömdü. Hələ də o qaranlıqdan çıxmaq mümkün olmamışdır.

İslamı bir irq dini kimi inhisarlaşdırmaq istəyən başqa bir hərəkət də fars cəbhəsində olmuşdur. II xəlifə Ömər, Sasani dövlətini devirdikdən sonra islam

daha geniş coğrafiyalara yayılmağa başladı. Farslar Ömməri sevməzlər. Ancaq onların Ömərə qarşı sayqısızlıqları şiə olduqları üçün deyildir. Sasani dövlətini Əbutaliboğlu Əli də devirsə idi, farslar bu dəfə ona qarşı ideoloji gəlişdirəcəkdilər. Sasani dövlətini yenidən diriltmək istəyən farslar "milli islam" oluşdurmaq çabası içinə girdilər. Farsların islamı bir irq dini etmə çabaları ən bariz şəkildə "Şüubiyə" örgütü timsalında ortaya çıxmışdır. "Şüub" sözü Quranda "Hücərat" surəsinin 13-cü ayəsində keçməkdədir. Bu ayədə Tanrı çağımızda millət olaraq dediyimiz olqunu qəbul edir və deyir: "Ey insanlar biz sizi erkək və dişi şəklində yaratdıq. Sizi qəbilələr və şöbələr çəklində qərar verdik ki, bir-birinizi tanıyasınız. Tanrı qatında ən əziz olan isə təqvalılardır. Tanrı hər şeyi biləndir."* Samanilər zamanında yaranan "Şüubiyə" bu ayədəki "şüub" sözü əsasında milli-siyasi məzhəb oluşdurmaq istər. Bu təşkilat belə hesab edirdi ki, Tanrı millətləri şöbə-şöbə yaratmışsa, bu şöbənin ən üstünü və ən mötəbəri fars qövmüdür. Bu məntiqlə Sasanilər zamanında yayqın olan əfsanələri mətnləşdirirlər. Yüksək məbləğ qarşısında Əbulqasim Firdovsi şüubiyənin bu mətnini mənzumlaşdırır. Əsər bitdikdən sonra isə, Qəznəvilər iqtidara gəlir, Firdovsi də və`d edilən məbləği ala bilmir və bu dəfə Qəznəvilərə yaltaqlanmağa başlayır.

Şüubiyə örgüt olaraq dağılsa da məzhəbi bir cərəyan kimi davam edir və daha sonra İsmaililər şəklində örgütlənir. İsmailiyə bir teror örgütü idi. Onların hədəfi fars irqini daha üstün və hakim statusa qovuşdurmaq idi. İsmailiyənin ən tanınmış siması Həsən Səbbahdır. Çingizxanın orduları Bağdadı fəth etdiyi zaman İsmaililərin də siyasi həyatına son verdi. İsmaili vəziri olan Nəsrəddin Tusi qaçıb moğullara sığındı. Bu gün də Nəsrəddin Tusinin "Əxlaqi Nasiri" kitabının iki müqəddiməsi var. Birinci müqəddiməsini terroristlərlə işbirliyi içində olduğu zaman Qəhistan qalasında yazmış, ikinci müqəddiməni isə moğul sarayında yazmışdır.

İsmaililərin örgütsəl fəaliyətləri bitdi, lakin düşünsəl çalışmaları davam edirdi. Gilan ormanlarında İsmaililərin məxfi həyatı davam edirdi. İsmayıl Səfəvi 4 yaşından 14 yaşına qədər bu ortamda yetişdi. İsmailiyə zehniyəti Şah İsmayılı hazırlayıb iqtidara gətirdi. Şah İsmayılın iqtidara gəlişi ilə həm islam dünyasının, həm də Türk dünyasının bütünlüyü parçalandı. Bu gün də fars milliyətçiliyi Səfəvi dövləti ilə Sasani dövləti arasındakı doqquz yüzillik zaman məsafəsini fətrət olaraq dəyərləndirir. "Fətrət", yəni iki zaman arasındakı boşluq. Farslara görə Sasanilik Şah İsmayıl Səfəvi timsalında yenidən dirilmiş, fars milliyətçiliyi mərkəzli məzhəb əsasında bugünkü İranın bütünlüyü Şah

---

* يا ايها الناس انا خلقناكم من ذَكِر و انثى و جعلناكم **شعوبا** و قبائلَ لِتعارَفوآ انَ اكرَمَكُم عَندَاللهَ اتقكُم ان الله َ عليم خبير.

İsmayıl tərəfindən ortaya qoyulmuşdur. Daha sonra Nadir Şah Səfəviyəti oratadan qaldırmaq istəmiş, ancaq başara bilməmişdir. Səfəvilərdən öncə və sonra bütün ləqəblər isimdən sonra gəlımişdir. Ancaq Səfəvilərlə eyni zamanda ləqəblər isimdən öncə gəlməyə başlamışdır. Məsələn Səfəvilərdən öncə və sonra "Cahan şah", "Nadir şah" kimi sözlər Səfəvilər zamanında "Şah İsmayıl", "Şah Abbas" şəklinə dönüşmüşdür. Bunların fərqi nədir? İsimdən sonra glən "şah" türk dlinin quruluşu və isimdən öncə gələn "şah" isə fars dilinin özəlliyidir. Bu da göstərir ki, Səfəvilik tam bir fars irqçiliyi projesi olmuş və Şüubiyə, Səfəvilik timsalında imperatorluğa dönüşmüşdür. Bu gün də İran məkanında hakim olan dini anlayış Şüubiyənin, İsmailiyənin və Səfəviyənin planlarından başqa bir şey deyildir. Bu dini anlayışın isə Hz. Məhəmmədin qardaşlıq çağrıları ilə heç bir bağlantısı yoxdur.

Bu tarixi sürəc içində qadın məsələsinə də islamla əlaqəsi olmayan bir metodla yanaşmışlar. Tərcümə etdiyim kitabın mövzusu da bundan ibarətdir. Peyqəmbər öz qadınları ilə necə davranmış? Əxlaqsızlığın, fahişəliyin yayqın olduğu ərəb qəbilələrində peyqəbər ailə qüdsiyətinə necə önəm vermiş və ailə sisteminin gəlişməsi üçün nələr etmiş? Ailədə və ictimai həyatda qadının yeri necə olmuşdur? Bu baxımdan peyqəmbərin öz qadınları ilə davranışı necə olmuşdur? Gerçəkdən peyqəmbər öz qadınları ilə tarix boyu islamı təmsil edən xəlifələr, şahlar kimimi davranmış? Qadınların siyasi olaylara müdaxilə etmə haqları olmuşmu? Hicab hansı şərtlərdə, hansı siyasi-ictimai vəziyətdə meydana gəlmişdir? Digər bu kimi sullara tarixi qaynaqlar araşdırılaraq cavab verilmişdir. İlk dəfə olaraq Fatimə Mernissi adında müsəlman bir qadın bütün islam qaynaqlarını, islam tarixini araşdıraraq bu suallara cavab axtarmışdır. Kitabı oxurkən ləzzət alacaqsınız. Peyqəmbərin həm özəl, həm də ictimai həyatda necə başarılı olduğuna şahid olacaqsınız. Həm də Ərəbistanın geri qalmış, ailə məfhumunun olmadığı bir ortamda peyqəmbərin başarılarına tanıq olacaqsınız. Ayrıca, peyqəmbərdən sonra qadınlar üzərinə tətbiq edilən qeyri-insani basqılarla da tanış olacaqsınız. Ağlınızda belə bir sual yaranacaq: Nədən islam tarixində peyqəmbərin öz qadınları ilə davranış şəkli örnək alınmamışdır? Bu suala cavab bulmanız üçün kitabı diqqətlə və həvəslə oxumanız gərəkəcək.

Güntay Gəncalp

## Kitabın ingilis dilində nəşrinə müəllifin giriş sözü

XX əsrin son onilliyi başa çatarkən qadın, kişi, yaşlı və gənc, dünyanın müxtəlif yerlərində məzhəbi, ideoloji, irq və dil fərqliliklərindən asılı olmayaraq, insan haqlarını müdafiə edərkən, demokrasinin, qadın haqlarının önündə əngəl kimi ancaq islam görünməkdədir. Gerçəkdən də, maraqlı deyilmi? Yəhudilik və xristianlığın qadın və kişi haqları uğrunda elə də önəmli tarixi təsiri olmasa da, bu gün milyonlarca yəhudi və xristian qadın, məzhəb və vətəndaşlıq kimi insan haqlarından tam faydalanmaqdadırlar. Modern dünya – tanınmış Amerika Birləşik Dövlətləri və Avropaya hər dəfə getdiyimdə o yerlərin məzhəbi atmosferindən heyrətə gəlirəm. Keçmişin və modern dünyanın ehtiyaclarının tərkibi kimi şəkillənmiş onların həyat tərzləri bir ərəb qadını olaraq mənim üçün çox cazibəli görünür. Əslində bir xaricinin gözü ilə baxıldığında Amerika və Avropa toplumları daha çox miflərin, məzhəblərin, gələnəklərin təsiri altındadır.

Qərb insanları gündəlik çalışmaların, yaradıcı təfəkkürün, dünyada baş verən hadisələrlə bağlı təhlillərin fövqündə məzhəbə də işarə edirlər. Neil Armstrong 1969-cu il 20 iyunda yoldaşları ilə birlikdə Ay kürəsinə ayaq basdığında bütün dünya, o cümlədən biz, müsəlmanlar da, onları seyr edirdik. Onların Aydakı ilk söylədikləri bu idi: “Başlanqıcda Tanrı göyləri və yeri yaratdı...” Əslində modern kosmos elminin bütün gəlişmələrinə baxmayaraq, onlar bu ifadələri ilə inanclı olduqlarını göstərdilər.

1986-ci ildə Amerikaya səfər edərkən xristian təbliğatçılarının televizionlardakı dini propaqandalarının çoxluğundan heyrətə gəlmişdim. Bir çox banklar, böyük şirkətlər də bu proqrama maddi dəstək verməyi xeyirxah iş olaraq dəyərləndirir və bu vasitə ilə Amerika millətinin əxlaqının dayanaqlı olacağına inanırlar. Bu özü-özlüyündə islamın modern

mədəniyətlə ayaqlaşa bilməyəcəyini iddia edənlər üçün açıqca bir mesajdır. Ancaq belə bir sual ortaya çıxır: “Nədən yəhudiliyin və xristianlığın qalib olduğu bir ortamda islam heç bir irəliləyiş əldə edə bilməmişdir?”

Biz qadınlar Amerika və Avropanın bugünkü durumundan nə kimi nəticələr çıxara bilərik? İlk öncə görürük ki, modern dünyada din müxtəlif quruluş və təşkilatlar vasitəsi ilə faydalı planları təşviq edə bilmişdir. Digər tərəfdən, gerçək islamın yəhudilik və xristianlıq qədər daşlaşmadığını bilirik. O zaman nədən islam ölkələrində qadınların durumu bərbad görünümdədir? Belə anlaşılır ki, islami toplumlarda mənfəət sahibləri öz qeyri-qanuni mənafeləri istiqamətində qadın haqlarının gerçəkləşməsinə əngəl törətməkdədirlər.

Belə bir sual ortaya çıxır: “Öz mənafeyi uğrunda qadınları istismar edən sərmayədarlar bu əməllərinə necə bəraət qazandırırlar?” Şübhəsiz ki, bu işi keçmişə güvənərək etməkdədirlər. Müsəlman qadınların haqqını inkar edənlər “Ya islam, ya demokrasi, ikisi bir yerdə olmaz” şüarı ilə həqiqəti ört-basdır edərək ancaq öz mənafelərini təqib edirlər. Bu səbəbdən də qadınların haqlarını müdafiə etmək üçün keçmişi və islamı incələmə zərurəti ortaya çıxır.

Gəlin uluslararası səhnəni tərk edib 1400 il bundan öncəki Mədinənin küçələrinə varalım! Nədən bəzi müsəlman kişilər iddia edirlər ki, qadınlar islami ölkələrdə insani haqdan yararlana bilməzlər? Onların iddiaları nəyə əsaslanır? Fikirləşmirsinizmi ki, onlar bizim keçmişlə bağlı bilgisizliyimizdən, cəhalətimizdən sui-istifadə etməkdədirlər? Çünkü onların bütün iddiaları islam tarixi haqqında bir az bilgili olanlar qarşısında keçərliliyini itirir. Öz vətəndaşlıq haqqını istəyən qadınları qərbçi və Qərb əxlaqının təsirinə düşmüş olaraq adlandıranlar, onları toplumdan ayırıb bədbəxtliyə sürükləyənlər əslində özləri islamın mahiyətindən və tarixindən xəbərsiz qalmışlar. İbni-Hişam, İbni-Həcər, İbni-Sə´d və Təbəri kimi alimlərin islam tarixi ilə bağlı araşdırmaları erkəkmərkəzli islam anlayışının tam tərsinədir. Biz, müsəlman qadınlar, böyük qürurla modern dünyaya uyum sağlaya bilərik. Yalnız qadın olaraq bunu anlamalıyıq ki, qadın haqları məsələsini sadəcə modernitə gətirməyibdir. İslam tarixinin din xadimlərinin təfsirlərinə tam əks olaraq islamda da qadına hörmət və ehtiram vardır. Adını çəkdiyim araşdırmaçıların və bu sahədə araşdırma aparmış digər alimlərin əsərlərini oxuduqdan sonra mən buna tam olaraq inandım. Bu mütaliələrim modern dünya dəyərlərini qəbul etməkdə islamdan da qüvvət almağıma səbəb oldu. Bir çox tarixi sənədlər isbat edir ki, peyqəmbərin Mədinəsində qadınlar köləlikdən və şiddətdən qurtulmuş və yeni islami toplumun quruluşunda könüllü olaraq öz üzərlərinə məsuliyət almışdılar. Minlərcə qadın Məkkənin qəbilə aristokrasisindən qaçıb Mədinəyə sığınmışdır. Çünkü

islam bərabərlik anlayışını hər kəsə (qadın və kişi olaraq) sayqı bağlamında gəlişdirirdi. Siyasi toplumunun başında peyqəmbər duran Mədinəyə daxil olan hər bir qadın bərabər vətəndaşlıq hüququndan faydalanırdı. Bu, müsəlmanların fəxr edəcəyi hadisədir ki, ərəb dilində "səhabi"* kəlməsiylə yanaşı "səhabiyə"** kəlməsi də mövcud idi. Bu da o deməkdir ki, islami toplumun şəkillənməsində qadınların xüsusi rolu olmuşdur. Onlar sərbəst şəkildə islami toplumun rəhbəri, peyqəmbərlə, söhbət edir, fikir və görüşlərini söyləyərmişlər, kişilərlə çeşidli mövzularda mübahisə edərmişlər. Peyqəmbərin səhabiyələri ilə bağlı mövcud tarixi sənədlər göstərir ki, qadınlar da kişilərlə bir yerdə islami toplumun biçimlənməsində qatqıda bulunmuşlar.

Bu kitabda birinci islami şəhərin bəzi gözəl və heyrətamiz məqamları hicrətin birinci ilində araşdırılmışdır. Kölə və aristokrat qadınların kişilərlə bərabər yeni toplumun inşasına qatılmaları Məkkənin aristokrat kəsimini qorxuya salmışdı. Çünkü peyqəmbər elə məsələlərdən danışırdı ki, Məkkənin qüdrətli təbəqəsi üçün xətər oluşdururdu. Peyqəmbərin "İnsanların bərabərliyi və bir-birlərinə hörmətlə davranmaları" kimi mesajları Məkkənin zənginləri tərəfindən qəbul ediləcək bir mövzu deyildi. Peyqəmbərin bərabərliyə dair verdiyi mesaj hətta bu gün də islam ölkələrində qəbul edilməməkdədir. Bu səbəbdən də bir çox müsəlman ölkələrində hesab edirlər ki, "insan haqları" kimi qavramlar Qərbdən islamı yıpratmaq, yırtmaq amacı ilə idxal edilmişdir və bu qavramlar islami dəyərlərə zidd olduğu üçün onun qarşısında durmaq lazımmış! Əsil müsəlman olaraq bizim vəzifəmiz tarixi hafizəni canlandırmaqdan ibarətdir. Quranda da deyildiyi kimi, فَذَكِّر إِن نَفَعَتِ الذِّكرى ***

Bu kitabı bitirdikdən sonra çox önəmli bir mövzunu anladım. Anladım ki, çağımızda kişilərin qadın haqlarına qarşı bu qədər yasaqlar gətirmələrinin Quran və peyqəmbər sünnəti ilə heç bir əlaqəsi yoxdur. Sadəcə, qadın haqlarının gerçəkləşməsinə, qadınların ictimai, siyasi və mədəni həyatda rol almalarına qarşı çıxan kişilər isbat etməyə çalışırlar ki, onların bu bəsit, gerici dünyagörüşləri islami fikirlərdən qaynaqlanmaqdadır. Ancaq teknoloji imkanlarla təchiz edilmiş və müxtəlif yollarla tarixi bilgiləri əldə edən əsrimizin modern insanı belə hesab edir ki, islam — xudbinliklərin, gerici görüşlərin ictimai münasibətlərdə hakim olmasına şərait yaratmaq üçün gəlməmişdir. Ərəbistan qumsallıqlarında zənginlərlə yoxsullar arasında dərin uçurum varkən, bərabərlik və ədalətdən yalnız islam söz açmışdır. İlk müsəlmanlar üçün azadlıq — yemək-içmək və yatmaq kimi zəruri bir

* Peyqəmbərlə həmsöhbət olmuş kişilər.
** Peyqəmbərlə həmsöhbət olmuş qadınlar.
*** Əgər nəsihət verməkdə fayda varsa, nəsihət eylə. (Ə´la surəsi, 9-cu ayə).

ehtiyac idi. Mən bu kitabda qadın və kişini bərabər olaraq anlayan və anladan o azadlıq ideyası haqqında danışacağam. Bu kitabı oxuyarkən, bir çox tarixi gerçəklər haqqında bilgilənib ləzzət alacaqsınızsa, demək bu əsər öz qarşısına qoyduğu hədəfə çatmışdır.

# Ön söz

Bir çox Mərakeşlı baqqallar kimi, ictimai rəyin nümayəndəsi olan məhəlləmizin baqqalından soruşdum: “Müsəlmanların lideri qadın ola bilərmi?” Baqqal şaşqınlıq içində bağırdı: “Aman, aman, aman, Allah, aman! Sən nə danışırsan?” O adam elə heyrətləndi ki, az qala mənə verməkdə olduğu altı yumurtanı əlindən yerə salıb qıracaqdı.

Zeytun alan başqa bir müştəri dodaqaltı söyləndi: “Allah bizi elə bir zamanın bəlalarından qorusun” və bu suala nifrətini də bildirmək üçün yerə tüpürmək istədi. Ancaq dükan sahibi təmizliklə bağlı ona xəbərdarlıq etdi.

Daha çox qəzet köşklərində gördüyüm başqa müştəri, müəllim, əlində aldığı nanəni tutaraq daha çox önəmli saydığı bir hədisi peyqəmbərdən nəql etdi: “İşlərini və aqibətlərini qadınlara tapşıranlar heç vaxt xoşbəxt ola bilməzlər.” Hər tərəfi sükut bürüdü. Ortaya peyqəmbərdən bir hədis qoyulmuşdu və başqa cür danışmaq artıq mümkün deyildi. Bu hədisin məntiqindən yola çıxaraq başqa cür danışanlar hər zaman şiddətə məruz qalmışlar. Bu hədis, islamı erkəkmərkəzli bir din olaraq düşünənlərin, qadın haqlarına sayqısız davrananların əlində əzici, məhvedici dəlil olmuşdur. İslam aləmində peyqəmbərə aid hədislər əhəmiyyətsiz deyillər. Hədislər peyqəmbərin davranış və düçüncəsi ilə bağlı ən gözəçarpıcı örnəklərdi. Hədislər Qurandan sonra doğrunu yanlışdan, halalı haramdan ayırd etmək üçün ikinci qaynaq olaraq bilinməkdədir.

Artıq heçnə söyləmədən ehtiyatla dükanı tərk etdim. Heç bir xoşgörüyə açıq olmayan, daşlaşmış və əsrlər boyu siyasətin xidmətində durmuş bu zehniyətə qarşı nə deyə bilərdim?

Susqun, bitkin və əsəbi idim. Birdən-birə hiss etdim ki, modern dünyanın kütləsini yönləndirən və peyqəmbərə aid olduğu söylənən bu hədisi qaynaqları ilə tanımaq, bilmək üçün içimdə dərin bir istək yaranmış.

Mərakeşin son seçkilərinə qısa bir baxış bu “önyarğını” dəstəkləməkdədir. Mərakeşin anayasası qadınlara seçib-seçilmək haqqı tanısa da, gerçək sosial durum göstərir ki, qadınlara yalnız seçmək haqqı

tanınmışdır, seçilmək yox. 1977-ci il məclis seçkilərində 6,5 milyon seçmənlərin 3 milyonu qadın olmağına baxmayaraq, 8 qadın namizəd olmuşdur. Bu 8 qadın adayın (namizədin) heç biri məclisə girə bilmədilər. Məclisin açılışında da məclis işçisi olaraq bir tək qadın belə görünmürdü. Kişilər sanki çayxanada oturarcasına öz yerlərində oturdular. 6 il sonra 1983-cü ildə 307 nəfər qadın bələdiyə seçimlərində aday olmağa cürət etdi. Demək olar ki, təqribən bütün 3,5 milyon qadın seçkilərdə iştirak etdi. Ancaq yalnız 36 qadın 65502 kişi qarşısında adaylığını qoydu.

Bütün bunlara səbəb islam dünyasında yayğın olan yarğılardır. Seçici qadınlar özləri də inanmişlar ki, qadına güvənmək olmaz, qadın seçilməməlidir. Əsrlər boyunca qadını aşağılama, yarımçıq yaradışlı görmə öz dərin təsirini buraxmışdır. Bu hadisələri kökündən və ətraflı araşdırmağı hiss etdim. Azad dünyada, Qərbdə qadınların toplumun bütün qatlarında iştirak etmələri təbii göründüyü halda, niyə islam ölkələrində qadın həyatına bu qədər basqı vardır? Qadınların həyatı üzərinə tətbiq edilən bu basqı məni dini qaynaqları araşdırmağa sövq etdi. Bu qaynaqlar hər kəsin əldə edə biləcəyi əsərlərdir. Lakin bu tarixi və dini qaynaqlar üzərində araşdırma aparmağa heç kim ehtiyac duymamışdır.

Əlbəttə, etiraf etmək lazımdır ki, dini ədəbiyat haqqında araşdırma aparmaq asan iş deyildir. Araşdırmanın əvəlində saysız başgicəlləndirici kitablara rastlanılır. Ona görə də sadə araşdırmaçının bir müsəlman din alimi qədər bu işlə məşğul ola bilməməsinin səbəblərini anlamaq mümkündür. Buxarinin "Səhih" məcmuəsi dörd cilddən və bir qısa müqəddimədən ibarətdir.*

Bu gün təqribən 1100 il bundan öncə hazırlanmış bir mətni açıqlamasız anlamaq sadə araşdırmaçı üçün çox çətindir. Çünkü hər bir hədisi nəql edən şəxsin xüsusiyətını, həyat şərtlərini və hədəfini bilmək olduqca zəruridir. Heyif ki, saxta hədislərin sayı mötəbər hədislərdən daha çox olmuşdur. Buxari hər bir hədis tədqiqatı ilə bağlı məlumat verir. Sadəcə bir nəfərin rəvayət etdiyini qəbul etmir. Eyni hədislə bağlı onlarla rəvayətçinin söylədiklərini araşdırır. Buxarinin nəql etdiyi rəvayətləri anlaya bilməmiz üçün hədis rəvayətləri və rəvayətçilərin iştirak etdikləri savaşlar və ya ictimai hadisələr haqqında bilgi sahibi olmaq gərəkir. Yalnız bu şəkildə hədislərin obyektiv zəmini bizə aydın olur. Xəta etməmək üçün çox dəqiq olmaq gərəkir. Rəvayətlərin haqqında ən kiçik səhv aylarca vaxtımızın tələf olmasına və yanlış nəticə çıxarmağa səbəb ola bilər.

* Buxarinin kitabının dəqiq adı belədir: بخارى، الجامع السندى الصحيح المختصر من امور رسول الله و سننه و ايامه (Buxari "Peyqəmbərin əməlləri, illəri və günləri haqda ətraflı müxtəsər doğru sənədlər").

Bu iş üçün öncə şəhərin fiqhindən (din bilginindən) sual sormaq lazımdır. Örf və dini gələnəyə görə, Quran və hədislərin qaynağı haqda sual sorulursa, onlar cavab vermək məcburiyətindədirlər. Peyqəmbərin söylədiyinə görə, elmin bəhrəsindən hər kəs faydalanmalıdır. Mən də bu işi etdim. Bəzi fəqihlər (islamın hüquq sisteminin bilginləri) IX əsrdə yaşamış Əsqəlaninin "Fəth-ül Bari" kitabını qaynaq göstərdilər. İbn-Həcər Əsqəlani, Şafei fiqhinin ünlülərindəndir. Onun "Fəth-ül Bari" kitabı Buxarinin "Səhih" əsəri üzərinə yazılmış şərhdir. "Fəth-ül bari" 17 cilddən ibarətdir. Kitabın bu qədər uzun olması bə´zən ən ciddi araşdırmaçını da xəyal qırıqlığına uğradıb, dəqiqləşdirmə işini, tədqiqatı yarımçıq buraxa bilər. Uzun bir araşdırmadan sonra "İşlərini və aqibətlərini qadınlara tapşıranlar heç bir zaman mutlu ola bilməzlər" hədisini "Fəth-ül Bari"nin 13-cü cildində buldum. Əsqəlani bu hədisi Buxaridən almışdır. Buxari isə hədisin doğru və ya yanlış olması ilə bağlı uzun tədqiqat etdikdən sonra onu mötəbər hədislər tərkibinə yerləşdirmişdir. Buxarinin "Səhih"i XII əsr müddətində ən etibarlı qaynaqlardan biri kimi sayılmışdır. Qadınları siyasətdən və ictimai işlərdən məhrum etmək istəyənlər bu hədisi daima gündəmdə saxlamağa çalışmışlar. Bu hədis üzərində o qədər təbliğat edilmiş ki, İslam Dünyasında hər kəs onu əzbərləmişdir. Gündəlik siyasi və ictimai həyatdan qadınları dışlamanın ən tutarlı sənədi kimi bu hədis üzərinə təfsirlər, açıqlamalar da etmişlər. Bu hədisi Hənbəli məzhəbinin təsisçisi Əhməd İbni-Hənbə də nəql etmişdir.

Bu hədis o qədər önəmlidir ki, onu nəzərə almadan islamda qadın haqları ilə ilgili olaraq danışmaq qeyri mümkündür. Daha doğrusu, demək olar ki, bu hədis hər yerdə, hər zaman görünmüşdür, görünməkdədir. Örnək olaraq Fuad Əbdülmünim 1976-cı ildə yayınladığı "İslamda bərabərlik üsulu" adlı əsərində bu hədisə işarə etmişdir. Müəllif IX əsrdən günümüzə qədər bu hədisə dayanaraq islamda qadının siyasi yeri mövzusundakı bütün dartışmalara bu kitabda yer vermişdir. Heç bir tənqidi yanaşma metodundan faydalanmayaraq "İslamda bərabərlik üsulu və qadın məsələsi" başlıqlı bölümdə bu hədislə bağlı bütün söylənənləri tam olaraq qəbul etmişdir.

Son zamanlar Məhəmməd Ərafa adlı bir yazar "İslamda qadın haqları" adlı kitabında yazır ki, qadının nəinki heç bir haqqı yoxdur, siyasi tarixdə də onun yeri olmamışdır: "İslamın başlanqıcında qadınlara böyük haqq tanınmışdır. Hətta bəzi hallarda qadın və kişi tam bərabər statusa sahib olmuşlar. Bütün bunlara baxmayaraq müsəlman qadınların siyasi planda heç bir rolu olmamışdır. Peyqəmbərin canişinini təyin etmək üçün təşkil edilən Səqife-i Bənisaidə toplantısında hətta tək bir qadın belə iştirak etməmişdir. Digər sonrakı üç xəlifənin seçimində qadınların iştirakı ilə bağlı heç bir sənəd yoxdur. Islamın bütün siyasi tarixində siyasi qərarların verilməsində

stratejik planların müəyyən edilməsində qadınların qəti şəkildə rolları olmamışdır.[1]"

Bu müəllif nədən Hz. Ayişənin rolunu görmək istəməmişdir? Ayişə dönəmin hakimi olan Əbutaliboğlu Əliyə qarşı silahlı mübarizəyə rəhbərlik etmişdir. Ərafa öz araşdırmasında yalnız islamın ilk 10 illiyini nəzərə aldığı üçün Ayişənin siyasi tarixdəki yerini görməmiş, görmək istəməmişdir. Bu da əlbəttə ki, elmi bir araşdırma üçün qüsur oluşdurmaqdadır. Peyqəmbər hicrətin 10-cu ilində Səfər ayının 28-də vəfat etmişdir. O zaman Ayişə 18 yaşındadır. Ayişə 42 yaşında Əbutaliboğlu Əli ilə savaşmışdır. Savaşın da səbəbi iqtidarın məşruiyət (legetimlik) məsələsi idi. Ayişəyə görə, Əlinin iqtidarı məşru (legetim) deyildi. Çünkü Əli, Osmanın qatillərini məhkəməyə sövq etmək yerinə təltif etmişdir və onlara dövlətin müxtəlif məqamlarında vəzifə vermişdir. Bunun adı siyasət deyil bəs nədir? Yəni Ayişə siyasətlə uğraşmış, yoxsa uğraşmamışdır? İnsanları zamanın hakiminə, xəlifəsinə qarşı təşkilatlandırmaq, etiraza və silahlı savaşa qaldırmaq bir başa siyasətlə məşğul olmaq deyilmi?

Əslində ilk iki xəlifənin siyasi həyatında da Ayişənin əsas rolu olmuşdur. Üçüncü xəlifə olan Osmanın siyasi qətiətsizliyinə qarşı da Ayişə etiraz etmişdir. Osmanın iqtidarının təməllərini sökən də əslində Ayişə olmuşdur. Osmana qarşı etiraz və iç savaş başladığı zaman Ayişə ən nüfuzlu tərəfdarlarının etirazına baxmayaraq Mədinədən Məkkəyə getmişdir. Müxalifət ordusunun rəhbərliyini öz üzərinə alan Ayişə, 4-cü xəlifə Əbutaliboğlu Əlinin də iqtidardan uzaqlaşmasına şərait yaratmışdır. Müsəlman tarixçılər siyasətə qadın adı girməsin deyə, Ayişə ilə Əli arasındakı silahlı qarşıdurmanı "Cəməl" savaşı adlandırmışlar. Nə var ki, bu savaşda Ayişə "Cəməl" adında bir dəvəyə minmişdi. Ancaq dəvəyə minən yalnız Ayişə olmamışdır ki. O zamankı savaşlarda ən çox dəvə və at istifadə edilirdi. Bu savaşı cəməl olaraq adlandırmaq qadının adının siyasi tarixə keçməsini əngəlləmək amacına xidmət etmişdir. Doğru olan budur ki, Ayişə və Əli arasında siyasi baxış ziddiyəti var idi, Ayişə öz siyasi düşüncələrindən vaz keçəcək sadə və kor-koranə itaət edəcək qadın deyildi. O, aktiv bir siyasətçi idi. Ona görə də Ayişənin adını islamın siyasi tarixindən silmək mümkün deyildir. Məhəmməd Ərafa öz kitabında yazır: "Bu doğrudur ki, Ayişə Əbutaliboğlu Əliyə qarşı savaşmışdır. Ancaq peyqəmbərin qadınlarından hər hansı birinin fərdi davranışı örnək kimi qəbul edilə bilməz. Bu hadisə qadınların siyasətə qatılmaları üçün məşru zəmin oluşdura bilməz. Mövcud verilərə görə, Tanrının və onun elçisinin rəy

[1] محمد بن عبدالله بن سليمان عرافا، حقوق المره فى الاسلام، المكتب الاسلامى، 1980، ص 149 (Ərafa, "İslamda qadın haqları", 1980, s. 149).

və nəzəri bu haqda açıqca ortadadır. Ayrıca unutmamalıyıq ki, Tanrı elçisinin ən seçkin yaxınları və digər qadınları Ayişənin əməllərini məhkum etmişlər və Ayişənin də öz əməlindən peşman olduğu söylənilir. Bu səbəbdən də Ayişə təcrübəsini öz islami baxışımızın əsası kimi anlamaq lazım deyil. Çünkü bu, islamın ilkələrinə (əsaslarına) qarşı bidət (revizion) sayılar."[2]

Bidət, islamda günah və sünnətə qarşı açıqca təcavüzdür. Səid Əfqani adında başqa müasir bir tarixçi Ayişə ilə bağlı 10 il araşdırma yapmışdır. Bu araşdırmadan da məqsədi modernizmin başlanqıcından bəri ortaya atılan qadın haqları məsələsinə islam fəlsəfəsindən baxaraq aydınlıq gətirmək olmuşdur. Səid Əfqani ilk dəfə olaraq 1946-cı ildə Ayişənin həyatı haqqındakı araşdırmalarını "Ayişə və siyasət" adlı kitabda yayınlatmışdır. Kitabın adı zatən müəllifin hədəfi ilə bağlı bilgi verməkdədir. Səid Əfqani Ayişə haqqında digər 2 önəmli əsər çap etmişdir. Bu iki əsərdən yalnız əlyazma nüsxəsi mövcuddur. Birinci əsər təkziblərdən və düzəltmələrdən ibarətdir. Ayişəyə görə, bir çox xəbərlər peyqəmbərin dostları və yaxınları tərəfindən yanlış rəvayət edilmişdir.[3]

Ikinci kitab isə Zəhəbinin "Seyri elam-ül Nəbila"[*] əsəridir. Zəhəbinin bu əsərinin bir bölümü Ayişənin həyatına aiddir. Əfqani bu kitabı hazırlarkən, tarixçilərin Ayişə haqqında söylədiklərini qeydsiz-şərtsiz qəbul edir və belə qərara gəlir ki, qadın siyasətə müdaxilə etməməlidir. Onun görüşünə görə qadın və siyasət uyğunsuz tərkibdir. Bu üzdən də qadınların siyasətə girməsini əngəlləmək üçün Ayişə uyğun bir örnək kimi göstərilir. Çünkü Ayişə öz əməlləri ilə (Əli ilə savaşması ilə) isbat etmiş ki, "qadın siyasətlə məşğul olmaq üçün yaradılmamışdır."[4] Burada Ayişə ilə Əlinin savaşmasında Ayişənin fitnə çıxardığı vurğulanır. Əfqaniyə görə, "Müsəlmanların qanı töküldü, minlərcə peyqəmbərin ən yaxın adamları öldürüldü..., kafirlərə qarşı müxtəlif savaşlarda qəhrəman olan bir çox insan və alimlər öldürüldü." [5] Bütün bunların hamısının Ayişənin siyasətə girməsinə bağlamağa çalışmışlar. Ayişə, sadəcə "Cəməl" savaşının səbəbkarı kimi göstərilmir, həm də islamı sünni və şiə cəbhəsinə parçalayan amil kimi göstərilir:

"Cəməl savaşında 15 min nəfər bir neçə saatın ərzində öldülər... Nəhrivan, Siffeyn və digər savaşlarda müsəlmanlar bir-birinə qılınc

---

[2] Eyni qaynaq, s. 150.
[3] Səid Əfqani, "Ayişə vəl-siyasət", 1971 1971 سعيد افغامى، عائشه و السياست، دارالفكر، بيروت
[*] سير اعلام النبلا دارالفكر بيروت، 1969
[4] Eyni qaynaq ,s. 321.
[5] Eyni qaynaq, s. 142.

çəkdilər... Öncə biz sanırdıq ki, Tanrı müsəlmanlara birlik duyğusu bağışlamış və ürəklərini nifrətdən arındırmışdır."[6]

Əfqaniyə görə, əgər Ayişə müsəlmanların siyasi işlərinə qarışmasaydı, "Müsəlman tarixi barışa, tərəqqiyə və səadətə doğru irəliləyərdilər." [7] Əfqaniyə görə, Tanrı Ayişə örnəyini göstərməklə müsəlmanlara ibrət dərsi vermək istəmişdir: "Qadını Tanrı yalnız doğurmaq, nəsl artırmaq və ev işləri ilə uğraşmaq üçün yaratmışdır. Tanrı bizə gerçək həyatdan bir örnək göstərərək, heç vaxt unutmayacağımız bir dərs vermişdir."[8] Əfqani davam edir: "Cəməl savaşı müsəlmanların tarixində dərs alınması gərəkən yaxşı bir örnəkdir..., hər zaman müsəlmanların hafizəsində bu tarixi hadisə bir örnək olaraq yaşayacaqdır. Xüsusən başqa millətlərdən kor-koranə təqlid edərək, qadın haqlarından danışan müsəlmanlara dərhal Ayişə örnəyini xatırlatmaq lazımdır. Bu gün tarixi hafizəmiz hər zamankından daha artıq bizi duyarlı tutmalı və daima xatırlatmalıdır ki, gör necə də islamın başlanqıcında qadının siyasətə müdaxiləsi ilə islamiyət böyük məğlubiyətə və zərərə uğramışdır! Biz müsəlmanlar baş vermiş hadisəni təkrarlamamalıyıq. Yenidən qan tökməyə və viranəliklər törətməyə ehtiyac yoxdur... Ayişə örnəyi tarixi xatirələrdə öz canlılığını qoruyarkən, nədən bir daha eyni xətanı etməliyik? Eyni xətanı etməmək üçün bir yol var, o da modern dünyanın basqılarına, qadın azadlığı təbliğatlarını etməsinə baxmayaraq müsəlman qadınların siyasətə qatılmaları əngəllənməlidir."[9] Gələcək nəsl üçün zəngin təcrübələrlə dolu olan Ayişənin həyatı Əfqani tərəfindən bu şəkildə dəyərləndirilir. Əfqani, Ayişənin həyatı üzərinə yazdığı bu kitabını 1971-ci ildə Beyrutda yayınladı.

Ancaq Əfqani müsəlmanların hansı tarixi qaynaqlarına dayanaraq, Ayişəni qan tökmənin, fitnə və fəsadın örnəyi kimi göstərməsini qeyd etməmişdir. Həm də o Ayişə ki, öz çağdaşlarının söylədiklərinə görə, o zamankı kişilərin və qadınların içərisində bənzəri olmamışdır. Onun dühası bütün çağdaşları tərəfindən təsdiqlənmişdir. Ayrıca Əfqani hansı din aliminin araşdırmalarına dayanaraq Ayişəni islam tarixində (o zamandan günümüzə qədər) tökülən bütün qanların və fitnələrin səbəbkarı kimi anladır? Daha önəmli olan sual budur ki, hansı tarixi məna ona bu şəkildə ümumi dəyərləndirmə yapmağa izin vermiş və Ayişə hadisəsini bütün qadınlara örnək göstərərək, milyonlarca müsəlman qadının siyasi haqdan məhrum etməyə fətva vermişdir? O, bir tarixçi və mütəxəssis olaraq islamın

---

[6] Eyni qaynaq, s. 348.
[7] Eyni qaynaq, s. 348.
[8] Eyni qaynaq, s. 342.
[9] Eyni qaynaq, s. 246.

hansı tarixi sənədləri əsasında qadınları siyasi hüquqdan məhrum edir və onların vəzifəsini, ancaq evdarlıq, mətbəx işləri olaraq müəyyən edir?

Əfqani islamın böyük tarixçilərindən, xüsusən mötəbər tarixi qaynaq olaraq bilinən "Tarix-i Təbəri"dən faydalanmışdır. Məşhur araşdırmaçı olan Təbərinin doğruluğuna şübhə edilə bilməz. O, bütün tarixçilərə örnək olacaq tarix bilimcisidir. 13 cilddən ibarət olan "Tarix-i Təbəri" gerçəkdən də islamın başlanqıc dönəmləri haqqında bilgi əldə etmək istəyənlər üçün güvənilir qaynaqdır. Təbəri öz əsərinin 5-ci səhifəsində israrla vurğulayır ki, bu əsər onun 30 min səhifədən ibarət olan təfsir kitabına əlavədir ki, hamısı bir yerdə 30 cild oluşdurmaqdadır. Anlaşıldığı kimi, bu əsərdən qaynaq kimi faydalanmaq istəyənlərin nə qədər ağır zəhmətə qatlaşmaları göz önündədir. Ancaq bu mövzunu dəqiqliyi ilə bilmə ehtiyacı məni "Səyərə" (peyqəmbərin həyatı) kitabının müəllifi olan İbn-i Hişam, "Yüksək mərtəbələr"[10] kitabını yazan İbn-i Səid, "Səhabi" (Məhəmməd peyqəmbərlə ünsiyətdə olan insanlar) əsərinin yazarı olan Əsqəlani, Buxari və Nəsai kimi şəxsiyətlərin araşdırmalarını oxumağa məcbur etdi. Bütün bu kitab oxumalar qadına olan güvənsizliyin səbəblərini ifşa etmək amacı ilə olmuşdur. Elə bir güvənsizlik ki, hətta XX əsrin sonlarında da müsəlman qadınlar onunla qarşı-qarşıyadırlar. Məhəmməd peyqəmbər tarixin tanınmış şəxsiyətlərindən biridir. Ayrıca onun haqqında ayrıntılı bilgi də mövcuddur. Onun savaşlardakı rəhbərliyi, qadınları ilə davranışı və bu kimi özəl yaşamı ilə ilgili geniş bilgi var. Hətta hansı yeməklərdən xoşlandığı, nələrin onu güldürüb və nələrin incitdiyi haqda da bilgi mövcuddur.

İnsanlara dini təlimatın uşaqlıq çağından verildiyi müsəlman bir ölkədə peyqəmbərin şəxsiyətinin təhrif edilməsi doğru deyildir. Əfqani iddia edir ki, peyqəmbər qadınları siyasi həyatdan məhrum etmiş və onların yaşamlarını ancaq ev işləri ilə məhdudlaşdırmışdır. Əfqani bu iddiası ilə haqqında geniş bilgiyə sahib olduğumuz Məhəmməd peyqəmbərin ərdəminə (şəxsiyətinə) açıqca sayqısızlıq etmişdir. Burada bu soru ortaya çıxır ki, məzhəbi mətnlərə hansı həddə qədər hörmətsizlik etmək olar? İslam tarixində dini mətnlərdən yalnız sui-istifadə edilməmiş, həm də bu sui-istifadə etmə əməli toplumlarda siyasi iqtidarların tarixi özəlliyinə çevrilmişdir. Birinci Hicri əsrindən sonra məzhəb siyasi iqtidarlara məşruiyət hazırlayan vasitəyə dönüşmüşdür. Siyasi iqtidarlar və iqtisadi amillər saxta hədislərin düzəldilməsində israr etmişlər. Çünkü yalnız bu yolla öz əməllərinə bəraət qazandıra bilmişlər. Məzhəbi söyləm siyasi təzyiqlərin nəticəsində saxta hədislər şəklində təzahür etmişdir. Bu saxta hədislər iqtidar sahiblərinin mənafeyini qorumaq üçün çox uyğun bir

[10] طبقات کبری

dayanağa və vasitəyə çevrildi. Beləliklə də peyqəmbər adına ədalətsizliyə və zülmə bəraət qazandırmaq islam tarixinin özəlliyinə dönüşdü. İctimai ədalətdən danışan peyqəmbər, ədalətsizliyin, zülmün yayqınlaşması üçün bir vasitə oldu. Bu üzdən də islamın ilk çağlarında bəzi alimlər hədislərin araşdırılmasına önəm verdilər. Bu amacla İmam Hənbəli bir çox hədisi mahiyətləri etibarı ilə araşdırdı. Bu hədislərin tam əksəriyətinin saxta və dəyərsiz olduğunu duyurdu. Örnək olaraq, "Peyqəmbər sonsuz bir kişiyə tövsiyə etdi ki, yumurta və soğan yesin", "Mömin bolluca şirin şey yeməlidir", "Gözəl üzə baxmaq ibadətdir"[11] kimi bu hədisinlərin tam saxta olduğunu isbatladı.

Buxari də IX əsrdə "Hədis elmi"nin araşdırılma metodu ilə uğraşan alimlərdən birisi olmuşdur. Buxari, hədis elminin təhqiqi üçün rical elmini (şəxsiyətşünaslıq elmini) gəlişdirir. Yəni hədisi rəvayət edən şəxslərin ruh hallarını, zamanlarını, bulunduqları ictimai statuslarını tədqiq edirdi.

Bilirəm ki, keçmiş əsrlərə səfər etmək xətərsiz olmayacaqdır. Kimsə tarixin sirr və rəmzlərini nuş etmək üçün tarixin axar çayına dala bilməz. Tarixə səfər etmə, tarixin dərinliyinə girmə müqəddəsləşdirilmiş və tarixin hafizəsinə buraxılmış rəmzlərin təqdiqini hədəfləməkdədir. Jean Genet deyir: "Yasaqlanmış, qutsallaşdırılmış sir və rəmzlərin araşdırılması təhlükəlidir."

Bu gün özəlliklə qadınlarla bağlı olaraq tarixin hafizəsini araşdırmaq diqqətlə nəzarət altına alınır. Belə bir tarix səfərinə çıxmaq üçün hər zaman viza hazır olmur. Tərsinə, nə qədər din xadimləri yol üstündə yol kəsənlər kimi durmuşlar. Tarixi gerçəkləri araşdırma caduya bənzəyir ki, xüsusən indiki zamana ani olaraq təsir göstərir. Bu iş isə ölmüş zamana, canlı hüzuru olmayan, indilikdə vücudları bulunmayanların səssiz zamanlarına müdaxilə ilə mümkün olur. Bu ölü, tarixin arşivinə tapşırılmış zamandan yaşanılan zamanın axışı doğrultusunda o bilgilərdən həm sui-istifadə, həm də doğru istifadə etmək mümkündür. Yuxuya dalmış keçmiş zaman indiki zamanı oyada bilər. Bu, xatirənin özəlliyidir. Cadugərlər və din adamları bunu yaxşı bilirlər. Lakin bu bilgilərdən indiki zamanı hərəkətləndirmək üçün deyil, hərəkətsizləşdirmək, indiki zamanı durğunlaşdırmaq üçün istifadə etməkdədirlər.

Xatirələrin səyahətinə çıxmaq elə bir yoldur ki, yasaq edilməmişdir, lakin bu təhlükəli yola az adam səfərə çıxmışdır. Çünkü kəşf edilməmiş bir sürü hadisələr bu xatirələrin dərinliklərindədir. Bu səfərə çıxmaq mənim üçün bir suç sayıla bilərmi? Quran bizə israrla söyləmirmi ki, "Oxuyun!"? Ancaq bu günə qədər siyasətlə qüdsiyyətin bir-birinə qarışdığı mətnləri

---

[11] امام حنبلى بن قيم الجوزيه، المنار المنيف فى الصحيح والضعيف، مكتبة المطبوع الاسلامية، حلب، 1982 ص 213

oxumağa kimsə cəsarət etmişmi? O mətnlər ki, uzun zamanların keçişi nəticəsində elə bir-birinə girmişlər ki, nəyin nə olduğunu sezmək çox çətin bir işə dönüşmüşdür. Din adamları və siyasətçilər, sadəcə yaşadığımız zamanı deyil, keçmiş zamanı da kontrol və nəzarət altına almışlar. Keçmiş zamanların dərinliklərindəki doğruları çətin əziyyətlərə qatlanıb kəşf etməyi də yasaqlamışlar. Keçmiş zamanlarda nələrlə ilgilənəcəyimizi onlar təyin edirlər. Onların din anlayışı bizim üçün din tarixini və din gerçəklərini təşkil edir. Tarixin hafizəsinə onlar tərəfindən müdaxilə edilir. Tarixin hafizəsi onlar tərəfindən nəzarət altına alnır. Onlar tarixə hafizə təyin edirlər. Bu təyin edilmiş hafizənin dışına çıxmaq isə yasaqlanır.

Ancaq tarixin gerçək hafizəsi və xatirələri bizə anladır ki, Ərəbistanın qumsal çöllərində aşiq bir peyqəmbər öz qəbiləsi ilə fərqli bir dillə danışmışdır. Bu xatirələr bilinməzliklər haqqında danışan peyqəmbərlə bağlı bizə məlumat verir. O, bərabərlik və zülmün olmadığı ictimai bir ortamın oluşmasını istəmişdir. O, Ərəbistanın ən təkəbbürlü, vəhşi, zalim aristokrasisi ilə qarşı-qarşıya gəlmişdir.

Əlinizdə bulunan bu kitab tarixi bir əsər deyildir. Tarix hər zaman bəlli bir qrupun dili olmuşdur. Tarix qızıl cildli kitablara sıxışdırılmış və məzhəbi mərasimlər üçün hazırlanmış rəsmi rəvayətlərdən ibarətdir. Bu kitabın hədəfi insana enerji bağışlayan yuxular kimi, xatirələri yeniləmək rəvayətidir. Gerçək xatirələrin uçuşduğu bir fəzaya doğru uçuşdur. Zamanların əngəlləri ortadan qaldırılır və hadisələr yavaş-yavaş bir-birinə qarışır.

Bu kitab zamanları yarıb və geriyə doğru hərəkət edən bir gəmiyə bənzəyir. Hicrətin başladığı zamana doğru hərəkətdir. O zaman ki, peyqəmbər həm aşiq, həm də rəhbər olmuşdur. O zaman ki, məscidləri açıq və azad mühitə çevirən peyqəmbərin istəyi üzərinə qadınlar da bu açıq mühitdə fikirlərini sərbəstcə söyləyə bilirdilər. Qadın və kişi arasında tam bərabərlik hüququ yarınmışdı. Bu üzdən də gəlin zamanların pərdəsini qaldırıb və bir yerdə o zamana doğru səfər edəlim! Ancaq izin verin öncə pərdələri və hicabları qaldıralım! Çünkü bizim müasirlərimiz keçmiş zamanı bu pərdələrin, hicabların arxasında gizlədərək indiki zamanı zəiflətmək istəyirlər.

*Fatimə Mernissi*

I

# Müsəlman və zaman

Romantizm dönəminin gəncləri Avropada əziyət çəkdikləri kimi müsəlmanlar da mövcud vəziyyətdən əziyyət çəkirlər. Yalnız ortada bir fərq var. Avropa gəncləri öz zamanlarının çətinlikləri ilə rastlanaraq həyatdan bezirdilər, ancaq müsəlmanlar çətinliklərlə rastlandıqları zaman ölüm arzulayırlar. Problem olmayan başqa bir məkanda olmaq istəyir və dərhal keçmişə sığınmağı ağıllarında canlandırırlar. Müsəlmanlar çətinliklərlə qarşı-qarşıya gəlməmək üçün toplumdan qaçışın hər növünə əl atırlar. Müsəlmanlarda tarixə sığınmaq üçün bəhanə axtarmaq adət və alışqanlıq halına gəlmişdir. Xətibi deyir: "Tarixi hafizə, genişləyən bir sahədir" və "Evrənsəl (cahanşümul) düşüncənin bütün tapşırdıqlarını tarixi hafizə özündə saxlayır, yeni fikir və davranış kəşf etmək üçün zaman və məkan miqyasından necə istifadə etməyi öyrənir. Həyatın dərinliklərindən qaynaqlanan təcrübələri birikdirir və bütüm bunları da təvazökarlıqla və digər bu kimi ən təsirli metodlarla etmiş olur."[12] Ancaq dünyası təhqir olunmuş, siyasətçiləri keçmişin röyalarına dalan, əfsanələrlə qürur duyan müsəlmanları təvazökarlığa çağırmanın heç bir anlamı yoxdur.

Cabiri deyir: "Ərəb oxucuları və müxatibləri daha çox keçmişə güvənirlər. Bu yolla da məhrum olduqları gücün yerini keçmişdən təskinlik alaraq doldurmaq istəyirlər." Ona görə də Cabirinin "əski mətnləri əzəmətli, möhtəşəm göstərmək istəyənlər xülyalar içindədir" kimi ifadəsi İslam dünyasında müsbət qarşılanmamışdır. Cabiri "Biz və mirasımız" adlı kitabında deyir: "Onlar bu vəsilə ilə xəyal aləmində öz istəklərinə

---

[12] Abd al-Kabir Khatibi, "Les Arabes entre la post-modernite et la modernite", paper delivered at the Tüentied Anniversary Meeting of the Middle East Studies Association of North America, Boston, 20-23 November, 1986.

qovuşurlar. Müsəlman adam elmi, tərəqqini, bilgəliyi indiki zamanda deyil, keçmişdə arayır. Başqa bir deyişlə, müsəlman adam indiki zamanda olan problemlərin cavabını keçmişdə axtarır, yaşadığı zamanda deyil. İndiki zamanda məhrum olduğu iqtidarı, bilgəliyi yanlış anladıldığı, yanlış anladığı keçmiş əfsanələrlə əldə etmək istəyir.”[13]

Cabiri öz kitabında ərəb ağlının şəkillənmə sürəcini çox incəliklə araşdırır və isbat edir ki, “əcdadlarımızdan bizə ən böyük miras olaraq qalan doğruları təhrif etməkdir. Bizdə bu bir adət halına gəlmişdir. Yazara görə senzura islam tarixinin danılmaz bir özəlliyi olmuşdur. Bu sezunra və təhriflərin həyata keçməsində siyasət və məzhəb elə əl-ələ verib, bir yerdə çalışmışlar ki, insan ağlını qaranlıqlara gömmüşlər. Əcdadlarımızdan bizə ən böyük miras olaraq qalan təhrif və senzura, ağlın işləyiş mexanizmini çökərtmişdir.”[14] Cabiri əsrimizin önəmli bir müəmmasını çözmüşdür. Yəni məzhəb və din xadimlərinin bütün senzura və təhriflərdəki rollarını ifşa etmişdir. Cabiri bir neçə tarixi örnək göstərərək, bu önəmli hadisəni isbatlamışdır ki, islam dünyasında indiki zamanın sorunlarını, çətinliklərini, qutsallaşdırılmış keçmiş zamana inanaraq çözmə tərk edilməsi zor olan bir alışqanlıq, xəstəlik halına gəlmişdir. Cabiriyə görə tədvin əsri ilə (dini mətnlərin hazırlanıb kitablaşdırıldığı əsr) eyni zamanda senzura və təhrif də İslam ölkələrində yayqınlaşmışdır. “ Bu əsr 134-cü hicri (IX əsr) tarixindən başlayır. Abbasi xəlifələrinin əmrləri üzərinə islam alimləri bütün hədisləri (peyqəmbərdən qaldığı söylənən sözlər, davranış və digər sənədələr) toplamağa başlayırlar. Fiqh (məzhəbi bilgilər) və təfsir (Quranı açıqlama) elmini gəlişdirirlər.”[15] Bu iş, xüsusən Abbasi xəlifəsi Mənsur tərəfindən geniş miqyasda yürüdülür. Cansız, ruhsuz keçmişə meyllənmək nədən müsəlman toplumların belə şiddətli istəklərinə dönüşmüşdür? Bir halda ki, günümüzün ən önəmli ehtiyacı keçmişə yönəlik deyil, gələcəklə bağlı planlar hazırlamaqdır. Nədən müsəlman toplumların ağlını “gələcəyi keçmişin xatirələri quracaqmış” düşüncəsi sarıb sökməkdədir? Qərb dünyası gələcəyin həyəcanı ilə yaşarkən, nədən islam aləmi keçmişin uyuşdurucu nostaljisi içərisində duyğulanıb durmaqdadır?

Sergi Moscovich, Qərb dünyasındakı transformasionları dünya mədəniyyətinin altyapısı (strukturu) olaraq dəyərləndirir. Elə bir mədəniyyət ki, bütün ölkələr onu qəbul etmək zorundadırlar. Qərb mədəniyyəti eyniləşdirmə metodu ilə başqa mədəniyyətləri sıradan çıxarıb, tarixin arşivinə göndərir: “Keçən əsrdə baş verənlərə qısa bir nəzər salsaq, Qərb mədəniyyətinin həqiqətən də çağın ən üstün mədəniyyəti olduğunu

---

[13] محمد عابد الجباری، "نحن والتراث"، المرکز الثقافی العربی، الدارالبیضاء ودارالطلیعه، بیروت، ص 22، 1980 میلادی

[14] تکوین العقل العربی، بیروت، ج 1، 1984؛ ج 2، 1986 میلادی، همو

[15] Eyni qaynaq.

anlayacağıq. Çünkü modernizm zamana önəm verən ilk mədəniyətdir. Xüsusən əşya və fenomenləri ölçmə baxımından Qərb mədəniyətinin alternativi yoxdur. İş, məsafə və tarix kimi fenomenləri zaman əsasında ölçülür. Hər şey zamana uyğunluq əsasında ölçülür. Bunun da adı uzayın (fəzanın) zamana uyğunluğudur."[16]

Sənayeləşmə ötəsi səviyəyə yüksəlmiş olan Qərb toplumu bütün kültürlərə öz istiqamətlərində hərəkət etməyi önərir və çağın gəlişim ritmi ilə onları bir məxrəcə gətirməyi planlayır. Beləliklə, çağdaş mədəniyət öz üstünlüyünü və öz iradəsini dünyada tətbiq edir. Ordularla başqa ölkələri işğal edib sömürmə dönəmi bitmişdir. Sömürgəşilik bu əsrdə teknoloji vasitəsi ilə gerçəkləşir. Qol saatını biləklərində daşıyaraq keçmişin "ehtişamı" haqqında danışan iki ərəb fərqində deyillər ki, biləklərindəki zaman ölçüsü olan o kiçik teknoloji onların bütün "düşüncə!"lərini rədd edir. Anlamırlar ki, saatın səsi onların uydurduqları və sonra da heyranı olduqları tarixdən gəlmir, o səs çağdaş dünyanın səsidir. Çağdaş dünyanın səsi islam dünyasında eşidilməz olmuşdur. Hadisələri zamana uyğun duruma gətirmə siyasi coğrafiyanı dəyərsizləşdirən amillərdən biridir. Bir millətin siyasi və iqtisadi qüdrətinin əsasını təşkil edən coğrafiyanın kontrolu öz yerini zamanın kontroluna buraxmışdır. Əslində zamanı kontrol etmək, zamanın nələr tələb etdiyini anlayıb ona görə davranmaq iqtidarın təməlini təşkil etməkdədir. Örnəyin, yerin altında petrolun olması zənginliyə səbəb olmur, ancaq bazarlama əməlinin sürətini kontrol edərək, dünya bazarına çıxış zənginlik gətirir. Ona görə də artıq iqtisadi iqtidarın güclənməsi üçün siyasi coğrafiyalar öz etkinliklərini itirmişlər. Örnəyin çoxuluslu şirkətlərin iqtisadi və ticari fəaliyətləri heç bir sınır və siyasi coğrafiya tanımamaqdadır. Milli sınırlar get-gedə öz dəyərlərini itirməkdədir. Güvənlik məsələsi bir ölkənin sadəcə öz iç işi olmaqdan çıxmışdır. Bu mövzu həm də çoxuluslu şirkətləri də ilgiləndirməkdədir. Uluslararası zənginliklərin qoruyucuları sərmayənin dolaşdığı bütün yolları və mərkəzləri dünyada güvənli görmək istəyirlər. Anlaşıldığı  kimi, iqtidarın qaynaqları dəyişilmişdir. "İqtidar qonusu qoyulan sərmayələrdən və nəzərdə tutulan projələrdən qaynaqlanır. Bu projelər də dəyişkəndir. Çünkü ürətim (istehsal), ticarətin həcmi və tükətim kimi faktorlar bu projəni daima öz təsiri altında saxlayır."[17] Bizi öz nəzarəti altında saxlayan modern imperializm artıq əskidən olduğu kimi başqa ölkələri işğal etmək istəmir. Modern imperializm, hətta iqtisadi də deyildir, o, hesablama və dəyərləndirmə metoduna dayanmışdır. "Düşməni vətənindən dəf et!" şüarları ilə bizi mübarizəyə çağıran milli marşların artıq

---

[16] Serge Moscovici, "Le temps et I`espace social", interview in L`Espace et le temps aujourd`hui, Editions du Seuil, Paris, 1983, p. 262.
[17] Eyni qaynaq, s. 264.

önəmi qalmamışdır. Düşmən kiçik bir hesab makinasına, bilgisayara yerləşib beyinlərimizə girir. Çoxuluslu şirkətlər öz zövqlərini müxtəlif yollarla bizə təlqin edirlər. Biz bütün həyatımızda onların düzənlədiyi kredi, sərmayəyatırma, ürətim kimi qavramlardan istifadə edirik. Amerika, islam ölkələrini çökərtmək üçün onları işğal etməyə ehtiyac duymur. Vetnam ona uğur gətirməyən bir təcrübə oldu. Artıq çoxuluslu şirkətlərin sərmayəsi, təbliğatı, Uluslararası Pul Sandığı (İnternational Money Fond) kimi dev imkanlar Qərbin əlində istila vasitələrinə dönüşmüşdür. Qərb öz inkişafına adət etmiş, alışmışdır və indiki zamanı gələcəkdəki planlarına görə yönləndirir. Biz isə ağlımızda tarix heyranlığını daşıyaraq Qərbə təslim olmaq məcburiyətindəyik. Ən çox da özümüzə bu şəkildə təskinlik veririk ki, "İslam doğru uyqulansa idi, belə olmazdıq!" O zaman belə bir sual ortaya çıxır: islam nə zaman doğru uyqulanacaq. İslamın doğru uyqulanması üçün ancaq onun gətiricisi olan peyqəmbər həyatda olmalıdır, başqa cür qəti şəkildə mümkün deyildir. İslam tam doğru olaraq uyqulansa da o, bir teknoloji yöntəmi deyildir, din bir əxlaq və vicdan sahəsidir. Dinə də əqli olaraq yanaşılmadığında yaradıcı əxlaq çökər, islam ölkələrində çökdüyü kimi. Çünkü əxlaq sadəcə ibadətdən ibarət deyildir. İslamın verdiyi mesaja görə ən böyük ibadət elmlə məşğul olmaqdır. Elm və teknoloji əqli bilgilərin nəticəsidir, dini açıqlamaların deyil. Bizim də Qərb ölkələri kimi inkişaf əhval-ruhiyəsinə uyum sağlaya bilməmiz üçün, ancaq bir yol var: zehnimizi tarixin əsarətindən qurtarıb, indiki zamanda yaşama texnikasını öyrənib və keçmişə doğru deyil, gələcəyə doğru yönəlmək.

Zamanın ox işarətinin yönü gələcəyi göstərməlidir, keçmişi deyil. Qərbdə zamanın ox işarəsi gələcəyə tərəf yönəlmişkən, islam Şərqində keçmişə doğru istiqamətlənmişdir. Zaman irəliyə doğru hərəkətdədir və uzay (kosmos) gəmiləri planetlər arasında irtibatlar qurmağa çalışmaqdadırlar. İndiki zamanı tanımaq, tanımlamaq və dəyərləndirmək mümkündür.

İndiki zamanın bu qədər sürətlə irəliləməsi qarşısında bizim təpkimiz (reaksionumuz) nədən ibarətdir? Şübhəli bir davranışla, kədərli, yaralıcasına və tam uşaqcasına öz "kökümüzə" ruhsuz keçmişə dönmək istəyirik. Ərazilərində bir zamanlar günəşin batmadığı imperatorluqlarımızla iftixar edirik. Əcdadlarımız, istifadə edə biləcəyimiz qaynaq olaraq bizə lazım ola bilərlər, ancaq onlar indiki zamana daşınsalar, günəşin doğuşunu əngəllər və bizim röyalarımızı kabusa dönüşdürərlər. Xatirəni və ya tarixi hafizəni, yalnız müsəlmanlar yanlış qullanmırlar, qərblilər də bu məsələdən əziyət çəkirlər: "On il sürən bunalım (böhran) nəticəsində durğunlaşan fransızlar dəyərləndirmələrini əski xəyali gözəllikləri anımsamaqla başladılar. Sonunda belə nəticəyə gəldilər ki, kabus və xülyalar dünyasında yaşayırmışlar. XIX əsrdən miras qalan soyluların paltarlarını, kəndlilərin

həyat şəklini müqəddəsləşdirmə kimi davranışların hamısı gericiliyin göstərgəsi idi”[18] İndi tam yerində olar ki, Marshal McLuhan`ın “Kim olduğunu unutmuş olan” adam haqqındakı hekayəsini xatırlayalım:

“...Siz kimsiniz?

Cavab verir: İndi kim olduğumu dəqiq olaraq bilmirəm. Ancaq səhər yuxudan oyandığımda kim olduğumu bilirdim. Amma inanıram ki, yuxudan oyandığımdan bu ana qədər bir neçə dəfə dəyişmişəm.”

Müsəlmanların və qərblilərin zaman haqqındakı görüş fərqlilikləri dəyişim və transformasion haqqındakından daha dərindir. Zamanın işarə oxunun istiqaməti ilə bağlı olan əndişələr bizi sarsıtmışdır. Çünkü bu istiqamət ölümə tərəf yönəlmişdir. Baxmayaraq ki, gələcəkdə hər kəs ölüm təcrübəsini yaşamalıdır, ancaq biz müsəmanlar ölmədən öncə ölüm duyğusunu, cənnət-cəhənnəm xəyallarını içimizdə daşımaqdayıq. Ölüm duyğusunu ağlımızda daşımağımız bizi gələcəyə deyil, keçmişə bağlayır. Keçmişdə cənnət və cəhənnəm haqqındakı söyləmlər müsəlmanların xatirindən bir an da olsa unudulmur. Öz ruhuna bu duyğuları yerləşdirmiş olan insan, əlbəttə ki, gələcəyə doğru cəsarətlə və əqli bir planla hərəkət edə bilməz. Belə bir insan öz yerində hərəkət etmədən durub və keçmişin yuxularını görər. Öz yerində duranların hay-küyləri yol gedənlərdən, yürüyənlərdən daha və daha çox olur. Müsəlman ölkələrində bu qədər səs-küy varkən, Qərb səssiz-küysüz gələcəyə doğru əzmlə yürüməkdədir. Elə bir gələcək ki, oradada yaradıcılıq mümkündür, insan haqları, fərd və qadın haqları toplumun dərinliklərində özünə yerə edir.

Modern Qərbin müvəffəqiyətinin səbəbi ölümdən və keçmişə heyran olmaqdan qaçışda saxlıdır. Bu özü-özlüyündə insanın yaradıcılıq gücünün qurtuluşuna səbəb olmaqdadır. Müsəlman dünyasında insan tarixin əsarətindən qurtulmamışdır. İslam tarix dünyasında tarix bilgi sahəsi olmaqdan daha çox bugünkü həyatımızı yönləndirən bir faktordur. Bu səbəbdən yaşayan insan öz ağlından istifadə edə bilmir. Tarixdə isə fərd haqları olmamışdır, məzhəblərin, iqtidarların, inancların haqqı olmuşdur. İnsan haqqı, siyasi iqtidarın qulluğunda olan məzhəb haqqına fəda edilmişdir. Belə bir tarixin basqısı altında əzilən müsəlman insan təbii ölümü gəlmədən öncə ölmək istəyir. Tarixin basqısı altında əzilən insan həyatın necə bir nemət olduğunu dərk edə bilmir, tarix buna mane olur. Bu səbəbdən də ölüm arzulayır, ölüb canını qurtarmaq istəyir. Ölüm bir qurtuluş kimi görünür tarixin basqısı altında əzilən müsəlman üçün. Əlbəttə ki, belə bir insan nə bir demokratik bir ölkə qura bilər, nə də qadın haqlarına sayqı göstərər. Onu həyata bağlyacaq ünsürləri tarix onun ağlından çıxarmışdır.

[18] Jean- Pierre Rioux, “A la recherche de la memoire”, Penelope, no. 12, 1985.

Ağlında bir Allah qorxusu var, bir də cənnət arzusu. Müsəlmanın ibadəti də bu qorxunun və arzunun kəsişdiyi yerdə gerçəkləşir. Bu mənəvi məkanda isə yaradıcılıq yoxdur, zor və diktatorluq var. Bizim və qərblilərin arasında olan fərq həyata və keçmişə olan münasibətdə özünü göstərir. Qərblilər, keçmişlə ilgilənməyi bir növ xobbi, məşğuliyət, stressatma və bilgilənmə vasitəsi kimi anlayırlar. Müsəlman isə ciddi bir israrla tarixdən bir vəzifə və nəzəriyə çıxarmağa çalışır. Müsəlmanların öz əcdadlarına və onların görüşlərinə sıxca sarılmaları cərəyan edən diriliyi, indiki zamanlılığı unutdurur. İndiki zaman keçmişin mütləq uzantısı olduğu üçün nə bir dəyişikliyə imkan olur, nə də tərəqqiyə. İndiki zaman möhkəm zəncirlərlə keçmişə bağlanmış olur. Bir halda ki, əsl qurtuluş bu zəncirlərin qırılmasındadır. Qərb bu zəncirləri qırmışdır.

Cabiri, özünə məxsus incəlik və hövsələ ilə anladır ki, biz müsəlmanların keçmişə xəstə adam kimi baxışımız, tarixi doğru-dürüst, elmi şəkildə anlamamağımızı da önləyir. Bundan əlavə, sarıldığımız keçmişin sehrkar bir duaya bənzədiyini anlamalıyıq ki, həddindən artıq indiki zamanın problemlərini tarixə bağlayır, məsələlərin həlli üçün keçmişdə çözüm arayır: "Müasir ərəb oxucusu öz zəif varlığı ilə çox sürətlə hərəkətdə olan çağa uyum sağlamaqdan əziyət çəkir, çəkinir. Problemləri çozmək üçün çağda öz varlığımıza etiraf etmək, çağa uyum sağlamaq yerinə xürafata sığınırıq."[19] Keçmişin heyranı olmaq, keçmişə yapışıb qalmaq müsəlmanların əsas özəlliklərindən biridir. Bu durum, tarixdəki bir çox dəyərlərin səbəd-nəticə fəlsəfəsindən yola çıxaraq analız edilməsini də əngəlləmiş olur. Cabiri, israrla xatirladır ki, "əski mətnləri anlaya bilməmiz üçün indiki zamanın dərinliklərinə enməliyik. Bu mətnləri anlaya bilmək üçün, mətnlərin yazıldığı zamanlardan uzaqlaşıb, indiki zamanda kök salmalı, bulunduğumuz zamanla mətnlərin oluşduğu zamanların arasındakı məsafənin və ayrıca bulunduğumuz zamanın ehtiyaclarının da fərqində olmalıyıq. Əks təqdirdə içində bulunduğumuz zamanın sorunlarını əski mətnlərə yükləyərək, o mətnlərdən yardım və qurtuluş bəkləməli olacağıq ki, bu, həm əski mətnlərin doğru dərkini önləyəcək, həm də içində bulunduğumuz zamanın problemləri çözülməmiş olaraq qalacaqdır."[20]

Artıq "biz müsəlmanlar"dan məqsədimin nə olduğunu anlatma zamanı gəlmişdir. İslamdan məqsəd fərdi və şəxsi seçim məsələsi deyildir. "Müsəlman"dan məqsəd müsəlman topluluğa mənsub anlamındadır ki, bu şəkli ilə fərdi ağıl ikinci planda yer almaqdadır. Marksist, maoist və ya sekular olmaq milli və məzhəbi dəyərləri inkar mənasında deyildir.

---

[19] جابری، "نحن والتراث"، ص 22

[20] Eyni qaynaq, eyni səhifə.

Müsəlman toplumuna mənsub bir marksist də o toplumun dəyərlərinin dışında deyildir. Müsəlman olmaq mədəni bir mövzu, milli bir kimlik məsələsidir. Sol cərəyanların müsəlman ölkələrində məğlubiyyətlərinin əsas səbəblərindən biri bu olmuşdur ki, etiqad və şəxsi seçim olaraq islam anlayışı ilə kültür və rəsmi məzhəb olan islamı bir-birinə qarışdırmışdılar.

XII əsrin mətnləri əsasında günümüzdə cəmiyyətin yarısını təşkil edən qadınları siyasi haqdan məhrum edən təfsirlərə tanıq olmaqdayıq. Belə bir durumda demokrasinin islam ölkələrində həyata keçməsi mümkünmü? Mümkün deyildir. Çünkü demokrasi insan haqlarını cinsi ayrım qoymadan savunmaqdadır. Demokrasini inkar etməklə toplumun problemlərini necə həll etmək mümkündür? Kimlik söyləmini oluşduran üç ayrı mövzu olan qadın, zaman və iqtidar məsələsini necə bir-birinə bağlamaq mümkündür? Ən önəmli sual budur ki, keçmişi idealizə edən yazarların və araşdırmaçıların qadınları siyasi hüquqdan məhrum etmə istəkləri əsrdən əsrə necə ötürülmüşdür? Bu suallara cavab verərkən, Əfğani kimilərin dini kimliyi qorumaq adı ilə qadınları siyasi-ictimai haqdan məhrum etmə təlaşları anlaşılır.

Bir diktatorun zülmünə dayanan totalitar dövlətlərin zamanı keçmişdir artıq. Böyük qüdrətlər tərəfindən tanınmaqda maraqlı olan yeni islami dövlətlər uluslararası səhnədə zahir oldular. Bu yeni hökumətlər BMT-nin insan haqları bəyaniyəsini imzalamağa can atdılar. Bu vəsilə ilə də anayasanın ruhunu təşkil edən "azadlığa" hörmətlərini elan etdilər. bu islami hökumətlər böyük və modern dövlətlərin yazdıqları insan haqları bəyaniyəsinə imza atdıqları üçün öz anayasalarında qadınlara da haq tanımaq məcburiyyətində qaldılar. Əslində BMT-nin məramnaməsinə dayanaraq islam ölkələri bir rönesans gerçəkləşdirməli və cinsi ayrı-seçkiliyi ortadan qaldırılmalı, həyata və ictimai hadisələrə kişi mərkəzli yanaşmalarına son verməli idilər. Çünkü modern və güclü dövlətlərin basqısı nəticəsində islam ölkələri qadınlara da vətəndaşlıq haqqı tanıma məcburiyyətində buraxıldılar. Qərbin bu basqısı nəticəsində qara çadralar altında bədbəxt həyat sürən, erkəklərin ləzzət qaynaqları sayılan qadınların həyatına bir təkan verildi. İslam dünyasında heç bir iradəsi, ictimai, mədəni və siyasi hüququ olmayan qadınların qurtuluşu üçün Qərbin aydınlatıcı mədəniyyəti yol açdı. Bizim əski və ənənəvi kimliyimiz heç bir zaman insanı bir fərd olaraq rəsmiyyətə tanımamış, fərdi haqlara sayqı göstərməmişdir. İslam kültüründə fəlsəfi baxımdan ümumiyyətlə fərd deyə bir məfhum yoxdur.[21] Gələnəksəl (ənənəvi) islam tarixi, cəmiyyətin istəklərinə tam,

---

[21] على أومليل، "الفطره و حاله الطبيعه، أومحاوله لا عاده اعتبار للنظام الاجتماعى"، الاصلاحيه و الدوله الوطنيه، المركزالثقلفى العربى، كازابلانكا، 1985 صص 31

itaətkar və mütii (submissive) olan fərd tərbiyə etmişdir. Fərd, müstəqil bir varlıq kimi islam kültüründə qəbul edilməmişdir. Bu əxlaq sistemində fərdiyət təşviq edilməmiş, önü kəsilmişdir. Hər növ fərdi təşəbbüs bidət (dini revizionizm) sayılaraq “mürtədlik”, “kafirlik”lə damğalanmış və məhv edilmişdir. Bütün fərdi təşəbbüslər, dünyanı azad bir fərd olaraq anlamağa çalışmaq islama qarşı macəra olaraq anlaşılmış, anlatılmışdır. Fərdi azadlıqlar, Fərd olaraq Tanrını dərketmə istəkləri və çalışmaları məzhəblə siyasətin ortaqlığı, iradə birliyi nəticəsində boğulmuş, susdurulmuşdur. Ənənəvi islam hökumətləri, dini iqtidar təhlükəyə girməsin deyə, hər növ fərdiyətçiliyi məhv etmişdir. Fərdlə tanrı arasına siyasətin xidmətində bulunan islam anlayışı girmişdir. Ənənəvi islam hökumətləri fərdi, azadlığı olmayan, öz iradəsinə sahib olmayan bir şəbəh və kölgə kimi tərbiyə etmişdir. Bu səbəbdən də siyasi islam tarixində fərdi azadlıq, fərd və insan haqlarına rast gəlmək mümkün deyildir. İnsan haqları yerinə islam haqları olmuşdur. Islam isə siyasətin qulluğunda durduğu üçün, əslində yalnız bir haqq anlayışı olmuşdur: iqtidar haqqı. Tanrı da bu haqqın qoruyucusu kimi göstərildiyi üçün siyasi iqtidarlar məşruiyətlərini, yasallıqlarını Tanrı olaraq göstərmişlər. Xilafət də bir siyasi fəlsəfə olaraq islam tarixinə bu şəkildə girmişdir. Xəlifə, Tanrının yer özündəki tam təmsilçisi olduğu üçün insanların namuslarına da müdaxilə etmə haqqından bərxurdar olmuşlar. Beləliklə, hər növ fərdiyət Tanrıya və yalava (peyqəmbərə) qarşı üsyan olaraq dəyərləndirilmiş və düşünən insanların başını bədənindən ayırmışlar. İslam ölkələrində fundamental hərəkətlər iqtidarın qaynağını millət deyil, tarix olaraq göstərirlər. İslamın ilk başlarındakı hadisələri bu günün məşruiyəti (legetimliyi) şəklində tanıtmaqdadırlar. Maraqlı olan da budur ki, müsəlman fundamentalistlər bu gün uğruna deyil, keçmiş uğruna öldürürlər, ölürlər. Onlar gerçək həyatda yaşayan nəslin iradəsini heç sayırlar. Yaşayan nəslin nə düşündüyü onlar üçün maraqlı deyil. Nədən? Çünkü hər şeyin Tanrı əlində olduğuna inanırlar. Bir kərəliyinə və həmişəlik olaraq yerə endirilmiş, Məhəmməd peyqəmbərə verilmiş Tanrı iradəsi mütləqdir və bütün zamanların qanunudur![22] Qadınların siyasi haqları ilə bağlı olaraq həddindən artıq şişirdilmiş mübahisələr məzhəb tərəfindən ortaya atılmışdır. Bu siyasi haqq qadınlara məzhəb tərəfindən deyil, qeyri-məzhəbi görüşlər və qurumlar tərəfindən tanınmışdır. İslam ölkələri də əməl etməsələr, həyata keçirməsələr belə, ən azından güclü və modern dövlətlər qarşısında bir öhdəlik kimi bunu qəbul etmişlər. Başqa bir deyişlə, qadın haqlarını ortaya qoymaq, iqtidarın dəyişim və transformasionu doğrultusunda insanlara ayrıca qaynaq da göstərməkdədir. Toplumun içində çarşafların, türbanın

---

[22]. "الحركه التكامليه و الدوله الوطنيه" فصل 5 ص 151

arxasındakı qaranlıqlara sürgün edilmiş, varlığı və düşüncəsi qaranlıqlara gömülmüş, düşünmə haqqı və iradəsi əlindən alınmış qadınlar siyasi mövzularda özlərinə məxsus yer edə bilərlər. İnsan varlığına səbəbiyət verən qadın, islam tarixində, islam dünyasında köləliyin və kor-koranə itaətin örnəyi kimi tanınmışdır, tanınmaqdadır. Ayrıca bu mütiliyin davam etməsindən yana olan erkəkmərkəzli din anlayışı çox məmnun görünür. Lakin elə bu səbəbdən də Şərqlə Qərb arasında böyük bir uçurum var və qarşıdurma ortaya çıxmışdır: demokrasi və qadın-kişi bərabərliyi. Şərq qadınla kişinin bərabər hüquqa sahib olmasını öz dini dünyagörüşünə qəbul etdirə bilmir. Qərb isə Şərqi zorlayır ki, bunu mütləqa qəbul etməlisən. Qərb mədəniyəti elmlə, fəlsəfə ilə, bilgi ilə iç-içə olan siyasi iradəsini Şərqə diktə etməyə çalışır. Şərqdəki dini iqtidarlar isə gerçək həyatda tətbiq etməsələr də, kağız üstündə bunu qəbul etmək məcburiyətində qalırlar. Şərqdə dini iqtidarların təlqin etdikləri kimi, qadınların qurtuluşu tarixə fərar etməkdə, tarixə sığınmaqda deyil, indiki zamanın dərinliklərinə enmiş və gələcək yönümlü olan Qərb mədəniyətindədir. İnsan haqları bəyaniyəsinin ilk maddəsi "İnsanlar azad doğulmuşlar, bərabər hüquq və hörmətdən bərxurdardırlar" deməkdədir. Bu, özü-özlüyündə cinsi ədalətsizliyə qarşı insan ağlının kəşf etdiyi ədalət anlaıyışıdır. Qadın-kişi bərabərliyi ilə bağlı müxtəlif mübahisələr 1880-ci ildə Qasım Əmin adında bir yazarın "Qadın azadlığı" kitabını nəşr etdiyi zamana qayıdır. Modern proseslərin gəlişməsi və milli sınırları ortadan qaldırması ilə istər-istəməz qadın haqları modernizmin bir fenomeni kimi gündəmə gəlirdi. Modernizmin qadını tarixin qaranlıqlarından çıxarıb yaşanılan zamana gətirmə istəyinə qarşı dinçilərin etirazları demokratik olmayan, fanatik bir şəkildə ortaya çıxdı. Qadınların yazıb-oxumaq imkanından faydalanmaları və bunun nəticəsi olaraq zamanın axışı içərisində özünün insan olduğunu anlaması Qərb mədəniyətinin Şərqə gətirdiyi nemətlərdən birisi olmuşdur. Qadınlar yeni ictimai mövqelərinə yüksəldikləri zaman, yalnız kişilərin inhisarında olan iş bölümünü, tarixi, erkəkmərkəzli ailə sistemini və toplumsal statusları sual altına aparmağa başladılar.

Erkəklərin xoşlandıqları keçmişə və ənənələrə qayıdış şüarı hər şeyi indiki zamana və gələcəyə görə deyil, keçmişin çürük dəyərlərinə görə tərbiyə etməyə aparan yoldur. Heç kimi, özəlliklə qadınları razı salmayacaq erkəkmərkəzli bir istəkdir. Bu istək yenə də qadınları əskimiş, içi boşalmış dəyərlərin və əxlaq anlayışının əsiri etmək istəyir. Bu istək qadınları qazandıqları çağdaş statuslarını buraxıb və təkrar tarixin qaranlıqlarında və çarşabların altında sürgün etməyə zorlamaqdadır. Maraqlı olan budur ki, bu şüarın əsil islamın bağrından qaynaqlandığını iddia etməkdədirlər. Bir halda ki, Məhəmməd peyqəmbər XII əsrdə verdiyi mesajın daha inqilabi olduğu

bilinməkdədir. Məhəmməd peyqəmbərin verdiyi bu bərabərlik mesajına görə Məkkənin aristokratları onu sürgün etdilər.

Bu səbəbdən də keçmişə doğru bir səfər etmək zəruridir. Bu səfərin zərurəti, həccin müsəlmanlar üçün vacib olduğu üçün deyildir. Keçmişi araşdırmaq amacı ilə zəruridir. Bu araşdırma əsatirlərin və “müqəddəs” dini əmrlərin basqısı və nəzarəti altında gerçəkləşməməlidir.

II

# Peyqəmbər və hədis

Necə oldu ki, heç başqa bir dil bilməyən və həyatında çox az səfər etmiş olan bir ərəb verdiyi mesajı ilə bütün dünyanı öz etkisi altına aldı? Çindən (20 milyon Çinin Kansu və Hunan əyalətlərində müsəlman var) Senqala və Mərkəzi Asiyadan Hindistana, Orta Doğudan Afrikaya qədər Abdulla oğlu Məhəmmədin mesajları ilə alt-üst oldu. Hələ də bu bu geniş coğrafiyada Abdulla oğlu Məhəmmədin mesajları öz canlılığını qorumaqdadır. Bu qədər böyük hadisəni bir hekayədən, bir rəvayətdən daha üstün görmək doğru olmazmı? Qəbul etmək məcburiyətindəyik ki, bu insan həm fərdi və həm də toplumsal həyatında müvəffəq olmuşdur.

Islam hekayəsi gəncliyində fərqli dünya təsəvvür edən bir ərəb gəncinin qəhrəmanlığıdır. Olqun yaşlarında öz təsəvvürünü gerçəkləşdirən bir insanın həyat öykusüdür. Məhəmməd hərbi qələbələrinin zirvəsində ikən, ən sərt düşmənləri ona təslim oldular. Mənim din öyrətmənim İsa peyqəmbər haqqında danışarkən, “İsanın nə qədər də acı və qəmli həyatı olmuşdur. Gerçəkdən də elə olmuş. Bir halda ki, Məhəmməd peyqəmbər ən son qələbəsinə qədər savaşdan əl çəkmədi,”- deyirdi. Peyqəmbər 570-ci ildə Məkkədə dünyaya gəldi. Roma və Sasani imperatorluqları ilə qiyasda ərəblər daha geriyə qalmış durumdaydılar. Ərəblər işğal altında olmadıqları zaman belə, iki imperatorluqdan birisinə bağlı idilər. Ərəb qəbilələri bu bu imperatorluqlardan birinə tabe olmadıqlarında Ərəbistanın qumsal çöllərində unudulmuş olurdular. Sasani və Roma imperatorluqları ticarət yollarının kəsişdiyi Ərəbistan yarımadasını kontrol etmək uğruna bir-birləri ilə savaşırdılar. Ərəbistan yarımadasında hər bir imperatorluğun mənafeyini qoruyan əlaltıları mövcud idi. Ərbabları istədiyində ərəb qəbilələri bir-birləri ilə savaşmaqdan çəkinmirdilər. 580-ci ildə Abdulla oğlu Məhəmmədin 10

yaşı olduğunda Roma imperatorluğunun əlaltısı olan Qəsaniyan qəbiləsi, Sasani imperatorluğunun əlaltısı olan Ləxmiyan qəbiləsinə hücum etdi və İraq çöllüyündə onların başkəndi olan Hirə şəhrini atəşə verdilər.

48 il sonra 628-ci ildə Məhəmməd 58 yaşındadır və onun dininə iman gətirən ərəblərə Sasani və Roma imperatorluqlarını fəth edəcəkləri xəbərini vermişdi. Roma imperatoru Herakliusa və Sasani padşahı Xosrov Pərvizə məktub yazaraq onları islama dəvət etdi. Ərəbləri daima aşağılayan Sasani padşahı Xosrov Pərviz Məhəmmədin bu əməlindən heyrətləndi. Onun məktubunu yırtdı və Yəməndəki valisinə bu məzmunda bir məktub yazdı: "Hicazda anidən ortaya çıxmış olan bir ərəb utanmazcasına mənə bir məktub yazmışdır. Iki nəfər əmin adam göndər ki, onun qollarını bağlayıb mənim hüzuruma gətirsinlər. Görüm onunla necə davranacağam, onunla bağlı necə qərar verəcəyəm. Əgər o asi ərəb bu əmrə tabe olmazsa, onun üzərinə bir ordu göndər ki, başını bədənindən ayırıb mənə göndərsinlər."[1] 15 il sonra Sasani imperatorluğunu ərəblər fəth etdilər və Sasani təbəələri bütünü ilə müsəlmanlaşdılar. İslam dininin mənəvi tərəfindən başqa ən önəmli yönü, ərəbləri tabe olma statusundan qurtarıb, qəbilələri birəşdirib onların qarşılarına böyük hədəflər qoymasıdır. 40 yaşında peyqəmbərliyə yüksələn bu gənc ərəb çağdaşlarınıa görə qeyri-mümkün görünən röyalarını öz yaşayışı boyunca həyata keçirdi. Məhəmməd peyqəmbər gah vaizlikl və öyüdlə gah da silahlı dəstələr istənilən yerlərə göndərərək öz amacını gerçəkləşdirirdi. Ərəblər arasındakı birliyi qan bağı ilə deyil, bir inanc ətrafında sağlamaq və onları tarix səhnəsinə çıxarmaq yalnız Məhəmməd peyqəmbər aracılığı ilə mümkün olmuşdur.

Lakin Məkkə peyqəmbərinin görəvləri hələ bitməmişdir. Müsəlmanlara vacib olan və hər zaman vacib olacaq dinin 5 əsası hər kəsi ortaq inanışa və ortaq imana sövq edirdi. Gündəlik davranışlarda ciddi bir düzənə tabe olmaq islamın əsas mesajlarından biri idi. Islam hər şeydən öncə səmavi din olmaqdan daha və daha çox yer üzünün dinidir. Çünkü yer üzündə yaşayan insanların yemək-içmək, yuyunma və bu kimi gündəlik həyatlarına qədər onun qanunları mövcuddur. Ayrıca fərdlərə də seçim haqqı tanıyır. Tanrının birliyini qəbul etmək (tövhid) və Məhəmmədi onun peyqəmbəri saymaq (nübüvvət), islama inanışın ilkin əsasıdır. İkinci əsas isə gündə 5 kərə namaz qılmaqdır. Hər yerdə olsan işdən əl çəkib və mərkəzləşmiş bir diqqət və ruhi enerji ilə namaz qılmaq zorundasan. Üçüncü əsas- oruç, dördüncü -zəkat və beşinci isə həccdir. Həcc, yalnız imkanı olanlar üçün vacib sayılmışdır.

---

[1] Al- Täbäri, Mohämmäd, Sceau des prophetes, trans. By Herman Zotenberg, Paris, Sindbad, 1980, p. 251.

Peyqəmbərin həyatı boyunca Məkkə, Ərəbistanın ən önəmli şəhərlərindən biri idi. Məhəmməd peyqəmbər öz həyatını ticarətlə təmin edirdi. Gəncliyində evləndikdən sonra Qüreyşin ən məşhur qəbilələrindən biri olan Bənihaşim qəbiləsi içində yaşayırdı. Bənihaşim ərəb dilində kiçik akula anlamındadır. Dünyanın bu bölgəsində Məkkə şəhərinin ticarət yolları güvənlik baxımından tacirləri arxayın edirdi. Məkkə şəhəri iki ana karvan yolunun kəsişdiyi mərkəzdə yerləşirdi. Birinci yol Doğudan Batıya (Asiyadan Afrıkaya), ikinci yol isə Güneydən Quzeyə (Bəsrə körfəzindən Avropaya) uzanırdı. Xədicə də Məhəmməd kimi Qüreyş qəbiləsindən idi və son ərindən böyük zənginlik miras qalmışdı. Məhəmməd sədaqəti və dürüstlüyünə görə Məkkə əhalisi arasında çox sayqınlıq qazanmışdı. Xədicə, Suriyə ilə ticarət işində Məhəmmədlə əməkdaşlıq edir və onun dürüstlüyü, sədaqəti qarşısında heyrətlənirdi. Məhəmməddəki bu xüsusiyət o zaman örnəyinə çox az rastlanan özəllik idi. Xədicənin evlənmə təklifini Məhəmməd qəbul etdi. Bu zaman Məhəmməd 25 yaşındadır. Ancaq Xədicənin yaşı qırxın üstündədir. Bu, Məhəmmədin ilk evlənməsi idi. Ancaq Xədicə daha öncə bir neçə dəfə evlənmiş və bu evliliklərdən 2 qız və 2 oğlan dünyaya gətirmişdi. Oğlanlar uşaqlıqlarında ölmüşdülər. Xədicə evləndiyi kişinin 15 il sonra peyqəmbər olacağını bilməməsinə baxmayaraq, onun adi bir insan olmadığına da inanırdı və ona tam olaraq güvənirdi.

Öz toplumunun kültür səviyəsindən razı olmayan Məhəmməd digər hörmətli insanlar kimi, düşünmək üçün hər il Hera mağarasına uğrayırdı. O, Məkkə əhalisi arasında çox sayqın və hörmətli insan kimi tanınırdı. “Məkkənin bütün əhalisi Məhəmmədin sadiqliyi, dürüstlüyü haqda eyni fikirdəydilər. İnsanlar öz mallarını ona əmanət olaraq tapşırır və ortaya çıxmış hər hansı anlaşılmazlığın həlli üçün ona müraciət edirdilər.”[23] Bu vəziyət onun peyqəmbərliyə yüksəldiyi ana qədər davam etdi. “Məhəmməd 40 yaşına çatdığında Tanrı, Cəbrail aracılığı ilə ona açınım (vəhy)[*] göndərdi.”[24]

Tanrının Məhəmmədə göndərdiyi ilk açınım (vəhy) Ələq surəsinin birinci ayəsidir ki, “iqrə”, yəni “oxu” sözü ilə başlayır. Beləliklə, islam oxumağa və bilməyə çağrı ilə başlamışdır. İlk açınımın gəlişi 610-cu ildə olmuşdur. Məhəmmədə endirilmiş olan ilk açınım çox iztirablı olmuşdur. O, eşitdiyi əsrarəngiz səsdən qorxmuşdu. Xədicənin yanına gedib başına gələnləri ona danışdı. Bədənini sarmış bir şübhə və titrətmə ilə “Xədicə,

---

[23] Eyni qaynaq.

[*] 10 il Türk Dil Kurumunun başqanlığını etmiş Macit Gökberk, vəhy sözünə qarşılıq olaraq “açınım” sözünü düzəltmişdir. Ərəb dilini bilənlər yaxşı anlayacaqlar ki, “açınım” sözü “vəhy” sözü üçün çox uyğun qarşılıqdır. Çünkü vəhy də əslində Tanrı bilgilərinin açılması deməkdir. (G.G)

[24] Eyni qaynaq, s. 65.

canımdan qorxuram, mənə bir şeylər olur. Dəli olacağımdan qorxuram"- dedi. Xədicə Onu sakitləşdirməyə çalışırkən, baş vermiş hadisənin çox olağanüstü (fövqəladə) olduğunu söylədi. O, Tanrının seçdiyi insan idi. Ərəblərin məhrum olduğu hər şeyi onlara bağışlayacaq insan idi. Yəni yəhudilərin və xristianların sahib olduqları kimi, Məhəmməd peyqəmbər də ərəblərə Tanrısal inanc gətirəcəkdi. Xədicə yeni dinə inanaraq bu olayı xoş qarşıladı. Beləliklə o, ilk müsəlman olaraq tarixə keçdi. Məkkədə 300 büt olmasına baxmayaraq, yeni inanc böyük dəyişikliklərə yol açmağa başlamışdı. Ancaq Məhəmməd peyqəmbərin üç il gizlincə təbliğ etdiyi tövhid (Tanrının birliyi) inancı Məkkəlilər üçün çətin anlaşılırdı. Lakin Məhəmməd peyqəmbər Ərəbistanın ən önəmli mərkəzi olan Məkkədə islam dininin yayqınlaşması üçün mübarizə edirdi. Çünkü hər il Məkkəyə çoxlu ziyarətçilər uğrayırdılar. Bu baxımdan islamın Məkkədə yayılması Məhəmməd peyqəmbər üçün çox önəmli idi.

Məhəmməd peyqəmbər ilk vəhyin (açınımın) şaşqınlığından çıxdıqdan sonra artıq gözlənilmədən gələn açınımlara alışmağa başlamışdı. O, 22 il boyunca Tanrı ilə olağanüstü (fövqəladə) ilişkini səbirsizliklə bəkləyirdi. Devinimli (hərəkətli) bilgi dalğası anlamında olan vəhy (açınım) Tanrı qatından cərəyan edir və Onun peyqəmbəri tərəfindən yer üzünü işiqlandırırdı. Tanrının Məhəmmədlə yerəl dildə, yəni ərəb dilində danışması bir möcüzə idi. Yəhudilər və xristianlar açınımın onların dillərində olmasından qürur duyurdular. Məhəmməd ən son vəhyi (açınımı) vəfatından doqquz gün öncə hicrət ilinin onunda, yəni 632-ci ildə Tanrı qatından almışdır.

Tanrının sözlərini peyqəmbər şifahi olaraq alır və şifahi olaraq da topluma duyururdu. Ayələrin zamanını və uzunluğunu Məhəmməd müəyyən etmirdi. "Məhəmməd yalnız bunu bilirdi ki, yeni bismillah-irahman irrahimin söylənilməsi daha öncəki surənin bitişi anlamındadır."[25] Vəhyin endiriliş tərtibi bu gün Quranda olduğundan fərqli olmuşdur. Peyqəmbərin zamanında vəhyin endiriliş səbəbi o zamankı ehtiyaclara görə idi. Məkkədə endirilmiş olan surələr islamın vəzifələrini, üsulunu, və hökmlərini təyin edirdilər. Mədinədə endirilmiş olan surələr peyqəmbərin rastlandığı hadisələrlə bağlı olmuşdur. O cümlədən Mədinədə bir çox ayələr islama yeni iman gətirənlərin suallarına cavab xarakteri daşıyırdı. Ancaq indiki mövcud Quranda surələrin düzülüşü, alimlərin dediyinə görə, təlim-tərbiyə ehtiyacları əsasında gerçəkləşmişdir. Tanrısal (ilahi) vəhydən qaynaqlanan islam şəriəti və din mərkəzli ictimai qanunlar Mədinədə şəkillənmişdir.

[25] قناده بن ساما الداوازى ، كتاب الناسخ والمنسوخ، موسسة الرساله، بيروت 1984، ص 52

Peyqəmbər 622-ci ildə Məkkədən Mədinəyə hicrət etdi (ayrıldı). Bu il müsəlmanların tarixlərinin mənşəyi olması baxımından çox önəmlidir. Peyqəmbər Məkkədən gedərkən, onunla bərabər Mədinəyə varanlara "Mühacirlər" deyilir. Peyqəmbərə iman gətirən mədinəlilər isə "Ənsar" olaraq bilinməkdədir. Ənsar sözü yardım edənlər anlamındadır. Ənsar, yəni peyqəmbərə yardım edənlər. Peyqəmbər gizlincə Mədinəyə daxil oldu. Məkkə qəbilələri onu öldürmək üçün axtarırdılar. Çünkü Məhəmməd onların tanrılarını, xüsusən onların ən əziz tanrıları olan Lat, Mənat və Əzzanı aşağılamışdı.

Əbutalib və Xədicənin ölümündən sonra Məhəmmədlə məkkəlilərin münasibəti gərginləşmişdi. Bənihaşim qəbiləsinin rəisi olan Əbutalib, Qüreyş qəbiləsi arasında böyük nüfuza sahib idi. On il boyunca Məkkə əhalisi Məhəmmədin onların inancına olan həmlələrinə dözmüşdü. Ancaq 619-cu ildə Əbutalib öldükdən sonra Məhəmməd ən böyük hamisini itirmiş oldu. Öz yaxınlarını itirdiyindən dolayı kədərli olan Məhəmməd, Məkkəni tərk etmək qərarına gəlmişdi. Çünkü artıq onun həyatı bu şəhərdə təhdid altında idi. Ancaq hara getməli idi? O zaman Məkkədə yayqın olan qəbilələr arası münasibətlərə görə güclü bir hamisi olmayan Məhəmməd kimi bir şəxsin səfərə çıxması çətin məsələ idi. Məhəmməd bu işi öz dinini müxtəlif qəbilələrə təbliğ etməklə başladı. "Hər il Kəbəni ziyarət fəslində müxtəlif yerlərdən Kəbəyə ziyarətə gələn qəbilə üzvləri ilə irtibat qurmağa çalışdı, islam dinini onlara anlatdı. O, qəbilələrdən birisi ona iman gətirib onu himayə edəcəyinə ümidvar idi. Bu şəkildə o, məkkəlilərin əlindən qurtulmağı planlamışdı." [26] Ancaq Məkkə əhalisini narahat etmiş olan Məhəmmədə heç bir qəbilə yaxın düşmürdü. O, bu məntəqədə qala bilmək üçün Taifə getdi. Taif, Məkkədən çox da uzaq olmayan bir şəhər idi. Ancaq Taifin də əhalisi Məhəmmədə sığınacaq vermədi. [27] Bu səbəbdən Məkkəyə geri döndü və gedəcəyi şəhər haqqında düşünməyə başladı. Bu sırada altı mədinəli ziyarətçi ilə irtibat qura bildi. Onlara bir neçə surə oxudu. Məhəmməd, islama iman gətirən yeni müsəlmanlardan Mədinəyə getmək üçün yardım istədi.[28] "Bu altı kişi tanınmış olmalarına baxmayaraq, orta təbəqəyə mənsub idilər."[29] Onlar Məhəmmədə dedilər ki, bu kimi mühüm mövzuda qərar vermə yetkisinə sahib deyillər və öz qəbilə rəislərinin görüşlərini almalıdırlar. Onlar eləcə də Mədinənin vəziyyətinin necə olduğunu açıqlayaraq, "Mədinə qəbilələrin ixtilafı və toqquşmaları nəticəsində dağılmışdır... döndüyümüzdə Sizin istəyinizi qəbilələrimizin

[26] Tabari, Mohammed, Sceau des prophetes; Tabari, Tarikh, vol. 2, P. 231.
[27] بن هشام، سيره، ج2، ص 60
[28] بن هشام، ج2، ص 70
[29] Tabari, Mohammed, Sceau des prophetes; s. 104.

başçılarına çatdıracağıq,”[30]- dedilər. Sonrakı ildə 12 mədinəli Məhəmmədlə görüşüb, Us qəbiləsi ilə Xəzrəc qəbiləsinin durumunu Ona anlatdılar.[31] Beləliklə, Mədinə əhalisi bu böyük işdə Məhəmmədə yardım etməkdə öncül oldular.

İlk islam topluluğu Mədinədə şəkilləndi. Daha sonrakı nəsllər bu şəhərdə baş verən hadisələri özlərinə örnək olaraq seçib ilk islam toplumunun təcrübələrindən yararlanmağa çalışacaqdılar. Çünkü bu şəhər siyasi, hərbi, hüquqi rəhbər olan Tanrının elçisi tərəfindən idarə edilirdi. Mədinədə yeni iman gətirənlərin sualları əsasında Məhəmməd peyqəmbərə endirilmiş olan ayələr bu şəhərin islami bir toplum olmasına imkan yaradırdı. Hədis haqqındakı problemlər Məhəmməd peyqəmbərin ölümündən sonra ortaya çıxdı. Islamın Mədinə dönəmində cəmiyət islam idealları əsasında yaşayır və Məhəmməd vasitəsiylə tanrı ilə bir növ irtibat qurmuş olurdular. Bu dönəm iqtisadi və ictimai model olaraq modern müsəlman toplumları üçün də örnək oluşdurmaqdadır. Hicrətin 10-da Məhəmməd peyqəmbərin vəfatından sonra canişinlik məsələsi ortaya çıxdı. Peyqəmbərdən sonra da islami toplumları idarə edəcək şəxs və ya şəxslər lazım idi. Siyasi bir çıxış yolu olaraq din alimləri xəlifəliyi politik bir teori kimi gəlişdirdilər. Peyqəmbərin canişini olacaq və yeni islami cəmiyəti idarə edəcək xəlifədə hansı özəlliklər olmalıdır? Xəlifə öz toplumu tərəfindən necə seçilməlidir? Bir çox kitablar və risalələr bu haqda yazıldı və bir çox cərəyanlar və nəzəriyəçilər ortaya çıxdı. İslamın siyasi teorisi çox mürəkkəb özəlliklərə sahibdir. Əlbəttə, bu gün islam ölkələrində yayqın olan islam və xilafət anlayışı o zamankı anlayışın tam tərsinədir. İkinci məsələni, yəni Tanrının iradəsinin göstərgəsi olan şəriət məsələsini həll etmək üçün din alimləri fiqh (islam hüquq sistemi) elmini gəlişdirdilər. Bu dəstə, bir tərəfdən, Quranın yenidən açıqlanmasını nəzərə aldılar, digər tərəfdən, peyqəmbərin sünnətini hədisləri yazmaqla həyata keçirməyə çalışdılar. Beləliklə, islamın doğru yolunu təsbit etmək üçün peyqəmbərin bütün sözlərini qələmə aldılar. Quran və sünnətdən çıxarılan şəriət əsasında uyğun və münasib siyasi rəhbər seçmək islam tarixində hər zaman fəal və gündəmdə olan bir mövzu olmuşdur. Bu durum hərb və sülhü də təfsir etmiş, yüksəliş və düşüşlərə anlam qazandırmışdır. Eləcə də bu mövzu çağdaş dünyada islama dönüşü, islami dəyərləri siyasi, iqtisadi problemlərin həlli üçün yeganə qurtuluş yolu kimi görənlərin də əsas istəyi və amacı olmuşdur. Ruhullah Xomeyni bu şüarlarla ortaya çıxaraq şahlıq rejimini devirib iqtidara gəldi.

---

[30] بن هشام، سيره، ج2، ص71

[31] Eyni qaynaq, s 83.

Məzhəbi mətnlərin əhəmiyyətini anlamaq və keçmişin, indiki zamanın siyasət şahmat taxtasında bəd niyyətlə davranmaq istəyənləri tanımaq, bilmək üçün peyqəmbərin vəfatından sonra baş verən macəraları incələmək məcburiyyətindəyik. Xüsusən bir çoxlarının əsl müsəlman və dindar olaraq tanıyıb, tanımladıqları ilk 4 xəlifənin həyatlarını, necə seçildiklərini bilməkdə fayda var. Bugünkü dünyamızda islama dönüş təbliğatını anlamaq üçün islamın ilk çağlarındakı hadisələri ayrıntıları ilə bilmək zorundayıq. Bu gün islami hərəkətlərin demokrasi ilə bağlı təhlilləri bu 4 şəxsin dönəmindəki hadisələrə dayanmaqdadır. O zaman bu suala cavab verməyə çalışalım ki: ilk xəlifə necə seçilmişdir?

## Peyqəmbərin vəfatı

Peyqəmbər vəfat etdikdən sonra onun oğlan varisi olmamışdır. Məhəmmədin Mariyə adlı bir qadından olan İbrahim adında oğlu Xədicənin oğlanları kimi ölmüşdür. Məhəmmədin soyu qızı Fatimə tərəfindən davam etmişdir. Ancaq bu duruma baxmayaraq, peyqəmbərin yanında olan 4 kişi ayrıca önəmə sahib olmuşlar. Birincisi, əmisi oğlu və kürəkəni olan Əbutalib oğlu Əli idi. Əlinin atası yoxsul olduğu üçün Məhəmməd onu himayəsinə almış və tərbiyəsi ilə özü məşğul olmuşdur. Məhəmməd Məkkədən Mədinəyə hicrət etdikdən sonra Əli, Onun böyük qızı Fatimə ilə evləndi və ümumi işlərin idarəsində peyqəmbərə ən yaxın şəxs oldu. Peyqəmbərin vəfatından sonra Onun soyu Əlinin eşi Fatimə tərəfindən davam etmişdir.

Məhəmmədə yaxın olan bir başqa kişi Osman ibni-Əffan idi. Osman da Məhəmmədə ilk iman gətirənlər cərgəsində idi. O da Əli kimi Məhəmmədin Rüqəyyə adında qızı ilə evlənmişdi. Əffan oğlu Osman, Bəniüməyyə qəbiləsinin Əbdi-Mənaf soyundan idi. Bu qəbilə Bənihaşim qəbiləsinin rəqibi sayılırdı. Digər iki önəmli şəxslərdən Əbubəkir və Ömər idi. Hər ikisi Peyqəmbərə xüsusi yaxınlıqları ilə bilinirdilər. Hər ikisi də Qüreyş qəbiləsindən idilər. Hər ikisi də Məhəmmədin qaynatası idilər. Əbubəkir Ayişənin, Ömər isə Hafisənin atası idi. Məhəmməd vəfat etdiyində 9 qadını olmuşdur. Ancaq bu iki şəxs Məhəmmədin qaynatası olduqları üçün deyil, peyqəmbərə olan dərin bağlılıqlarından dolayı səciyələnirdilər.

O zamankı ərəb qəbilələrində belə bir ənənə var idi ki, qəbilə başçısı öldüyü zaman özünə varis təyin etməli idi. Əgər peyqəmbər də belə bir iş görüb yerinə varis təyin etsə idi, o zaman O, artıq peyqəmbər deyil, bir qəbilə başçısı kimi davranmış olardı. Bu şəkildə davranacaq olsaydı, islam cahanşümul bir din olmaqdan çıxıb bir sülalə inancına dönüşərdi. Peyqəmbər qəbilə kültürünə qarşı mübarizə apardığı üçün vəfat etdiyi zaman

yerinə varis təyin etmədi. Çünkü peyqəmbərlik Tanrı qatından təyin edilir. O zaman peyqəmbərin varisinin təyin olunmasında Tanrının iradəsi açıqca ortada olmalı idi. Lakin Məhəmməd israrla peyqəmbərliyin onunla sona çatdığını söylədiyi üçün öz yerinə varis təyin etmə səlahiyəti ona verilməmişdi. Peyqəmbər öz yerinə varis təyin etsə idi və bu varis də kiçik bir xəta yapsa idi, o zaman islam çökərdi. Xəlifələrin xətaları ona görə, islamı çökərtmədi ki, onlar peyqəmbər tərəfindən təyin edilməmişdilər. Məhəmməd çox heysiyətli bir şəkildə vəfat etdi. Bəzi tarixi sənədlərə görə peyqəmbər öz vəfatından sonra müsəlmanların işləri ilə məşğul olmağı Əbubəkirlə Ömərə tapşırıbmış, lakin bu, varis anlamında olmamışdır. Onlar da sırasıyla xəlifə olmuşlar. Əbubəkir 2 il, Ömər də 10 il xilafətdə bulundular. Üçüncü xəlifə Osmanın terror edilməsi islam ümmətini iç savaşa sövq etdi. İç savaşın getdiyi bir ortamda Əbutalib oğlu Əli dördüncü xəlifə olaraq seçildi. Əli öz iqtidarını xilafəti boyunca islam ölkələrinə tam olaraq tətbiq edə bilmədi. Bu iğtişaş dönəmində Məhəmməd peyqəmbərin eşi Ayişə də Əli ilə savaşmaq üçün düzənlədiyi ordusunu Cəmələ sövq etdi. Sonunda Əli də bir siyasi müxalifi tərəfindən qətl edildi. İğtişaş dönəminin psixoloji təsiri Əli xilafəti dönəmində öz basqısını ciddi şəkildə göstərmiş və bu günə qədər də davam etməkdədir.

Müsəlmanlar siyasi terroru önləmək üçün hədisləri toplamağa başladılar. Hədisləri toplamaqdan əsas məqsəd ilk olaraq bu suala cavab verməkdə idi: Peyqəmbər iç savaş haqqında nə demiş? Elə bir durum ortaya çıxarsa, müsəlmanların nə etmələri gərəkir? Ən çox hansı özəlliklər daşıyan müsəlman xəlifə olmalıdır? Adil olmayan, ancaq güvənliyi sağlayan bir xəlifəni seçmək doğrudurmu? Toplum iğtişaşa sürüklənsə də ədalətli olmayan xəlifə ilə savaşmaq gərəkirmi? Hətta Misirin cümhurbaşqanı Ənvər Sadatı da bu dönəmdə toplanmış hədislərdən təsirlənərək terror etdilər. Adətən islami toplumların böhranlı dönəmlərində hədislər güclü siyasi silah kimi ortaya çıxmışdır. Bu səbəbdən də hədisi bu şəkildə tanımlamaq, tərif etmək olar: hansısa siyasi bir hədəfə bəraət qazandırmaq üçün peyqəmbərdən qaldığı söylənən sözlərin hamısı, peyqəmbərin söylədikləri və etdiyi əməllər, hətta necə qüsl etmək gərəkir, toy gecəsi gəlinlə necə davranmaq lazımmış” kimi qonularda da peyqəmbərdən hədis uydurub söyləmişlər. Əslində bütün bu hədislər XII əsrdəki ərəblərin ailə sosiologiyası, ictimai münasibətləri haqqında aydınca bir təsəvvür yaradır.

“Hədis” sözü “rəvayət etmək”, “söyləmək” anlamındadır. Hədisi rəvayət edən şəxs bu gün “müsahibə metodu” olaraq adlanan elmi metodu yaxşı bilməlidir. Hədis alimləri, hədisi bir başa peyqəmbərdən eşidən səhabilər və səhabilərdən eşidən şəxslər (tabeun), tabeundan eşidən şəxslər və digər bu silsilə haqqında dəqiq bilgiyə sahib olmalıdırlar. Şifahi hədisləri

yazan şəxs müxtəlif metodlardan faydalanmalıdır. Yəni hədisi söyləyən silsilənin ardıcıllığını dəqiqləşdirməlidir. Hədisin ən əsas qaynağı onu peyqəmbərdən bir başa eşidən səhabidir. Hədisi bir başa peyqəmbərdən eşidən şəxsin kişi, qadın və kölə olub-olmaması önəmli deyil, önəmli olan birinci rəvayətçi şəxsin peyqəmbərə yaxınlığı və bu səhabinin fərdi özəlliyi, xüsusən hafizəsinin güclü olub-olmaması məsələsidir. Bu səbəbdən də peyqəmbərə ən yaxın olan müsəlmanlar, peyqəmbərin qadınları, peyqəmbər üçün çalışanlar və onun ən yaxın qohumları hədisin ilk və güvənilir qaynağı olaraq bilinməkdədir. Hədis yazmaq, sadəcə onun məzmununu yaddaş etməkdən ibarət deyildir. Hədisi rəvayət edənlərin ruh halları haqqında da bilgi olmalıdır. Hədis araşdırmaları "rical elmi-şəxsiyətşünaslıq" adında bir elmi sahə ortaya qoymuşdur. Rical elmi hədisi rəvayət edən bütün şəxslərin özəl həyatlarını və ruh hallarını da araşdırmış və rəvayətçilər zənciri haqqında ayrıntılı bilgi vermişdir. İslam ən azından ilk çağlarında məntiqli bir din olmuşdur. Bu üzdən də məsul şəxslər kifayət qədər bilgiyə və sezgi qüdrətinə sahib olsaydılar doğrunu yanlışdan ayırd etmək bir o qədər də çətin iş olmazdı. Ancaq zaman keçdikcə nəzər əhli insanların, alimlərin yerini müt´i və senzuraçı şəxslər almışdır. Yalnız bu hadisə islam dininin meyarlarını sual altına apara bilməmişdir.

Məhəmməd Əbuzöhrə "Peyqəmbər haqqında yalanların uydurulması və fəqihlər arasında dərin görüş ayrılıqlarının ortaya çıxması" adlı məqaləsində yazır ki, peyqəmbərin vəfatından sonra saxta hədislərin təzahür etməsinin amillərindən birisi də bu idi ki, islam dünyası nifaq və iç savaş nəticəsində ikiyə bölünmüşdü. "Məzhəbi duyğuların və həyəcanların altında iqtidar hərisliyi yatmışd. Elə bir hərislik ki, islam ümmətini uzun sürən savaşlara sövq etmiş və sonunda böyük bölünməyə səbəb olmuşdur."[32] Əbuzöhrənin böyük bölünmədən məqsədi beş il davam edən iç savaş nəticəsində Əbutaliboğlu Əlinin qətl edilməsi və sünni-şiə anlayışlarının doğuşudur.

Bu bölünmənin amillərindən birisi xəlifənin iş başına gəlməsi ilə bağlı alınan qərar idi. Sünnət əhli Müaviyəni Əlinin canişini kimi seçdilər. Çünkü onlar belə hesab etmişdilər ki, Müaviyəni seçməklə iç savaşı durdura biləcəklər. Ancaq Əlinin tərədarları etiraz etdilər və Müaviyənin seçilməsi ilə iç savaşın bitməyəcəyini, davam edəcəyini söylədilər. Onlar belə hesab edirdilər ki, Müaviyənin seçilməsində saxtakarlığa yol verilmişdir. Şiəyə görə, yalnız Əli və onun törəmələri xilafətə layiqmiş. Bu bölünmə müsəlman arasında dərin uçurum yaratdı. Hər iki qarşı dəstə öz siyasi nəzəriyələrini, fiqh qanunlarını oluşdurmağa başladılar. Ayrıca bu iki əsas dəstə də öz

[32] محمد ابوزهره، مالک، دارالفکر عربی، قاهره، بی تا، ص 126

içlərində zaman axışı içində bir neçə təriqətlərə, dəstəlrə bölündülər. Bütün bu bölünmələr eyni zamanda mürəkkəblik və anlaşılmazlıqlar doğururdu. Zaman keçdikcə bu dəstələrin arasındakı nifrət dalğaları bə΄zən fəlakətlərə yol açırdı. Hər bir dəstə digərini dindən çıxmış, kafir kimi tanımlayırdılar. Ancaq ilk çağlarda islam ümməti Əli və Bəniüməyyə olmaq üzrə ikiyə bölünmüşdü. Bu üzdən də bir çoxları məzhəbi təmayüllərini buraxdılar. Məzhəbi meyllər get-gedə zəifləməyə və çökməyə başladı. Saxta hədislərin miqdarı zaman keçdikcə artırdı ki, bu da möminlərin ciddi rahatsızlıqlarına səbəb olurdu. Onlar fənn (metod, teknik) alimləri məşvərət etdilər. Belə qərara gəldilər ki, ən mötəbər hədisləri məktub hala gətirməklə bu saxtakarlığın qarşısını alsınlar.

İlk müsəlmanlar arasındakı siyasi keşməkeşləri anlaya bilmək üçün yaxşı olar ki, peyqəmbərin dəfn törəninə bir nəzər salaq.

Peyqəmbər həftənin birinci günü vəfat etdi. Ancaq cənazəsi üçüncü günədək dəfn olunmamışdı. “Peyqəmbərin cənazəsi bir örtük altında evinin küncündə idi. Hər kəs peyqəmbərin canişini haqqında düşünürdü və kimsə cənazənin dəfni ilə uğraşmırdı.”[33] Əslində o zaman siyasi iqtidara gəlmək uğruna başlayan mübarizə heç bir zaman bitmək bilmədi. Əbubəkir istisna olmaqla daha sonrakı üç xəlifə terror edilərək öldürüldülər. Onların yaşamlarını incələmək, əski və indiki durumları anlaya bilmək üçün bizə yardımçı olacaqdır. Eləcə də saxta hədislərlə mötəbər hədisləri ayırd etməmiz üçün o zamankı obyektiv durumları dərk edə biləcəyik.

# IV

# Siyasi konfliktlər

Peyqəmbərin vəfatından üç gün sonra Ömərin girişimi ilə Əbubəkir müsəlmanların xəlifəsi olaraq seçildi. Bu zaman demək olar ki, iqtidar Mühacirlərin əlindən çıxıb Ənsara keçmişdi.Bu iki dəstə arasında hər zaman sərt rəqabət olmuşdur. Bə΄zən bu rəqabətlər qarşıdurmalara gətirib çəıxardığında Peyqəmbər ixtilafı yatırmışdır. Örnəyin, 628-ci ildə savaşların birində peyqəmbərin ordusu Mühacirlər və Ənsar dəstələrinə ayrılmışdı. Ənsar, Mühacirlərə qarşı qılınc çəkmişdi. Ortaya çıxmış olan bu fitnədə qəbiləlik kimliyi çox böyük rol oynamışdı. Mühacirlərin Mədinəyə gəlişlərini heç bir zaman səmimiyətlə qəbul etməyən Mədinə qəbilələrinin

[33] Tabari, Mohammed, Sceau des profetes, p. 352.

başçılarından biri olan Abdulla ibni Əbi bu qarşıdurmanı bu şəkildə anlatmışdı: “Mühacirlər Mədinəyə gəldiklərində yoxsul və dərviş durumda idilər. Biz onlara imkan yaratdıq. İndi onlar bizi saymaz olmuşlar. Bu da "سَمَّن كَلَّکَ يَاکُکَ"- yəni “Öz itini o qədər yedirt ki, sənin özünü də yeməyə başlasın”- əski ərəb atalar sözünü xatırladır.” [34] Peyqəmbər bu tayfa başçısının sözündən çox üzülmüşdü. Bu səbəbdən də İnsar və Mühacirlər arasındakı münasibətləri daha da ciddi şəkildə kontrol etməyə başladı. Ancaq Peyqəmbərin vəfatından sonra kül altındakı əski nifrət közləri ortaya çıxmağa başlamışdı.

Peyqəmbərin vəfat xəbərini duyar-duymaz, Ənsar qəbilələrinin başçıları Məhəmmədə canişin təyin etmək üçün Səqifədə bir toplantı keçirdilər. Səqifə, Bənisaidə qəbilələrindən birinə aid olan bir növ tavanlı ev idi. [35] Peyqəmbərə yaxınlıqları ilə bilinən Əbubəkir və Ömər bu toplantıdan xəbərsiz idilər. Bu toplantı haqqında bir nəfər Əbubəkirə və Ömərə bilgi verdi. Adam camiyə girib dedi ki, Ənsar toplantı keçirir və Peyqəmbərin canişini kimi Sə´d ibni İbadə ilə beyət etmək istəyirlər. Əbubəkir ayağa qalxıb Ömərin əlindən yapışaraq oranı tərk edib Səqifəyə getdilər.[36] Onlar yas törənini tərk edib və Səqifəyə getmək zorunda qalmışdılar. Bənisaidənin bu evində müsəlmanların gələcəyi ilə bağlı ən önəmli qərarlar alınacaqdı. Ənsarın irəli sürdüyü iki adayı Mühacirlər qəbul etmədikləri üçün sözlü dartışma başlamışdı. Ənsar dedilər: “Siz Mühacirlərin güclü olmanıza bizim şəkkimiz yoxdur. Lakin biz öz içimizdən birini rəhbər olaraq seçmək istəyirik. Siz də öz içinizdən birini seçin. Belə olursa hər iki dəstə razı qalar və konflikt də çözülmüş olar.”[37] Peyqəmbərin ən yaxın dostları olan və peyqəmbərin sünnətinin davam etməsində israrlı olan Əbubəkir və Ömər, Qüreyş qəbiləsinə mənsub idilər. Lakin Qüreyşin qəbilə başçılarından deyildilər. Ənsar arasında Əbubəkir və Ömər kimi Peyqəmbərə bu qədər yaxın olanlar yox idi. Belə bir durumda Əbubəkir və Ömər öz siyasi liderliklərini Ənsara necə qəbul etdirəcəkdilər? Əbubəkir və Ömər Ənsardan istədilər ki, öz təkliflərini davam etsinlər. Daha sonra Ömər toplantının ən həssas və uyğun bir yerində gedişatın nəbzini ələ almağı başardı.

Ömər toplantının davamı nəticəsində daha gərgin ixtilafların ortaya çıxmasından qorxurdu. O üzdən də toplantının tam həssas bir yerində əlini Əbubəkirə uzadıb: “Əlini uzat və bizim beyətimizi qəbul et. Çünkü sən Qüreyşin ən seçkin fərdisən və hər kəsdən daha çox sən bu məqama layiqsən,”- dedi. Ömər, Əbubəkirin əlini sıxıb ona beyət etdi. Bu xəbər

[34] İbid, s. 236.
[35] İbni Hişam, 171 سيره، ج 4، ص 303، بن سعيد، الطبقات الكبرى، دارالصدر، بيروت، بى تا، ج3، ص
[36] Tabari, Mohammed, Sceau des profetes, s. 349.
[37] Eyni qaynaq.

Mədinədə yayılar-yayılmaz hər kəs Səqifəyə qaçmağa başladı. Böyük bir izdiham yaranmışdı. Bu izdihamda Sə´d ibni İbadə ayaqlar altında qalıb ölüm yatağına düşdü. [38] Peyqəmbərin vəfatından sonra islam, yalnız seçkinləri və əyanları içinə alan bir proses kimi başladı. Bu seçkinlər öz üsullarını qorumaq üçün müzakirə edib anlaşdılar. Bu üsul toplantıda bulunanların mənafeyi baxımından fərqli idi. Beləliklə, qəbilə sisteminə qarşı olan peyqəmbərin idealı qısırlığa itələndi.

Iki il sonra yəni 634-cü ildə Əbubəkirin vəsiyəti üzərinə Ömər xəlifə oldu. İlk dörd xəlifə arasında yalnız Əbubəkir öz əcəli ilə ölmüşdür. Əbubəkir ömrünün sonlarında xəstəliyi şiddətləndiyi zaman gizlincə Ömərin xəlifəliyi ilə bağlı nəzərləri öyrənmişdi. [39] Əbubəkir Əşrəf-ün Nas (aristokrat əhali) toplantısına qatılıb sormuşdu: "Məndən sonra xəlifə olacaq adamı mən təklif etsəm, qəbul edəcəksinizmi?"[40] Sonra da Əbubəkir nəzərdə tutduğu adamın Ömər olduğunu açıqlamışdı. Onlar cavab verdilər: "Sənin təklifini qəbul edirik."[41] Başqa bir rəvayətə görə, camaat dolayısıyla Əbubəkirin ağlında olan kişinin Ömər olduğunu anlamışdı.[42]

Ömərin xilafəti 10 il sürdü. Bu müddət ərzində müsəlmanlar Sasani imperatorluğunu devirib Misiri də öz idarələrinə keçirdilər. Müsəlmanlar islam ordusunun nizamlanmasını və maliyə işlərinin düzənlənməsini Ömərə borcludurlar. Ömər, müsəlman olmayanların Məkkədə məskunlaşmalarına izin vermirdi.[43] Əslində islamda ilk dini ayrı-seçkilik də Ömərin zamanında başlamışdır. Müsəlman olmayanların Mədinədə məkunlaşdıqları təqdirdə ağır maliyat ödəmələri gərəkirdi. Mədinədə məskunlaşıb və ağır maliyat ödəyənlərin biri də xristian olan Əbulolo adında bir kölə idi. Əbulolo ödədiyi ağır vergiyə etiraz edirdi. Bu haqda Ömərin özünə birbaşa şikayət etmişdi. Ancaq Ömər onun vergisini azaltmamışdı. Ömər hesab edirdi ki, onunla çox ədalətli davranılır, müsəlman olmadığı üçün bu vergini ödəməli idi. Bir cümə günü Ömər cəmaət namazındaykən, Əbulolo onu səcdə halında qəmə ilə arxadan vurdu. Çox sərt şəkildə yaralanmış olan Öməri evinə apardılar. Ömər aldığı yaradan qurtula bilməyib öldü. Ömər ölüm ayağında bir toplantı düzənlədi ki, ona ilk dəfə olaraq şura deyildi. Bu şuraya 6 seçkin və tanınmış şəxsləri təyin etdi. Onlardan istədi ki, aralarından birini xəlifə olaraq birlikdə təyin etsinlər. [44] Ömərin ölümündən üç gün sonra Osman xəlifə olaraq seçildi. Osman da öncəki iki xəlifə kimi məkkəli və Qüreyş

[38] Eyni qaynaq ingilizcə mətnində, s. 351.
[39] Tabari, Tarix, cild 3, s 51.
[40] Eyni qaynaq, s. 192.
[41] Eyni qaynaq, s. 31.
[42] بن سعد، طبقات، ص 192
[43] مسعودی، مروج الذهب، دارالمعرفت، بیروت 1982 و طبری، تاریخ، ج 5، ص 16.
[44] طبری، تاریخ، ج3، ص 33.

soyundan idi. Ancaq Osman, Peyqəmbərin qəbiləsinə rəqib olan Bəniüməyyə qəbiləsindən idi. Bəniüməyyə və Bənihaşimin ortaq cəddləri Əbdi-Mənaf adlanırdı. Ayrıca Məhəmməd Peyqəmbərin Rüqəyyə adında qızı ilə evlənmiş olan Osman ilk başdan Məhəmmədin missionunu dərindən anlamış və Qüreyş tayfaları arasındakı qarşıdurmalarda Məhəmməd Peyqəmbəri savunmuşdu.

Osmanın da xilafəti çox kədərli surətdə sona çatdı. 11 il sonra 655-ci ildə onun iqtidarını ədalətsiz sayan bir qrup Osmanın evini mühasirə etdi. Sonra da bu çıldırmış dəstə evə zorla girib Quran oxumaqla məşğul olan Osmanın başını kəsdi.[45] Osmanın ölümü ilə islam tarixində ilk iç savaş başladı. Əbutaliboğlu Əlinin 4-cü xəlifə olaraq seçilməsinə baxmayaraq, iç savaş sona çatmadı.

Əbutaliboğlu Əli 656-ci ildə iğtişaşa qərq olmuş Mədinədə xəlifə seçildi. Ancaq bəzi müsəlmanlar onun xilafətini məşru (leqal) olaraq tanımadılar. Bu üzdən də Əliyə qarşı savaşa hazırlaşdılar. Ayişə bir il sonra məşhur Cəməl hərbində Əliyə qarşı başlayan savaşın rəhbərliyini öz əlinə aldı.[46] Ayişə bu savaşda yenildi. "Yazqısını qadınlara tapşıran toplumlar mutlu ola bilməzlər" hədisi də bu savaşdan sonraya aiddir. Əbutaliboğlu Əli, Cəməl savaşından sonra hərbi və iqtisadi baxımdan zəiflədi və digər ələ bir düşmənlə qarşılaşdı ki, siyasi və hərbi baxımdan çox təhlükəli və hiyləgər idi. Bu rəqib Suriyənin hakimi Əbusüfyanoğlu Müaviyə idi. Müaviyə, Əlini Osmanın qatillərini cəzalandırmadığı üçün tənqid edirdi. Müaviyə, Osmanın qəbiləsindən, yəni Bəniüməyyə soyundan idi. Ayişənin əsgərlərinin sayı bir neçə min nəfər idi, lakin Müaviyənin əmrində olan orduda 85 min nəfər təlim görmüş savaşçı var idi. Əli 90 min əsgərlə İraqdan savaş meydanına yönəldi.[47] Siffeyn adında bir yerdə Əli və Müaviyə arasında qanlı döyüş başladı. Bu savaşda rəqiblərin heç biri digərinə üstün deyildi. Ölülərin sayı 70 min nəfərdən artıq idi. Bu savaş hekəmiyət (Əbumusa Əşərinin hakimliyi ilə verilən məşhur qərar) sona çatdı. Əbumusa Əşəri bu qərarı ilə Əlini xilafətdən məhrum edib Müaviyəni müsəlmanların xəlifəsi olaraq tanıdı. Bu hekəmiyətdə saxtakarlığı yol verildiyi, bir çox təsirli şəxslərin Müaviyə tərəfindən satın alındığı önəmli tarixi qaynaqlarda yazılmaqdadır. Əlinin tərəfdarları hekəmiyətin bu qərarını ədalətsiz sayıb qəbul etməz, Müaviyəni xəlifə saymazlar. Onlar Müaviyəni qasib, yəni xilafəti qəsb etmiş olaraq bilirdilər. Müaviyə və Əlinin tərəfdarlarından başqa Xəvaric adında üçüncü bir qrup da peyda oldu. Xəvaric, yəni xaric olanlar. Bunlar öncə Əlinin ordusunda olub, daha sonra ayrıldıqları üçün onlara Xəvaxic, yəni xaric

---

[45] Eyniu qaynaq 5-ci kitab, s. 113.
[46] Eyni qaynaq, s. 203.
[47] Məsudi, Mürrvic-ul Zəhəb, 3-cü kitab, s. 649, 667.

olanlar deyilirdi. Xəvaric nə Əlini nə də Müaviyəni xəlifə olaraq qəbul edirdi. Bu üzdən də həm Əlini həm də Müaviyəni öldürmək qərarına gəldilər. Onlar belə hesab edirdilər ki, bu iki nəfəri öldürməklə islam dünyasındakı nifağı, ayrılıqçılığı da ortadan qaldırmış olacaqlar. İslam adına öldürürdülər.

"40-ci hicrət ilində Xəvaricdən bir qismi Məkkədə toplaşıb baş vermiş savaşlar, böhranlı durum haqqında fikir alış-verişində bulundular. Onlardan üç nəfər peyman bağladılar ki, Əlini, Müaviyəni və Əmroası öldürsünlər. Belə anlaşdılar ki, öldürülməsi gərəkən şəxsləri qətlə yetirmədən geri dönməyəcəklər... Həm də bu qətllərin rəməzan ayının 17-də və bəzi qaynaqlara görə isə ramazan ayının 21-də (661-ci ildə) gerçəkləşdirsinlər."[48] Bunlar bir həddə qədər öz düzənəklərini (planlarını) həyata keçirə bildilər. Müaviyə yaralandı, Əli ramazan ayının 19-da sabah namazını camidə qılarkən Xəvaricə mənsub olan İbni-Mülcəm tərəfindən yaralandı. Bu sərt yaradan iki gün sonra Əli vəfat etdi. Xüləfayi Raşidin (böyük xəlifələrin) hekayəsi burada sonra çatır. Çünkü Müaviyənin iqtidara gəlməsi ilə kimsə təkrar xəlifənin "şura" yolu ilə seçiləcəyinə inanmırdı. Müaviyə çox rahatlıqla öz oğlu Yəzidi varis olaraq təyin etdi. Qəbilə aristokrasisini ortadan qaldırmaq hədəfi ilə meydana gəlmiş olan islam, Əməvilər tərəfindən qəbilə mənafei yolunda vasitəyə dönüşdürülürdü. Müaviyə 680-ci ilə qədər iqtidarda oldu. O, bu uzun sürən hökuməti ilə istibdadın, despotizmin əsaslarını Əməvi dövlətinin bütün qatlarında yerləşdirməyə bolluca zaman əldə etmişdi.

## Hədisin ortaya çıxışı

Hədisin ortaya çıxışının tarixi məcrası ilə tanış olmaq üçün ilk dörd xəlifənin seçilmə prosesinə bir nəzər salalım. İlk on ildə və Müaviyənin iqtidara gəlməsindən öncə siyasi qərarlar əhli-beyt (vəfadarlıq peymanı bağlayanlar) arasındakı icma`, aristokratlar (qəbilələrin seçkin və inanılır rəhbərləri) və həll-ü əqd (peyman bağlayanlar, ancaq peymanlarını gerialma haqqına sahib olanlar) əsasında alınırdı, yəni bu üç kəsimin ortaq qərarı lazım idi. Burada hər qrupun məzhəbi mətnləri öz mənafeləri əsasında anlamaları söz konusu olmuşdur. Bu şəkildə hədisin toplanmasında iki zidd baxış ortaya çıxdı: Birinci dəstə öz mənafeləri doğrultusunda hədislərdən sui-istifadə edən siyasətçilər idi. Bu qrupun qarşısında duran ikinci dəstə isə

[48] Eyni qaynaq, 6-ci kitab, s. 83.

ülәmalar (din alimlәri) idi. Bu keşmәkeşlәrә Buxari әn yaxşı bir örnәkdir. O, bir islam aydını olaraq iqtidar vә siyasәtdә olmaqdan uzaqlaşıb hәdislәri toplamağa başladı. Ancaq öz elmini siyasәtin xidmәtinә tәqdim etmәk üçün Buxariyә tәzyiqlәr edildi. Buxari, adından da bәlli olduğu üzrә Buxarada dünyaya gәlmiş vә 870-ci ildә vәfat etmişdir. O, bir çox öz çağdaşları kimi bilgilәnmәk amacı ilә islam ölkәlәrinin çoxunda olmuş vә geniş araşdırmalar aparmışdır. Suriyәdә, Misirdә vә Hicazdakı araşdırmalarından sonra Misirdә iqamәt etmişdir. Buxari hәdis elmindә mütәxәssis olan bütün alimlәrlә söhbәtlәşmişdi. Bütün rәvayәtlәr bir mәcmuәdә toplandıqdan sonra peyqәmbәrin sünnәti vә ya tәlimlәri hәdis adı altında rәsmilәşmәyә başladı. Buxari hәdislәrә әsaslanaraq doğru yolu (sirati-müstәqim) müsәlmanlara göstәrә bilmәk üçün Quranla hәdisin uyğunluğu üzәrinә dә bir metod gәlişdirmişdi.

Buxari elmi bir metoddan yararlanaraq 1080 nәfәrlә söhbәt edib 60.000 hәdis topladı. O, çox böyük bir zәhmәt vә sәdaqәtlә bu işi görür vә peyqәmbәrә aid olmayan yayqın saxta hәdislәri öz mәcmuәsinә almırdı. Hәdislәri toplama işi bitdikdәn sonra onların doğruluğu üzәrinә araşdırmalara başladı. Buxarinin qarşılaşdığı әsas çәtinlik araşdırmanın metodu idi. Bir hәdisin doğru ya da saxta olduğunu necә dәqiqlәşdirmәk olar? Buxari üçün peyqәmbәrin zamanına aid olan bütün hadisәlәri qәlәmә almaq ciddi bir vәzifәyә dönüşmüşdü. Buxari yazır: "1080 nәfәrin izharlarını dinlәdikdәn sonra yazmağa başladım vә hәr bir hәdisi qüsl alıb, iki rükәt namaz qıldıqdan sonra yazdım."[49] O, ibadәt yolu ilә könlünü tәmizlәyir vә araşdırmaya dәrin zәka vә aydın bir ruhla yanaşırdı.

O, elmi metodunu hazırladıqdan sonra saxta hәdislәrlә doğru hәdislәri ayırd etmәyә başlamışdı. Bir çox hәdislәrlә tanış olduqdan sonra saxta hәdislәri kәşf etmә elminә sahib oldu. Kimsә hәdis elmindә ona tay ola bilmәz. Kimsәnin onun qәdәr bu sahәdә bilgi vә başarıya sahib olduğunu iddia etmәk mümkün deyil. Hәdisi isbatetmә metodu kamillәşdikdәn sonra yalnız 7257 hәdisin doğruluğu dәqiqlәşdi. 4000 hәdis dә tәkrar olduğu üçün mәcmuәyә yerlәşdirilmәdi.[50]

Göründüyü kimi, Buxarinin zamanına qәdәr, yәni iki yüz ildәn daha az bir zaman içәrisindә 596725 saxta hәdis ortaya atmışlar. Eyni miqyasda bu gün dә nә qәdәr saxta hәdislәrlә qarşı-qarşıya olduğumuzu tәsәvvür etmәk olar. Tәәssüflәr olsun ki, din alimlәrinin hәdislәr üzәrinә mövcud olan şübhәlәri ortadan qalxmışdır.

---

[49] Buxari, Sәhih, I kitab, S. 1.
[50] Buxari, Sәhih, s. 3.

Buxari bi işə başlarkən, hədisləri rəvayət edən şəxslərin həyatı üzərinə “Tarix-i Kəbir” (Böyük tarix) kitabını yazmaq zorunda qaldı. Beləliklə Buxari, elmi araşdırmalara metodu ilə məşhurlaşdı. Lakin siyasilər onun bu əməlindən xoşlanmırdılar. “Buxari öz yurduna döndüyündə şölən (ziyafət) alaçıqları quruldu, bütün əhali onu qarşılamağa çıxdı. Daha sonra Buxari ilə şəhərin hakimi arasında ixtilaf yarandı. Buxari sürgün edildi.”[51] Mövzu belə imiş ki, şəhərin hakimi din elmlərinə vaqif olduğunu iddia edirmiş. Bu iddiasını Buxarinin yanında isbatlamaq üçün onu saraya çağırmış. Buxari şəhərin hakiminin göndərdiyi elçiyə “Get, sultana de ki, mən elmə çox hörmət edən bir insanam, onu sultanların sarayında cəhalətə dönüşdürmək istəmirəm,”- demiş.

Bütün alimlər Buxari kimi elmə dəyər verməmişlər. Çoxları özlərini siyasətçilərə çox ucuza satıb, saxta hədislərin davam etməsinə zəmin yaratmışlar. Qazi Əyaz saxta hədisləri bu şəkildə sinifləndirmişdir: Birinci qrup hədislər peyqəmbərə aid edilir, lakin peyqəmbər heç bir şəkildə onu söyləməmişdir. Bu növ hədislər özləri də iki qrupa ayrılır. Birinci qrup maddi mənafe adı ilə peyqəmbərə aid edilmişdi. İkinci qrup isə ideoloji mənafelər üzərinə düzəldilmişdir.[52] İkinci qrup saxta hədislər məzmun olaraq saxta deyillər, ancaq rəvayətçilərin diqqətsizlikləri nəticəsində hədisdə dəyişikliklər ortaya çıxmışdır. Məsəl üçün, çox zəif hədisləri, çox mötəbər rəvayətçilər zəncirinə aid edirlər.[53] Qazi Əyaz üçüncü bir qrupa da işarə edir ki, çox maraqlıdır: “Bir qrup hədislər var ki, tam saxtadır və onu rəvayət edən şəxs iddia edir ki, bir şeylər eşitmiş, ancaq bu haqda heç bir şey onun qulağına dəyməmişdir. Kimlərisə gördüyünü iddia edir ki, əslində heç mötəbər bir kəsi də görməmişdir.”[54]

IX əsrdə yaşamış olan İsfəhani, çox maraqlı bir hadisəni nəql edir. Bəniüməyyə qəbiləsindən iqtidarda olan birisi bir şairdən istəyir ki, 4000 dinar qarşısında peyqəmbər zamanına aid olduğu mümkün olan bir şeir yazsın. Şeirin hədəfi peyqəmbərin rəqibi olan Bəniüməyyə qəbiləsini mədh etmək olmalı imiş. Şair deyir ki, mən belə şeir yazmaqdan qorxuram, lakin əgər israr edirsinizsə, “Ayişənin bir şeir zümzümə etdiyini” yazaram.[55]

Ayişənin çox da önəmli birisi olmadığını düşünən adam şairin təklifini qəbul etmir və deyir ki, ”Mən istəyirəm sən deyəsən ki, Bəniüməyyə soyundan olan Hesan ibni Sabit peyqəmbərin qarşısında bu şeiri oxumuş və Bəniüməyyəni öyərək, peyqəmbərə öz nifrətini bildirmişdir.”[56]

---

[51] Əsqəlani, Fəth-ül Bari, I kitab, s. 265.
[52] Əbu Zöhrə, Malik.
[53] Eyni qaynaq, s.148.
[54] Eyni qaynaq.
[55] ابوالفرج اصفهانی، کتاب الاغانی، دارالاحیا، التراث العربی، بیروت 1969 ج 1 ص 23.
[56] Eyni qaynaq.

Yuxarıda söylənilən şərh, siyasi və iqtisadi mənafelərin saxta hədislərin ortaya çıxmasına necə zəmin yaratmasına bir örnəkdir. Bu əməl hicrətin 10-cu ilində səfər ayının 28-də birinci gün peyqəmbərin vəfatından dərhal sonra başlamış və bu günə qədər də davam etməkdədir. Yəni peyqəmbərin cənazəsi hələ dəfn edilmədən Bəniüməyyə saxtakarlığa başlamışdır.

# III

# Qadına inamsızlıq gələnəyi (ənənəsi)

## 1

Buxarinin verdiyi məlumata görə, Əbubəkirə bu cümləni eşitmiş ki, "İşlərini qadınlara tapşıranlar heç bir zaman mutlu olmayacaqlar."[1] Bu hədis Buxari tərəfindən "doğru hədislər məcmuəsi"ndə yer aldığı üçün hər zaman islam tarixində önəmli olmuşdur. Lakin bizim hədəfimiz elmi bir araşdırmadır. Bir müsəlman qadın olaraq hədislər üzərinə tarixi və metodolojik bir araşdırma aparmağıma heç bir şey əngəl ola bilməz. Bir hədisin rəvayətçiləri üzərinə daha dəqiq, elmi və tarixi bir tədqiqatın lazım olduğu qənaətindəyəm. Özəlliklə bu hədisin ilk dəfə olaraq ortaya çıxdığı tarixi şəraiti incələmək gərəkməkdədir. Kim, harda, nə zaman, niyə və kimə peyqəmbər bu hədisi söyləmişdir? Əbubəkirə peyqəmbərin səhabilərindən biri olmuş və Məhəmmədlə sıx irtibatda imiş. Əbubəkirənin söylədiyinə görə, peyqəmbər eşitdiyində ki, Sasani imperatorluğunun başına bir qadın gəlmiş, o zaman bu hədisi şöyləmiş. "Sasani padşahı Ənuşirəvan öldüyündə, Sasani imperatorluğundakı hadisələrlə maraqlanan peyqəmbər "Ənuşirəvanın yerinə kim taxta çıxmışdı?" sormuş. Peyqəmbərə cavab vermişlər ki: Onlar hökuməti Ənuşirəvanın qızına buraxmışlar."[2] Bu zaman Əbubəkirənin dediyinə görə, peyqəmbər bu hədisi söyləmişdir. Ancaq nədən peyqəmbər hələ müsəlman olmamış Sasanı hadisələrini islam məntiqi ilə dəyərləndirməli idi ki? Çünkü Sasanı inancındakı üsul-idarə ilə islam üsul-idarəsi kökündən fərqli idi. Sasani dövlətini istər kişi, istərsə qadın idarə etsin, hər iki halda islamın siyasi fəlsəfəsinə zidd olan bir sistemi peyqəmbər nədən yalnız qadın məsələsindən dolayı tənqid etsin? Sasani dövlətinin başında bir kişi olsaydı, peyqəmbər o dövlətin yönətim şəklini qəbul mu

---

[1] Buxari, Səhih, XIV kitab, s. 226.
[2] Əsqəlani, Fəth-ül bari, Qahirə, Bita, XIII kitab, s. 46

edəcəkdi? Zatən daha sonra Xosrov Pərvizə yazdığı məktubunda Sasaniləri islama dəvət edəcəkdi.

628-ci ildə Sasanilərlə Roma arasında gedən uzun savaşdan sonra Roma imperatoru Heraklius Sasanilərin başkəndi Tisfonun yaxınlıqlarına qədər işğal etdi. 632-ci ildə Sasani padşahı Xosrov Pərvizin ölümündən sonra Persia dövlətini iğtişaş bürüdü. Bir çox varis, o cümlədən iki qadın da taxt-tac iddiası ilə ortaya çıxdılar.[3] Belə bir sual ortaya çıxır: Peyqəmbərin qadınlar haqqında belə hədis söyləməsinə bir dövlətin iç problemləri mi olmuş? Sasani imperatorluğundakı siyasi bir hadisə Tanrı elçisinin davranışını niyə təsirləndirməlidir? Buxari ayrıntılara keçmədən, yalnızca Əbubəkirənin sözlərini zikr edir. Yəni hədisin məzmunu Sasani dövlətindəki hadisə ilə bağlantılı şəkildə təzahür edir. Əbubəkirə haqqında daha artıq bilgi əldə etmək üçün Əsqəlaninin böyük əsərinə müraciət etməliyik. Əsqəlani 17 kitabdan ibarət olan "Fəth-ül Bari" adlı kitabında Buxarinin "Səhih"i haqqında geniş bilgi verməkdədir. Əsqəlani "Səhih"in hər bir hədisi haqqında geniş tarixi, siyasi tərcüme-i hal, savaşların şərhi, savaşlarda tərəf müqabil olanların vəziyyətləri, rəvayətçilərin kimlikləri, nəzərləri haqda geniş izahatlar yazmışdır. Yəni bir araşdırmaçının bütün maraqlarına cavab verəcək bilgilər Əsqəlaninin "Fəth-ül Bari"əsərində birikmişdir.

Əbubəkirə bu hədisi nə zaman və hansı ictimai şəraitdə rəvayət etmişdir? Əbubəkirənin güclü hafizəsi olmalı imiş, çünkü bu hədisi peyqəmbərin vəfatından tam 25 il sonra yəni Ayişənin Cəməl savaşındakı məğlubiyyətindən və Əlinin idarəsinə Bəsrənin keçməsindən sonra rəvayət etmişdir.[4]

Ayişə Məkkəyə həcc ziyarətinə getmişdi. Orada Osmanın terror edildiyinin və Əlinin iqtidara gəldiyinin xəbərini eşitdi. Bu zaman Ayişə Əliyə qarşı savaşın rəhbərliyini ələ almağı düşündü. Günlər ard-arda keçirdi və Ayişə Kufəyə ya da Bəsrəyə gedəcəyi haqda qərar verə bilməmişdi. Ayişə önəmli bir şəhəri tərcih etməli idi ki, orada Əliyə qarşı yetərincə müxaliflər bulmuş olsun.[5] Bu müxaliflərdən yardım bəkləyirdi. O, bir çox müzakirələr və təmaslardan sonra Ayişə Bəsrəni öz qərargahı kimi tərcih etdi. Bu zaman Əbubəkirə şəhərin seçkin insanlarından biri sayılırdı. Bir çoxları kimi, o da bu savaş ərəfəsində gərgin durumda idi. Əbubəkirə bilmirdi, Ayişənin tərəfində durub Əliyə qarşı savaşsın, yoxsa Əlinin tərəfində durub peyqəmbərin dünya və axirətdə sevgilisi olan Ayişəyə qarşı çıxsın. Ayrıca Bəsrə Əbubəkirə üçün doğulduğu yer deyil, vəzifəyə çatmaq üçün uyğun

[3] Hodgson, Venture of islam, vol.1, P. 199
[4] Əsqəlani, Fəth-ül Bari, Qahirə, Bita, XIII kitab, s. 46
[5] Əsqəlani, Fəth-ül Bari, XII kitab, s.49.

məkan olduğunu nəzərə alanda onun gərginliyini daha da rahat anlamaq mümkündür.

Əslində Əbubəkirə üçün islam çox uyğun maddi şərait təmin etmişdi. İslamı qəbul etmədən öncə O, Taifdə çox təhqiramiz həyat sürürdü. Taif elə bir şəhər idi ki, orada yalnız qəbilə aristokratları böyük vəzifəyə çata bilirdilər. Əbubəkirə kimi kölələrin şəhərin vəzifəli şəxsləri olmalarına imkan yox idi. 630-cu ildə peyqəmbər Taif şəhrinin fəthinə qərar vermişdi. Bu zaman peyqəmbər yenicə Məkkəni ələ keçirib, şəhərdə kontrolu sağlamışdı. İslamın qarşısında duran Taifliləri məğlub etmək üçün bu şəhəri də islamın nəzarətinə keçirməyi planlamışdı. Ancaq Taif əhalisi çox güclü şəkildə şəhəri savunurdu. Peyqəmbər şəhərin kənarında alaçıqlar qurdurdu. 18 gün şəhəri mühasirədə saxladı. Taiflilərin ox atanları peyqəmbərin ordusuna ciddi zərər vermişdilər. Peyqəmbərin ordusundan 12 nəfər öldürüldü. Peyqəmbər bu şəhəri heç bir itki vermədən ələ keçirməyi düşünmüşdü. Vəziyətin peyqəmbərin düşündüyünün tərsinə olaraq irəliləməsi Məhəmmədi əndişələndirməyə başladı. Peyqəmbər bu savaşda ölənlərin ailələrini də yaxından tanıyırdı. Bu ölənlər məchul adamlar deyildilər. Nəhayət, peyqəmbər mühasirədən əl çəkib geri çəkilmək qərarına gəldi. Ancaq geri çəkilmədən öncə Taifdə olan kölələrə xəbər çatdırdı ki, şəhəri tərk edib islam ordusuna qatılan bütün kölələr özgürlüklərini qazanacaqlar, artıq kölə olmayacaqlar.[6] 12 kölə Taifi gizlincə tərk edib peyqəmbərə qatıldı. Bu 12 kölənin içində Əbubəkirə də var idi. Bu kölələrin sahiblərinin etirazlarına baxmayaraq, onlar bütün müsəlmanlarla qardaş və bərabər hüquqlu insanlar olaraq duyuruldular.[7] Beləliklə, Əbubəkirə həm müsəlman oldu, həm də özgürlüyünü qazandı.

Bir neçə ildən sonra Əbubəkirə İraq şəhərlərinin birində mühüm və sayılan şəxs olduğunda Məhəmmədin "Bütün yoxsullar və dünyanın əzilmiş insanları özgürlüklərini qazanıb iqtidara və zənginliyə sahib olacaqlar" kimi arzuları gerçəkləşirdi. Əbubəkirə kimi bir kölənin bu qədər sürətli şəkildə toplumsal status qazanması islamın verdiyi mesajları ciddiləşdirirdi. "Siz ərəblər çox aşağı və fəlakətli bir durumda yaşayırdınız. İslam və Məhəmməd Sizi qurtarıb bu yerlərə yüksəltdi."[8] Əbubəkirə islamı qəbul etdikdən sonra inanılmaz bir sürətlə sosial tərəqqi pillələrini irəliləyib keçdi. "O, çox imtinalı şəxs idi. Ömrünün sonuna qədər də beləcə qaldı. Onun evladları da zənginlikləri və elmləri hesabına Bəsrənin seçkin insanları arasındaydılar."[9]

[6] بن سعد، طبقات، ج3، ص 159

[7] Eyni qaynaq

[8] Əsqəlani, Fəth-ül bari, Qahirə, Bita, XIII kitab, s. 622.

[9] بن اثیر، اسدالغایه فی تمیز الصحابه، دارالفکرالطباع والتوزیع، بی تا، ج5، ص 38

Səhabilərin həyatları qələmə alındığı zaman bir çox alim Əbubəkirə ilə ilgili olaraq çətinliklə qarşı-qarşıya gəlmişlər, çünkü Əbubəkirənin soyu haqqında güvənli bilgi yox idi. Səhabilərin soyu haqqında araşdırma aparan İbni-Hənbəl etiraf edir ki, "Əbubəkirə haqqında dərin araşdırma aparmadım. Onun üstündən sürətlə keçdim. Çünkü onun üzərində dərin araşdırma aparmamağım təklif edilmişdi."[10] Əbubəkirə o saysız kölələrdən idi ki, islamdan öncə onların soylarını bəlli etmək mümkün deyildi. Əski ərəb qəbilələrində önəmli bir soydan məhrum olmaq, hər növ ictimai statusdan məhrum olmaq anlamında idi. Bu da doğrudur ki, islami toplumda qeyri-məşru (qeyri-leqal) yolla doğulanlar önəmli sosial statusa yüksələ bilməzlər. Ancaq onların təhqir olunma səbəbi tamamı ilə fərqli mövzudur. Islam öncəsi tarixdə ən uzaq əcdadı belə, müəyyən etmək böyük bir imtiyaz sayılırdı.

İslamın inqilabi şivələrindən biri iddə məsələsi idi. Inqilab burada keçmişdən və gələnəklərdən qopuş anlamındadır. İddə nə deməkdir? Yəni bir qadın, əri öldükdən və ya boşandıqdan sonra bir neçə kərə aybaşı qadın xəstəliyi mərhələlərini keçirdikdən sonra evlənə bilər. Dul qadın bir neçə kərə aybaşı xəstəliyini keçirmədən evlənmə haqqına sahib deyil. İddədən məqsəd qadının daha öncəki ərindən gəbə qalıb-qalmamasının bəlli olmasıdır. Beləliklə, qadın hamilə olduğunda uşağın gerçək atasının kim olduğu tam və dəqiq olaraq bilinmiş olur. İslamdan öncə uşağı ata soyuna mənsub etmək ya önəmli deyildi (çünkü bir çox qəbilələrdə hələ ana mərkəzli soy anlayışı hakim idi), ya çətin idi (savaşlarda əsir alınan qadınlarla seksual ilişkiyə girilirdi və sonra da bu qadınların çoxu kölə olaraq satılırdılar), ya da qeyri-mümkün idi. Siğə (keçici evlənmə) kimi məslələrdə buna əhəmiyət də vermirdilər. Siğə bu günə qədər də şiə inancında davam etməkdədir. Siğəni II xəlifə Ömər yasaqlamışdır. Şiənin Ömərə qarşı antipatiyası olduğu üçün onun yasaqladığı bir çox şeyləri mübah və məqbul görmüşlər. Bu üzdən də islam öncəsi qəbilələrin bir gələnəyi olaraq bilinən siğə, varlığını şiə inanışında sürdürməkdədir. Sünnilikdə islam öncəsi bütün ənənələr tənqid edildiyi üçün siğə də qəbul edilməmiş, rədd edilmişdir. Siğə və ya keçici evlilik qadın və kişinin anlaşaraq bir neçə günlüyünə və ya bəlli bir zaman içində birlikdə yaşamağa qərar verməlәridir. Bu keçici evlilikdə ayrılıq zamanı da öncədən müəyyənləşdirilir. Sünni məzhəblərin yasaqladığı bu növ evlilik ticarətlə uğraşan islam öncəsi ərəb qəbilələri arasında çox yayqın idi. Soyun itməsinə səbəb olan, ailənin qüdsiyətini ortadan qaldıran və bir növ yasallaşdırılmış əxlaqsızlıq olan siğə şiə inancında özünə yer edib günümüzə qədər davam

[10] Eyni qaynaq. 4-cü kitab, s. 578.

etmişdir. Sünni məzhəblər bu növ keçici evliliyin ailənin müqəddəsliyini zədələdiyi inancında olmuşlar. Bu növ evlilikdə uşağın atasını müəyyən etmək ya çətin olur, ya da heç mümkün olmur.

Bu səbəbdən də Əbubəkirə örnəyi də istisna deyildir. Kimlik bunalımı içində olan şəxslər üçün bu özü-özlüyündə ağır bir sorundur. Bunlar toplumda ikinci dərəcəli insan sayılmaqdan əzab çəkirlər. Hədis rəvayət edən şəxslərin soylarını dəqiqləşdirmək çətin bir məsələ kimi araşdırmaçıların önünə çıxırdı. Əbubəkirə elə bir adam idi ki, islam ona sadəcə zənginlik və şöhrət bağışlamamış, həm də ona kimlik qazandıraraq heysiyətli bir şəxsə çevirmişdi. O, daima ətrafındakı müsəlmanlara “Mən sizin dini qardaşınızam”[12] deyirdi. Belə bir sabiqə ilə çox rahatca anlamaq olar ki, o, islam toplumunu zəiflədəcək hər növ iç savaşa qarşı imiş və iç savaş çıxaranları düşmən kimi görürmüş.

Nədən o, öz zehnində saxladığı peyqəmbərə aid olduğu bir cümləni 25 il söyləməmiş və yalnız Ayişə məğlub edildikdən sonra söyləmək zərurətini hiss etmişdir? Ayişə, Cəməl savaşında məğlub edildikdən sonra Əbubəkirə bu hədisi təbliğat apararcasına söyləyir. Cəməl savaşından sonra Ayişənin vəziyəti yaxşı deyildi. Siyasi baxımdan tam olaraq çökmüş və 13000 hamisi də savaşda öldürülmüşdü.[13] Əli, Bəsrəni geri almışdı və ona qatilmayanlar peşman durumdaydılar. Burada Əbubəkirə kimi bir fürsətçinin nədən belə bir ortamda peyqəmbərə aid bir sözü xatırladığı anlaşılırdı. Əli tərəfdarlarının yanında onun sabiqəsi heç də yaxşı deyildi. Çünkü, nəinki savaşa qatılmamışdı, həm də bir çox peyqəmbər səhabiləri kimi tərəfsizliyini açıqca elan etmişdi.

Bir çox savaşlarda peyqəmbərin yanında olan Ayişə hərbi təcrübəyə sahib idi. Savaşın gedişinə yaxşı rəhbərlik edirdi. Bəsrəni mühasirə etmədən öncə önəmli şəxslərə məktub yazaraq savaşın səbəbini və hədəfini anlatmış, onlardan yardım istəmişdi.[14] Müzakirələr aparmaq və toplumla ilişki qurmaq üçün camini Ayişə qərargah olaraq seçmişdi. Bu üzdən də savaş başlamadan öncə Ayişə, Əbubəkirə ilə irtibat qurmuşdu.[15] Əliyə qarşı açdığı savaşa görə, Ayişə bir dəlil gətirməli idi, yoxsa müsəlmanlar durub-durduqları yerdə ona qatılmazdılar. Ayrıca, müsəlmanların bir-birinə qarşı qılınc çəkəcəklərini Məhəmməd islamın qorxunc dönəmi olaraq adlandırmışdı. Ayişə, Osmanın qatillərini cəzalandırmaq yerinə onlara dövlətin müxtəlif orqanlarında vəzifə verməsini Əlinin suçu olaraq görürdü. Osmanın qatillərinin heç biri cəzalanmamış tam tərsinə olaraq ordunun üst düzeyində Əli tərəfindən

---

[12] بن اثیر، اسدالغایه فی تمیز الصحابه، دارالفکرالطباع والتوزیع، بی تا، ج5، ص 38
[13] Məsudi, Mürəvvic-ül Zəhəb, II kitab, s. 380.
[14] Təbəri, tarix, V kitab, s.182.
[15] Əsqəlani, Fəth-ül bari, Qahirə, Bita, XIII kitab, s. 46.

görəvlənmişdilər. Bəsrə əhalisinin bir qismi Ayişənin söylədiklərini qəbul edirdi. Ona görə də Ayişəyə əsgər və silah verdilər. Əlinin təyin etdiyi Bəsrənin hakimini Ayişə vəzifəsindən uzaqlaşdırıb onun bulunduğu yeri hərbi qərargah təyin etdi. Daha sonra yaxın və uzaq müsəlman ölkələrlə təmasa keçdi. Peyqəmbərin ən yaxınlarından olan Təlhə və Zübeyr də bu işdə ona yardım edirdilər.Təlhə və Zübeyr də Ayişə kimi Qüreyş qəbiləsindən idilər. Onlar da belə hesab edirdi ki, Əbutaliboğlu Əli ədalətsiz davranmış və qatilləri cəzalandırmaq yerinə sanki onları təltif edərcəsinə vəzifələndirmişdi. Hicrətin 36-ci ilində müsəlmanlar iki qarşı cəbhəyə parçalandılar. Bir çoxları da qərar verməkdə zorlanırdılar. Bilmirdilər Osmanın qatillərini ödülləndirən Əliyə, yoxsa Ayişəyə qarşı savaşsınlar. Müsəlmanların çoxu Ayişə ilə Əlinin aralarındakı problemin nə olduğunu doğru-dürüst anlamış deyildilər. Hətta anlamaq da istəmirdilər. Bir qism isə demokrasinin olmamasını problemin qaynağı olaraq görürdülər. Bir gün Bəsrədə bir camidə Ayişənin tərəfdarları Əliyə qarşı təbliğat apararkən izdihamın içindən bir kişi qalxıb elə önəmli bir məsələ irəli sürdü ki, onun bu söylədikləri islamın ilk çağlarında anlaşılmamışdır. Hətta bu gün də tam olaraq anlaşılmış deyildir. Bu gün də onun söylədiklərini qulaqardı edirlər, yəni islamın qeyri-demokratik tərəfi. Bəsrə Məscidində danışan bu kişinin sözləri onun canı bahasına tamam oldu. Beləliklə, ilk demokrasi səsini islamın ilk başlarında boğdular. Bu adam müsəlmanlardan Ayişənin xeyirinə beyət alanlara üzünü tutaraq uca səslə dedi: “Ey Mühacirlər dəstəsi! Peyqəmbərin dəvətini ilk qəbul edənlər Sizlər olmuşsunuz. Bu, sizlər üçün bir üstünlükdür. Digər insanlar da sizlər kimi islama iman gətirdilər. Peyqəmbər vəfat etdikdən sonra öz içinizdən birisi ilə beyət etdiniz. Özünüzə başçı seçdiyinizdə bizim kimi sadə insanların fikri ilə heç hesablaşmadınız. Ancaq bütün bunlara rəğmən bizlər razılaşıb itaət etdik. Tanrı da Əbubəkirin dönəmində müsəlmanlara nemət bağışladı. O da Öməri özünə canişin təyin edərək vəfat etdi. Bu seçimdə də sadə insanların istəyi ilə hesablaşmadınız. Yenə də razılaşıb itaət etdik. Ömər də vəfat etdiyində varis xəlifənin seçimini altı seçkin müsəlmana tapşırdı, bütün müsəlman xalqa deyil. Bizimlə heç məşvərət etmədən Osmanı xəlifə olaraq seçdiniz. Yenə də biz sadə xalqla məsləhətləşmədən Osmana qarşı çıxıb onu öldürdünüz. Yenə də biz sadə xalqın nəzərini soruşmadan Əli ilə beyət etdiniz. İndi niyə bizi Əliyə qarşı savaşmağa çağırırsınız? Əli, beyt-ül mala zərər mi vermiş, ədalətsizlikmi etmiş, savaş qənimətlərini ədalətsizmi bölüşdürmüş? Əgər bunların heç birisi ortada yoxdursa, nədən Əli ilə savaşmaq istəyirsiniz?”[16]

---

[16] Təbəri, Tarix, V kitab, s.179.

Ayişənin nümayəndələri Əbubəkirə ilə əlaqə saxladılar, o, “Mən fitnəyə və iç savaşa qarşıyam” dedi və davam etdi: “Bu doğrudur ki, Ayişə bütün islam ümmətinin anası sayılır. Bu doğrudur ki, Ayişə möminlərin anası olaraq boynumuzda haqqı var. Ancaq mən peyqəmbərdən eşitdim, dedi ki: “İqtidarı qadınlara tapşıranlar heç bir zaman mutlu ola bilməzlər.”[17] Göründüyü kimi, bu qədər səhabilərin içində Əbubəkirə bir tərəfi ancaq qadın olduğu üçün məhkum edir, suçlu göstərməyə çalışır.

Təbərinin rəvayətinə görə, Ayişənin məğlubiyətindən sonra Bəsrə əhalisi bir neçə gün təşviş və iztirab içində oldu. Bir sual ortalıqda dolaşırdı ki, görəsən, Əbutaliboğlu Əli onu himayət etməyənlərdən, o cümlədən Əbubəkirədən intiqam alacaqmı? “Savaşdan sonra Əbutaliboğlu Əli ümumi əfv elan etdi. Savaşın son günündə belə bir bildiri yayınlandı ki, silahı buraxıb təslim olanlar və eləcə də Bəsrədən öz yurdlarına dönənlər bağışlanacaqlar.”[18] “Əbutaliboğlu Əli bir neçə gün savaş cəbhələrində oldu. Hər iki tərəfin cənazələrinin dəfn edilməsinə əmr verdi. Öz şəhərinə dönmədən öncə hər iki tərəfdə ölənlər üçün yas mərasimlərinin keçirilməsinə əmr çıxardı.”[19]

Ancaq bütün bunlara baxmayaraq, məsələ o qədər də asan deyildi. Örnəyin, Əbumusa Əşəri də anlamsız saydığı savaşa qatılmağı qəbul etmədi, bu üzdən də öz vəzifəsindən kənarlaşdırıldı. Əbumusa Əşəri islam dövlətinin Kufədəki nümayəndəsi idi. Əbutaliboğlu Əli, Ayişə tərəfindən mühasirə edilmiş Bəsrəyə hərəkət etmədən öncə Əbumusa Əşəriyə nümayəndələr göndərib ondan həm yardım və silah, həm də əhalini Ayişəyə qarşı savaşa qaldırmasını istədi. Ancaq Əlinin bu çağrısını Əbumusa Əşəri qəbul etməyib əhali ilə məşvərətləşdi. Əbumusa Əşəri camidə toplaşan əhaliyə peyqəmbərin iç savaşla bağlı fikrini çatdırmaq istədi. O, peyqəmbərin iç savaşla bağlı bir hədisini rəvayət edib, əhalidən istədi ki, Əlini himayət etməsinlər. Əbumusanın fikrinə görə, bu fitnəni əngəlləmənin yolu heç bir tərəfi himayət etməmək idi. İç savaşla bağlı Əbumusanın söylədiyi hədislərin heç birində tərəflərin qadın ya kişi olması nəzərdə tutulmamışdı.[20] Buxari iç savaşla bağlı bütün hədisləri “Əl-fitnə” adlı bir fəsldə toplamışdır ki, bu hədislərdən biri də Əbubəkirəyə aiddir. Yalnız Əbubəkirənin rəvayət etdiyi hədisdə savaş cəbhəsində bir tərəfin sərkərdəsi qadın olduğu üçün məhkum edilir.”[21]

---

[17] Əsqəlani, Fəth-ül Bari, XIII kitab, s.46.
[18] Məsudi, Mürəvvic-ül Zəhəb, II kitab, s.378.
[19] Təbəri, Tarix, V kitab, s. 221.
[20] Eyni qaynaq.
[21] Buxari, Səhih, VI kitab, s. 221.

Bu gün məşhur Cəməl savaşının tarixçəsini bilən adama maraqlı görünən budur ki, Cəməl savaşına həm qarşı olanlarda, həm də tərəf tutanlarda Ayişəyə ayrıca bir hörmət olmuşdur. Nadir hallarda Ayişəni təhqir edənlərə rastlanılır ki, bu da şiə avantürizmi və bir də məsələnin dərinliyini bilməyən adi kütlə tərəfindən baş verməkdədir. Alimlər yazırlar ki, yalnız şiə tarixçiləri əllərində heç bir tutarlı dəlil olmadan Ayişəni suçlu göstərməkdən xoşlanırlar.

Əli, Əbumusa Əşərini olduğu vəzifədən kənarlaşdırıb Kufədən uzaqlaşdırdı. Əbumusa Əşərinin yerinə daha az barışsevər və daha çox əmrə tabe olan müti birisini təyin etdi.[22] Əbubəkirə bu kimi kritik durumlarda digər hədislər də rəvayət etməkdədir. Ən maraqlı olan da budur ki, Əbubəkirənin rəvayət etdiyi hədislərdə onun fürsət arxasınca olduğu məsələnin ortaq yanını təşkil edir. Örnəyin, Əlinin qətlindən sonra onun oğlu Həsən yazılı şəkildə öz haqqından imtina etdiyini açıqladı. Əlioğlu Həsənin bu yazılı açıqlamasından sonra Müaviyə rəqibsiz olaraq xəlifə oldu. Əlioğlu Həsənin bu açıqlamasının təzyiqlər altında gerçəkləşdiyi tarixçilər tərəfindən qəbul edilmişdir.[23] Əlioğlu Həsənin öz haqqından imtina etdiyi kritik siyasi durumda Əbubəkirə "Həsən barış əhlidir" hədisini rəvayət edir.[24] Bu hədis doğru olsa belə, peyqəmbər onu Həsənin kiçik yaşlarında söyləmişdir. Peyqəmbərin zamanındakı siyasi şəraiti peyqəmbərsiz olan bir ortama tətbiq etmək doğru olmaz, çünkü peyqəmbərdən sonra nə qədər qanlar tökülmüş, düşmənliklər ortaya çıxmışdı. Ən kiçik yaşında heç bir siyasi şüuru olmayan Həsənin durumunu ən olqun yaşındakı durumu ilə qiyaslamaq elmi olaraq doğru ola bilməz. Siyasi fürsətləri doğuran hədisləri açıqlamaqda, göründüyü kimi, Əbubəkirənin heyrətamiz hafizəsinin olduğuna tanıq oluruq. Bu hədisi söyləməkdən də məqsədi özünü Müaviyənin yanında şirin göstərməyə xidmət etmişdir.

Madam ki hədisin tarixi çərçivəsi aydınlaşdı, fəqihlərin doğru olaraq qəbul etdikləri bu hədisin doğru olub-olmaması üzərinə tənqidi yanaşalım. Bu tənqidi yanaşmada fəqihlərin "Hədisin doğruluğunu isbatetmə üsulu" metodundan faydalanacağıq.

İmam Malik İbni-Üns´ün (VIII əsr) metodunda birinci maddə bundan ibarətdir ki, "məzhəbə bir elm olaraq" baxmaq gərəkir. Şafei və Əbuhənifə kimi, Malik də [24]müsəlmanlarda haram və halalı sezmə bilgisini gəlişdirən islam böyüklərindən olmuşdur. Malik İbni-Üns daima deyirdi: "Məzhəb bir elmdir. Ona görə də məzhəbi bilgiləri öyrəndiyiniz şəxslərə diqqət edin.

---

[22] Təbəri, Tarix, V kitab, s.190.
[23] Əsqəlani, Fəth-ül Bari, XII kitab, s. 51.
[24] Eyni qaynaq, s.56.
[24] بن عبدالبر، الانتفاء فی فضائل الثلاثه الائمه الفقها، دارالکتب العلمیه، بیروت، بی تا، صص 10و 16

Əlbəttə, mən çox şanslı olmuşam ki, səhabilərin və hədis rəvayətçilərinin 70 nəfəri həyatda olduqları bir zamanda Mədinədə dünyaya gəlmişəm. Onlar adətləri üzrə camilərə gedib dinləyənlərə peyqəmbərin hədislərini söyləyirdilər. Ancaq mən bu hədislərin heç birini toplamadım. Ona görə yox ki, bu səhabilərə güvənmirdim. Ona görə ki, onlar elmi baxımdan səlahiyətləri olmayan mövzulara müdaxilə edirdilər."

Malik İbni-Üns΄ün dediyinə görə, peyqəmbərin zamanında yaşamaq hədisin qaynağı olma baxımından yetərli deyildir sadəcə. Bu səlahiyəti əldə etmək üçün elmi təcrübələrin, elmi səlahiyətin olması zəruridir. "Bilgisiz insanlardan bu yolda faydalanılmamalıdır." Onların hədisin qaynağı olub-olmamalarından öncə elm qaynağı olub-olmamalarını dəqiqləşdirmək lazımdır. Elmi düşüncədən məhrum olan birisini elm mənbəyi olaraq görmək mümkün deyildir. Ayrıca, fikir və elmi qüvvət hədisi rəvayət edənlərin ölçü meyarı ola bilməz. Ən önəmli meyar əxlaq məsələsidir.

Malikin dediyinə görə, bəzi insanlar heç bir şəraitdə hədis rəvayətetmə səlahiyətinə sahib deyillər. "Bir ağılsızı, duyğulu kişini və hətta elmi səlahiyəti olmayan bir şeyxi hədis rəvayətçisi olaraq qəbul etmək olmaz."[25]

O, rəvayətçilərə inanmır və müsəlmanlara israrla deyir ki, bu mövzuda çox ehtiyatlı olun. Hətta deyirdi ki, rəvayətçilərin gündəlik həyatdakı davranışlarına, maraqlarına da biz diqqət etməliyik. Bəzi insanları hədislərin rəvayətçiləri kimi qəbul etmədim. Bu ona görə deyildir ki, onlar öz əməllərinin miqyası haqda yalan söyləmiş və ya peyqəmbərə aid olmayan bir hədisi nəql etmişlər. Bu ona görə idi ki, onların ictimai münasibətlərində yalandan da öz məqsədləri üçün faydalandıqlarını sezdim."[26]

Əgər biz bu metodu Əbubəkirə üzərinə də tətbiq etsək, dərhal onu hədis rəvayətçiləri cərgəsindən çıxarmalıyıq. Çünkü bir təzkirə yazarının dediyinə görə o, bir dəfə zina haqqında yalan danışdığına görə cəzalanmış və ikinci xəlifə Ömər ona şallaq vurulması əmrini vermişdir.[27]

Zina edənlərə Ömər ölüm hökmü çıxarırdı. İslamdan öncəki cinsi münasibətlərin çox pis şəkildə mövcud olan yayqınlığını kontrol etmək və insanların soyunu qorumaq üçün çox sərt yasalar tətbiq edilirdi. Evlilik çərçivəsindən kənar olan hər növ cinsi münasibətlər yasaqlandı. Yalnız islami izdivac çərçivəsində bir kişiyə bir neçə qadınla evlənmə haqqı tanınmışdı. Ayrıca, tanınmış olan bu dini haqqa görə qadınları çox rahat şəkildə boşayıb, başqası ilə evlənmək mümkün idi.

---

[25] Eyni qaynaq.
[26] Eyni qaynaq, s. 15.
[27] بن اثیر، اسدالغایه فی تمیز الصحابه، ج5، ص 38.

Hələ əski qəbilə törələrindən arınmamış olan yeni islami toplumu Ömər ata mərkəzli bir sistemə oturtmaq üçün çox qətiətli davranırdı. Zina edənləri öldürmək üçün dörd nəfər müsəlmanın şahid keçməsi lazım idi. Ayrıca, biri digərinə zina töhməti atsa idi, o da cəzalanırdı.

Peyqəmbərin ən yaxın adamlarından biri olan Müğirət ibni Şəəbəyə´nin zina etdiyinə tanıqlıq edən dörd nəfərdən biri Əbubəkirə idi. Ömər bu haqda geniş bir araşdırma başlatdı. Sonunda bu dörd nəfərdən biri dedi ki, zinanı gözü ilə görməmiş, zinanın olub-olmamasına tam arxayın deyil. Bir nəfərin bu şəkildə şübhəli davranması səbəb oldu ki, qalan üç nəfər, o cümlədən Əbubəkirə də başqasına töhmət atmaq suçu ilə cəzalansın. Bu əsasla Əbubəkirə özəl həyatındakı yalançılığından dolayı mötəbər bir hədisi rəvayətetmə yetkisinə sahib deyildir.

Buxari bu hədisi səhih (doğru) olaraq görməsinə baxmayaraq, Əbubəkirənin rəvayət etdiyi bu hədisə şübhə ilə yanaşanlar da olmuşdur. O cümlədən Təbəri belə bir hədisin varlığına şübhə etmişdir. Bu hədisin qadınları siyasi həyatdan məhrum etmək amacı ilə düzəldildiyini və tarix boyu pis niyyətlərlə istifadə edildiyini yazmışdır.[28]

Bütün bu tarixi bəlgələrdən yola çıxaraq hədislər üzərinə daha ehtiyatlı yanaşmaq gərəkir. Çünkü bir nəfərin öz mənafeyi uğruna peyqəmbərdən saxta hədis rəvayət etdiyinə tarixi verilər əsasında tanıq olduq.

# IV

# Qadına inamsızlıq gələnəyi

## 2

Orta məktəbdə məzhəb tarixi dərsliyi hədislərin tədrisi ilə başlayırdı. Bu hədislərin bir çoxu məni həddindən artıq rahatsız edirdi. Örnəyin,

[28] Əsqəlani, Fəth-ül Bari, XIII kitab, s. 47.

peyqəmbərə aid olduğu söylənən bu cümlə məni çox üzürdü: "Peyqəmbər dedi: Əgər köpək, eşşək və qadın namaz qılmaqda olan bir müsəlmanın önündən keçərsə, onun namazı batil olur."[1] Bunları oxuduğum zaman bir qadın olaraq özümü aşağılanmış və itin, eşşəyin səviyəsinə endirildiyimi hiss edirdim. O zaman 16 yaşım var idi. Öz-özümə fikirləşirdim: "Nədən peyqəmbər qadınları bu qədər aşağılamış, qadını it və eşşək səviyəsinə edirmişdir?" Digər tərəfdən də düşünürdüm ki, bu söylənənin peyqəmbərin özəl həyatı ilə, qadınları ilə olan irtibat şəkli ilə heç bir əlaqəsi yoxdur.Özəl həyatında qadınlarla bərabər hüquqlu şəxs kimi davranan peyqəmbər nədən bu sözləri söyləməyə ehtiyac duymuşdur? 16 yaşımda ikən peyqəmbərə bu qədər içdən bağlı olan bir qadın olaraq nədən onun tərəfindən bu qədər sərt şəkildə təhqir olmalıyam?

Peyqəmbər yalnız bir dövlət başçısı deyildi. O, həm də aşiq bir kişi idi, sevirdi. Bir gün Əmro İbni As peyqəmbərdən soruşdu: dünyada ən çox sevdiyin insan kimdir? Peyqəmbər dedi: "Dünyada Ayişəni hər kəsdən daha çox sevirəm."[2] Peyqəmbərin qəlbindəki sevimli insanın kişi olmadığını eşidən Əmro İbni As heyrətləndi. Peyqəmbərin ən yaxın səhabəsi və böyük hərbi istedada sahib olan Əmro As, peyqəmbərin könlündəki kişinin bir hərbçi olmadığına şaşırmışdı. O üzdən peyqəmbərdən sordu: "Kişilərin içində ən çox sevdiyiniz kimdir?" Peyqəmbər iqrar etdi ki: "Ən çox sevdiyim kişi Ayişənin atası Əbubəkirdi."[3] Əbubəkir çox həssas birisi idi, hətta Quran oxurkən göz yaşlarını saxlaya bilmirmiş.

Gücün hakim və qılıncın sultan olduğu Ərəbistanda peyqəmbər qadını kişiyə açıqca tərcih etmişdir. Peyqəmbərə istinad edərək qadını it və eşşəklə eyni səviyədə görən Əbuhərirə nə kimi xəta etdiyinin fərqində deyildir. Bu kimi hədislərdən qaynaqlanan təhdid və təhlükənin miqyasını anlaya bilmək üçün öncə "qiblə" sözünün mənasını anlamalıyıq.

Qiblənin sözlük mənası "yön" deməkdir. İslamda isə qiblə, Kəbəyə tərəf bir yön deməkdir. 630-ci ildə Məkkə fəth edildikdən sonra qiblə sözü müsəlmanlar arasında fərqli bir anlam qazanmışdır. Kəbə ilk başdan müsəlmanların qibləsi olmamışdır. Peyqəmbərin istəyi üzərinə müsəlmanlar bir neçə ay Beyt-ül Müqəddəsə tərəf namaz qılmışlar. Yəni islamda ilk qiblə Beyt-ül Müqəddəs olmuşdur. Peyqəmbərin çocuqluq dönəmində Kəbə bütpərəst qrupların mərkəzi idi. Ancaq Məhəmməd, Cəbraildən ilk vəhyi (açınımı) aldığı zaman Xədicə ilə birlikdə Kəbəyə tərəf namaz qılmışdır. Məkkə əhalisi peyqəmbəri incidib onu təhqir etdiklərində O da Büyt-ül Müqəddəsə tərəf üz tutaraq namaz qılmışdı. Peyqəmbər, Mədinəyə

---

[1] Buxari, Səhih, I kitab, s.99.

[2] İmam Zərkeşi, 52 .ص ،1980 ،الاجابه لايراد ما استدركته عائشه على الصحابه، سعيد افغانى، بيروت، المكتب الاسلامى

[3] Eyni qaynaq

çatdıqdan sonra Beyt-ül Müqəddəsə tərəf namaz qılınmasını istəmişdi. Bu iş 16 ay davam etdi. Bir gün Ənsar içindən bir nəfər dedi: "Mən şəhadət verirəm ki, peyqəmbər üzü Kəbəyə tərəf durduğu zaman dedi: "Siz də yönünüzü Kəbəyə tərəf dəyişdirin."[4] Bu yön nədən dəyişdi? Dəyişikliyin fəlsəfəsi nə idi və hansi tarixi-ictimai şərtlər bu dəyişikliyi doğurdu? Bu dəyişikliyin təməlində özəlliklə ərəb milli kimliyi durmaqda idi. XII əsrdə Tanrı birliyinin (tövhidin) muşduluqçusu olan islam yəhudiyətin və xristianlığın bir parçası kimi anlaşılırdı. Ayrıca, məntəqənin məzhəbi coğrafiyasının strukturundan qaynaqlanan bir özəllik islamı da bütpərəstlik ənənəsinin davamı olaraq təlqin edirdi. Belə bir şəraitdə ərəblərə xas olan yeni bir dinin peyqəmbəri olduğunu savunan Məhəmməd hansı yönü seçməli idi? Onun qarşısında bir çox alternativ mövcud deyildi. 622-ci ildə Onu Məkkədən uzaqlaşdırmışdılar. Beyt-ül Müqəddəsə tərəf yön bəlli etmək də yəhudi və xristian gələnəyi sayılırdı. Məkkəlilərin düşmənçilikləri səbəbi ilə əhli-kitab olaraq bilinən yəhudilər və xristianlar müsəlman üçün müttəfiq kimi görünürdülər. Məkkənin köçkünlərini qəbul edən Həbəşənin əfsanəvi padşahı Nəcaşi´nin davranışı müsəlmanların nəzərində xristianlığa olumlu bir surət bağışlamışdı. Ancaq həm sayca çox olan, həm də Mədinənin zənginliklərini əllərində tutan yəhudilər peyqəmbərə qarşı çox şiddətli tutum içində idilər.[5]

Mədinə yəhudiləri peyqəmbərə hörmətsizlik edir və onun dininin Tanrısal (ilahi) olmadığını söyləyirdilər. Ərəb mənbələrində peyqəmbərlə yəhudilər arasındakı elmi mübahisələr haqqında geniş bilgi var. Yəhudilərdən ümidini kəsən peyqəmbər qibləni Beyt-ül Müqəddəsdən Kəbəyə tərəf çevirdi.

Peyqəmbər Mədinəyə gəldiyində şəhərin əhalisinin çoxu yəhudi və xristianlardan ibarət idi. Tanrı onların kinlərini önləmək üçün peyqəmbərə Beyt-ül Müqəddəsə tərəf namaz qılınmasını əmr etmişdi. Lakin Məhəmməd İbrahimin və İsmayılın da qibləri olan Kəbənin qiblə olaraq müəyyən edilməsini Tanrıdan istəyirdi. Bu istəyinin Tanrı qatında qəbul edilməsi üçün Peyqəmbər hər gün dua edirdi.[6]

Şərqşünaslar da bu mövzunu araşdırmışlar. Onlar peyqəmbərin missionunu uluslararası çərçivədə təhlil etmişlər. Bir ərəbin Tanrı qatından insanlara xəbər gətirdiyini yəhudilər qəbul edə bilmədikləri üçün peyqəmbəri dəlilikdə suçlayırdılar.[7] Yəhudilərin islamı xristianlıqdan daha

---

[4] İmam Nəsai, Əl-süənən, I kitab
[5] İbni Hişam, Səyərə, I kitab, s. 344.
[6] Tabari, Mohemmed, Sceau des profetes, p. 135.
[7] William Montgomery Watt, "Criticisms of the Claim to Prophethood", in Bell`s İntroduction to the Koran, revised and enlarged by William Montgomery Watt, Edinburgh University Press, Edinburgh, 1970, pp.17ff.

çox təhlükə qaynağı kimi görmələrinin səbəbi coğrafi iç-içəlikləri idi. Coğrafi iç-içəlik yəhudilərin mənafeyini dərindən təhdid edirdi. Mədinədə iqtidar əsas iki qrupun əlində idi. Birinci qrup Məhəmmədi Mədinəyə dəvət edən bütpərəst Us və Xəzrəc qəbilələri, ikinci qrup isə yəhudilər idi. Ərəb milli ideologiyasını şəkilləndirməkdə olan Məhəmmədin qarşısında iki alternativ var idi: ya yəhudilər tərəfindən himayət ediləcək, ya da yəhudilərin Ona qarşı çıxmaları durumunda onlarla savaşacaqdı.

Peyqəmbərin "milliləşdirmə" yolunda gördüyü ilk iş yəhudi və xristian miraslarını ərəbləşdirmək idi. Yəhudilər bir olan Tanrının ərəb dilinə bu qədər əhəmiyyət verə biləcəyini qəbul edə bilmirdilər. Bu səbəbdən də yəhudilər belə hesab edirdilər ki, Məhəmməd onların kitablarının mətnini oğurlayıb ərəbləşdirmişdir. Yəhudilərin peyqəmbərə qarşı şiddətli təxribatları davam edirdi. Bu üzdən də peyqəmbər onlarla savaşaq qərarına gəldi. Belə bir sual ortaya çıxır: əgər yəhudilər peyqəmbəri himayət etsəydilər, islamın aqibəti necə olardı? Bu suala dəqiq cavab vermək mümkün deyil, lakin bəlkə də islam yəhudiliyin bir təriqətinə dönüşərdi.

Bütün olanları göz önündə bulunduraraq unutmamalıyıq ki, Məhəmmədin qələbəsinin səbəbi Ərəbistanın və ərəblərin böyük ideoloji bir dəyişikliyə hazır olmaları idi. Ərəblər toplumsal və iqtisadi böhranla yanaşı ideoloji böhranı da yaşayırdılar. Bu böhran yəhudiləri və xristianları da etkiləyirdi. Ərəblər yəhudiləri ərəblərin içində milli kimliklərini əsaslı şəkildə qazanmış azınlıq olaraq görürdülər. Elə bir kimlik ki, çoğunluqda olan ərəblər ondan məhrum idilər, lakin onu təmin etməyə dərin ictimai bir ehtiyac ortaya çıxmışdı. Ərəblərin bu mənəvi ehtiyacına Quranda israrla təkid edilmiş, "Quranın ərəbcə olması" vurğulanmışdır. Ərəblər elə mənəvi bir bunalım (böhran) içində idilər ki, Tanrının onların dilində danışacağına, ərəb dilinin bu qədər sayqın olacağına inanmırdılar. Belə bir durumda ərəblərin kimlik bunalımını ortadan qaldıran bir inanc kimi, islam ortaya çıxırdı. Yeni iqtisadi və ticari bağlılıqlar əski qəbilələrin bir araya gəlmələrini, anlaşmalarını əngəlləyirdi. Lakin islam bütün bu əngəlləri aşıb vahid bir ərəb millləti, ərəb kimliyi yaratmanın sistemini ortaya qoyurdu. Belə bir şəraitdə peyqəmbər qiblə haqqında öz qərarını dəyişdirdi və Beyt-ül Müqəddəsin yerinə Məkkəni seçdi. Məkkə ilə müqayisədə Beyt-ül Müqəddəs islam üçün daha təhlükəli idi. Məkkənin qiblə olaraq seçilməsi ilə peyqəmbər iki hədəfinə çatırdı: 1. Kökü yəhudilikdə və xristiamlıqda olan bir inanc gətirirdi. 2. İslam  tam bağımsız və heç bir inanışa bağlı olmayan inanc kimi təzahür edir və dünyada yayılmaq üçün öz rəqiblərini kənarlaşdırırdı. İslam ərəb dilində hər kəsə xitab edir. Digər məzhəblərdə olduğu kimi peyqəmbərin nəzərdə tutduğu cami ev deyil, bir görünümdür.

Cami hər yerdə var. “Bütün yer kürəsi camidir.”[9] Müsəlman isə yalnız Kəbəyə yönələrək namaz qılmalıdır. Bu baxımdan Kəbə dünyanın mərkəzində yerləşmiş olur.

İslamda birey (fərd) hər yerdə (küçədə, keçidlərdə, bağda, ormanda, tarlada və savaş meydanında) namaz qıla bilər. “Peyqəmbər qılıncını yerə taxıb və bu şəkildə rəmzi bir qiblə düzəldərək savaşda və səfərdə namazını qılırdı.”[10] Lakin özünə rəmzi bir qiblə təyin edən şəxs diqqətli olmalıdır ki, özü ilə rəmzi qiblə arasında diqqəti yayındıracaq başqa bir şey olmasın. Bütün yer kürəsinin məscid olduğunu düşündüyümüz zaman, qadını itə və eşşəyə bərabər tutmaq bu anlama gəlir ki, namaz qılanın təbiəti ilə qadının təbiəti arasında böyük bir ziddiyət varmış. Bu hədisin rəvayətçisi qadını bu iki heyvanla bərabər tutmaqla qadını insan olma özəlliyindən məhrum edib onu heyvan təbiətində görmüşdür. Ayrıca, bu, o deməkdir ki, namaz qılmaq erkəklərə məxsus olan Tanrı ismarışıdır və qadınların namaz qılmaq və Tanrı ilə üz-üzə durmaq haqları yoxmuş. Yəni qadın namaz qılırkən onun önündən bir qadın keçərsə nə olur sualı da bu saxta hədisdə cavabsız qalır. Digər bir sual da bu şəkildə sorula bilər: nədən heyvanlardan yalnız it və eşşək namazı batil edir? Namaz qılarkən qarşıdan at, dəvə, dovşan, tülkü, qurd və ya aslan keçərsə, namaz batil olur, ya yox?

Ərəb mədəniyəti yazılı bir mədəniyətdir və yalnız bu vəsilə ilə Əbuhərirənin söylədiklərinin kökünə çata bilərik. Abdulla Məsruq´un dediyinə görə, bir gün birisi “qadının itə və eşşəyə bərabər olma” hədisi haqda Ayişədən sual sormuş. Ayişə demiş: “İndi bizi itlə və eşşəklə mi müqayisə edirsiniz? And olsun Tanrının birliyinə ki, bir gün peyqəmbər namaz qıldığında onun qarşısında uzanmışdım. Sadəcə mane olmamaq üçün yerimdən tərpənmirdim.”[11] Möminlər peyqəmbərlə bağlı eşitdiklərini təsdiqləmək üçün Ayişənin yanına gəlib ondan soru sorurdular. Möminlərin Ayişəyə olan güvənləri sadəcə onun peyqəmbərin qadını olması üzündən deyildi, Ayişə diqqətli, dürüst, iqtidarlı bir qadın olması səbəbi ilə bütün möminlərin hörmətini qazanmışdı.

“Peyqəmbərin ən seçkin arxadaşlarının dini məsələlərlə bağlı problemləri ortaya çıxdığında gəlib Ayişədən sorduqlarını bir neçə dəfə gördüm. İbni-Əta, Ayişə haqqında belə dedi: “Fiqh elmində Ayişə ən çox bilgiyə sahib idi. Bir çox hadisələrlə bağlı peyqəmbərin ən yaxın silahdaşları onun fikirləri ilə hesablaşırdılar.”[12]

---

[9] İmam Nəsai, Əl-sünən, I kitab, S.211.
[10] Eyni qaynaq, II kitab, s. 62.
[11] Buxari, Səhih, I kitab, s. 199.
[12] Əsqəlani. عسقلانی، الاصابه فی تمیز الصابه، مکتبه الدراسه الاسلامیه دارالنهضه، قاهره، بی تا، ج8، ص 18.

Ayişənin xəbərdarlıqlarına baxmayaraq, Əbuhərirə “Səhih” kimi mötəbər qaynaqlara nüfuz etməyi başarmışdır. Belə nəzərə gəlir ki, Buxari Ayişənin yalanladığı (təkzib etdiyi) hədisləri daha da hərtərəfli araşdırmağa ehtiyac duymamışdır. Bu hədisin qadınla bağlı təlqin etdiyi ən önəmli mövzu onun “pak olmaması”dır.

Bu hədis qadının ləyaqətini təhqir etdiyi üçün yaxşı olar Əbuhərirənin şəxsiyətini qısaca araşdıralım. Bu mövzunun dərinliyinə girmədən öncə bunu söyləməm gərəkir ki, Əbuhərirənin qadınla bağlı bu şəkildə davranmasının səbəbi onun adının etimolojisi ilə ilgilidir. “Əbuhərirə” sözünün lüğət mənası “dişi pişiyin atası” deməkdir. O, daha öncə “Əbdül-şəms”, yəni günəşin köləsi adlanırdı.[13] Peyqəmbər onun adını dəyişdirmək qərarına gəldi, çünkü bu ad bir növ bütpərəstliyi çağrışdırırdı. “Günəşin köləsi” kimi adlar Yəmən kültürünün özəlliyindən qaynaqlanırdı.Yəməndə sadəcə günəş deyil, qadın olduğu sanılan bir ulduz da pərəstiş edilirdi. Ayrıca o zamankı Yəməm ölkəsində sosial münasibətlərdə qadınların üstün məqamları var idi. Yəmənin Səba ölkəsində Belqıs adında bir kraliçə olmuş və Süleyman peyqəmbəri özünə heyran etmişdi. Yəməndə sultanlıq etmiş bu qadının əfsanələşmiş xatirələri nəsildən-nəsilə dolaşmış və VII əsr Ərəbistanına da gəlib çatmışdır. Quranda Belqıs´la bağlı deyilir:

“Süleman peyqəmbər quşlara nəzər saldı, hüdhüdü görə bilmədi və dedi: Hardadır hüdhüd? Onu cəzalandıracağam. Əgər hüdhüdün yox olması, harda olması ilə bağlı tutarlı bir dəlili olmasa, onun başını kəsəcəyəm. Hüdhüdün gəlməsi uzun çəkmədi. Hüdhüd gəlib dedi: Elə bir şey bulmuşam ki, sən onu daha öncə bilmirdin. Səba şəhrindən sənə xəbər gətirmişəm. Səbaya hökm sürən bir qadın var. Bütün nemətlərə sahibdir və böyük taxtı var. Ancaq onun əmrində olanlar bir olan Tanrının yerinə günəşə səcdə edirlər. Onların xəyallarında şeytan bu əməli bər-bəzəkli göstərib Tanrının yolundan onları azdırmışdır.”[*] Əbuhərirə Yəmənin Dus qəbiləsindən idi.[14] 30 yaşında “Abd-ül Şəms-günəşin köləsi” adı ilə çağrıldığı zaman islamı qəbul etmişdir. Peyqəmbər onun adını Abdulla (Tanrının köləsi) olaraq dəyişdirdi və ləqəbi də Əbuhərirə oldu. Çünkü o daima yanında dişi bir pişik balası gəzdirirdi.[15] Əbuhərirə bu ləqəbdən xoşlanmırdı. Çünkü onun bu ləqəbində qadına xas olan xüsusiyət var idi. Əbuhərirə dedi: “Məni Əbuhərirə olaraq çağırmayın, peyqəmbər mənə Əbuhərir (Erkək pişiyin atası) ləqəbini taxmışdır. Çünkü erkək dişidən daha üstündür.”[16] Onun bir

---

[13] Eyni qaynaq, VII kitab, s. 427.
[*] Quran, Nəməl surəsi, 20, 21, 22, 23, 24-cü ayələr.
[14] عبدالمنعم صالح على العزى، دفاع عن ابى هريره، دارالقلم و مكتبه النهضه، بيروت و بغداد 1981؟ ص 13
[15] عسقلانى، الاصابه، ج 7، ص 426.
[16] Eyni qaynaq, s. 434.

başqa problemi də erkək olmasına baxmayaraq, qadınlara xas peşəyə sahib olması idi. O zaman yəhudilərin tarım və ticarətlə uğraşmaları, Məkkə ilə Mədinə arasındakı ümumi ticarət ilişkiləri Mədinəni zəngin bir şəhərə çevirmişdi. Ancaq Əbuhərirə özünün etirafına görə peyqəmbərə xidmət etməyi tərcih etmiş hərdən də "peyqəmbərin qadınlarının evlərinə uğrayır və onların ev işlərini görürdü. "[17] Bu gerçəkliklər onun dişilərə olan nifrətinin səbəbini açıqlaya bilər.Yəni iki hadisə onun zehnində sirli şəkildə bir-birinə düyünlənmişdir: dişi pişik balasının atası olma ləqəbi ilə peyqəmbərin qadınlarına qulluq etməsi.

O, dişi pişiklər və qadınlar haqqında o qədər kompleksə girir ki, bu kompleksdən qurtulmanın yolunu peyqəmbərin adından dişilər haqqında bir hədis rəvayət etməkdə görür. O, həm də "dişi bir pişik, qadın cinsindən daha üstündür" hədisini də rəvayət edir ki, Ayişə bu hədisi ciddi şəkildə rədd edir. Səhabilərdən biri belə rəvayət edir: Biz Ayişənin yanında idik. Əbuhərirə də orda idi. Ayişə Əbuhərirəyə dedi: Ey dişi pişiyin atası, sənmi bu hədisi peyqəmbərdən duydun ki, "Pişiyin yavrusunu ac və susuz saxlayan qadın cəhənnəmlik olacaqdır?" Əbuhərirə cavab verdi: Bəli, mən eşitdim peyqəmbərin bu söylədiyini. Ayişə rişxəndlə dedi: Tanrı qarşısında mömin çox dəyərlidir. Tanrının mömini yalnız pişik balasına görə cəzalandırması inanılacaq bir şey deyil. Ey dişi pişiyin atası Əbuhərirə, bundan sonra peyqəmbərdən rəvayət edəcəklərinə diqqət et!"[18] Bu üzdən heç də təəccüblü deyil ki, Əbuhərirə Ayişəyə qarşı səsini ucaltmış: "Ola bilər ki, siz möminlərin anasısınız, Tanrını sevən peyqəmbər sizi, siz də onu sevmişsiniz. Ancaq bu söylədiyimi peyqəmbərdən öz qulaqlarımla eşitmişəm." Bir gün Ayişənin "Ey Əbuhərirə, sən peyqəmbərdən elə bir hədis rəvayət edirsən ki, heç vaxt onu eşitməmisən" deməsinə qarşı Əbuhərirə "Ey möminlərin anası, siz güzgü önündə qaş-gözünüzə sürmə çəkib, özünüzü bəzədiyiniz zaman mən hədisləri toplayırdı"[19]-dedi.

İslamın doğuşundan bəri qadınların aybaşı xəstəlikləri və qadınlarla cinsi münasibət ciddi bir problem kimi təzahür etmişdir. Aybaşı xəstəlikləri zamanı qadın murdar və bulanıq sayıla bilərmi? Ayişə və peyqəmbərin digər qadınları israrla söyləyirdilər ki, peyqəmbər bu haqda cahil ərəblər kimi düşünmürdü. Peyqəmbər ramazan ayında daima qüsl edirmişmi? Əbuhərirə peyqəmbərdən başqa bir hədis də bu məzmunda rəvayət edir ki, "Qadınla cinsi irtibatda olmuş kişi oruc tuta bilməz."[20] Bu sözdən sonra səhabilər peyqəmbərin qadınlarının yanına gedib bu haqda bilgilənmək istəmişlər.

---

[17] Eyni qaynaq, s. 441.
[18] امام زرکشی، الاجبه، ص. 112.
[19] Əsqəlani, Əl-isabət, VII kitab, s. 440.
[20] İmam Zərkeşi, Əl-icabət, s. 112.

“Ümmi-Səlmə və Ayişədən bu haqda soru sormuşlar... onlar demişlər: “Peyqəmbər qadınları ilə bərabər olduğu gecələr ... qüsl etmirdi, gündüz də oruc tuturdu.”[21] Səhabilər nə edəcəklərini bilmirdilər. Bir daha Əbuhərirənin yanına gedib bu haqda dəqiq bilgi istədilər. “O dedi: Peyqəmbərin qadınlarımı bunu söylədi? Səhabilər dedilər: Bəli. O zaman Əbuhərirə etiraf etdi ki, bu sözü bir başa deyil, dolayısıyla peyqəmbərdən eşitmişdir. Daha sonra Əbuhərirə ölümündən az öncə söylədiklərinin tamamilə yalan olduğunu etiraf etdi.”[22]

Qüsl haqqında hədis rəvayət edən yalnız Əbuhərirə olmamışdır. Bu haqda Ayişə və səhabilər arasında çoxlu mübahisələr baş vermişdi. “Ömər qadınlara əmr etmişdi ki, qüsl etdikləri zaman saçlarının hörükləri açıq olmalıdır.” Bu sözü eşitdiyi adama Ayişə dedi: “Qəribə işdir... əgər bu məsələ Ömər üçün o qədər önəmlidirsə, niyə əmr etmir ki, qadınlar saçlarını bir dəfəlik dibdən qırxdırsınlar? Heç vaxt unutmaram ki, mən və peyqəmbər doldakı su ilə qüsl edirdik. Mən yalnız üç dəfə yaş əllərimi saçlarıma çəkirdim və heç vaxt saçlarımı qüsl etmək amacı ilə açmırdım.”[23] Ayişə bu rəvayətin düzəldilməsinə israr edirdi, çünkü o, bu kimi yanlış anlamaların uzun tarixi zaman axışı içində ortaya çıxaracağı çətinliklərin bilincində idi. Bu kimi xətaların islam tarixinə sızmasını istəmirdi. Ərəb cahiliyət və qəbilə kültüründə qadınlar aybaşı xəstəliyinə tutulduqları zaman murdar sayılırdılar. Xəstəlik zamanı qadının murdar olaraq görülməsi o zamankı ərəb kültüründəki qadının dəyərsizliyini göstərir. Məhəmməd bu kültürü ortadan qaldırmaq, qadınlara heysiyət qazandırmaq istəyirdi. Peyqəmbərə görə, qadınlara olan bu münasibət iki mənbədən qaynaqlanırdı: 1. Ərəb qəbilələri kültüründən. 2. Yəhudi inancından.

Bu mövzu üzərinə araşdırma aparan fəqihlər ən çox Ayişəni qəbul etmişlər. Bu alimlər inanırlar ki, Ayişənin söylədikləri “bütün xürafatlara qarşı mübarizə aparan peyqəmbərin söylədikləri ilə daha çox örtüşməkdədir. Bu mövzu sadəcə alimlərin diqqətini cəlb etməmiş, xəlifələr üçün də maraqlı olmuşdur: “Əbusüfyanoğlu Müaviyə peyqəmbərin qadını olan Ümmi-Həbibədən sordu: Peyqəmbər qadınları ilə yatdığı paltarları dəyişmədən namaz qılırdımı?” Ümmi-Həbibə dedi: Bəli, paltarını dəyişdirmədən namaz qılırdı. Çünkü peyqəmbər cinsi münasibəti pis bir şey saymırdı.”[24] Yəhudilər qadını aybaşı xəstəliyi zamanı murdar sayırdılar. Ancaq bunun tam tərsinə olaraq peyqəmbər deyirdi: "qadınlarınız aybaşı xəstəliyinə tutulduqları

---

[21] Eyni qaynaq.
[22] Eyni qaynaq, s. 112 və 113.
[23] Eyni qaynaq, s. 111.
[24] Nəsai, Əl-sünən, I kitab, s. 155.

zaman murdar olmurlar, onlara toxuna bilərsiniz, xəstəlik zamanı cinsi ilişkidən başqa istədiyiniz kimi qadınlarınıza toxuna bilərsiniz."[25]

Fiqh (islam qaynaqlı hüquq elmi) kitablarında qüsl və dəstəmaz haqqında çox danışılır. Şübhəsiz ki, islam bədənin təmiz olması üçün çox diqqətlidir. Hər dəfə seks ilişkilərindən sonra qadın və kişinin yuyunmalarını tələb edir. Xüsusən qadının aybaşı xəstəliyi bitdiyində yuyunması gərəkir. Qadının orqanizminin bu şəkildə yaradılışı onun aşağı irfanlı, aşağı elmli bir varlıq olması anlamında deyildir. Ancaq çağımızdakı gerçəkliyin də göstərdiyi kimi, islam toplumları 1500 ildən sonra hələ də peyqəmbərin mesajını anlamış deyillər.

İmam Nəsai peyqəmbərin qadınlarının biri olan Meymunə´dən rəvayət edir: "Bir neçə dəfə peyqəmbər Quran oxuduğu zaman başı qadınlarının birinin dizi üstündəyəkən yuxuya dalardı. Bir halda ki, eyni qadın aybaşı xəstəliyini keçirmək üzrə idi. Eləcə də aybaşı xəstəsi olan peyqəmbərin qadınları namaz qılmaq üçün onun səccadəsini yerə sərərdilər."[26] Nəsai XI əsrdə yaşamışdır. Ərəblərin qadını təhqiretmə kültüründən yararlanaraq, peyqəmbər adına saxta rəvayətlərin düzəldildiyini Nəsaidən öncə də bir çox alimlər anlamışdılar. Bu üzdən də peyqəmbərin qadınlar haqqındakı davranışlarını bilmək üçün çox geniş bir araşdırma başlatdılar. Bu haqda birinci və güvənilir qaynaq kimi peyqəmbərin qadınlarının həyatlarını incələdilər, onların söylədiklərini əsas olaraq qəbul etdilər.

İbni Sə´d böyük əsərinin bir bölümünü peyqəmbərin özəl həyatına həsr etmişdir. İndi görəcəyimiz kimi, bu bölüm islamın təməl istəklərini ortaya qoymaqdadır. İslamın qadına yanaşması burada açıqca görünməkdədir. Yəhudiliyin, xristianlığın və ərəb qəbilələri kültürünün qadınları aşağıladığı bir ortamda islamın qadını necə dəyərləndirdiyini və yüksəltdiyini görəcəyik. Ancaq çox keçmədən fəqihlər arasında qadın mövzusu ilə bağlı ziddiyətli görüşlər ortaya çıxdı. Görəcəyimiz kimi, peyqəmbərin ortadan qaldırmaq istədiyi qadın düşmənliyi, hətta hədislərə də girə bilmişdir. Buxarinin "mötəbər" hədisləri arasında bu kimi rəvayətlərə çox rastlanılır. "Üç şey uğursuzluq gətirər: ev, qadın və at."[27] Buxari bu hədisin fərqli rəvayətlərini zikr etməmiş, bir halda ki, hədisin elmi şəkildə araşdırılması bir neçə variantı müxtəlif qaynaqlara dayanaraq rəvayət etməkdən ibarət idi ki, oxucuların soruları qaynaqbilim (mənbəşünaslıq) baxımından cavabsız qalmasın. Buxari bu mövzu ilə bağlı Ayişənin rədd etdiklərini öz əsərinə yerləşdirməmişdir. "Səhabilər Ayişəyə dedilər: Əbuhərirə iddia edir ki, peyqəmbər üç şeyin şanssızlıq gətirdiyini söyləmiş:

---

[25] Eyni qaynaq, s 152.
[26] Eyni qaynaq, s. 147.
[27] Buxari, Səhih, III kitab, s. 243.

ev, qadın və at. Ayişə səhabilərə dedi: Əbuhərirə dərslərini çox pis öyrənmiş. Əbuhərirə bizə gəldiyində peyqəmbər söylədiyi cümlənin ikinci yarısını bitirmək üzrə idi. Peyqəmbər deyirdi: Tanrı, yəhudilərin "ev, qadın və at" şanssızlıq gətirər inanclarını qəbul etmir. Əbuhərirə peyqəmbərin söylədiyini tam olaraq eşitməmiş."[28]

Buxari Ayişənin bu rəddiyəsini nəinki yazmamış, tam tərsinə, bu hədisi elə yazmış ki, heç bir şübhəyə də yer buraxmamış. Buxarinin bu metodu adətən, hədis doğru olmasa da, onun doğruluğu fikrini qüvvətləndirir. Buxari Ayişə ilə Əbuhərirə arasındakı mübahisələri də yazmamışdır. Daha da kötüsü Buxarinin, bu hədisi qadınları sərt şəkildə aşağılayan digər bir hədislə bir yerdə verməsidir: "Peyqəmbər söylədi: Mən özümdən sonra kişi üçün qadın adlı ciddi bir problemi miras olaraq buraxmayacağam."[29] Bu hədisin qaynağı Öməroğlu Abdulladır. Abdulla, ikinci xəlifə Xəttaboğlu Öməri̇n ikinci oğlu idi. Öməroğlu Abdulla zühd, təqva, gecə namazları və qüslləri ilə tanınmış birisi idi.[30] Buxari üçün Abdulla çox dəyərli bir qaynaq olmuş. Abdullanın rəvayət etdiyi bir başqa hədisə görə, qadınlar bir başa cəhənnəmə gedəcəkmişlər. "Öməroğlu Abdulla dedi ki, peyqəmbər söylədi: Mən cənnətə bir baxdım, gördüm ki, ordakıların çoxu yoxsullardır. Cəhənnəmə baxdım, gördüm ki, cəhənnəmdəkilərin çoxu qadınlardır."[31] Bu hədisdən necə nəticə çıxarmaq olar? Bu hədis doğru olsa belə, onun üzərinə ehtiyatla yanaşmaq lazımdır. Buxari də digər fəqihlər kimi yalnız Tanrının məsum və xətasız olduğuna inanırdı və hədislərin toplanmasında da Tanrıya təvəkkül edirdi. Bizim kültür və gələnəyimizdə hər şey və hər kəs, xüsusən alimlər və fəqihlər sual altına alına bilər.

İmam Zərkeşi Ayişənin rəvayətlər üzərinə bütün etirazlarını toplamışdır. Zərkeşi XVI əsrin ortalarında Misirdə dünyaya gəlmişdir. Ancaq onun əcdadı türk olmuşdur. O da bir çox alimlər kimi elm öyrənmək üçün çoxlu ölkələrə səfər etmişdir. 30 önəmli əsər yazmışdır ki, onlardan çoxu itmiş və yalnız adları qalmışdır. Zərkeşinin əsərlərindən biri Ayişənin təkliflərinə və artırmalarına həsr olunmuşdur. Bu əsər belə başlayır:

"Ayişə möminlərin anasıdır... O, Tanrı elçisinin aşiqidir. Ayişə 8 il 5 ay peyqəmbərlə bir yerdə yaşamışdır. Peyqəmbər vəfat etdiyi zaman onun 18 yaşı var idi. Ayişə 65 il yaşadı... 1210 hədisin bizə çatmasını ona borcluyuq."[32] Bu şəkildə davam edir:

---

[28] İmam Zərkeşi, Əl-icabət, s. 113.
[29] Buxari, Səhih, III kitab, s. 243.
[30] Əsqəlani, Əl-əsabət, 4-cü kitab, s. 182.
[31] Buxari, Səhih, III kitab, s. 137.
[32] İmam Zərkeşi, Əl-icabət, s. 37 və 38.

“Bu kitab Ayişənin rolunu araşdırmağa həsr edilmişdir. Elə mövzular olmuşdur ki, o haqda Ayişə digər səhabilərlə kəsinliklə razılaşmamışdır. Mən bu əsərimi “Ayişənin səhabilərin izharları üzərinə tənqidi”* adlandırdım.”[33] Bu kitab 1939-cu ilə qədər yalnız əlyazma şəklində qalmışdır. Ayişə haqqında araşdırma apararkən, Əfqani bu kitabı Dəmeşqin Zahiriyə kitabxanasından tapmışdır. Nədən Şafei məzhəbinin ən böyük alimlərindən biri olan Zərkeşi əsərini Ayişənin həyatına həsr etmişdir? Ayrıca, Zərkeşi bu kitabı çox önəmsəmiş və onu şəhərin baş qazisinə təqdim etmişdir. Baş qazi indiki ədliyə nazirliyi kimi bir vəzifə olmuşdur. Peyqəmbərin “Dininizin bir qismini Ayişədən öyrənin”[34] hədisini Zərkeşi önə çıxarır. "Hümeyra, Məhəmmədin Ayişəyə verdiyi ləqəb idi. Ərəb dilində “Hümeyra”nın mənası parlaq qızıl saç deməkdir. Ərəbistanda belə bir gözəllik nadir hallarda bulunurdu."[35]

Ayişə Əbuhərirənin söylədiyi bir çox hədislərə qarşı idi və bunu açıqca bütün səhabilərə söyləyirdi. Ayişə belə hesab edirdi ki, "Əbuhərirə yaxşı dinləyici olmamış və bütün sorulara cavab olaraq yanlış hədislər söyləmişdir.”[36] Ayişənin çox güclü hafizəsi olduğu üçün cəsarətli bir şəkildə Əbuhərirəni tənqid edirdi. Əsqəlaninin dediyinə görə, “Şeir sənətində, din elmində və tibbdə Ayişə qədər bilgili birisinə həyatım boyunca rast gəlmədim.”[37] Əbuhərirə Ayişəni necə əsəbləşdirib, incitdiyini yaxşı bilirdi. Bir gün bir səhabi qadınlarla necə cinsi ilişkidə olmaqla bağlı Əbuhərirədən eşitdiyi hədisi Ayişəyə söylədi. Ayişə elə əsəbləşdi ki, səsini yüksəldib dedi: “Kim bunu peyqəmbərdən eşitmişdir?”[38] Anlaşıldığı kimi, Əbuhərirənin peyqəmbərdən nəqlən söylədiyi hədislərin güvənirliyi yoxdur. Abdulmünim Saleh adında bir yazar Əbuhərirə haqqında bir kitab yazmışdır. Bu kitab 1983-cü ildə İraqda yayılmışdır. Abdulmünim Əbuhərirəni savunmuş və kitabının da adını “Əbuhərirəni müdafiə”* qoymuşdur. Onun əsəri bu cümlə ilə başlayır: “Sionistlər və onların hamiləri islama qarşı yeni silah kəşf etmişlər. O da hədis rəvayətçilərinin kimliklərini və şəxsiyyətlərini şübhə altına aparmaqdan ibarətdir. Xüsusən o rəvayətçilər ki, onlar bir çox hədis rəvayət etmişlər.”[39] Bütün bunlar göstərir ki, Əbuhərirə ilə bağlı alimlər arasında böyük ixtilaf mövcuddur. Dəqiq olan budur ki, sionizm ortaya

---

* الايراد فيما استدركته عايشه عن الصحابه
[33] Eyni qaynaq, s. 32.
[34] Eyni qaynaq, s. 31.
[35] زاهيه قدوره، عائشه، ام المومنين، دارالكتاب اللبنانيه، بيروت، 1976.
[36] İmam Zərkeşi, Əl-icabət, s. 116.
[37] Əsqəlani, Əl-isabət, VIII kitab, s. 17.
[38] İmam Zərkeşi, Əl-icabət, s. 120.
* دفاع عن ابى هريره
[39] Əbuhərirəni müdafiə, s. 7.

çıxmadan yüz illər öncə Əbuhərirənin yaşadığı vaxtda da bir çox müsəlmanlar tərəfindən, özəlliklə möminlərin anası Ayişə tərəfindən Əbuhərirə qəbul edilməmişdir. İlk başlanqıcdan etibarən, o şübhəli şəxs olmuşdur. Buxari də bu haqda bilgi verməkdədir. Buxari yazır: "Alimlər deyirlər ki, Əbuhərirənin rəvayət etdiyi hədislər həddindən artıq çoxdur."[40] Abdulmünim Əbuhərirəyə qarşı Ayişənin etirazlarını etiraf edir, ancaq ikinci xəlifə Xəttaboğlu Ömərin Əbuhərirə haqqında dediyi "Hədis rəvayətçiləri arasında ən pis yalanları Əbuhərirə demişdir"[41] sözünü qəbul etmir. Ona görə, Ömər belə bir söz deməyibdir. Ömərin Əbuhərirəyə "Bu yalanlarını davam etsən səni Yəmənə sürgün edəcəyəm"[42] dediyi sözü də Abdulmünim qəbul etmir.

Ömər əski islam toplumunda və elə bu gün də ayrıca nüfuza sahib olan bir şəxs olmuşdur. Çünkü onun ciddi xarakteri, hərbi qətiəti, güclü şəxsiyəti və hər növ yalandan uzaq olması daima çevrəsini və islam tarixini dərindən etkiləmişdir. O, hətta səhv etməkdən qorxurdu. Ömər belə hesab edirdi ki, hafizənin səhv etmə və bir hadisəni tam olaraq yadda saxlaya bilməmə imkanı var. Bu üzdən də xəta etməsini önləyə bilmək üçün hafizəsindən daha çox fərdi sezgisinə güvənirdi. Çünkü fərdi sezgi baş verən hadisə ilə qarşı-qarşıya gələrək ortaya çıxırdı. Ayrıca fərdi sezgidəki xəta islam və peyqəmbər adına deyil, onun öz adına yazılacaqdı. Bu da islamın və onun elçisi olan Məhəmmədin yanlışlıqlardan daima uzaq olacaqlarına xidmət edirdi.[43] Bu səbəbdən də Əbuhərirənin bu qədər bolluca hədis rəvayət etməsindən Ömər çox narahat idi. Əsqəlani əsərinin Ömərə aid olan bölümündə yazır: "Ömər, Əbuhərirə ilə ilgili bu şəkildə düşünür: Peyqəmbərlə olan münasibətlərimizdən daha çox söyləyəcək hədislərimiz var. Lakin bunları söyləməkdən çəkinirik. Bir hafizə xətasına yol verməkdən qorxuruq. Ancaq Əbuhərirə məsuliyətsiz bir tərzdə çox şeylər söyləyir."[44]

Hafizənin xətaetmə imkanı məsuliyətli səhabiləri düşündürürdü. Çünkü zamanın axışı sadəcə səhabilərin gəncliklərini ortadan qaldırmır, həm də onların hafizələrinə də zərər verirdi. Məsuliyətli səhabilər bunun bilincində olduqları üçün, qonuşmaqdan daha çox susmağı tərcih edirdilər. Ömər ibni Hassan adlı səhabi hafizənin güvənilir olmaması ilə bağlı bu şəkildə söyləmiş: "Əgər istəsəm, iki gün ardıcıl olaraq peyqəmbərdən hədis rəvayət edə bilərəm. Ancaq məni bu əməldən saxlayan önəmli bir şey var ortada. Bir neçə dəfə şahid olmuşam ki, mənim eşitdiklərim və gördüklərimi

---

[40] Buxari, Səhih, I kitab, s. 34.
[41] Əbuhərirəni müdafiə, s. 122.
[42] Eyni qaynaq.
[43] Əbuzöhrə, Malik, s. 146.
[44] Əsqəlani, Əl-isabət, VII kitab, s. 440.

başqa səhabilərin də eşidib gördüklərini görmüşəm. Lakin onların hər biri hadisəni tam fərqli şəkildə anlatmışlar. Mən də onlar kimi xəta etməkdən qorxuram. Bu səbəbdən də susmağı tərcih edirəm."[45]

Bu xətaları ən çox Əbuhərirə etmişdir. Yalnız üç il peyqəmbərlə bir yerdə olan Əbuhərirə 5300 hədis rəvayət etmişdir.[46] Buxari, rəvayətlərinin qaynağını Əbuhərirə olaraq göstərən 800 kişinin adını çəkir.[47] Əbuhərirə öz "parlaq" hafizəsi haqqında bu sözləri deyir: "Peyqəmbərə dedim: Mən çox diqqətlə dinləyib, Sizin söylədiklərinizi anlayıram. Ancaq bir çox söylədiklərinizi unuduram."[48] Peyqəmbər dedi ki, üstündəki əbanı yerə sər və məni dinlərkən onun üstündə otur. Dinlədikdən sonra əbanı yerdən yığışdırarsan. "Bu səbəb oldu ki, mənim unutqanlıq problemim tamamı ilə ortadan qalxsın."[49] Hər növ cadu və sehirbazlıqdan uzaq olan və onlarala mübarizə aparan islama qarşı bu şəkildə davranmaq, islamı anlamamaqdan başqa bir şey deyildir. Yəni səhabi olmaq islamı olduğu kimi anlamaq mənasında deyildir. İslam heç bir problemi möcüzələr yolu ilə həll etmək istəməmişdir.

Böyük cüssəsi ilə səciyyələnən Xəttaboğlu Ömər çox erkən yuxudan qalxar və tənbəllərə nifrət edərdi. Səhər erkəndən qalxıb hər kəsi namaza çağırardı. Bir gün Əbuhərirəni çağırıb ona bir iş təklif etdi. Ancaq Əbuhərirə Ömərin təklifini qəbul etmədi. Əbuhərirənin bu əməlindən heyrətlənən Ömər dedi: "Sən nədən çalışmağı qəbul etmirsən? Səndən daha üstün olan səhabilər çalışmaq üçün mənə müraciət edirlər."

Əbuhərirə dedi: "Məndən daha üstün olanlar kimlərdir?"

Mövzudan uzaqlaşmaq istəməyən Ömər dedi: "Məsələn, Yəquboğlu Yusif."

Əbuhərirə dedi: "O, peyqəmbər oğlu peyqəmbər idi. Mən isə anamın oğlu olan Əbuhərirəyəm."[50]

Bununla da mübahisənin əvvəlinə dönüb və bu soruları soruşuruq:

İslamın ilk çağlarında hicab nəyin göstərgəsi olmuşdur? Bu sözün mənası nədir? Onun məntiqi nədən ibarətdir? Necə, kimlər üçün və nədən başladı?

# V

[45] Əbuzöhrə, Malik, s. 145.
[46] Əsqəlani, Əl-isabət, VII kitab, s 432.
[47] Buxari, Səhih, I kitab, s. 34.
[48] Eyni qaynaq.
[49] Eyni qaynaq.
[50] Eyni qaynaq.

# Hicab

“Hicab”ın lüğət mənası “pərdə” deməkdir. İki kişini (erkəyi) bir-birindən ayıran pərdə deməkdir. Qadınla kişini bir-birindən ayıran pərdə anlamında deyildir. Hicabın ortaya çıxışı 627-ci ilə aiddir. Bu ildə hicaba işarə edən Əhzab surəsinin 53-cu ayəsi peyqəmbərə Tanrı tərəfindən gəlmişdir.[1]

"Ey möminlər sizə yemək izni verilmədən, dəvət edilmədən peyqəmbərin otağına girməyin. Peyqəmbərlə görüşməyi səbirsizliklə bəkləsəniz də, giriş üçün veriləcək izni gözləməlisiniz. Yemək yediyinizdən sonra oranı tərk edin. Peyqəmbərlə söhbət etməyə başlamayın. Çünkü bu davranışınız peyqəmbəri incidir. Yalnız peyqəmbər bunu söyləməyə utanır. Tanrı isə doğru olanı bir başa söyləməkdən çəkinməz. Eləcə də peyqəmbərin qadınlarından bir şey istəyəcək olsanız, onu bir pərdənin, ya da bir ayrıcın arxasından istəyin. Bu şəkildə davranışınız həm sizin üçün həm də peyqəmbərin qadınları üçün ən doğru olandır. Peyqəmbərdən sonra onun qadınları ilə evlənməyi ağlınızdan keçirməyin. Belə bir istəyi ağlınızdan keçirmək Tanrı qatında ən böyük suç sayılmaqdadır."[2]

Fəqihlər (islam bilimciləri) “Hicab ayəsinin endiriliş səbəbi” ibarəsini yazırlar. Bu ibarədən məqsəd, əslində eyni zamanda baş vermiş iki ayrı içərikli hadisə olmuşdur. Bir tərəfdən, bu ayənin peyqəmbərə gəlişi, fikir məzmunu olan Tanrının açınımıdır (vəhyidir) digər tərəfdən, “hicab” ayəsinin nüzulu obyektiv bir olaydır. Peyqəmbər özü ilə evdəki kişi arasına bir pərdə çəkmişdir. “Hicab” ayəsi peyqəmbər üçün sakitliyi təmin etmək amacı ilə toy gecəsi endirilmişdir. Yəni toy gecəsi üçüncü şəxsin peyqəmbərin otağına gəlişini və girişini əngəlləmək hədəfi ilə bu ayə gəlmişdir. Bu şəxs peyqəmbərin səhabilərindən biri olan Üns ibni Malik idi. Şahidi olduğu macəranı Üns ətraflı şərh etmişdir. Bu hadisə müsəlman qadınların həyatını dərindən etkilədiyi üçün Malikoğlu Ünsün söylədikləri çox önəmlidir. O zaman peyqəmbər yenicə evlənmişdi və səbirsizliklə yeni qadını Zeynəblə birlikdə olmaq istəyirdi. Nə zaman gəlib nə zaman gedəcəklərini bilməyən kiçik bir qrup adam gecənin yarısına baxmayaraq, hələ də peyqəmbərin evində oturub söhbətləşirdilər. Söhbətlərin gedişi də onların bu tezliklə peyqəmbərin evini tərk etməyəcəklərini göstərirdi. Təbərinin yazdığına görə, “hicab” ayəsi nəzakətsiz davranışları ilə

[1] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 174.
[2] Quran, Əhzab surəsi, 53-cü ayə.

peyqəmbəri incidən bu kiçik qrupa Tanrının verdiyi cavab olmuşdur. Ünsün izahlarını Təbəri bu şəkildə anladır:

“Peyqəmbər Cehşin qızı Zeynəblə evlənmişdi. Bəzi səhabiləri şama dəvət etmək üçün mən görəvlənmişdim. Çox adam gəlmişdi. Onlar şam yedikdən sonra peyqəmbərin evini tərk etdilər. Mən peyqəmbərə dedim: Ey Tanrının elçisi bir çoxlarını dəvət etdim, artıq çağrılası kimsə qalmadı. Qısa bir sürədən sonra peyqəmbər dedi: Qonaqlığa artıq son ver. Qonaqlar getsinlər artıq. Zeynəb otağın küncündə oturmuşdu. O çox gözəl bir qadın idi. Gecə yarı olmuşdu. Üç nəfərdən başqa bütün qonaqlar peyqəmbərin evini tərk etmişdi. Bu üç nəfər öz söhbətlərinə davam edirdilər. Çox üzgün görünən peyqəmbər otağı tərk edib Ayişənin otağına gedib onunla salamlaşdı. Ayişə peyqəmbərə dedi: "Yeni qadınınız necədir, gözəlmi?” Peyqəmbər bütün qadınlarının otaqlarına baş çəkib yenə də Zeynəbin otağına gəldi. Peyqəmbər gördü ki, o üç kişi hələ də getməmiş, söhbətlərinə davam edirlər. Peyqəmbər çox ədəbli və səbirli idi. O, bir daha oranı tərk edib Ayişənin otağına girdi. Daha sonra, tam olaraq xatırlaya bilmirəm, mən və ya bir başqası o üç kişinin getdiklərini peyqəmbərə bildirdik. O, Zeynəbin otağına geri döndü. Bir ayağını otağa qoyub digər ayağını qapının arxasında saxlayaraq özü ilə mənim arama bir pərdə çəkdi. Tam bu zaman “hicab” ayəsi peyqəmbərə Tanrı qatından endirildi.”[3]

Təbəri bu rəvayətdə sanki bir-birinə qarışdırılmış “hicab” və “pərdə” qavramlarını gətirmişdir. Gəlin bu rəvayətin incə yerlərinə bir daha nəzər salalım:

1. Üns´ün dediyinə görə, peyqəmbər pərdəni çəkərkən, elə sözlər tələffüz etmiş ki, daha sonra Əhzab surəsinin 53-cü ayəsi kimi şəkillənmişdir və alimlər ona “Hicab” ayəsi adını vermişlər. Bu sözləri peyqəmbər pərdəni asarkən, zümzümə etmiş və Üns də onu eşitmişdir. Tanrının peyqəmbərə göndərdiyi bu vəhy elə bir zamanda Məhəmmədə gəlmiş ki, o, evdə ona mane olanlarla necə davranacağını bilmir. Quranın, peyqəmbərin gündəlik həyatı və toplumun gündəlik ehtiyacları ilə sıx əlaqədə olan bir kitab olduğunu unutmamalıyıq. Bu ayə xüsusi bir şəraitdə bəlli bir problemə görə gəlmişdir.

2. Peyqəmbər Cehş qızı Zeynəblə evliliyini bir şölən şəklində keçirirdi.

3. Demək olar ki, Mədinənin bütün müsəlmanlarını peyqəmbər öz toy şöləninə çağırmışdı.

---

[3] Təbəri, Təfsir, Dar-ül Mərifət, XXII kitab, s. 26.

4. Üç kişi istisna olmaqla bütün qonaqlar getmişlər. Üç nəfər peyqəmbərin öz yeni xanımı ilə bərabər olmasını düşünmür və söhbətlərini uzatmaqla peyqəmbərə mane olmaqdadırlar.

5. Peyqəmbər əsəbləşib həyətə çıxır. Odaya döndüyündə yenə də onların getmədiklərini görür və yenə oranı tərk edib onların getmələrini bəkləyir.

6. Bir daha geri döndüyündə Tanrı "hicab" ayəsini nazil edir.

7. Peyqəmbər Tanrının göndərdiyi ayəni tələffüz edə-edə özü ilə Üns arasına pərdə çəkir.

Təbəri "Hicab ayəsinin nüzulu" ilə bağlı peyqəmbərin o andakı əsəbi durumuna işarə etməmişdir. Peyqəmbərin gərgin və sinirli ruh halı bu ayənin gəlişini sürətləndirmişdir. Başqa bir deyişlə, bu silsilə hadisələrin sürəti, yəni peyqəmbərin əsəbiliyi və Tanrının peyqəmbərin ruh halına olan təpkisi bu ayənin nüzulu ilə tamamlanmışdır. Bir çox hallarda peyqəmbərin bir vəziyyətlə məşğul olması və eyni vəziyyətlə bağlı ayənin gəlişi arasında qısa zaman ara olmuşdur. Ancaq hicab mövzusunda istisna bir durum ortaya çıxmışdır. Peyqəmbərin ağlında dolaşan mövzu ilə vəhy arasındakı zaman arasız olmuşdur. Peyqəmbər çox dözümlü idi və heç bir zaman hadisələrə dərhal təpki göstərmirdi. Bir çətinliklə rastlandığında bütün gün fikirləşirdi. Bu üzdən də müsəlmanlar peyqəmbərdən dərhal cavab eşitməməyə alışmışdılar. Çox sərt ənənələri olan ərəb qəbilələri arasında doğru qərar verə bilmək üçün bu xüsusiyyət peyqəmbəri daha da gücləndirirdi. Peyqəmbərin vəziyyətini anladan tarixi kitablar onun çox vüqarlı və təmkinli olduğunda həmfikirdilər:

"Peyqəmbər orta boylu idi. Nə çox uzun, nə də çox qısa boylu idi. Qalın saçlı, qara gözlü, gülgün və gözəl görünümlü idi. Qalın saqqalı bütün sifətini örtmüşdü. Uzun qara saçları çiyinlərinə tökülürdü. Peyqəmbərin sifətində elə bir məlahət, cazibə və gözəllik var idi ki, bir dəfə baxmaqla doymaq olmurdu. Onu görən və eşidən hər kəs etiraf edir ki, bu günə qədər onun kimi cazibəli və natiq birisinə rast gəlməyibdir.[4]"

Ən kiçik problemlərin həlli üçün dərhal qılınca əl atmağı çözüm kimi görən bir toplumda peyqəmbərin səbri və təmkini bir istisna təşkil edirdi. O, insanları cəlb etmək, onları səbrlə dinləmək üçün özəl metod gəlişdirmişdi. Hətta əsəbi və nəzakətsiz insanları da səbrlə dinləyirdi. Əgər bütün bu özəllikləri öz şəxsiyətində birləşdirməsə idi, o zamankı ərəb toplumu gerçəkliyində qalib gələ bilməzdi. Hələ gənc yaşlarında ikən onun bu özəlləilkəri qəbilələrin ona güvənməsinə səbəb olmuşdu. Qəbilələr arasındakı ixtilafların çözülməsi üçün ona müraciət edirdilər. İndi belə bir

[4] Tabari, Mohammed, Sceau des prophetes, s. 337.

soru ortaya çıxır: bu qədər səbrli və təmkinli insanın kiçik bir əsəbiliyi nədən islam məkanını ikiyə bölən bir qərarın ortaya çıxmasına səbəb olur? Tarixi şərait bu müəmmanı kəşf etmək üçün bizə kömək edir. Hicrətin 5-ci ili keçən illərdən fərqli idi. Peyqəmbər üçün o il ən faciəvi il idi. Gəlin bir neçə il daha geri dönəlim. Peyqəmbər öz şəhrində əziyət edilir. Məkkəni tərk edib Mədinənin qəbilələrindən birinə sığınmaq istəyir. Şəhərli ilə kəndlinin bir-birinə qarışdığı Mədinə bütün ərəblərin inancına, xüsusən zəngin məkkəlilərin inancına meydan oxuyan Məhəmmədə sığınacaq verə bilməzdi. Olaylara gerçəkçi bir məntiqlə baxalım. Peyqəmbərin böyük uğurlarının təməlində onun iradəsi və səbri dururdu. Kəbəni fəth etmək istərkən, məğlub olub Məkkədən gedərkən bilirdi ki, bir daha Məkkəyə dönməli və oranı fəth etməlidir. Məkkə əhalisi də bunun bilincində idi, bu üzdən də Məhəmmədin Məkkəyə dönüşünü əngəlləməyə çalışırdılar. Bu səbəbdən də Məhəmmədə sığınacaq verən hər kəs Məkkənin ən iqtidarlı qəbilələri ilə qarşı-qarşıya gəlməyi göz önündə bulundurmalı idi. Peyqəmbər özü Qüreyş qəbiləsindən idi. Ancaq Məhəmmədin davranışları Qüreyşin mənafeyini təhlükəyə soxmuşdur.

Peyqəmbər bilirdi ki, Mədinə əhalisi ondan hərbi qələbə bəkləməkdədir. Savaşlardakı qələbə çox lazım və önəmli idi, çünkü mühacirlərdə özünə güvən duyğusunu gücləndirə bilərdi. Həm də bu qələbə "mədinəlilərə islama qatılmaqda yanılmırsınız" mesajını verə bilərdi. Hicrətin üçüncü ilində müsəlmanlar Ühüd savaşında məğlub olmuşdular. Bu məğlubiyyət böyük bir durğunluq yaratmışdı ki, onun əsəri hicrətin 5-ci ilində də görünməkdədir. Hicrətin ikinci ilində Bədr savaşındakı qələbənin dadını dadan Məhəmmədin ordusu üçün Ühüd məğlubiyəti çox dərin mənfi təsir buraxmışdı. "Bədr savaşında müsəlman ordusunun miqdarı düşməninki ilə qiyasda çox az idi. Müsəlmanların sayı bu savaşda 314 nəfər idi. 83 nəfər məkkəli və 231 nəfər də mədinəli idi. Bu 231 nəfərin 61 nəfəri Us və 170 nəfəri isə Xəzrəc qəbiləsindən idi."[5] "Qarşı tərəfin ordusu, yəni məkkəlilərin sayı 950 nəfər idi. 100 nəfər atlı və qalanları isə dəvəli idilər."[6] Bədr təpəsinin ətrafında savaş başladığında:

Peyqəmbər və Əbubəkir xeyməyə (savaş meydanında qurulan alaçıq) daxil oldular. Bir daha diz çöküb ağlayaraq Tanrının qarşısında bu şəkildə dua etdilər: "Ey böyük Tanrı, əgər bizimlə olan bu az sayıda müsəlmanlar məğlub olub qətl edilsələr, artıq sənin əmrlərini yerinə yetirəcək müsəlman qalmayacaqdır. Bütün möminlər gerçək dini unudacaqlar."[7] "Bu duadan sonra Tanrı 5000 gözə görünməz savaşçı mələk müsəlmanların yardımına

[5] İbni Hişam, Səyərə, IX kitab, s. 364.
[6] Tabari, Mohammed, Sceau des prophetes, s. 150.
[7] Eyni qaynaq, s. 156.

göndərdi."[8] Ancaq peyqəmbər, sadəcə dua ilə yetinmədi. Bütün savaş taktikalarını həyata keçirdi: düşmənin imkanları haqqında bilgi toplama, savaş gedən məntəqənin özəlliyini yaxşı tanıma, düşmən ordusundakı nüfuzlu şəxslərlə gizlin təmas kimi bütün metodlardan faydalanırdı.

"Peyqəmbər uzunca dua etdikdən sonra xeymədən çıxdı. Müsəlman peyqəmbərin ətrafına toplaşdılar. Peyqəmbər əlində bir qılıncla öz ordusunun önündən keçir və onların hazırlıqlarını yoxlayırdı. Yoxlama zamanı Ənsara mənsub olan Süveyd ibni Qəziyə adında bir əsgər bir azcıq sıradan çıxmış və düzən pozuq görünürdü. Peyqəmbər əlindəki oxun çubuğu ilə onun qarnına vuraraq düzənə diqqət etməsini istədi."[9] "Düşmən böyük itki verdi. 72 nəfər öldü və bir o qədər də əsir düşdü. Müsəlmanlardan isə, yalnız 14 nəfər ölmüşdü."[10] Əsir düşənlərin çoxu aristokratlardan olduqları üçün onların qohumları əsirlərin azadlıqları qarşısında çoxlu para və qiymətli əşya ödəməli idilər. Beləliklə, müsəlmanlar bolluca savaş qəniməti əldə etdilər.

Bədr savaşındakı bu qələbə 13 ay sonra baş verən Ühüd savaşında təkrarlanmadı. Ühüd savaşında müsəlmanlar böyük düzənli bir ordu ilə qarşılaşdılar.[*]

Müsəlmanların qarşısında məkkəlilərin 3000 silahlı əsgərləri var idi. 200 nəfər süvari, qalanları da dəvə minmişdilər. Ayrıca 700 nəfər də dəmir geyimli əsgər var idi. Onlar Mədinəyə tərəf hərəkət edib, şəhərin darvazasına çatdılar. Şəhərdən bir az kənarda dağın başında yerləşdilər.[11]

Peyqəmbər çox sürətli bir şəkildə 1000 nəfər silahlı əsgərlə düşmənin önünü kəsməyə getdi ki, şəhərə girə bilməsinlər. Peyqəmbərin atından başqa, bu 1000 nəfərlik orduda sadəcə bircə at var idi. Düşmənin silah imkanları və hərtərəfli geniş hazırlığı qalib gələcəyini göstərirdi. Məkkəlilərin müsəlmanlar üzərinə belə sürətlə qalib gəlmələrinin səbəbləri bəlli idi: piyada olaraq savaşa qatılmış peyqəmbər müsəlmanların Mədinəyə tərəf fərar etdiklərini gördü. O, yanında bulunan nəfərlərini qum təpələrinin arxasında mərkəzləşdirib fərar edənlərin arxasınca səsləndi: “Ey mənim savaşçı səhabilərim, mən burdayam, Tanrı elçisi burdadır, hara qaçırsınız?” Fərar edənlər peyqəmbərin səsini eşitsələr də geri dönmədilər.[12]

---

[8] İbni Hişam, Səyərə, II kitab, s. 285.
[9] Tabari, Mohammed, Sceau des prophetes, s. 154.
[10] İbni Hişam, Səyərə, II kitab, s. 372.
[*] Nədən Tanrı yenə də gözə görünməz savaşçı mələkləri müsəlmanların yardımına göndərməmiş? Müsəlmanların doğru taktik və savaş stratejisi uyqulayaraq qalib gəlmələrini gözə görünməz savaşçı mələklərin qələbəsi kimi sunmaq batil inanışdan və cəhalətdən başqa bir şey ola bilməz. (tərcüməçi).
[11] Tabari, Mohammed, Sceau des prophetes, s. 191.
[12] Eyni qaynaq, s. 201.

İslam tarixini araşdıran bir çox kitablarda bu savaşın ayrıntıları ilə ilgili geniş bilgi mövcuddur. O cümlədən bu kitablarda bu mövzu israrla vurğulanır ki, Ühüd savaşında müsəlmanların yağmalama duyğuları cihad duyğularını üstələmişdi.[13] Müsəlmanların Mədinəyə dönüşü savaşın ən çətin evrəsi oldu. Bu savaşda 70 müsəlman öldürüldü. "Mədinədə elə bir ev yox idi ki, orada yas törəni olmasın. Peyqəmbər şəhərə döndüyündə camidən ağlaşma səsləri yüksəlirdi. Peyqəmbər sordu: "Kimdir bu ağlayanlar?" Dedilər: Ağlaşanlar Ühüd savaşında ölən savaşçıların qadınları, bacıları və analarıdır."[14]

Anlaşıldığı kimi, "Hicab" ayəsinin nazil olduğu hicrətin 5-ci ili müsəlmanlar açısından gerçəkdən faciəvi il idi. Ühüd məğlubiyətindən sonra peyqəmbər Bədr savaşının uğurunu xatirələrdə canlı tutmaq üçün ardıcıl olaraq hərbi heyyətlər oluşdururdu. Ancaq bütün çabalara rəğmən bu doğrultuda irəliləyiş əldə edə bilmədi. Ən kötüsü isə bu idi ki, o il ərəblər məkkəlilərin başçılığıyla Mədinəni mühasirə etməyə gəlmişdilər. Əhzab surəsində işarə edilən hadisələrdən biri Mədinənin mühasirəsi məsələsidir. Bu savaş Xəndək savaşı olaraq anılır. Savaşın belə adlanmasının səbəbi, düşmənin şəhərə girişini əngəlləmək üçün müsəlmanlar tərəfindən Mədinənin çevrəsinə xəndək qazılması idi. İslami toplum hərbi baxımdan ciddi bunalımla qarşı-qarşıya idi. 630-cu ilin (Hicrətin 8-ci ili) baharına qədər bu durum davam etdi. Eyni ilin baharında müsəlmanlar düşmən üzərinə mütləq qələbəni qazanmış oldular. Bu zəfərdən sonra Məkkə və Ərəbistan yarımadasının digər yerləri müsəlmanların əlinə keçdi. Peyqəmbərin Zeynəblə evləndiyi gecədə baş verən hadisəyə bu çərçivədə baxılmalıdır. Yəni hərbi məğlubiyətlər və şübhə mərhələsi Mədinə sakinlərinin əxlaqını zəiflətmişdi. İslamı araşdıranlar üçün Əhzab surəsindəki 53-cü ayə hicab məsələsinin təməlini təşkil etməkdədir. Daima da fiqh kitablarının bir bölümü "Hicab ayəsinin nüzuluna" həsr olunur. Hicab haqqında yalnız bu ayə mövcud deyil, digər ayələr də var, ancaq hicabla bağlı ilk olaraq Əhzab surəsinin 53-cü surəsi bilinməkdədir. Bu ayə üzərində dərin və hərtərəfli düşünürkən, belə nəticəyə varmaq olur ki, hələ ictimai münasibətlərdə heç bir təcrübəsi olmayan səhabilərə Tanrı etikanı öyrətmək istəmiş və onlara izinsiz bir yerə girməyi yasaqlamışdır. Bu ayə müsəlmanları sosial ilişkilər baxımından eyitmək amacına xidmət etmişdir. Bu ayədən və toy gecəsi peyqəmbərin özəl həyatına mane olan səhabilərin davranışlarından da anlaşıldığı kimi, səhabilər etik münasibətlər haqqında heç bir təcrübəyə və bilgiyə sahib olmamışlar. Bir evə uğramanın və bir

---

[13] İbni Hişam, Səyərə, III kitab, s. 64 və 112.
[14] Tabari, Mohammed, Sceau des prophetes, s. 209.

şöləni tərk etmənin zamanlanması haqqında səhabilərin bilgiləri yoxmuş. Toplumsal ilişkilərin ötəsində ayənin son bölümü başqa önəmli bir mövzu üzərinə israr etməkdədir. Tanrı, peyqəmbərin vəfatından sonra onun eşləri ilə evlənməyi yasaqlamaışdır. “Hicab” ayəsi bu sözlərlə sona çatır: “Sizlərdən Kimsə peyqəmbərin vəfatından sonra onun qadınları ilə evlənməyi ağlından belə keçirməsin. Şübhəsiz ki, belə bir fikrə düşməniz Tanrı qatında çox qorxunc sonuclar doğura bilər.”

Təbəri bu mövzuyla ilgili daha ayrıntılı araşdırma aparmışdır. Peyqəmbər bir neçə dəfə bəzi kişilər tərəfindən təhdid edilmişdi ki, onun ölümündən sonra qadınları ilə evlənəcəklər. Bu münasibətlər toplum içində mövcud olan köklü problemlərin göstərgəsi idi. Belə anlaşılır ki, “Hicab” ayəsi səhabilərə etik davranışı öyrətməkdən başqa, toplumda yayqın olan bəzi böhranları da tərtibə salmaq istəmişdir. Burada belə bir sual ortaya çıxır: Bu ayənin nüzul[*] səbəbini Zeynəbin toy gecəsi ilə məhdudlaşdırmaq olarmı? Ya da tərsinə, ayənin endirilişi üçün başqa dəlillər də ئهaramalıyıq? Örnəyin, tarixi şəraiti incələməliyikmi? Başlanqıcda din alimləri (fəqihlər) öz elmi gələnəklərində araşdırmanın miqyasının genişləməsinə təşviq və təkid etmişlər. Örnəyin, “Əsbab-ül nüzul” (endiriliş səbəbləri) kitabının müəllifi Seyvəti deyir: “Bir ayənin endirilişinə səbəb olan macəra və hadisələri bilmədən onu anlamaq mümkün deyildir.”[15] O, davam edir: “Şərhçilər adətən bir neçə etkəni (faktoru) ayələrin endiriliş səbəb kimi zikr edirlər.”[16] Quranın təfsir və açıqlaması ilə bağlı mövcud olan təkliflərin, nəzərlərin, təfsirlərin çoxluğuna baxmayraq, mənim bildiyim qədəriylə, ayənin endiriliş şərtlərini zaman, psixoloji analiz, sosial faktorlar məntiqindən yola çıxaraq incələyən dəyərləndirmələrə çox nadir hallarda rastlanmaq olur. Həm ayənin endiriliş şərtini zikr edən Seyvəti, həm də ayəni təfsir edib və etdiyi araşdırmasının geniş miqyaslı olduğunu iddia edən Təbəri, yalnız tarixi hadisələri nəql etməklə yetinmilər. 30 cilddən ibarət olan “Təfsiri Təbəri” kitabı ayənin nüzulunun şəraitini ələ almaqdan əlavə, həm də sözlər üzərinə dilçilik təhlildən, elmi təfsirlərdən, bir də özünün aldığı sonuçlardan ibarətdir. Neçə yüz səhifədən oluşan Seyvəti´nin kitabı, əslində “Təfsiri Təbəri”nin özətindən ibarətdir. Ancaq olayları sosioloji, psixoloji, tarixi açıdan baxaraq incələyən bir yazılı əsər mövcud deyildir. Bir halda ki, çağımızda baş vermiş hadisələrin tərkibini bir bütün olaraq incələmədən, bu qarışıq ortamda doğru olanı kəşf edə bilməyəcəyik. Bu üzdən də mövzu ilə bağlı əlimizdə mövcud olan bütün bilgiləri

---

[*] Nüzul, ayələrin Tanrı qatından peyqımbərə endirilişi anlamındadır. Nüzul və nazil sözlərini olduğu kimi vermişəm, çünkü dini bir termin olaraq bilinməsində fayda var. (G.G)

[15] لباب العقول فی اسباب النزول، دارالاحياء العلم، بيروت، 1984، ص 13.

[16] Eyni qaynaq, s. 15.

dəyərləndirməli və özəlliklə “hicab” sözünü dilçilik açısından incələmək zorundayıq.

“Hicab” sözü üç boyutlu bir qavramdır, ümumən də bu üç boyut bir-biri ilə qarışmışdır. Bu qavramın birinci boyutu görmə içəriklidir, yəni görünən bir əşyanı görünür mühitdən uzaqlaşdırmaq və görünməz duruma gətirmək deməkdir. “Hücb” feli “gizlətmək” anlamındadır. İkinci boyutu uzay (fəza) və ya məkan anlamındadır, yəni ayırmaq və ayırdıqdan sonra da sınırı bəlli etmək. Hicab qavramının üçüncü boyutu əxlaqi anlam daşıyır və məhrəmlər sahəsini ehtiva etməkdədir. Ərəb lüğətnaməsində yazılır: “Hücb” pərdə ilə gizlənmək deməkdir. Yəni bir məkanı ikiyə bölüb və ikiyə bölünmüş bu məkanın bir qisminin görünməsini başqaları üçün görünməz duruma gətirmək. Əgər hicab qavramının leksik mənasını diqqətlə incələsək, o zaman mövzu ilə bağlı geniş və aydın görüşə sahib olacağıq.

Kəbə bəkçisinin də “hicab” ləqəbi var idi. Lüğətnamədə yazılır ki, Bəniqəsa dedi: “Onlar Kəbənin hicabıdırlar, yəni Kəbənin qapısının açarı onlardadır və onlar məsuliyət daşıyırlar.” Hicab və ya pərdə arxasında oturmaq daha sonra xəlifələrin və şahların kültürləri halına gəlmişdir. Xəlifələr və şahlar saray işçilərinə görünməmək üçün pərdənin arxasında oturur və pərdə arxasından insanlarla irtibat qururdular. Daha sonra da sarayda “pərdəçi” peşəsi gəlişdi. Pərdəçilər pərdə işləri ilə məşğul olur və şahla görüşmək istəyəni pərdənin arxasına qədər gətirib, aparırdılar. Görüşlər zamanı isə arada bir pərdə olurdu. Görüşçü, yalnız xəlifənin və ya padşahın səsini eşidirdi. İslami ensiklopediyada bu şəkildə yazılır: “Zahirən Hicazın ilk sakinləri üçün tanınmaz olan bu ənənəni Bəniüməyyə Sasanilərdən etkilənərək, islam kültürünə gətirmişlər.”[17]

İndi bizim üçün qəribə görünən bu gələnək ilk dəfə Əbusüfyanoğlu Müaviyə tərəfindən tətbiq edilmişdir. Daha sonra Əndlüsdə, Afrikanın quzeyində və Misirdə Fatimi sülaləsinin də uyquladığı (tətbiq etdiyi) bir gələnək oldu. Bu zaman artıq islamın ilk çağlarında bənzərinə heç rastlanmadığımız bir tərzdə xəlifəliyə müqəddəslik də artırılmışdır: “Xəlifə varlığın canlı ruhu olaraq sayılırdı. Hətta xəlifəyə səcdə də edilirdi. Bu səbəbdən də onun gözlərdən və görünürlükdən uzaq olması gərəkirdi.”[18]

Əgər irfan elmindəki hicabın semantikası olmasaydı, o yalnız əngəlləyici bir şey kimi görünərdi. İrfan elminə görə, insan mənəviyatın sonsuz üfüqlərinə vara bilər. Bu baxımdan irfan elmində hicab, yalnız əngəl olaraq görülür. “İrfan elmində öz nəfsinə hakim ola bilməyənlər hicablı sayılırlar. İrfanda hicablı insanın ruhu Tanrı işığından məhrum edilmiş,

---

[17] İslam Ensiklopediyası, ikinci nəşr, “Hicab” məqaləsi.
[18] Eyni qaynaq.

qaranlıqlara batmışdır. İrfan elmində hicablı insanın çevrəsini saran Tanrı işığı deyil, hicabdır."[19]

İrfan terminologiyasında hicablı fərd maddiyatın içinə qərq olmuş şəxsdir və irfan aşamalarını təcrübə edəcək istedaddan məhrumdur. Hicablı şəxs öz mənəvi imkanlarını realizə edəcək yetənəkdə deyildir və həyatın, varlığın sirlərini idrak edə bilməyəcəkdir. Çünkü hicabları ortadan qaldırmaqla Tanrıya tərəf irəliləmək mümkün olur. Mənsur Həllac, hicabın insan irfanını məhdudlaşdırdığına, insan mənəviyatını həbs etdiyinə inanırdı. Həllaca görə, Tanrı, hicabın çevrələdiyi dar mühitdə deyil, hicabın ötəsindəki sonsuz uzaydadır. Tanrıya tərəf hərəkət etmək üçün hicabı sökəcək cəsarətimiz olmalıdır. "Gecənin qaranlığında yolunu azanın könlündə, yalnız səni (Tanrını) axtarmaq duyğusu olursa, işarələrdən başqa bəşər bir şey alqılamaz."[20] Arif üçün "kəşf" sözü "hicab" sözünün tam qarşı tərəfidir.[21]

Anlaşıldığı üzrə, Amerikanın burjua toplumundakı "etibar" və "suç" kimi qavramlar önəmli olduğu kimi, islam mədəniyyətində də hicab əsas qavramlardan biridir. Bu qavramı, sadəcə qadınların baş örtüsü səviyəsinə endirgəmək onun iç mənasını tamamı ilə boşaltmaq anlamında olmasa da, hər halda bu qavramı zəiflətməyə xidmət etməkdədir. Xüsusən Quranda da israrla söylənildiyi və Təbərinin də şərh etdiyi kimi, "Hicab" ayəsi iki kişini (iki erkəyi) bir-birindən ayırmaq amacı ilə endirilmişdir. Bu haqda macəranı təfərrüatı ilə keçən səhifələrdə tarixi qaynaqlara dayanaraq anlatdıq.

"Hicab" qavramının linqvistik təhlilindən sonra Quranın mətninə döndüyümüzdə, hicabın mənfi məfhumunu kəşf etmiş oluruq. İrfandakı anlamına bənzər bir məfhumla qarşılaşırıq. Yəni hicab insanın Tanrıya qovuşmasını önləyən əngəl kimi ortaya çıxır.

...Quranda yeddi dəfə hicaba işarə edilməsinə baxmayaraq, onun əsas anlamı və gəlişmə sürəci ilə bağlı dəyərli bilgilər mövcuddur: Ümumiyyətlə, Quranda hicab "ayıran" mənasındadır: "Həzrəti Məryəm hicab və ya pərdənin arxasında gizlənmişdi."[22] Eləcə də başlanqıcda peyqəmbərin və möminlərin qadınlarına məxsus olan hicabdan (ayıran) söz edilmişdir.[*] Cəza günündə möminlər günahkarlardan hicabla ayrılacaqlar.[**] Şərhçilər Ə´nam surəsinin 13-cü ayəsinə dayanaraq "Hicab" sözünü "divar" olaraq təfsir etmişlər. Eləcə də hicab, seçkin bir insanın Tanrı işığının şüalarından

[19] Titus Burckhardt, introduction aux doctrines esoteriques de l` islam, Derry-livres, Paris, 1969.
[20] Al- Hallaj, Diwan, Trans, Massignon, Le Seuil, Paris, 1981.
[21] Al-Darqawi, letters d` un maitre sufi, trans. Titus Burckhardt, Arche, Milan, 1978.
[22] Məryəm surəsi, 17-ci ayə.
[*] Əhzab Surəsi, 32, 53.
[**] Ə´raf surəsi, 46-ci ayə.

qorunması anlamındadır.[23] Bə´zən Quranda hicab qavramı Tanrının bəşərdən gizlənməsi və bəşərin Tanrını dərk etməkdə zəif olduğu anlamını içərir ki, bu da mənfi bir boyuta yüksəlmiş olur. Məsələn Fossələt surəsinin 5-ci ayəsində Təbərinin dediyinə görə, bütpərəst Qüreyş qəbiləsinin Məhəmmədin tövhid görüşünü anlamaları üçün hicab əngəl oluşdurmuşdu. "Və dedilər: bizi dəvət etdiyin şeylərə bizim qəlbimiz örtülüdür. Qulaqlarımız onları duymaz olmuş. Və səninlə bizim aramızda bir hicab var. Nə etsən də biz duymaz, eşitməz olmuşuq." Bu ayədə hicab insanın şüurunu kütləşdirən bir şeydir. Ayrıca bu surənin adı Fossələt´dir. Yəni "təfsir edilərək aydınlanmış ayələr."[24] Təbəri deyir ki, bu ayədə hicabdan məqsəd "İxtilaf törədən məzhəbi fərqliliklərdir."[25] Peyqəmbərlə ixtilafı olan Qüreyş qəbiləsi bütpərəst idi. Peyqəmbər onları bir olan Tanrını pərəstiş etməyə çağırdığında "bütpərəstlərin peyqəmbərlə ixtilafları var idi. Bütpərəstlərin hicaba olan inancları əslində onların məzhəblə bağlı fərqli görüşləri idi."[26] Hər kəsi hicab həddindən artıq kor etmişsə, bütpərəst olmuşdur. Neyşaburi kimi, bəzi din bilicilərinə görə, hicab bir növ tənbeh və cəzadır.

Anlaşıldığı kimi, başlanqıcda da olumsuz anlamı olan hicab məsələsindən çağımızdakı yanlış anlamalar da heyrət doğurucudur. Çağımızda islami kimliyin rəmzi kimi görünən və müsəlman qadının vaz keçilməz kimliyi olaraq anlaşılan hicab bir zamanlar qarğanmış və mənəvi dəyərlərdən, ruhi yüksəklikdən məhrum edilmişliyin göstərgəsi olmuşdur. İşin çox ilginç yanı da budur ki, islam dünyası heç bir sahədə hicab mövzusunda olduğu qədər duyarlı deyildir. Quran, müsəlmanları oxumağa səslərkən, islam dünyasında oxumanın, elmlə uğraşmanın çox düşük səviyədə olduğunu görürük, ancaq hər kəs qadının hicaba bürünməsini islami əmr kimi bilir. İslamın digər əmrlərinə bir o qədər də diqqət edən yoxdur. Son zamanlar islam dünyası dərin iqtisadi böhran içində çabalamaqda ikən, xüsusən Livanda türlü-türlü luks kitablar islami dəyərlərlə bağlı yayınlanır və çox da ucuz satışa buraxılır. Islamın gələcəyindən narahat olan bir sürü "din alimi" bütün diqqətlərini qadının necə örtünməsinə yönəltmişlər. Bu kitablardan ən önəmlisi olan XI əsrdə yaşamış sərt mühafizəkarlığı ilə tanınan İbni Cüzi´nin "Ehkam-ül Nisa" (Qadınlarla bağlı hökmlər) əsəridir. Bu kitablarda israrla deyilir ki, "Qadınlarınıza nəsihət edin evdən dışarı çıxmasınlar.", "Evdarlığın qadınlar üçün faydaları", "Kişilərin qadınları görməməsinin müsbət tərəflərini doğrulayan tarixi sənədlər." Belə nəzərə gəlir ki, o zaman qadınların camaat

[23] İslam Ensiklopediyası, ikinci nəşr, "Hicab" məqaləsi.
[24] Pickthall, The meaning of the Glorious Koran, P. 340.
[25] Təbəri, XXIV kitab, s. 92.
[26] Eyni qaynaq.

namazına qatılmaları məxfi hərəkət imiş. İbni Cüzi bu haqda çox qəribə bir hədis rəvayət edir: “Peyqəmbərin qadınları gecə yarısı gizlincə camiyə girib özlərini təpədən dırnağa qədər örtərək, namazlarını qılırmışlar. Dan yeri sökülmədən də camini tərk edirmişlər"[27] Yazar rəvayət etdiyi bu hədisin silsilə qaynaqlarını göstərməmişdir. Ən mühafizəkar və quru məzhəb yanlısı olan İbni Cuzi bu kitabında “Qadınların sünnəti”[28] (qadınların da kişilər kimi cinsi alətlərinin kəsilməsi) başlıqlı bir məqaləsi var. İslamla heç bir əlaqəsi olmayan bu törə qadınlara zorla sırınmış və VII əsrin Ərəbistanında da belə bir törə olmamışdır. Yazar öz kitabının 67-ci bölümündə “ərin öz arvadını döyməsini məsələhət bilir.”[29] Bütün bu kimi kitabların ard-arda yayınlanmasının “qadın azadlığından danışanlarla necə mübarizə aparmaq olar?” sualına verilən cavabdır.

Bu kitablarda “Əgər qadının saçlarından yalnızca bir tel hicabın dışında qalsa, onun namazı batil olarmı?” kimi suallar sorulur və sərt cavablar verilir. Bunların qadın anlayışları budur və islam adı altında qadınları əsarətdə saxlamağa çalışırlar. Bu kitablarda qadınlar doğuşdan günahkar və günah qaynaqları olaraq göstərilir. Qadınların hədsiz şəhvət və seks ehtiyacları haqqında bolluca danışılır.

Hicab məsələsinin doğuşunu tarixi bir şəraitdə və zamanın axışı içərisində təhlil etdiyimizdə məntiqi sonuçlara çatmaq mümkündür. Nədən XX əsrin sonlarında müsəlmanlar Qərb mədəniyyətinin qarşısında qadını aydınlatmaq, ona insani haq tanımaq yerinə onu bütün ictimai həyatdan məhrum etmənin fəlsəfəsini yazırlar və bu mövzuda da islamdan sui-istifadə edir, saxta hədisləri qaynaq olaraq göstərirlər.

“Hicabın nüzulu” başlanqıcdan ikimənalı olmuşdur. Onun obyektiv tərəfi bu idi ki, peyqəmbər özü ilə Üns ibni Malik arasına pərdə çəkir. Mənəvi boyutu isə bundan ibarətdir ki, bu ayə Tanrı tərəfindən peyqəmbərə göndərilir. Peyqəmbər özü ilə evində olan bircə kişi arasına pərdə çəkərkən bu ayə endirilir. Buxarinin rəvayətlərinin birində Üns macəranı bu şəkildə şərh edir: “Qonaqlar oranı tərk etdikdən sonra peyqəmbər gedib bir daha otağa geri döndü və bir pərdə çəkdi” sonra artırır: “Mən onunla eyni otaqda olanda O, hicab ayəsini zümzümə etməyə başladı.”[30] Buxari də bu rəvayətdə Təbəri kimi hicab qavramını bir məkanın iki qismə bölünməsi kimi anlayır. Pərdə ilə bölünmüş məkanın bir tərəfində peyqəmbər, digər tərəfində Üns mövcuddur. Beləliklə, peyqəmbərin çəkdiyi pərdə bir məkanı iki qismə ayırır: Pərdənin iç tərəfi və ya peyqəmbərə xas olan dünya və özəl yaşayış,

---

[27] İbni Cüzi, Ehkam-ül Nisa, Əlməktəb-ül Əsriyət, Beyrut, 1980, s. 200.
[28] Eyni qaynaq, s. 144.
[29] Eyni qaynaq, s. 330.
[30] Buxari, Səhih, III kitab, s. 254.

pərdənin dış tərəfi, yəni ictimai həyat. Bu hadisəyə göstərilən təpki heyrətamizdir. Çünkü peyqəmbər çox rahatlıqla xalqdan onun evinə vaxtsiz gəlməməyi istəyə bilərdi və hər kəs tərəfindən sevildiyi üçün peyqəmbərin bu istəyinə bütün müsəlmanlar uyardılar. Həm ayə, həm də ayə üzərinə olan təfsirlər göstərir ki, müsəlmanlar heç bir təşrifat ortada olmadan peyqəmbərin görüşünə gedirmişlər. Peyqəmbərin evinə get-gəl etmək üçün heç bir maneə yox imiş. Ayrıca peyqəmbərin özəl həyatı ilə sosial həyatı arasında bir sınır da mövcud deyilmiş. Daha doğrusu, xüsusi məkanla (peyqəmbərin evi və qadınlarının otaqları) ümumi məkan (müsəlmanların toplandığı və namaz qıldıqları cami) arasında fərq yox imiş. Tanrı bu iki məkanın ayrı olmasına iradə etdiyi üçün "Hicab" ayəsini göndərir.

Hicab məsələsinin sosial, dilçilik, tarixi və məzhəbi gerçəkliyini aydınlığa qovuşdurmağa çalışdıq. İndi belə bir sual sormanın zamanıdır: özəl həyata bu qədər dəyər verən peyqəmbər necə yaşamışdır? Şəhər əhalisi ilə, dostları ilə və qadınları ilə necə ilişkidə olmuşdur? Bütün bu münasibətlər hansı mənəvi bir fəzada gerçəkləşirmiş?

# VI

# Peyqəmbər və onun sosial mühiti

Məhəmməd bütün peyqəmbərlik dönəmində həm Məkkədə, həm də Mədinədə qadının sosial roluna çox önəm verirdi. O, 40 yaşında ikən (bəzi araşdırmaçılara görə 43) ilk mesajı Tanrıdan aldığında Xədicəyə sığınmış, ilk dəfə onun nəvazişi ilə sakitləşmişdi. İlk vəhyi aldığında peyqəmbərin çətin ruh halları keçirməsi ilə bağlı çoxlu bilgilər mövcuddur. Peyqəmbər bütün ruhsal gərginliyi Xədicənin güclü psixoloji və mənəvi dəstəyi ilə aşa bilmişdir. Tarixi bilgilər rəvayət edir ki, Məhəmməd Xədicənin yanında olmaqdan böyük rahatlıq və ruhi enerji alırmış. Bu səbəbdən də öz iç

hallarını, problemlərini danışmaq üçün heç zaman bir erkək axtarmadı. Xədicə onun üçün ən yaxın, vəfalı və sadiq sirdaş idi. Xədicənin varlığı peyqəmbər üçün ən böyük mənəvi dayanaq idi: “Məhəmməd dağdan aşağı endi. Bütün vücudu titrərkən evə döndü... Cəbrailin onun gözünə görünməsi ilə bütün bədəni qorxudan və dəhşətdən titrəyirdi... Xədicəyə dedi: Mənim üstümü ört, mənim üstümü ört! Xədicə onun üstünü örtdü, Məhəmməd dərin yuxuya daldı. Əski mətnləri oxumuş Xədicə, Cəbrailin adı ilə tanış idi.”[1] Peyqəmbər hələ vəhyi (açınımı) təcrübə etməmişdi. Onun nə olduğunu bilmirdi. Ona görə də bu halın o zaman daha çox yayqın olan vəcdə gəlib şeir söyləmək duyğusu olmasından qorxurdu. Onun vücudunu sarmış vəhy (açınım) dalğalarını ilk başda anlaya bilmədiyi üçün bu halın şairlərin vəcd halına bənzəməsindən qorxmuşdu. [2] Xədicənin xristianlığı qəbul etmiş Vərqət ibni Nofəl adında bir əmisi var idi. Vərqət Məhəmmədə anlatdı ki, o, nə məcnun olmuş, nə də şair. Vərqət Məhəmmədə dedi ki, sən yeni bir dinin peyqəmbəri olacaqsan. Əslində Xədicə peyqəmbərə inanan ilk insan olmuşdur, yəni Məhəmmədə ilk iman gətirən və onu dəyərləndirən bir qadın olmuşdur: “Cəbrail hər dəfə Məhəmmədə göründükdən sonra Xədicə ilə uzun söhbətləri olurdu. Bir gün bu söhbətlərin birində Məhəmməd Xədicəyə dedi: “Mən kimə sığınacağam? Məni kim qəbul edəcək?” Məhəmmədin özünə güvənməsi və peyqəmbər olduğunun bilincində olması Xədicəni mutlu etmişdi. Məhəmmədin bu sorularına cavab olaraq Xədicə böyük bir arxayınlıq və güvən duyğusu ilə dedi: “Ən azından mənə güvənə bilər, sığına bilərsən. Çünkü mən sənə iman gətirdim.” Peyqəmbər çox sevinmişdi. Bu üzdən də şəhadət cümləsini Xədicəyə söylədi və iman gətirməsi üçün Xədicənin bu cümləni təkrar etməsini istədi.”[3]

İslam bu şəkildə bir qadının yardımı və dəstəyi ilə başlamışdır. Xədicənin vəfatından sonra peyqəmbər öz eşqini digər qadınlarda aramağa başladı. O bir daha evləndi. Bir neçə qadını oldu və çox qadınlı erkək kimi qadınlar arası ixtilaflarla, həsədlərlə tanış oldu. Hicrət gecəsi (Məkkədən Mədinəyə getdiyi gecə) özü ilə yaşıd olan Səvdə adında bir xanımla evləndi. Məhəmmədin ən böyük eşqi onun yaxın dostu və islama birinci iman gətirən kişi Əbubəkirin qızı Ayişə idi. Bəzi şiə qaynaqları islama birinci iman gətirən erkəyin Əbutaliboğlu Əli olduğunu yazır. Lakin Məhəmməd peyqəmbərliyə yüksəldiyi zaman Əlinin 8-10 arasında yaşı var idi. Yetişkin və qərar verəcək bir səviyədə deyildi. Zatən Əlini saxlayan Məhəmməd olmuşdu. Yəni Əlinin üzərində Məhəmmədin haqqı var idi. İslamı şüurlu şəkildə qəbul edib, bütün zənginliyini bu yolda xərcləyən Əbubəkir

---

[1] Tabari, Mohammed, Sceau des prophetes, p. 67.
[2] Təbəri, Tarix, II kitab, s. 207.
[3] Tabari, Mohammed, Sceau des prophetes, p. 68.

olmuşdur. Məhəmməd Mədinəyə getmədən qısa sürə öncə Ayişə ilə adaxlandı. Peyqəmbər hər zaman Ayişənin ağlını, istedadını və hafizəsini öymüşdü. Ancaq Məhəmməd digər qadınlarla da evlənirdi ki, bu da Ayişənin qısqanclığına səbəb olurdu. Bə΄zən Ayişə peyqəmbərin evləndiyi qadınlara qarşı tərs planlar çevirirdi. O qadınlardan biri xristian olan Mariyə idi. Mariyə Məhəmməddən bir oğlan doğurmuşdu. Adını İbrahim qoymuşdular. Peyqəmbər Ayişənin birinci əri idi. Ancaq Ümm-Səlmə kimi bəzi qadınların birinci əri deyildi. Bu üzdən də Ayişə kimi gənc və gözəl bir xanımın öz ərini qısqanmasından doğal bir şey ola bilməzdi. Məhəmmədin bəzi evlilikləri ən çox məsələhət üzrə idi. O, bu vəsilə ilə islama tapınmış qəbilələr arasında birlik yaratmaq və hərbi imkanlarını gücləndirmək istəyirdi. Örnəyin, Məhəmməd, Bənimüstələq qəzəvə[*]sində məğlub olduqdan sonra Əl-harisin qızı Cüveyriyə ilə hicrətin 6-cı ilində evləndi. Ancaq başqa örnəklərdə qadınların gözəllikləri etkiləyici olmuşdur. Cəhş qızı Zeynəb Məhəmmədin əmisi qızı idi. Onunla evləndiyi gecə "Hicab" ayəsi enmişdi. Zeynəblə evlənməsində hərbi faktorun rolu olmamışdır.[4] Ayrıca, peyqəmbər Zeynəbə aşiq olduğu zaman o, Məhəmmədin oğulluğu olan Zeydlə evli idi.

Bir çox tarixçilər kimi, Təbəri də Məhəmmədin bu məşhur sevdasını belə şərh edir: "Zeynəb o zamanın Ərəbistanında ən gözəl qadın idi." O deyir: "Bir gün peyqəmbər Zeydi görmək üçün onun evinə gedir. Açıq və uzun saçları olan Zeynəb evdə yalnız idi. Məhəmməd Zeynəbdən sorur: "Zeyd hardadır?" Zeynəb "Zeyd evdə deyil, dışarıya çıxmışdır."- deyir.[5] O daha öncə də Zeynəbi bir neçə dəfə görmüşdü. Ancaq Təbərinin dediyinə görə, bu dəfə onu qeyri-rəsmi bir yerdə görmüş və onun gözəlliyi qarşısında dərindən etkilənmişdir: "Peyqəmbər elə dərindən etkilənmişdi ki, ikinci dəfə onun surətinə baxmaq istəmirdi. Məhəmməd gözləri qapalı şəkildə zümzümə etdi: "Tanrını pərəstiş edirəm. Tanrı böyükdür. O (Tanrı) ürəklərə və gözlərə fərman verəndir." Bu sözlərdən sonra peyqəmbər dışarıya çıxıb oranı tərk edir."[6] Əslində ilk baxışda Zeynəbin məhəbbəti və gözəlliyi Məhəmmədi öz təsirinə salmışdı. Daha sonralar Zeyd Zeynəbi boşadıqdan sonra Məhəmməd Zeynəblə evləndi.

Peyqəmbər vəfat etdiyi zaman doqquz qadını var idi. Ancaq gözəlliyi və dərin fikir bağlılığı olan Ayişə və Ümm-Səlmə kimi qadınlarla bir yerdə yatırdı. Savaşlar onu qadınlarından ayıra bilmirdi. Bütün savaşlarda bir və ya

---

[*] Qəzəvə-peyqəmbərin özünün də qatıldığı savaşlara verilən addır. Ancaq ərəb qəbiləsində qəzəvə sözünün başqa anlamı da olmuşdur. Kitabın daha öndəki mübahisələrində bu sözün o zamankı anlamını təfərrüatı ilə oxuyacaqsınız. (G.G)

[4] Muhammad, prophet and stateman, Oxford university London, 1961.

[5] Tabari, Mohammed, Sceau des prophetes, p. 222.

[6] Eyni qaynaq.

iki qadınını özüylə bərabər aparırdı. Ortalıqdakı qısqanclıqları yatışdırmaq üçün hər dəfə özüylə aparacağı qadınları püşklə seçirdi.

Məhəmməd, dövlətin başçısı olmaqla birlikdə qadınla ilişkilərə açıqca önəm verirdi. Savaş zamanı onun qadınları arxa cəbhədə olmurdular. Ön cəbhədə peyqəmbərlə bir yerdə savaş haqqında verilən qərarlarda öz fikirlərini söyləyirdilər. Savaşın gedişi və ayrıntıları haqqında peyqəmbərin qadınları qərar verirdilər və bu qərarlar üzərində həm peyqəmbər, həm də müsəlman savaşçılar düşünürdülər. 628-ci ildə peyqəmbərin məkkəlilərlə Hədibiyə adlı bir anlaşması oldu. Bəzi səhabilər bu anlaşmanı hərbi həqarət olaraq gördülər. Peyqəmbər necə davranacağını bilmirdi və sonunda qadınlarından birinin verdiyi bir təklifi həyata keçirdi: müqavilə bağlandıqdan sonra peyqəmbər müsəlmanlara saçlarını qırxıb Tanrıdan bağış diləmələrini istədi. Peyqəmbərin üç kərə təkrar etdiyi bu əmrə kimsə aldırış etmədi, kimsə əmri yerinə yetirmədi. Peyqəmbər çox rahatsiz və gərgin bir durumda Ümm-Səlmənin alaçığına getdi. Ümm-Səlmə onun gərginliyinin səbəbini sordu. Peyqəmbər dedi: "Səhabilərimə saçlarını qırxmaları üçün üç dəfə əmr etdim, kimsə sözümə baxmadı." Ümm-Səlmə peyqəmbərə bu şəkildə bir təklifdə bulundu: "Heç üzülüb canını sıxma! Öncə özün öz saçlarını qırx, sonra da bir qurban kəs." Peyqəmbər Ümm-Səlmənin təklifi ilə razılaşdı. Saçlarını qırxıb bir dəvəni qurban kəsdi. Səhabilər durumu belə gördükdən sonra öncə öz aralarında məsələhətləşib sonra da saçlarını qırxdılar, qurbanlarını kəsdilər."[7]

İlk islam toplumu duyğusuz və iqtidar hərisi olan bir rəhbər tərəfindən idarə edilmədi. O, 26 savaşda özü ordunun başçılığını üstləndi. "Səhabilər isə peyqəmbərin başçılığı olmadan 35 savaşa qatılmışdılar."[8] Ancaq Məhəmmədin hərbi və məzhəbi fəaliyətləri özəl həyatına kölgə salmırdı. Peyqəmbərin qadınları ilə olan münasibətləri o qədər onun fikrini məşğul edirdi ki, ən yaxın dostları, özəlliklə Əbubəkir və Ömər kimi qaynatası olan dostları ilə bu haqda fikir alış-verişində bulunurdu. Hicrətin 4, 5 və 6-cı böhranlı illərində Mədinə əhalisi peyqəmbərin düşməni olmuşdu. Peyqəmbərin özəl həyatı ilə sosial həyatı bərabər olaraq görməsini ona qarşı istifadə etməyə çalışırdılar.

Peyqəmbərin Mədinədə olmasını öz mənafelərinə qarşı görən münafiqlər peyqəmbərin qadınları ilə bağlı şantaj uydururdular. Hicrətin 3-cü ili Ühüd savaşı məğlubiyətindən yaslı olan, hicrətin 5-ci ili Xəndək savaşından pərişan duruma gələn Mədinədə siyasi müxaliflər gizlin fəaliyət göstərirdilər. Ona görə də peyqəmbər onlara münafiq deyirdi. Çünkü onlar

[7] Tabari, Mohammed, Sceau des prophetes, p. 248.
[8] Eyini qaynaq, p. 325.

Məhəmmədə birbaşa həmlə etmirdilər. Onlar gizlin-gizlin peyqəmbərin şəxsiyətini məsxərə edir, onun qadınları ilə bağlı xoşagəlməz şayiələr yayırdılar. Hətta Mədinənin küçələrində peyqəmbərin qadınlarına əziyət verirdilər. Münafiqlərin yaydığı şayiələrlə savaşlardakı məğlubiyətin doğurduğu ruhsal gərginlik əl-ələ verib düşgün, sınıq əhval-ruhiyə yaradırdı. Münafiqlərin qarşısında Peyqəmbər savunmasız idi. Hətta bəzi münafiqlərin bu şayiələri peyqəmbəri elə etkiləyirdi ki, o öz qadınlarına şübhə edirdi. Bütün bu basqıların nəticəsində peyqəmbər hicabı qəbul etmək məcburiyətində qaldı.

622-ci ildə peyqəmbər Mədinəyə gəldi. İlk öncə Gülsüm ibni Hədm adında bir Ənsar ailəsində yerləşdi. Ancaq gizli toplantıları Səˊd ibni Xeysəmə adında subay bir kişinin evində keçirdi. “Peyqəmbər Gülsümün evini tərk edib toplantı keçirmək üçün Səˊdin evinə gedirdi. Çünkü Səˊd subay idi. Onun evi mühacirlərin buluşduğu mərkəz olmuşdu.”[9] İlk təmaslarda məkkəli mühacirlərlə mədinəli Ənsar arasında ixtilaflar ortaya çıxdı. Bu anlaşılmazlıqlar, özəlliklə qadın-kişi ilişkiləri ilə bağlı olaraq daha qabarıq görünürdü. Ənsar üçün qadın-kişi arasında ayrım yapmaq önəmli deyildi. Ancaq Mühacirlər üçün qadının ümumi ortamda görünməsi ciddi sorun olaraq görünürdü. “Peyqəmbərdən üç gün sonra Mədinəyə gələn Əbutaliboğlu Əli dul bir qadının evində qalırdı.”[10] Daha sonrakı günlərdə bu kiçik məsələ çox böyük görünməyə başladı və iki qrup arasında gərginlik yaradan mövzuya dönüşdü. Ənsar tərəfindən ortaya çıxan başqa sorunlar da var idi. Peyqəmbər çox incə bir problemlə qarşı-qarşıya idi: siyasi və bölgəsəl həssaslıqları, rəqabətləri nəzərə alaraq məskunlaşması üçün necə məkan seçməli idi? Ənsar, onların evlərində qalmasını təklif etdi. Peyqəmbər bilirdi ki, bu təklifləri qəbul edərsə, onun ayrı-seçkilik etməsi ilə bağlı şayiələr yayıla bilər. Peyqəmbər bu sorunun həlli üçün çox uyğun yol buldu. Bu, bərabərlik və ədalət məntiqinə dayanan bir çözüm idi. Peyqəmbər duyurdu ki, onun dəvəsinin önündə durmasınlar. Dəvənin duracağı yeri özünə yaşayış yeri seçəcəkdi. Peyqəmbər dedi: “Buraxın mənim dəvəmi, hara istərsə getsin... Dəvənin bir görəvi var ki, onu yerinə yetirməlidir.”[11] Quru xurmaların saxlanıldığı bir evin önündə dəvə durub diz çökdü. Ev Ənsardan olan Əbuəyyub adında bir kişinin idi. [12] Peyqəmbər dəvədən enib sordu: “Ev kimindir, bu evin qiyməti nə qədərdir?” Peyqəmbər evin bulunduğu yerdə bir camı inşa edib müsəlmanların toplantı mərkəzi etmə qərarına gəldi. Peyqəmbər evin parasını sahibinə ödəyib orada cami tikməyə

[9] İbni Hişam, Səyərə, II kitab, s. 137.
[10] Eyni qaynaq.
[11] Eyni qaynaq, s. 140.
[12] Eyni qaynaq.

başladı.[13] Peyqəmbər sadəcə müsəlmanları bu camini inşa etməyə təşviq etmirdi, həm də özü çox aktiv şəkildə binanın tikilməsinə qatılırdı.[14] Binanın tikilişi zamanı müsəlmanlardan biri bidahətən bu məzmunda bir şeir söylədi:

"Peyqəmbər tər içrə çalışarkən, bil
Kənardan baxmağın məsələhət deyil"[15]

Sonda doqquz odalı bir cami tikildi. Bu doqquz oda peyqəmbərin şəxsi işlərinə həsr edildi. Beş otaq xurma yarpaqlarından, qalanları da daşdan yapıldı. [16] Tarixçilərin beytlər və ya hücrə adlandırdığı bu odalarda peyqəmbərin qadınları məskunlaşdılar. İbni Sə´d peyqəmbərin yaşadığı yeri bu şəkildə anladır: "Peyqəmbərə xas olan otaqlar caminin sol tərəfində idi. Namaz zamanı adam minbərdəki imamın qarşısında dayanmış olurdu."[17] Ayişənin otağına ayrıca diqqət edilmişdi. Peyqəmbər bu odanı elə yapdırmışdı ki, oradan birbaşa camiyə yol var idi. Yəni caminin qapılarından biri Ayişənin odasına açılırdı. Peyqəmbər namaza getmək istərkən bu qapıdan faydalanırdı.[18] Ayişənin odası ilə cami o qədər bir-birinə yaxın idi ki, bə´zən peyqəmbər caminin dışına çıxmadan saçlarını yumaq istərkən Ayişədən yardım istəyirdi. Burada İbni Sə´d peyqəmbərin natəmizliyə münasibətini göstərmək üçün bütün təfərrüatı rəvayət edir: "Peyqəmbər camidə ikən bir çox hallarda Ayişənin odasına söykənirdi, bə´zən də Ayişə aybaşı xəstəliyi ikən peyqəmbərin saçlarını yuyurdu."[19]

Binanın görünüşü elə idi ki, cami, peyqəmbər və onun ən yaxınlarının odaları bir bütün oluşdururdu. Oraya gələn adam ilk öncə caminin civarında məskunlaşacaq bir yer arayırdı. Çünkü artıq ora, sadəcə ibadət edilən məkan deyil, həm də bütün hərbi və siyasi toplantıların keçirildiyi mərkəzə dönüşmüşdü. Əlinin qadını və peyqəmbərin qızı Fatimə Mədinəyə gəldiyində bu civarda məskunlaşmaq üçün yer bula bilmədi. Peyqəmbər Fatimənin öz qonşuluğunda yerləşməsini istəyirdi. Çünkü peyqəmbərin Fatiməyə dərin məhəbbəti var idi. Bu günə qədər soy kökünü peyqəmbərə bağlayanlar Fatimə ilə Əlinin oğulları Həsən və Hüseynlə soy irtibatı qurmuş olurlar. Çünkü peyqəmbərin soyu Fatimə tərəfindən davam etmişdir. Peyqəmbər qızı Fatiməni o qədər sevirdi ki, bə´zən Ayişə ilə Fatimə arasında anlaşılmazlıq yaranırdı. Çünkü Ayişənin evladı yox idi. Peyqəmbər Fatimənin uşaqları Həsən və Hüseyni öz evladı kimi sevirdi. Ona görə də Fatimə Ayişənin qonşuluğunda məskunlaşmaq istəyirdi. Bu da Ayişənin

---

[13] Eyni qaynaq.
[14] Eyni qaynaq, s. 141.
[15] Eyni qaynaq. (Şeirsəl tərcümə tərcüməçiyə aiddir.)
[16] بن سعد، طبقات، ج 8، ص 167.
[17] Eyni qaynaq.
[18] Eyni qaynaq.
[19] Eyni qaynaq.

qısqanclığına səbəb olurdu. Ayişə peyqəmbərdən bir evlad doğurmaq arzusunda idi. Ayişə istəyirdi ki, peyqəmbər ondan olan çocuqların atası olsun. Peyqəmbər də Fatimənin yaxında olmasını istəyirdi. Lakin peyqəmbər məscidə bitişik qonşusundan çox ev kiralamışdı. Bu üzdən Fatiməyə dedi: "Bu qonşunun evini bir neçə dəfə kiralamışam, artıq onun evini təkrar kiralamaq üçün üzüm gəlmir."[20] Nəhayət, ev yiyəsi mövzudan xəbərdar olduqdan sonra könüllü olaraq evini peyqəmbərin qızı Fatiməyə verdi."[21]

Nədən bu qədər ayrıntılara girirəm? Bunları söyləməkdən məqsədim islamın ilk çağlarındakı toplumsal ortamı olduğu kimi anlamaq, anlatmaqdır. Göründüyü kimi, xalqdan kənarda təpənin başında özünə saray yapdırıb orada yaşayan imperator və ya padşahla toplumun içində yaşamağı tərcih edən peyqəmbər arasında böyük fərqliliklər var.

Əlbəttə ki, peyqəmbərin xalqa bu qədər yaxın olmasının mənfi tərəfi də olmuşdur. Hələ tam eyitilməmiş müsəlmanlar, münafiqlər və müsəlman olmayanlar peyqəmbərin özəl həyatı haqqında maraqlanırdılar. Beləcə də şayiələrin ortaya çıxıb şəhərdə yayılmasına uyğun zəmin var idi. Hər kəsin, özəlliklə hər bir müsəlmanın rahat şəkildə peyqəmbərlə ünsiyət qura bilməsi istər-istəməz bu problemi də özü ilə bərabər gətirirdi. Şübhəsiz ki, peyqəmbərin qonşusu olan müsəlmanların hamısı yaxşı və təmiz adam deyildilər. Özəlliklə sözdə müsəlman olan münafiqlər peyqəmbərin arxasınca şayiə çıxarmaqdan xoşlanırdılar. Peyqəmbərlə müqavilə bağlayıb onu Mədinəyə dəvət edən 70 nəfər mədinəli, o zamankı 10.000 nəfərlik Mədinənin təmsilçiləri sayılmışlar.[22] Münafiqlər bu 70 kişinin peyqəmbərlə olan anlaşmalarını bə´zən açıq ən çox da gizlin şəkildə pozurdular. Mədinə əski bir şəhər idi və Məkkənin 300 km quzey doğusunda yerləşirdi. Bu şəhərin sakinləri tarım və meyvə ağacları əkməklə məşğul idilər. Əslində o zaman Mədinə mövcud durumu ilə tam olaraq şəhər sayılmazdı. "Mədinə verimli torpaqlar üzərində qurulmuş dağınıq kəndlər birliyi idi. Onun sahəsi təqribən 32 km kvadrat idi. Bu kəndlər birliyi tarıma uyğun olmayan qayalar və təpələrlə çevrələnmişdi."[23] Yəhudilər peyqəmbəri Mədinəyə dəvət etməmişdilər. Hətta bu də´vətə qarşı idilər. Ən çox cəmiyəti olan Us və Xəzrəc qəbilələri şəhərdə böyük nüfuza sahib idilər. Mədinənin Xeybər, Qoreyzə, Vadi-ül Qəra və Nəbu kimi kəndləri yəhudi sakinlərindən ibarət idi. Bəniisrail soyundan olan ərəb dilli yəhudilər Suriyədən və Urşəlimdən gəlmişdilər. Us və Xəzrəc qəbilələri yəhudilərin yaşadıqları kəndləri işğal etmək istəyirdilər. Ancaq yəhudilərin iqtisadi güclərinin çox olması,

---

[20] Eyni qaynaq.
[21] Eyni qaynaq.
[22] Tabari, Mohammed, Sceau des prophetes, p. 6.
[23] Watt, Muhammad at Mecca, p. 141.

cəmiyətlərinin artıq olması onların bu istəklərini əngəlləyirdi.[24] Bu üzdən də Mədinədə qruplar arasında mənafelər toqquşması var idi. Yəhudi və qeyri-yəhudi arasındakı ziddiyətlərdən başqa, qəbilələr arasında da çox böyük anlaşılmazlıqlar mövcud idi. Münafiqlər yəhudi deyildilər. Us və Xəzrəc qəbilələri ilə anlaşmalarına baxmayaraq, mədinəli olmayan, dışarıdan gəlmiş birisinin rəhbərliyini qəbul edə bilmirdilər. Onların mövqeləri öz mənafeləri əsasında ortaya çıxan şərtlərə görə dəyişirdi. Bunlar peyqəmbərin özəl həyatı ilə maraqlanır və şayiə yaymaq üçün fürsət axtarırdılar. Mühacir ailələrin bir-birləri ilə daha çox evlənmələri bu şayiələr üçün uyğun şərait yaradırdı. Mühacirlərin arasında bir-birləri ilə evlənmə çox yayqın idi.

Toplumdakı izdihamın miqdarı çoxaldıqca fərdi təşəbbüskarləığın miqdarı azalır. Əski şəhərlərdə və ya kiçik kəndlərdə yaşayanlar bu məsələnin nə olduğunu yaxşı anlarlar. Kiçik mühitlərdə insanların özəl həyatına müdaxilə etmə marağı çox güclü olur. Özəlliklə əgər bu mühitlərdə qəbilələrin əski kültürləri, ənənələri, törələri hakimdirsə, özəl həyata müdaxilə imkanları da çoxalır. İslamın yeni dəyərlərinə qarşı dirənən əski törələr asanlıqla aradan getmək istəmirdi. Əski dəyərləri, törələri öz həyat tərzlərində alışqanlıq halına gətirmiş Mədinə sakinləri yeni islami münasibətlərə çətinliklə uyum sağlayırdılar. Hətta islama tapınmışlarda da əski törələrdən birdən-birə və tam olaraq əl çəkə bilmədiklərinə tanıq oluruq. Sosial və iqtisadi münasibətlərin dərinliklərinə girmiş islamöncəsi törələr, yeni islami dəyərlərə qarşı dirənirdi. Bu dirəniş peyqəmbərin özəl həyatı ilə bağlı şayiələr yaymaq şəklində təzahür edirdi. O zamankı sosial münasibətləri anlaya bilmək üçün yenə də Sə´din verdiyi bilgilərdən faydalanalım: “İslamın yayılması ilə eyni zamanda camilərin də yayqınlaşması önəm qazanırdı. Bu əməlin nəticəsində ilk addım olaraq peyqəmbərin qadınlarının odaları cami ilə birləşdirilib, bütünləşdirildi. “Mən peyqəmbərin qadınlarının odalarını o zaman gördüm ki, Vəlid ibni Abdulmalikin xəlifəliyi zamanında Mədinə hakimi Ömər ibni Abduləziz camini genişlətmək üçün bu odaları sökmək qərarına gəlmişdi.” O davam edir: “Belə bir qərara varıldığında Mədinə əhalisi ağlamağa başladı. Çünkü onlar peyqəmbər və onun qadınlarının nəfəsləri toxunan yerlərin olduğu kimi qalmasını istəyirdilər.”[26] Peyqəmbərin odalarının sökülməsinin səbəbi nə idi? Onun və qadınlarının yaşadığı evlər çox sadə idi və xalqın yaşayış tərzindən seçilmirdi. Bu da peyqəmbərdən sonra islam adına özlərinə hədsiz-hüdudsuz zənginliklər qazanmış xəlifələrin yaşayış tərzinə uyğun gəlmirdi. Bu üzdən zənginlik və eyş-işrət içində yaşayan Əməvi xəlifələri,

---

[24] Tabari, Mohammed, Sceau des prophetes, p. 103.

[26] بن سعد، طبقات، ج 8، ص 166.

müsəlmanların həm də siyasi rəhbəri olan peyqəmbərin bu sadə yaşayış tərzindən xoşlanmırdılar. Məsələn, Abbasi xəlifələrinin sarayına "Min bir gecə sarayı" deyilirdi. Bir gənc adam peyqəmbərin həyat şəklini böyləcə anlatmışdır: "Mən peyqəmbərin evinə getdiyimdə çox kiçik yaşda idim. Ancaq əlimi uzatdığımda peyqəmbərin evinin tavanına çatırdı."[27] Peyqəmbərin yaşadığı məhəllənin bu qədər sadə olması, onun dostlarının məscidə yaxın yaşamaları yeni islami topluma demokratik bir özəllik qazandırırdı. Yəni idarə edənlə idarə olunan arasında bir uçurum yox idi. Həm də siyasi rəhbər olan peyqəmbərin maddi həyat şəkli sadə xalqdan bir o qədər də fərqlənmirdi. Bu vəsilə ilə də camidəki sürəkli təmaslar müsəlmanları bir-birinə yaxınlaşdırırdı, yeni toplumsal ünsiyət qanunlarının ortaya çıxmasını sürətləndirirdi. Məkkəlilərlə mədinəlilərin ünsiyətlərini dərinləşdirmək üçün peyqəmbər məzhəbi şüarlardan yararlanırdı. Bu mənada ki, "Peyqəmbər dedi: Hər bir Ənsar bir mühaciri qardaş kimi qəbul edərək ona kimlik bunalımını (böhranını) ortadan qaldırmaq üçün yardımçı olsun."[28]

İslami ortamı (mühiti) yaxşı tanımaq üçün peyqəmbərin xəstəlik və vəfat aşamalarına baxmamız gərəkəcək. Peyqəmbər 632-ci ilin iyun ayında xəstələndi. Bir neçə gün xəstə olaraq yatdıqdan sonra iyunun 8-də vəfat etdi. Peyqəmbər xəstə ikən islamın gələcəyi və islami birliyin rəmzi olan cəmaat namazının qılınması ilə bağlı çox əndişəli idi. Xəstəliyi başlandığı zaman cəmaat namazını yatdığı yerdən, yəni Ayişənin evindən yönləndirirdi. Çünkü Ayişənin evinin qapısı birbaşa məscidə açılırdı. Peyqəmbər xəstəliyinin şiddətləndiyini hiss etdiyində cəmaat namazını qılmağı Əbubəkirə tapşırdı. Xəstəlik zamanı bir gün peyqəmbərin durumu yaxşılaşmışdı. Səhər namazını qılmaq üçün camiyə gəldi. Öndə Əbubəkir durmuş, cəmaat namazını hidayət edirdi. Əlinin yardımı ilə Peyqəmbər camiyə girdiyində namaz qılanlar arasında şaşqınlıq yarandı. Əbubəkir namazını kəsmədən bir addım geri çəkildi. Bu an peyqəmbər əlini onun kürəyinə qoyub onu öz yerində namaza davam etməsini istədi. Özü isə onun sağ tərəfində durdu. Peyqəmbər ayaqüstə durmaqda çətinlik çəkdiyi üçün namazını oturduğu yerdə bitirdi. Daha sonra Ayişənin odasına dönüb yuxuya daldı."[30] Vəfat etdiyi gün Ayişənin evinin girişində göründü. "Bir gün əhali səhər namazını qılmaq üzrə idi. Peyqəmbər pərdəni yana çəkib qapını açdı. Ayişənin evinin qapısında durmuşdur. Namaz qılan izdiham sevinməyə başlamışdı. Hətta elə oldu ki, namazın tərtibi bir-birinə dəydi. Peyqəmbər onlara işarə etdi ki, namazı davam edin. Namazın tərtibinin pozulmasını

[27] İbini Hişam, Səyərə, II kitab, s. 143.
[28] Eyni qaynaq, s. 150.
[30] Tabari, Mohammed, Sceau des prophetes, p. 341.

gördüyündə gülümsədi."[31] Peyqəmbər Ayişənin evində xəstə yatdığı zaman Mühacirlər və Ənsar onun ziyarətinə gəlirdi. Onun yaxın əqrəbaları (qadın-kişi) isə ardıcıl olaraq gəl-getdə idilər.[32] Hər tərəfdən gələn səslər açıqca eşidilirdi. Eşidilən bu səslər vasitəsi ilə peyqəmbər, məsciddə olub-bitənlərdən xəbərdar olurdu. Peyqəmbər artıq cəmaat namazına gedə bilməyəcəyini hiss etmişdi. Bu üzdən də Əbubəkiri öz yerinə cəmaat namazının imamı olmağa təyin etmək istədi. Ayişə peyqəmbərin bu istəyini yerinə yetirmədi və atası Əbubəkirin yerinə Öməri çağırtdırdı. Peyqəmbərin həyatının son anlarındakı bu davranışı Əbubəkiri öz yerinə siyasi varis olaraq təyin etməsi anlamında idi. Ayişə daha sonra bu davranışının səbəbini bu şəkildə açıqladı: "Əbubəkirin peyqəmbərin siyasi varisi olacağını duyduğunda dəhşətə gəldi. Əbubəkirin bu olayların dışında qalmasını istəyirdi. Çünkü ortaya çıxacaq ixtilaflar və qarşıdurmaları öncədən sezmişdi." Peyqəmbər Ömərin səsini camidə eşitdiyində əsəbləşib yüksək səslə dedi: "Əbubəkir hardadır?"[33] Ayişə peyqəmbərə anlatdı ki, atasının yerinə Öməri çağırmışdır. Çünkü Əbubəkirin səsi zəifdir və namaz qıldığında göz yaşlarını tuta bilmir, ağlayır. Ancaq Ömərin səsi güclü və aydındır.[34] Bu zaman peyqəmbər Ayişə ilə bağlı bu cümləni tələffüz etdi: "Yusifin məşuqəsində olduğu kimi, hər qadında gizlin bir xəyanət duyğusu var."[35] Yüz illər boyunca peyqəmbərin bu cümləsi qadınları aşağılamaq üçün bir araca dönüşmüşdür. Çətin şəraitdə, peyqəmbərin xəstə hal olmasına rəğmən, bu cümlənin özündə bir lətiflik və incəlik var. Beləcə də qadın cinsi məhkum edilmişdir. Nə zaman ki, sinifdə bir qız dərsi yaxşı bilməz və ya bir şeiri yanlış söyləsə idi, ədəbiyat öyrətmənimiz peyqəmbərin bu cümləsini çox aşağılayıcı biçimdə üzümüzə çırpardı.

Anlaşıldığı kimi, peyqəmbərin idarə etdiyi toplumda qadınların yaşadığı odalar da camiyə, yəni sosial və politik həyata açıq idi. Daha sonrakı dönəmlərdə peyqəmbərin mənəvi və siyasi mirası yasaqlandı və qadın sosial-siyasi həyatdan uzaqlaşdırılaraq, dar ev mühitinə məhkum edildi. Qadınınn ağlı və siyasi istedadı ilə hesablaşan olmadı.

# VII

[31] İbini Hişam, Səyərə, II kitab, s. 302.
[32] Eyni qaynaq.
[33] Eyni qaynaq IV kitab, s. 302.
[34] Eyni qaynaq.
[35] Təbəri, Tarix, III kitab, s. 195 və İbni Hişam, Səyərə, IV kitab, s. 304.

# Peyqəmbər və qadınlar

İslamın əsasını tövhid təşkil edir. Tövhid Tanrının birliyinə olan mütləq inancdır. Bu mütləq inancın toplumsal biçimdə xatırlanma və anımsayış yeri camidir. Onun peyqəmbəri də bir kişi olaraq öz məsələlərini gizlin saxlamamış, tam tərsinə olaraq insanın cismi və ruhi ehtiyacları ilə bağlı fikirlərini söyləmişdir. Şübhəsiz ki, bir çox din adamları dini mətnlərdən bizim xəbərsiz qalmağımızdan sui-istifadə etmiş, caminin quruluşunu ortadan qaldırmaq amacı ilə bizim üçün hicab düzəltmişlər. Ancaq hər kəs bilir və Quran da söyləyir ki, "Öyüdün faydası və keçərliliyi varsa, öyüd ver."[1] Biz Ayişənin gülüşlərini, Ümm-Səlmənin atəşin mübarizəsini tariximizə daşıyaraq, ölgün və ruhsuz tarixə yeni heyəcan və ruh bağışlaya bilərik. Bu vəsilə ilə onların siyasi istəklərini islamın əfsanəvi şəhəri Mədinədən eşidə bilərik.

# Peyqəmbərin qadınları
# Mutlu illər

626-ci ildə Məhəmməd peyqəmbər Ümm-Səlmə ilə evlənmək istərkən Ayişənin içində böyük həsəd baş qaldırmışdı. Çünkü Ümm-Səlmənin gözəlliyi haqqında çox eşitmişdi, ancaq onu ilk dəfə yaxından gördüyündə dedi: "O, söyləniləndən və mənim təsəvvür etdiyimdən də gözəlmiş."[2] Əsqəlani öz ünlü "Əl-isabət" adlı əsərində Ümm-Səlməni bu şəkildə təsvir edir: "Gözəlliyi adi deyildi. Ayrıca, güclü mühakimə yetənəyi, dəqiq dəyərləndirmə qabiliyəti var idi."[3] Ümm-Səlmə də Məhəmməd kimi Qüreyşin aristokratlarından idi. Ümm-Səlmənin ilk evliliyindən dörd evladı var idi. Peyqəmbər onunla evlənmə istəyində bulunduğunda öncə qəbul etməyib dedi: "Mən çox yaşlıyam, dörd çocuğum var. Ayrıca, məndə çox həsəd duyğusu var."[4] Peyqəmbər onu razı salmaq üçün dedi: "Tanrıya dua edəcək ki, içindən həsəd duyğusunu çıxarsın." Ümm-Səlmənin yaşı ilə bağlı

---

[1] Quran, 87-ci surə, 9-cu ayə.
[2] Əsqəlani, Əl-isabət, VIII kitab, s. 224.
[3] Eyni qaynaq.
[4] Eyni qaynaq, s. 223.

olaraq da “hər halda mən də çox gənc deyiləm, səndən daha yaşlıyam,”[5]- dedi. Ümm-Səlmənin oğlu anasını peyqəmbərlə evllənməyə razı etdi. Ümm-Səlmə öz son beşiyi olan Zeynəbə süd verməkdə ikən, peyqəmbərin evinə gəlin köçdü. Peyqəmbər hər dəfə Ümm-Səlmənin evinə getdiyində onun son beşik yavrusunu nəvaziş edirdi.[6]

Ümm-Səlmə Qüreyşin aristokrat qadınlarından idi. O zaman yayqın olan bir gələnək var idi. Ümm-Səlmə kimi gözəl və istedadlı qadınlar yaşlandıqdan sonra öz çevrələrini təsirləndirəcək özəl imkana sahib olurdular. Daha doğrusu gözəlliklə istedadın özünəməxsus hakimiyəti və təsiri ortaya çıxırdı. Bu üzdən də bu kimi qadınlarla bir çox mövzular üzərinə məsələhətləşərdilər. Peyqəmbərin ilk qadını olan Xədicədə də bu özəllik var idi. Yəni onlar sosial və özəl həyatlarında yaradıcılıq və yenilikçilik enerjisi ilə dolu idilər. Xədicə daha öncə iki dəfə evlənmiş və hər evlilikdən də bir evladı olmuşdu. Xədicə özü peyqəmbərlə evlənmə istəyində bulunmuşdu. Çünkü peyqəmbər onun idealındakı kişi timsalı idi. Xədicəyə daha öncəki ərlərindən böyük zənginlik miras qalmışdı. Bu zənginlikləri Xədicə öz ticari təşəbbüskarlıqları ilə daha da artırmışdı. Hədislərdə evlilik zamanı Xədicənin 40 və Məhəmmədin 25 yaşda olduqları söylənilir, lakin Xədicə, Məhəmməd peyqəmbərdən yeddi evlad dünyaya gətirdiyi üçün böyük ehtimala görə bu söylənən doğru deyildir.

Güclü və özünə güvənən digər bir qadın örnəyi də Hinddir. Hind, Məkkədə peyqəmbərə qarşı çıxan dəstənin içində idi və peyqəmbərə qarşı olan müxalifəti gücləndirirdi. Hind o qadındır ki, peyqəmbərin əmisi Həmzə savaşda öldüyündə Hind onun ciyərini çıxarıb yemişdi. Ona görə də onun adı “Ciyər yeyən Hind” olaraq qalmışdı. Peyqəmbər Məkkəni fəth etdikdən sonra onun da haqqında ölüm hökmü çıxarmışdı. Peyqəmbərin ordusu Ühüd savaşında məğlub edildiyində Müsəlman cənazələrinin düşdüyü yerdə Hind rəqs etmişdi. Bu əməlinə görə peyqəmbər heç vaxt onu bağışlamadı. Hind ölülərin və yaralıların arasında dans edərkən bu şərqini söyləyirdi:

Biz dan ulduzunun gözəl qızları,
Boynumuzda parlar altun, mirvarı.
Uzun saçlarımız ətir saçmaqda,
Savaş meydanından düşmən qaçmaqda.
Bilmiş ol, bizimlə savaşsan əgər,
Səni ummadığın yenilgə bəklər.
Geriyə çəkilsən, izn var, get-get,

[5] Eyni qaynaq.
[6] Eyni qaynaq.

Əlvida, ey sevgi, sən bizi tərk et.[8]

O zaman Ərəbistan qadınlarının görəvlərindən biri də savaş meydanlarında kişiləri savaşa təşviq etmək, onlara əhval-ruhiyə vermək idi. Hind və onun söylədiyi şərqi ölüm planları hazırlayan bir qadını təsəvvürlərdə canlandırır. "O, islam tarixində ciyər yeyən Hind olaraq tanınmaqdadır. Çünkü peyqəmbərin əmisi Həmzə savaşda öldükdən sonra ind onun ciyərini çıxarıb yemişdi."[9] Hindin ifrat nifrət və kinini Əsqəlani belə anladır: "Ühüd savaşında Hindin əmisi Şüəbəni Həmzə öldürmüşdü. Eləcə də Hindin atası Atabe´nin də ölümündə Həmzənin əli var idi."[10] Əslində Əsqəlani Hindin islama olan nifrətini etiraf etmir. İslam onun ailəsini məhv etdiyi üçün bir şəkildə Hindin nifrətinə bəraət qazandırır.

Hicrətin 8-ci ilində peyqəmbər Məkkəni fəth etdiyində Hindin haqqında ölüm hökmü çıxarmışdı. Ancaq Hindin əri Əbusüfyan peyqəmbərdən xahiş etdi ki, Hindi bağışlasın. Məhəmməd Əbusüfyanın bu xahişini qəbul etdikdən sonra Hind, Məkkə qadınlarının biri ilə peyqəmbərin hüzuruna gəlib iman gətirib, vəfadarlıq andı içdi. Tarixçilər tərəfindən bütün kəlmələri ilə nəql edilən Hindin andiçməsi, məcburən təslim olan bir qadının gülünc durumunu, həm də siyasi cəsarətini anladan bir mətndir. Hind peyqəmbərə iman gətirsə də, heç zaman öz görüşlərini açıqca bəyan etməkdən çəkinmədi. Peyqəmbər ona "And iç ki, bir daha zina etməyəcəksən" söylədiyində Hind cavab verdi: "Azad bir qadın heç zaman zina etməz." Bu zaman Məhəmməd peyqəmbər diqqətlə Ömərə baxdı, çünkü peyqəmbər Ömərin islama tapınmadan öncə Hindlə olan ilişkisindən xəbərdar idi. [11] Bir çox islam tarixçisi Hindin xüsusiyyətlərinin heyranı olmuş və bir neçə tarix kitablarının səhifələrini onun həyataına həsr etmişlər.[12] İslamı ikrahla və məcburən qəbul edən qadın haqqında bu sözləri necə yaza bilirlər? Hətta bu gün də bir çox islam mütəxəssisləri onun böyük qabiliyyətləri haqda kitablar yazırlar. "Məkkə fəth edildiyi gün Hind islamı qəbul etdi. O qəzavət və doğru qərar verməkdə ən istedadlı qadınlardan biri idi."[13]

Bu üzdən də peyqəmbər sadəcə olduqca gənc və bir çox mövzularla maraqlanan Ayişənin sorduğu soruları deyil, bütün qadınların sorduğu sorları təbii və normal qarşılayırdı. Bir gün Ümm-Səlmə peyqəmbərdən sordu: "Nədən Quranda yalnız kişilərə xitab edilir, qadınlara xitab

---

[8] Tabari, Mohammed, Sceau des prophetes, P. 198. (Mətnin şeir olaraq tərcümə edilişi G.G-yə aiddir.)
[9] İbni Hişam, Səyərə, III kitab, s. 96.
[10] Əsqəlani, Fəth-ül Bari, VIII kitab, s. 141.
[11] Tabari, Mohammed, Sceau des prophetes, p. 286.
[12] İbni Hişam, Səyərə, IV kitab, S. 47 və Təbəri, Tarix, III kitab, s. 121.
[13] Əsqəlani, Fəth-ül Bari, VIII kitab, s. 141.

edilmir?"[14] Peyqəmbər susub Tanrının cavabını gözlədi. O zaman sorusu olan hər bir qadın və kişi peyqəmbərə uğrayır, ondan istəyirdi ki, Tanrı onun sorusunu cavablandırsın. Bir gün Ümm-Səlmə saçlarını darayıb və cavabsız qalan sualı haqda düşünərkən, bu sorusu ilə ilgili peyqəmbərin bir ayə zümzümə etdiyini eşitdi.

"Peyqəmbərdən sordum ki, nədən Quran bizimlə də danışmır, daima kişilərə xitab edir? Bir gün axşam çağı saçlarımı darayarkən onun səsini eşitdim. Saçlarımı sürətlə darayıb peyqəmbərin səsini daha yaxşı eşidəcəyim otaqların birinə girdim. Diqqətlə qulaq asmağa başladım. Peyqəmbərdən bu sözləri eşitdim: "Ey insanlar Tanrı deyir: "Qadın və kişi müsəlmanlar və Tanrı buyruğuna tabe olan qadın və kişilər." Bu tərtiblə davam etdi və sonunda söylədi: "Tanrı hamısına bağış və ödül hazırlamışdır."[15]

Tanrının Ümm-Səlməyə olan cavabı aydın idi. Tanrı toplumun bütün üzvlərinə cinsi ayrım yapmadan xitab etmişdir. Tanrı lütflərini əldə etmək üçün cinsiyət bir imtiyaz deyildir. Tanrı qatında bireylərin (fərdlərin) qadın-kişi ayrımı olmadan inanışlarına, Tanrı qatındakı sayqınlıqlarına görə fərqlənirlər. Ümm-Səlmənin eşitdiyi çox inqilabi bir ayədir:

"Müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, itaət edən kişilər və itaət edən qadınlar, doğru danışan kişilər və doğru danışan qadınlar, Səbirli kişilər və səbirli qadınlar, Tanrıdan qorxan kişilər və Tanrıdan qorxan qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, alətlərini örtən kişilər və alətlərini örtən qadınlar, Tanrını çox xatırlayan kişilər və Tanrını çox xatırlayan qadınlar üçün Tanrı böyük ödül hazırlamışdır.[16]

Digər qadınlar da Ümm-Səlmənin bu həssasiyətini paylaşmışlarmı, yoxsa bir aristokratın fərdi yeniliyi və bir növ üsyanımı olmuşdur? Bu, sadəcə Ümm-Səlmənin nəfsi istəklərini yansıdan (əks etdirən) bir istək olmuş, yoxsa Mədinənin bütün qadınları bu şəkildə düşünmüşdür?

Tarixi bəlgələr göstərir ki, Mədinədə bir çox qadınlar bu kişi mərkəzliliyə etiraz etmişdir. Ümm-Səlmənin sual və etirazı onun nəfs istəkləri olmamışdır, o zamanın Mədinəsindəki siyasi həyəcanlar və siyasi problemlər Ümm-Səlmənin dilinə yansımışdır. Bəzi rəvayətlərə görə, şəhərin bir çox qadınları ortaya çıxmışlar: "Mədinənin tanınmış qadınlarından bir dəstə peyqəmbərin qadınlarına uğrayıb dedilər: "Tanrı sizin adlarınızı Quranda çəkmiş, ancaq bizlərdən heç bir əsər-əlamət yoxdur. Bizim haqqımızda söylənəcək heç bir xoş söz yoxdurmu?"[17]

---

[14] Təbəri, Təfsir, XXII kitab, s. 10.
[15] Eyni qaynaq.
[16] Quran, Əl-əhzab, 35.
[17] Təbəri, Təfsir, XXII kitab, s. 10.

Ümm-Səlmə ilə həmfikir olan qadınlar Tanrı qatından öz cavablarını aldılar. Tanrının verdiyi cavab islamöncəsi gələnəklə tam qarşı-qarşıya idi. Bu cavab islam öncəsi qadın-kişi münasibətlərini qəbul etmirdi. Qadınlar bu istəklərində başarılı oldular. Çünkü onların bu istəkləri üzərinə Quranda qadınların adına Tanrı qatından bir surə gəldi. Bu surə "Nisa" (Qadınlar) olaraq bilinir. Bu surədə qadınların irs haqqındakı statusları müəyyənləşir ki, islamdan öncə qadınlar bu haqqa sahib deyildilər. "Nisa" surəsindəki qadınlarla bağlı söylənənlər tam yeni qanunlar idi və kişiləri bəzi üstünlüklərdən məhrum edirdi. Bu ayədə deyilir ki, qadın, dəvə və xurma ağacı kimi bir miras deyildir. Tam tərsinə, qadınlar özləri dəvə və xurma ağaclarına sahib ola bilər, sahib olduqlarını da miras olaraq buraxa bilərlər. Qadın kişi ilə bir yerdə mövcud zənginliyə şərik ola bilər, ayrıca, bu doğrultuda kişi ilə rəqabətə də girə bilər. "Kişilərin öz çalışmalarından qadınların da öz çalışmalarından əldə etdikləri fayda var. Nə istəsəniz, Tanrının rəhmətindən diləyin. Tanrı hər şeyi biləndir."[18] Bu kiçik ayə kişilər arasında əndişə yaratdı. Çünkü ilk dəfə olaraq onlar islamın tanrısı ilə qarşı-qarşıya gəlirdilər. Bu ayədən öncə ancaq kişilər irs haqqına sahib idilər. Qadınların nəinki irs aparma haqları yox idi, həm də özləri mövcud irsin bir parçası sayılırdılar. "Bir kişi öldüyündə onun böyük oğlu dul qalmış qadının varisi sayılırdı. Əgər bu dul qadın onun anası deyildisə, o, bu qadınla evlənə bilər və ya onu öz qardaşı ilə, qardaşı oğlu ilə evləndirə bilərdi."[19]

Hətta bir çox səhabilər bu ayənin qadınlara tanıdığı statusu anlamaqda zorluq çəkirdilər. Bu ayə iki baxımdan kişilərin üstün məziyyətlərini azaltmış oldu: bir tərəfdən, mövcud irsin bir parçası olmaqdan qadını çıxarmaqla kişilərin irs malları azaldı. Digər tərəfdən isə, qadınlara mövcud irsə varis olma haqqı tanımaqla yenə də kişilərin mal varlığını qadınlara da mənsub etmiş oldu. Yəni qadınlar mirasa şərik oldular. İslam öncəsi ərəb kültüründə qadınların varislik haqqı yox idi. Qadının haqqı ərinin və qadının erkək əqrəbaları arasında bölüşdürülürdü.

İslamöncəsində bir kişinin öz atası, qardaşı, ya da oğlu ölsə idi və bu ölənin dul qadını qalsa idi, əgər bu ölən öz vəsiyyətində dul qalan qadınına bir miras buraxsa idi, bu mirasa sahib çıxmaq üçün dul qadını bir çarşabla bükürdülər. Bu, o qadınla evlilik anlamında idi. Bu qadınla evlənən ona irs olaraq vəsiyyət əsasında qalmış mirasa sahib olurdu. Bu dul qadınla evlənildikdən sonra artıq o qadın ona miras olaraq qalmış var-dövlətdən istifadə edə bilmirdi. Bu haqqı itirirdi. Ona miras qalan nə varsa, hamısı avtomatik onunla evlənənə aid olurdu. Ancaq əgər qadın onunla evlənmək

---

[18] Quran, 4-cü surə, 32.
[19] Təbəri, Təfsir, VIII, S. 107.

istəyənlərdən qurtulub öz nəslinə müraciət etsə idi, o miras qadının özünə qalırdı.”[20] Göründüyü kimi, islamöncəsi yayqın olan gələnəkdə qadın kişilərin əlində oyuncaqdan başqa bir şey deyildi. Yəni qadın həm öz soyundan olan kişilərin (qardaşının, atasının, əmisinin) həm də ərinin soyundan olan (qaynatasının, qayınlarının) əlində oyuncaq idi.

Yeni islami qanun bütün bunların hamısını sorğulamağa başladı. Çünkü islam insana (qadın və kişi olaraq) bilincli bir varlıq kimi ehtiram göstərir. Bilinc (şüur) və seçim daima dünyada olmuşdur. Bilinc elə bir özəllikdir ki, insan dünyada yaşadıqca, o da var olacaqdır. Kişilər bilirdilər ki, əgər islamın qadınlarla bağlı qanunları həyata keçərsə, peyqəmbər və onun Tanrısı qadınların digər istəkləri ilə də hesablaşmalı olacaqlar. Özəlliklə qadınların savaşlara qatılma və savaşlardan əldə edilən qənimətlərdən faydalanma haqlarından Tanrı və onun elçisinin hesablaşması gərəkəcəkdi. Savaş zamanı qadınlar kənarda qalır, məğlubiyyətlərdə kişilər qətl edilir və qadınlar əsir alınırdılar. Ərəbistan quldarlıq toplumu idi, yəni insanlar iki sinifdən birinə mənsub idi. Bu mövzu həm qadınlar, həm də kişilər üçün keçərli idi. Savaş zamanı əsir alınan azad qadınlarla da kölə kimi davranılırdı.[21] Quran 87-ci surənin 9-cu ayəsində deyir: “Yararlı olacağı təqdirdə öyüd ver.” Peyqəmbərin səhabiləri qadınlarla bağlı islamın bu yeni qanunlarını qəbul etmirdilər. Hətta belə hesab edirdilər ki, islamla bir yerdə əski kültürün davam etməsi daha yaxşıdır, kişilərin mənafeinə uyğun olur. Səhabilər bu qanunun dəyişdirilməsi üçün Tanrı elçisinə təzyiq göstərdilər. Sonda bu kişi mərkəzli kültürü qoruyub saxlamaq üçün Quranın açıq-aydın ayələrini təfsir etməyə başladılar. Bütün bunların hamısı peyqəmbərin həyatında baş verdi. Lakin qadınlar kişilərin bu davranışlarına seyrçi olaraq qalmadılar. Onlar kişilərin əski törələri qoruyub saxlamaqda israrlı olduqlarını gördüklərində, dərhal peyqəmbərə uğrayıb və fikirlərini bildirdilər.

Bu mövzu ilə bağlı ərinin durumundan peyqəmbərə şikayət edən qadınlardan biri Ümməkcə idi. O, peyqəmbərə dedi: “Mənim ərim ölmüş, ondan mənə qalan irsi isə vermirlər.” Ümməkcənin qaynı bu şikayətə bəraət qazandırmaq və əski törələri davam etdirmək üçün dedi: “Qadınlar at minmir və savaşa qatılmırlar.”[22] Bu üzdən də onlara irs çatmaz. Çünkü irs yalnız savaşa qatılanlar və bu yolda qılınc çalanlar üçün çatmalıdır. Ümməkcənin 5 qızı var idi ki, hamısı irsdən məhrum edildilər. O zaman yalnız kişilərə irs çatırdı. Qadınlar və çocuqlar irsdən məhrum idilər.[23] Onlar ikinci dərəcəli

---

[20] Eyni qaynaq.
[21] Enskilopediya, Qahirə, Bita, VIII kitab, s. 151.
[22] Əsqəlani, Əl-isbət, VIII kitab, s. 258.
[23] Təbəri, Təfsir, IX kitab, 255.

insan sayılırdılar, çünkü savaşa qatılmırdılar. İnsan olmanın meyarı savaş idi. Bu kimi yoxsul toplumlarda savaş haq yolunda olmaqdan çıxmış və zənginlik qazanmaq uğrunda gedirdi. Bu üzdən də bir çox yoxsul səhabilər savaşlardan əldə etdikləri qənimətlər nəticəsində Ərəbistanın ən zəngin və seçkin insanlarına dönüşmüşdülər. İslamın sürətlə yayılmasının səbəblərindən biri də bu amil idi. Bir çox insan Tanrıya inandığı üçün deyil, zəngin olmaq üçün müsəlman oldu, daha sonra islamı bir erkək dini olaraq tarixə soxanlar da bu müsəlmanlar oldu. Ərəbistanda İslam yayqınlaşmağa başladıqdan sonra zəngin olmanın yollarından biri də islam yolunda savaşmaq və qəniymət əldə etmək idi.

Bu durumdan şikayətçi olan yalnız Ümməkcə deyildi. Bir çox qadınlar Tanrı elçisinə müraciət edərək, yeni qanunun ciddi şəkildə tətbiq edilməsini istəyirdilər. Kəbəşə adında bir qadının şikayəti böyük bir hadisə yaratdı. Çünkü vəhy vasitəsi ilə onun sorunu çözülmuş oldu. Kəbəşənin ögey oğlu Əbuqeys ibni Vəslət əski törələr əsasında ögey anasını irs olaraq özünə mənsub əşya kimi görürdü. Kəbəşə, Tanrı elçisinə dedi: “Ey Tanrı elçisi, mənə nə ərimdən irs buraxıldı, nə də azad şəkildə başqası ilə evlənmə haqqım var.”[24] Əbuqeys ibni Vəslət yeni qanunun uyqulanmasını qəbul etmirdi və atası öldükdən sonra ögey anasını özünə irs olaraq görürdü. Ancaq zahirən Kəbəşənin başqa planları da var imiş. Qadınların kişilərə qarşı üsyan etməsinə səbəb olan ixtilaf, cəmiyyətin gələnəksəl (ənənəvi) təməllərini titrətmişdi. Ancaq qadınlar bir daha uğur qazandılar çünkü bir ipdəki düyünü bıçaqla kəsərcəsinə, Nisa surəsinin 19-cu ayəsində Tanrı onların problemini çözdü: “Ey möminlər, qadınlar özləri istəməsə, onları irs olaraq öz əşyanız kimi görə bilməzsiniz. Onlarla zorla evlənə bilməzsiniz.”[25] Mədinə erkəkləri, özəlliklə Ənsar, bu ayədən dolayı çox üzgün oldular. Kəbəşə gerçəkdən də mövcud törələrin ortadan qaldırılmasından yana idi. “Yəsribdə (Mədinənin əski adı) irs məsələsi bu şəkildə idi: bir kişi öldüyündə onun oğlu anasının sahibi olurdu. O qadının etiraz etmək haqqı yox idi. Əgər oğul istəsə idi, atasının qadını ilə evlənə bilərdi, ancaq evlənmək istəməsə idi, özündən daha kiçik qardaşı onunla evlənə bilərdi. Əgər kiçik oğul az yaşlı idisə, qadın gözləməli idi ki, uşaq böyüyüb, onun haqqında qərar vermə yaşına çatsın.”[26]

Kişi, varis qadının gözəlliyindən daha çox onun mirası ilə maraqlanırdı. Çünkü varis olan kişi, dul qadınla evlənmək istəməsəydi, onun mirasını qadının kişi əqrəbalarına qaytarmalı idi. Əslində kişilər maddi mənafelərini evlənməklə ört-basdır edirdilər.

---

[24] Eyni qaynaq, VIII kitab, s. 105.
[25] Quran, Nisa, 19.
[26] Təbəri, Təfsir, VIII kitab, s.107.

Mədinəlilər kimi, qadınlarla bağlı oturuşmuş kültürə sahib olmayan məkkəlilər, Ənsarın ənənəsinə etinasız idilər. Örnəyin, Məkkədə əzol adında bir yöntəmdən istifadə edilirdi ki, bu da qadınlar üçün tam əsarət demək idi.

Qüreyş arasında əzol yayğın idi. Əzol nə demək idi? Bir kişi aristokrat qadınla evlənsə idi, qadınla belə bir müqavilə bağlayırdı ki, boşansa da, onun izni olmadan kimsə ilə evlənə bilməzdi. Bir neçə şahidin hüzurunda bu müqaviləni hazırlayırdı. Əgər biri o qadınla evlənmək istəsəydi, anlaşmaya görə, qadının birinci ərindən izin alması gərəkirdi. Boşanmış qadın yenidən evlənmək üçün boşanmış ərinə pul verib onun razılığını almalı idi. Belə olmasaydı, birinci əri qadının evlənməsinə izin vermirdi.[27]

Bütün bu adət-ənənələr Quranda bir çox ayənin mövzusu olaraq məhkum edilmişdir. Yalnız evli qadınlar bu çirkin gələnəyin (ənənənin) qurbanı deyildirlər. Ailənin başçısı öldükdən sonra da evin gənc qızlarının həyatı bu gələnək tərəfindən təhlükəyə girirdi. Sığınacaqları olmayan bu qızların durumları çox çətin olurdu. Quranda yetim və bu kimi gənc qızlarla bağlı ayələr mövcuddur. Bu ayələr onların haqlarını açıqca qorumaqdadır. “Nisa” surəsinin 2, 3, 6, 10, 36, 127 və Bəqərə surəsinin 177 və 215-ci ayələri qadınlarla bağlı Tanrı elçisinə göndərilmişdir. Ərəblərin çoxu bu ayələri qəbul etmir, onları yersiz və anlamsız sayırdı. Ərəblərə görə, gənc qızın irs aparması ağılsızlıqdan başqa bir şey deyildir. “Nisa” surəsinin 2-ci ayəsində həm gənc qız, həm də gənc oğlanlara irs mövzusundan belə deyilir: “Və yetimlərin mallarını özlərinə qaytarın. Çirkini təmizin yerinə oturtmayın. Onların mallarını öz mallarınıza qatıb yeməyin. Çünkü bu, Tanrı qatında böyük suç sayılır.”[28]

İslamöncəsi dönəmdə gənc qızlar nəinki irsdən məhrum idilər, həm də müxtəlif şəkildə cinsi sui-istifadəyə məruz qalırdılar. Qızların qəyyumu (yetim qızların məsulu) onların ən gözəl olanları ilə zorla evlənirdi. Beləliklə də qızların irslərinin nəzarətini öz əlinə alır və qıza başlıq da vermirdi. Qızlardan biri çirkin idisə, bu çirkinlik onun qüsuru sayılırdı və onunla evlənməməyə bəraət qazandırılırdı. Ayrıca bu çirkin qızın irs payını ödəməyə də məcbur olmurdu. “Çirkin bir qızın atası ölsəydi, onun qəyyumu bu qızın irsini ödəmirdi. Onun başqası ilə evlənməsinə də izin vermirdi. Qızın qocalıb ölməsini bəkləyirdi ki, irsinə sahib çıxsin.”[29] İslamın gətirdiyi irsiyət qanununa qarşı ciddi etirazlar oldu. Bu üzdən də Tanrı böyük qətiətlə yetim qızların haqqını ödəməməyi böyük suç adlandırdı.[30] Çirkin qızın irs haqqı bir çoxları üçün diksindirici idi. Cabir ibni Həyyanın çox çirkin və kor

[27] Eyni qaynaq, s. 113.
[28] Quran, Nisa, 2.
[29] Təbəri, Təfsir, VIII kitab, s. 255.
[30] Eyni qaynaq, s. 235.

əmisi qızı var idi. Bu kor və çirkin qızın atası öldükdən sonra ona çoxlu var-dövlət irs qalmışdı. Cabir bu kor və çirkin qızla evlənmək istəmirdi. Əmisinin mirası özünə qalsın deyə, qızın başqası ilə evlənməsinə də izin vermirdi. Cabir bir çoxları kimi bu haqda peyqəmbərə sual verdi. Cabir kimi əski törələrə bağlı ərəblər anlamırdılar, niyə peyqəmbər bu gələnəyi ortadan qaldırmaq istəyir. Cabir əsəbi tərzdə peyqəmbərdən sordu: "Kor və çirkin qız ata irsindən faydalanma haqqına sahibdirmi?" Peyqəmbər cavab verdi: "Bəli, sahibdir" və sonra da Cabirə bu ayəni söylədi: "Qadınlarla bağlı səndən soru sorsalar, söylə ki, Tanrı qadınlar haqqında öz qərarını vermişdir. Onlara de ki, yetim qızların haqqını yemək, Tanrı qatında böyük suçdur."[31]

Tanrı israrla insanlara bildirir ki, peyqəmbər və onun Tanrısı öz mənafeləri üçün bu şəkildə davranmırlar. Bu, arxasında böyük ədalət və fədakarlıq dayanan Tanrının təqdim etdiyi yeni əxlaq nizamıdır. Tanrı əmrləri ilə səhabilərin görüşləri arasında ixtilaf ortaya çıxdı: kişilər qadınların da insan kimi irsdən faydalanma qanununu anlaya bilmirdilər. Onlar bu mövzuyla ilgili Tanrı qərarını bəkləyirdilər. Bir-birlərinə dedilər: "Bu məsələnin aydınlığa qovuşması üçün peyqəmbərin hüzuruna varmalıyıq. Onlar peyqəmbərin hüzuruna gəlib bu haqda sorularını sordular."[32] Peyqəmbər onlara söylədi: "böyük Tanrı bu mövzuyla bağlı öz qərarını insanlara duyurmuşdur. İnsanlar itaət etməlidirlər." Ancaq Tanrının əmrləri kişilərin mənafeyinə uyğun gəlmədiyi üçün yanlış təfsirlərlə Tanrının buyruğunu təhrif etdilər. Daha doğrusu, erkəkmərkəzli hakimiyyətlərini sürdürmək üçün məzhəbi mətnlərdən sui-istifadə etdilər.

## Qadınlar və səfihlər

Qadınların irs haqqı ilə bağlı göndərilən ayələr səbəb oldu ki, Tanrı bu mövzunu aydınlığa qovuşdurmaq üçün təkrar öz elçisi Məhəmmədə ayələr göndərsin. Nisa surəsində irsin cüziyatını, müxtəlif şəraitləri və durumları anladan ayələr var. Burada ana, qadın, qız və bir neçə qardaşı olan qızlar haqqında irslə ilgili bilgi verilmişdir. Anlaşılmazlıq ortaya çıxmasın deyə, hər kəsin irs payı haqqında geniş açıqlamalar verilmişdir:

"Əgər qadınınızın uşağı yoxdursa, öldüyünüzdə sizin var-dövlətinizin yarısı qadının olur. Bir qadından evladınız varsa, var-dövlətinizin dörddə biri qadının olur. Əgər bir kişinin və ya bir qadının evladı, ata-anası yoxdur,

[31] Eyni qaynaq.
[32] Eyni qaynaq, IX kitab, s. 255.

yalnız bacı-qardaşları vardırsa, onların hər birinə irsin altıda biri yetişir."[33] Bu qədər açıqlamalara və öngörülərə baxmayaraq, kişi mərkəzli islam anlayışı islamın bərabərlik və ədalət fəlsəfəsini daima ortadan qaldərmağa çalışdı. Bu qism kişilər varlanmaq amacı ilə islamı qəbul etmişdilər. Ancaq islam onların istəklərinin tərsinə olaraq cinsi və sinfi imtiyazları erkəklərin əlindən almağa çalışmışdır. Kişilər də islamın yeni hökmlərini neytrallaşdırmaq üçün "əl-süfəha" (səfihlər) kimi anlaşılmayan sözün bir ayədə keçməsindən istifadə etdilər. Bu ayədə deyilir: "Tanrının sizə verdiyi zənginlikləri irs olaraq səfihlərə (ağılsızlara) buraxmayın." O zənginliyin gəlirindən onlara yemək və geyim alın və onlarla xoş davranın"[34] Bu, kişilərin səbirsizliklə bəklədiyi ayə idi: səfihlər irs məsələsində istisna təşkil etdikləri üçün qadınları səfih (ağılsız) olaraq qəbul etdilər, bu qədər sadə. Bir çox müsəlman, çocuqları və qadınları səfih kimi qəbul etdi. Bu üzdən də onların isrdən məhrum qalmalarını savundular.[35] Şübhəsizi ki, bu növ yanaşma cahillik dönəmi kültürünün islam dəyərləri ilə qarışmasından başqa bir şey deyildir. Müsəlmanlar tərəfindən şüurlu şəkildə islam kültürünə sızdırılan bu tərz yanaşma günümüzə qədər öz varlığını sürdürmüş, qadınların insan kimi yaşamalarını, düşünmələrini əngəlləmişdir. Belə bir sual ortaya çıxır: peyqəmbərin və səhabilərin zamanında həyata keçə bilməyən qadın haqları məsələsi islamın ilk çağlarından uzaqlaşdıqca necə öz həlli yolunu tapacaqdır? İslam dinini kişi mərkəzli anlayan müsəlmanlar belə hesab edirdilər ki, qadınların səfih olması üzərinə israr etsələr, bütün kişilər mutlu olacaq və peyqəmbər də irslə bağlı bu "anlamsız hökmünü" geri çəkmək zorunda qalacaqdır. Mühafizəkar kişilər bu məsələyə görə sevinirdilər. "Onlar belə hesab edirdilər ki, "səfihlər" kəlməsindən məqsəd "qadınlar və çocuqlar"dır, səfihlərin səfihi də qadınlardır."[36]

İndi neçə əsr sonra Quranın savunucusu olan Təbərinin bu mövzuyla ilgili görüşlərini bilməkdə fayda var. O, bu məsələni diqqətlə araşdırır. Bu ayə ilə bağlı bir çox açıqlamaları toplayan Təbəri xatırladır ki, "səfih" sözü daha öncə digər ayələrdə də keçmişdir. O bütün bu açıqlamalara öz əsərində yer vermişdir. [37] Ancaq əgər uzman olmayan bizlər bu mövzunu sadəcə Quranda oxusaq doğru nəticə çıxara bilməyəcəyik. Çünkü "səfihlər" deyildiyində bir yerdə əqli xəstələr, digər yerdə isə çocuqlar nəzərdə tutulur. "Bə´zən də Quran, yəhudiləri və bütpərəstləri səfih olaraq adlandırır."[38] "Ümumiyətlə yaxşını pisdən seçə bilməyən, idrak və bəsirətdən yoxsun

[33] Quran, 6-cı surə, 12-ci ayə.
[34] Quran, 4-cü surə, 5-ci ayə.
[35] Təbəri, Təfsir, VII kitab, s. 56.
[36] Eyni qaynaq, s.562-563.
[37] Eyni qaynaq I kitab, s. 293-295.
[38] Eyni qaynaq, III kitab, s. 90 və 129.

olanlara səfih deyilir."[39] Bu üzdən sözün tam gerçək anlamını bilmək bizim özümüzə buraxılmışdır. Bu sözü iki cür açıqlamaq mümkündür: 1. "Səfihlər" sözünün cinsiyətlə heç bir əlaqəsi yoxdur. Burada səfih, idrak və uzaqgörənlikdən məhrum olaraq parasını boş yerə xərcləyən adamdır. 2. Nadanlar və cahillər anlamında olan "səfihlər" öz davranışları ilə irs haqlarını dəyərsizləşdirən qadınlara şamil olur.

Təbərinin bu sözlə olaraq dəqiq bir açıqlama yapmaq və gələcək nəsillərə Quran mətnindəki bu sözün "gerçək" mənasını anlatmaq istəməsinə baxmayaraq, bu ayə peyqəmbərin zamanında da tam olaraq aydınlığa qovuşmamışdır. O zamanın da müsəlmanları bu ayəni birmənalı və açıqca anlaya bilməmişdilər. Əsas problem isə fiqh kitablarının metodundadır. Səthi izahlarla dolu olan bu mətnlər ifrat təcrübəçiliyi ehtiva edir və uyumluluqdan, ahəngdarlıqdan yoxsundur. Din alimləri mətnləri incə bir şəkildə oxucuya təqdim etməyə çalışmırlar. Tam tərəfsiz və gerçəkçi olmağa çalışdıqları üçün müxtəlif əqidələrdən ensiklopedik bir əsər hazırlayır və sonunda da öz fikirlərini artırırlar. Subyektivliyə qapılmamaq üçün bir dəyərləndirmədə və toparlamada da bulunmurlar. Bu üzdən də oxucu müxtəlif görüşlərlə rastlanır. Ancaq oxucu bu müxtəlif görüşləri sezə biləcək metodu oxuma sürəsincə əldə edə bilmir. Təbəri başqalarının nəzərlərini yazdıqdan sonra öz nəzərini də artırır. O, bütün bu verilərdən yola çıxaraq cinsiyət məsələsi ilə bağlı (yəni bərabərlik əsası ilə ilgili) bir nəticəyə varmaq istəmir:

Bizim fikrimizə görə "və Tanrının sizə tapşırdığı var-dövləti ağlı az olanlara verməyin" ayəsində Tanrı "səfihlər" sözünü külli anlamda işlətmişdir. Burada "səfihlər" sözü bəlli bir qrupa xitab etməz. Bu üzdən də bu ayənin anlamı belədir ki, var-dövləti səfih birinə miras olaraq buraxmaq doğru deyl. Bu səfih (ağlı az) müxtəlif yaşlarda həm qadın, həm də kişi ola bilər. Səfihlər iqtisadi durumlarını kontrol edə bilməyən qadınlar və kişilərdir. Onlar miras qalan sərmayəni bərbad edə bilərlər.[40] Təbərinin fikir istiqaməti yoxdur. Təbəri bu mübahisə ilə məşğul olmaq üçün hansı metoddan istifadə etmişdir? Təbəri mətnə bağlı və sadiq qalmaq üçün bu dartışmada dilçilik məntiqindən faydalanmış və bu qavramın (səfih) bütüncül olduğu üzərində durmuşdur: səfihlər düşüncə yetişkinliyi, sezgi qabiliyəti və uzaqgörənliyi olmayanlardır. Təbəri davam edir: Qadınları irsdən məhrum etmək "səfih" qavramına cinsiyət tanımaq anlamına gələr ki, Quranda belə bir anlam söz qonusu olmamışdır: "Səfihlərin qadınlar olduğuna inananlar ərəb dilini açıqca təhrif edirlər. Çoxluğu bildirən bu kimi

[39] Eyni qaynaq, VI kitab, s. 57.
[40] Eyni qaynaq, s. 565.

isimlər erkəkləri cəm (çoxluq) və ya yenə də qadın və kişini bir yerdə çoxluq şəklində ifadə edər. Bu qavramın ifadə etdiyi çoxluqda cinsiyət bəlli deyildir. “Süfəha”-səfihlər qavramı cəm şəklindədir. Lakin ərəb dilində erkəklərin topluluğunu bildirən ismin cəm şəkli ilə dişilərin çoxluğunu bildirən ismin cəm şəkli fərqlidir. Bəzi isimlərdə isə cinsiyət yoxdur və cəm bağlanarkən həm erkək, həm də dişi nəzərdə tutulur. Cinsiyəti bəlli olmayan isimlərdən biri də “səfih” sözüsür.” Təbəri bu mövzunun sonunda ərəbcədə ismin çoxluq bildirən şəklinin müxtəlif növlərini izah edir. Əgər Tanrının bu sözdəki məqsədi qadınlar olsaydı, o zaman bu ismin cəm şəklini müvənnəs (dişi) variantında qullanmalı idi.[41]

Çağımızda islam ölkələrinin qadın-kişi bərabərliyinə olan laqeydliklərini dərinliyi ilə anlamamız üçün Mədinəyə dönməmiz gərəkəcək. Mədinənin dar küçələrində ilk dəfə qadınların öz haqları ilə ilgili mübahisələrə, kişilərlə dartışmalara girdikləri dönəmə geri dönməliyik. Kişilərin islamı qəbul etmələrinə baxmayaraq, çağımızda olduğu kimi, islam qadın-kişi bərabərliyi ilə ilgili öz sistemini ortaya qoyduğunda erkəklərin etiraz səsləri yüksəlirdi.

## Qadınlar və savaş qənimətləri

Ümm-Səlmənin müvəffəqiyəti və qadınların hüquqları, özəlliklə irs məsələsi ilə ilgili ayələrin gəlişi bunalımlı(böhranlı) bir dönəm oluşdurmuşdu. Daha sonra gələn ayələrdə qadın-kişi eşitliyinin rəngi azalır və kişimərkəzliliyə təkid edilir. Ancaq kişimərkəzliliyə təkid edilərkən də qadınların haqqını savunan daha öncəki ayələr ləğv edilmir. Quranda elə mövzular var ki, onunla bağlı iki dəfə ayə gəlmiş və ikinci ayə birincinin keçərliliyini ortadan qaldırmışdır. Daha sonra gələn ayələrdə kişimərkəzlilik güclənsə də, ilk ayələrdəki qadın haqlarına aid olan ayələr ləğv edilməmişdir. Bu məsələ daima Quranla bağlı ziddiyətli anlamalara səbəb olmuşdur. Çağımızda da, özəlliklə siyasi çevrələr tərəfindən bu ziddiyətli anlamalar davam etməkdədir. Əslində qadınların qələbəsi və sevinci çox qısa müddətli oldu. Tanrı qadınların “Yardım et!” çağrılarına cavab verməz oldu. Qadınların ictimai statuslarını gəlişdirəcək ayələr gəlməz oldu.

Qadınlara Tanrı qatından kişilərlə bərabər hüquqlu insanlar olaraq xitab edildikdən sonra onlar da savaşa qatılmaq və savaşlarda əldə edilən

[41] Eyni qaynaq, s. 567.

qənimətlərdən bərxurdar olmaq istədilər. Ayrıca, yataqda da kişilərlə özgür seksual ilşkidən bərxurdar oldular. Kişi nə zaman istəsə, onu yatağa çağıra bilməyəcəkdi. Seks məsələsində qadının da iradəsi və istəyi üzərində durulurdu. Cinsi ilişkilərdə qadınların əşya olmaqdan çıxıb tərəf müqabil kimi sayılması da ortaya çıxdı. O zamanın müsəlmanlarına görə, qadınlara verilən bu azadlıq erkəkmərkəzli tarixi kökündən uçurmağa xidmət edirdi. Erkəklər qadınların istəklərini həddindən artıq siyasi olaraq dəyərləndirdilər. Qadınların bu istəklərinə qarşı seçkin bir rəhbərin öncülüyündə birləşdilər. Bu seçkin rəhbər Ömər ibni Xəttab idi.

Ömərin bənzərsiz hərbi qabiliyəti var idi. Onun cəsarəti daima islam ordusuna ruh verirdi. Peyqəmbər hesab edirdi ki, "Ömərin müsəlman olması böyük bir qələbədir."[42] Toplumda köklü dəyişikliklər yaratmaq üçün Ömər hər zaman peyqəmbərin yanında olmuşdu. Ancaq qadın-kişi bərabərliyini islam ortaya qoyduğu zaman artıq Ömər əvvəlki kimi peyqəmbərin yanında olmağa həvəs göstərmədi. İslamın qadınlarla bağlı bütün əski gələnəkləri alt-üst edəcəyini Ömər qəbul edə bilmirdi. Qadınların əllərində qılınc savaşa qatılmaları və qənimətlərdən pay almaları Ömərə görə anlamsız bir hərəkət idi. O, atalarının pərəstiş etdiyi Məkkə tanrılarını ortadan qaldırmağa hazır idi, ancaq qadın-kişi bərabərliyini qəbul edə bilmirdi. Beləliklə, qadınlar fatehcəsinə hərəkətə keçdilər. Bir gün aktiv qadınlardan biri yüksək səslə dedi: "Qadın-kişi bərabərliyini savunan bu ayə yalnız irs məsələsinə aid deyildir. Günah mövzusunu da içinə alır. Qiyamətdə kişilər öz günahlarının iki qat artdığını gördüklərində şaşıracaqlar. Onların irslə bağlı payları iki qat olduğu üçün, buraxın suçları da iki qat hesablansın."[43] Oradakılar həyəcanlandılar. Ancaq Tanrı bu dəfə erkəklərin tərəfini tutub, erkəkmərkəzli din anlayışını üstün bildiyi üçün qadınlar şaşırdılar. Qadınların iki istəyinə cavab verən "Nisa" surəsinin 32-ci ayəsi iki qismə bölünür. Bu iki mövzunu çox diqqətlə bir-birindən ayırd etmək gərəkir: qadınlar qadın-kişi bərabərliyini israrla istəyir və var-dövlətin bərabər şəkildə paylaşmasını tələb edirdilər. Qadınlar belə hesab edirdilər ki, kişilərlə eyni toplumsal statusa və hüquqa sahib olmaq üçün onlar da savaşa qatılmalı və əldə edilən qənimətlərdən pay almalıdırlar. Tanrı açıqca onlara cavab verir: Hər kəsin haqqı etdiyi işə görədir. Qadınlar savaşa qatılmaqdan məhrum edildikləri üçün bərabər hüquqa sahib ola bilməzlər. "Tanrının birini digərinə üstün saymasını yarqılamayın. Kişilərin yapdıqları işlərdə bir fayda və qadınların yapdığı işlərdə isə başqa fayda var."[44] Təbərinin dediyinə görə, ayənin bu bölümü qadınların silah qullanma istəkləri ilə

---

[42] Əsqəlani, Əl-isabət, IV kitab, s. 588.
[43] Təbəri, Təfsir, VIII kitab, s. 266.
[44] Quran, IV surə, 32-ci ayə.

bağlıdır. Bu ayədən sonra öz istəklərini daha da məntiqli irəli sürməyə çalışan qadınlar savaşlara qatılma istəklərini bu şəkildə bəyan etdilər: hər kəsin payı əldə etdiyinə görə nəzərdə tutulur. Kişilər isə ancaq savaş yolu ilə zənginləşirlər. O zaman biz də zənginləşmək üçün kişilərin metodunu tərcih etməliyik.

Qadınların savaşa qatılma israrlarını anlaya bilmək üçün savaş alətlərinin və savaş qənimətlərinin Mədinənin iqtisadiyatındakı təsirini dəyərləndirmək lazımdır. Ərəb dili sözlüyündə "qəzəvə" sözü "düşmənə hücum və onun var-dövlətini ələ keçirmək" anlamındadır. Sözün izahında artırılır ki, "savaşda yenilmək qənimət əldə etməmək" kimi anlaşılır. Əslində "qəzəvə" savaş yolu ilə zənginləşmənin ən yayqın şəkli olmuşdur. Qəbilələr arasında yayqın olan bu savaş növü məğlub qəbilənin zənginliklərini ələ keçirmənin ərəb variantı idi. Ən çox da dəvə zənginlik aracı olaraq sayılırdır. Bu savaşlarda adətən qan tökülməməsi üçün çalışardılar. Qan tökülməsi çox təhlükəli olur və qətl edilən adamın qəbiləsi intiqam almağa and içərdilər. Qarşı tərəfdən birini öldürərdilər, qarşı tərəf də onun qanını almağa and içərdi. Və beləliklə qan davası zəncir kimi intiqam qonusunda nəsilləri bir-birinə bağlayardı. Başqa tür qəzəvə də var idi ki, orada qarşı tərəflər bir-birinə qəti şəkildə güzəştə getməzdilər. Məkkənin əsas gəlir qaynağı ticarət, Mədinənin əsas gəlir qaynağı isə tarım idi. Bunların ötəsində bir başqa gəlir qaynağı qənimət idi. Məhəmməd peyqəmbər də qəzəvələrə qatılırdı, lakin onun hədəfi tamam başqa idi. Bir çox hallarda öz ordusunun qarşısını ala bilmirdi və müsəlmanlar da daha öncədən yayqın olan qəzəvə qaydaları əsasında yağmaçılıqla məşğul olurdular. Peyqəmbərin isə hədəfi daha böyük idi. Zatən əgər belə böyük bir hədəf olmasaydı, O da qəzəvələrdə iştirak etmiş və sonra da tarixdə adı qalmamış qəbilə başçıları kimi tarixin unudulmuş savaşçılarına çevrilərdi. Savaş yolu ilə iqtisadi fəaliyətlərin əksik və ziddiyətli yönlərini peyqəmbər çox yaxşı bilirdi. Qəzəvələrin qanunları çox sərt idi. Yayqın gələnək üzrə qalib olan dəstə məğlublar qarşısında iki qeyri-insani metoda əl atırdılar: 1. Bütün kişiləri qətl edib qadınları əsir alırdılar. 2. Aristokrat kişiləri və qadınları yüksək fədiyə (əsiri azad buraxmaq üçün alınan para) qarşısında azad buraxırdılar. Bu savaşlar sürərkən müsəlmanlar belə bir sualla qarşılaşdılar: islamı qəbul edən savaşçılarla necə davranmaq gərəkir? Əsirlərin islamı qəbul etməsi ilə müsəlmanların miqdarı çoxalırdı, ancaq savaşlardakı əsas məqsədi qənimət qazanmaq olan müsəlman savaşçıların əlləri boş qalır və para qazana bilmirdilər. Çünkü onlar əsirləri satıb para qazanmaq fürsətini qaçırmış olurdular.

Qadınlar ortaya atılmış yeni sorulardan öz mənfəətləri üçün yararlanmağa çalışdılar. Onlar dedilər: "Cahillik dönəmində erkəklər

qadınları və çocuqları irsdən məhrum etmişdilər. Çünkü onlar savaşa qatılmır, savaşda əldə edilən zənginliklərdən faydalana bilmirdilər."[45] Hər zaman olduğu kimi, Ümm-Səlmə aydın və dəqiq metodla qadınların əsas istəklərini bu şəkildə bəyan etdi: "Ey Tanrı elçisi, erkəklər savaşa qatılırlar, ancaq irs aparma haqqımız olsa da, bizim savaşa qatılma haqqımız yoxdur." Başqa bir rəvayətdə bu sual bu biçimdə sorulmuşdur: "Ey Tanrı elçisi, nədən kişilər kimi bizim də savaşlara qatılma haqqımız yoxdur?"[46] Bu istək əslində qəzəvənin gələnəksəl təməllərini uçururdu. Bu gələnəkdə qaliblərin məğlub tərəfin kişilərini öldürmə haqları var idi. Aristokrat kişilər isə fədiyə ödəyərək özgürlüklərini qazanırdılar. Qadınlar və çocuqlar isə əsir alınırdı. Əsir qadınlar savaş qəniməti olan əşya kimi qaliblər tərəfindən satılırdı. Eyni zamanda əsir qadınları öz çocuqlarının baxıcıları kimi saxlaya bilir, həm də onlarla siğə şəklində seksual ilişkiyə də girə bilirdilər. Kölə qadınlar seksual alət və qulluqçu kimi qullanılırdılar."[47] Qadınlar bu istəklərini ortaya ataraq həm savaşlarda əldə edilən qənimətlərdən faydalanıb zənginləşmək istəyir, həm də aşağıdakı öykünün (hekayənin) anlatdığı kimi, fəlakətli durumlarından qurtulmağı umurdular. Bu öykünü cahillik dövrünün savaşçısı Əmro ibni Yəkrub ikinci xəlifə Ömərə anlatmışdır: Ey Ömər, sənə bir macəranı anladacağam ki, bu günə qədər kimsəyə söyləməmişəm. Bir gün biz Bənuzübeyd yağmacı qrupu olaraq Bənikənanə məntəqəsinə getdik. Gecə dışarıda dolaşan bir dəstə ilə rastlandıq. Orada bir neçə at, yeməklə dolu bir neçə xurcun, bir neçə dəri çadır, bir neçə də keçi var idi. Biz bütün bunların hamısını yağmaladıq. Sonra digər çadırlardan bir az uzaqda nisbətən böyük bir çadıra girdim. Çadırın içində xalçanın üstündə oturmuş çox gözəl bir qadın gördüm. Bu gözəl qadın məni və atlılarımı gördüyündə ağlamağa başladı. Niyə ağladığını sorduğumda dedi: "Ona görə ağlayıram ki, əmim qızları bu müsibətdən qaçmışdılar, indi isə mən özüm eyni müsibəti yaşamalı oldum." Mən onun söylədiklərinə inandım və əmisi qızlarının harda olduqlarını sordum. Qadın dedi: "O aşağıda, dərədədirlər." Atlılarıma dedim ki, siz məni burda bəkləyin dönəcəyəm. Atımı sürətlə sürüb dərənin dibi görünən təpəyə vardım. Təpəyə çatdığımda aldandığımı anladım. Təpədə uzun və qıvrım saçlı gənc bir kişi oturmuş ayaqqabılarını yamayırdı. Qılıncı önündə, atı da bir kənarda idi. Məni gördüyündə ayaqqabısı ilə məşğul olmaqdan əl çəkib qılıncını əlinə alıb atına mindi. Epik bir şeir söyləyə-söyləyə atını mənə tərəf sürətlə çapmağa başladı."[48] Bu gözəl qadının əri ilə Əmrunun arasında savaş başlayır və Əmro məğlub olub qaçır.

[45] Təbəri, Təfsir, IX kitab, s. 256.
[46] Eyni qaynaq, VIII kitab, s. 261.
[47] Maurice Lombard, L`islam dans sa premiere grandeur, lammarion, Paris. 1971, PP. 212ff.
[48] Mas´udi, Les prairies d´or, p. 612.

Ancaq daha sonrakı hücumlarında bir çox qənimətlə birlikdə bu qadını da qaçırmağı başarır. Bu gənc adam hadisədən xəbərdar olduğunda bir lüt ata minib, bir əl ağacı ilə onları təqib edir. O bir daha Əmronu yenib qadınını geri almağı başarır.[49] Beləliklə, Rabia adlanan bu gənc adam bir daha öz qadınını və yağmalanmış sərvətini öz qəbiləsinə qaytarır.[50] O zaman savunucusu olmayan gözəl qadının başına nələrin gəldiyini bu öyküdən anlamış oluruq. Ancaq hər kəs bu qadının əri kimi qəhrəman deyildi. Adi kişilərlə evlənmiş olan qadınlar belə durumlarda əsir alınır, kölə olaraq satılırdılar.

Yoxsulluq və ibtidai iqtisadi münasibətlər ortamında yaşayan ərəblər ipək paltar gördüklərində heyrətdən gözləri kəlləyə çıxırdı. Bir müsəlman peyqəmbərdən soruşdu: “Əynimizdəki paltarla namaz qılmalıyıq, yoxsa namaz qılarkən başqa paltar geyməliyik?” Peyqəmbər dedi: “Hər kəsin ikinci paltarının olduğunumu sanırsan?”[51] Ərəblər işğal etdikləri xristian yurdlarında onların bəzəkli paltarları qarşısında şaşıb qalırdılar. “Ərəblər heyrətlə onlara baxırdılar. Çünkü ömürlərində belə bəzəkli paltar görməmişdilər.”[52] Heç bir zaman əldə edə bilməyəcəkləri zənginlikləri savaş yolu ilə qazandıqları üçün islamın cəhad əmrinə daha çox ehtiyac duyurdular. Dış dünyada yaşayan millətlərin zənginliklərini əldə etmə ehtirası ərəblərin daha sıx şəkildə islama sarılmasını sağlayırdı. Lakin onların bir çoxunun heç yazıb-oxuması da yox idi. Hətta Qurandan bir ayəni belə doğru-dürüst əzbər bilmirdilər. Onlara lazım olan zənginlik idi. Ac ərəblər ən qısa yolla və ən qısa zamanda müsəlman olmayanların var-dövlətini ələ keçirməklə zənginləşirdilər. Hələ də islamın missionunun nə olduğunu anlamayan zənginləşmiş saysız ərəb peyda olmuşdu. İslamın savaş yolu ilə başqalarının sərvətini əldə etmə əmri ərəbləri qısa bir zamanda birləşdirə bildi. Bir çox düşmən qəbilələr daha uzaq hədəflərdəki zənginlikləri ələ keçirmək üçün birləşdilər. Bu üzdən də ərəb milləti və ərəb kimliyinin biçimlənməsində islamın savaş yolu ilə zənginləşmə metodu çox etkili oldu. Vəziyət elə olmuşdu ki, bir çox müsəlmanlaşmış ərəbin zənginlikləri Ərəbistanın 10 illik büdcəsinə bərabər olmuşdu. Bu üzdən də belə müsəlmanların iqtisadi mənafeyi qadınların bərabərlik istəyini zorlayırdı. Toplumun öz həyatını, özəlliklə iqtisadi planda sürdürə bilməsi üçün bir çox qadınlar öz dirənişlərindən vaz keçdilər. Ancaq peyqəmbərin qadını Ümm-Sələmə öz dirənişinə davam edən bircə qadın idi. O, “Tanrı yolunda fədakarlıq” və peyqəmbərin amaclarını gerçəkləşdirmə adı altında qadınların da savaşa

[49] Eyni qaynaq, s. 614.
[50] Eyni qaynaq.
[51] Təbəri, Muhammed, Sceaudes prophetes, p. 309.
[52] Eyni qaynaq.

qatılma haqlarını savunurdu. Qadınların bir çoxu dedi: "Yazıqlar olsun ki, biz kişi yaranmamışıq. Kişi olsaydıq, biz də savaşa qatılıb zəngin olardıq."[53] Peyqəmbər mümkün və qeyri-mümkün, təhlükə və uğurlar arasında incə bir tarazlıq bərqərar edən şəxs idi. Ayrıca, o, tərəfdarlarına yaxşı və varlı yaşayış müjdələyirdi. Tanrı da Məhəmməd kimi bilirdi ki, dünya nemətləri önəmsiz maraqlar deyildir. İslamın müjdələdiyi zənginlik, ancaq savaş yolu ilə mümkün idi. Qısa müddətdə müsəlmanların zənginləşməsini sağlayacaq başqa iqtisadi yol yox idi. Bircə yol ancaq, başqaların əlində olanları zorla almaq idi. İlk müsəlmanların əsas amacı yağmalama idi. Yağmalama onları çox qısa müddətdə zəngin insanlara çevirirdi. İslamın müsəlman olmayanların mallarını halal sayması qarət və yağmalama arzusu ilə müsəlmanlaşanların sayını get-gedə artırırdı. Bu hadisə islamın sürətlə yayqınlaşmasına səbəb olurdu. Islamın dərinliyindən xəbəri olmayan ac ərəb qəbilələri üçün var-dövlət qazanma fürsəti ələ keçmişdi. Bir çox yazıb-oxuması olmayan ərəb qəbilələri üçün islam, sadəcə şəhadət kəlməsindən və bir də ki, namazdakı ayələrdən ibarət idi. Bunlar da cümə namazları kimi ümumi toplantılarda əzbərlənmişdi. Məğlubiyətlərini hiss edən ölkələr və qəbilələr də əllərindəkilərini qapdırmamaq üçün yenə də islamı qəbul etmək zorunda qalırdılar. Ən qısa zamanda zənginləşmənin bircə yolu var idi: müsəlman olmayanların var-dövlətini ələ keçirmək. Çünkü müsəlmanların heç bir iqtisadi, ticari təcrübələri yox idi. Ayrıca, islama ilk iman gətirənlərin tam əksəriyəti yoxsullar idi. Bu yoxsullar daha sonra qənimətlər və yağmalama yolu ilə ən zəngin insanlara dönüşəcəkdilər. Bu yoxsullar zənginləşmək üçün savaşa hazır idilər. Çünkü onların itirəcəkləri heç bir şey yox idi. Ölsəydilər, bədbəxt həyatdan qurtulur, qalsaydılar məğlubların malı hesabına zənginləşirdilər. Onlar yalnız qazanırdılar. Cəhad adı ilə başladılan savaşlar heç bir ticari və istehsal təcrübələri olmayan müsəlmanların varlanmaları üçün böyük ümidlər və´d edirdi. Həm bu dünyada zənginləşirdilər həm də o dünyada islam savaşçıları olaraq cənnətlə müjdələnirdilər. Yəni qumsal çöllərin aqressiv ərəbləri üçün tam keçərli olan savaş və yağmalama sistemi islam tərəfindən ortaya qoyulmuşdu. Bu ümidlər tədricən gerçəkləşdikcə müsəlmanların savaş və yağmalama duyğuları inkişaf edir, qabarırdı. Müsəlman olmayan zənginləri öldürüb onların var-dövlətinə sahib çıxma ehtirası get-gedə artırdı. Tarixin heç bir dönəmində savaş duyğuları ərəblər içində VII əsrdə olduğu kimi dalğalanmamışdı. Bu üzdən də bir çox səhabilər öldüklərində onların yüzlərcə kölələri, kəndləri, bağları, uzaq diyarlarda tarlaları qalmışdı. "Tanrı

[53] Təbəri, Təfsir, s. 261.

sizlərə qovuşacağınız bolluca savaş qənimətləri vəd etmişdir ki, buna çox erkən qovuşdunuz."[54]

Savaşlar yolu ilə varlanmaq və cənnətdə yaşamaq arzuları müsəlmanların, hətta qətl törədərək inanclarını yaymağa məşruiyət qazandırırdı. Peyqəmbər hərbi rəhbər kimi yalnız barmaqsayı tərəfdarlarının savaş qənimətlərindən imtina etdiklərini anladı. 8-ci hicrət ilində baş verən Taif hadisəsi müsəlmanların zənginlik düşgünü olduqlarını ifşa etdi. Savaş gedərkən məğlubların düşdüyü ağır vəziyət peyqəmbəri narahat edirdi. Peyqəmbər məğlubların mallarını ələ keçirmə və əsir alma qaydalarını yüngülləşdirmək istəyirdi. Ancaq müsəlmanlar peyqəmbərə qarşı üsyan etdilər. Eləcə də "Hənin" savaşında biri şəxsi duyğusallıq, digəri məzhəbsəl olmaq üzrə iki hadisə peyqəmbəri narahat etdi və əldə edilən savaş qənimətlərini paylamaqdan imtina etməsinə səbəb oldu. "Hənin" savaşı Məkkənin müsəlmanlar tərəfindən ələ keçirilməsindən sonra VII hicrət ilində baş vermişdi. İslama qarşı dirənən qəbilələr üçün Məkkənin düşüşü (süqutu) təhlükə siqnalı çalmışdı. Çünkü Məkkəni ələ keçirən müsəlmanların gec-tez Taifə də həmlə edəcəkləri bəlli idi. Taifi ələ keçirmədən Məkkəyə sahib olmaq mümkün deyildi. Məkkə ilə Taifin arası üç günlük piyada yol idi. Bir neçə kənddən ibarət olan Taif Məkkə ilə Yəmənin arasında yerləşirdi. Taifdə bolluca meyvə bağları, əkin yerləri və üzüm tarlaları var idi. Ayrıca, yetərincə də su mövcud idi. Məkkə sakinləri iqtisadi cəhətdən daima Taiflə irtibatda olmaq zorunda idilər. Çünkü Məkkədə nə bir bitki, nə bir tarla, nə bir ağac, nə də meyvə var idi. Məkkənin meyvələrini Taif təmin edirdi. Məkkə əhalisinin Taifdə bağları, xurma tarlaları var idi. Üç ay yay fəsli boyunca yoxsullardan başqa kimsə Məkkədə qalmaz, Taifə gedərdi.[55] Şübhəsiz ki, Məkkənin nəzarətini ələ keçirən müsəlmanlar Taifi də almağa meylli idilər. Səqif qəbiləsinin başçısı Malik ibni Ovf Taif əhalisini müsəlmanlara qarşı dirənmək üçün təşkilatlandırdı. O, Havzən qəbiləsindən başqa bütün qəbilələrdən əsgər yığa bildi. Havzən qəbiləsinin rəhbəri Sə′d ibni Bəkr idi. Peyqəmbərin çocuqluğu bu qəbiləyə tapşırılmışdı. Bu qəbilə yetim Məhəmmədə sahib çıxmışdı. O zaman şəhərlər arasında belə bir gələnək mövcud idi ki, çocuqlarını şəhərdən kənarda daha sağlıqlı mühitdə bir baxıcıya tapşırırdılar. Bu qəbilə Malik ibni Ovfa yardım etmədi. Onlar dedilər: "Məhəmmədin çocuqluğu bizim qəbilədə keçmişdir. Biz böyütdük. İndi ona qarşı savaşa bilmərik." Lakin Malik onlara çox basqı yapdı və sonunda bir dəstə də bu qəbilədən savaşçı ala bildi.[56] Malik ibni Ovf 30000 savaşçı ilə Taifi tərk edib Məkkədən iki günlük məsafəsi olan Hənin çölündə

[54] Quran, 48-ci surə, 30-cu ayə.
[55] Təbəri, Muhammed, Sceaudes prophetes, p. 97.
[56] Eyni qaynaq.

pusquda durdu. Onun savaşçıları son nəfəslərinə qədər Məhəmmədlə savaşsın deyə, əmr verdi ki, bütün əsgərlər ailələrini və mal-davarlarını özləri ilə Həninə, savaş bölgəsinə gətirsinlər.[57] Peyqəmbər Hənin çölündə düşmənin pusquda olduğu xəbərini aldı. 2000 nəfəri məkkəlilərdən ibarət olmaq üzrə Həninə 12000 savaşçı göndərdi. Məkkənin idari işlərini səhabilərdən birinə tapşırıb özü də savaş meydanına yollandı. Çox çətin bir savaş başladı. Bu savaşda az qala peyqəmbər öldürüləcəkdi. Düşmən əsgərlərinin daha çox olmasına baxmayaraq, müsəlmanlar qalib gəldilər. Malik Taifə tərəf geri çəkildi, çünkü ətrafı qalalarla sarılmış olan şəhəri daha rahat müdafiə edəcəyini düşünürdü. Onunla bir yerdə savaşan bir neçə qəbilə savaşçıları ailələrini və mallarını buraxıb qaçdılar. Peyqəmbər o zamanın gələnəyi üzrə əmr verdi: “Fərar edən düşmən adamlarını üç gün müddətincə təqib edin və hər kəsə çatsanız öldürün. Üç günlük məsafədən sonra işiniz olmasın.”[58*] Bir çox qənimət müsəlmanların əlinə keçdi. Düşmən ailələri və mal-davarları, dəvələri müsəlmanların qəniməti oldu. “İslam ordusu düşmənin bütün mal və əşyalarını topladı. Bir çox dəvə, 6000 qadın və xeyli əsir əsgər ələ keçirilmişdi.”[59] Əsir qadınlardan biri Həlimənin bacılığı Əsma adında bir qadın idi. Həlimə peyqəmbərin dayəsi olmuş, ona süd vermişdi. “Peyqəmbər onu tanıdı və gözlərindən yaş axmağa başladı. Məhəmməd peyqəmbər əynindəki əbasını çıxarıb yerə sərdi və Əsmanın əlindən tutub Əbanın üstündə oturtdu. Bir gün sonra ondan soruşdu: “Bizimlə qalmaq, yoxsa öz qəbilənə dönmək mi istərsən?”[60] Əsma qəbiləsinə dönməyi tərcih etdi. Peyqəmbər onu yola salarkən, "qənimətlərdən bir dəvə, bir qoyun verdi. Bir qadınla bir kişi olmaq üzrə iki də kölə hədiyə etdi.”[61] Peyqəmbərin bu şəkildə davranışını müsəlman savaşçılar böyük xəta hesab etdilər. Əsma da savaş qəniməti sayılırdı. Bu üzdən müsəlman savaşçılar hesab edirdilər ki, peyqəmbər savaş qənimətinin bir parçası olan Əsmanı yalnız bağışlamamış, həm də ona savaş qənimətindən hədiyələr də vermişdi. Müsəlman əsgərlərə görə, savaşda mərhəmətin bir anlamı yoxdur. Ancaq daha ciddi bir xəta hələ qarşıda idi. Düşmən ordusunun rəhbəri olan Malik xəbər göndərdi ki, tərəfdarları ilə bir yerdə müsəlman olmaq istəyir. Bu, o anlamda idi ki, Malik müsəlman olduqdan sonra bütün mal-davarlarını və qadınlarını, dəvələrini geri ala bilər. Malikin bu mesajı müsəlmanları rahatsız etməyə başlamışdı. Onlar Malikin müsəlman olmasını istəmirdilər. Çünkü

---

[57] İbni Hişam, Səyərə, IV kitab, s. 80-141.

[58] Təbəri, Muhammed, Sceaudes prophetes, p.296.

[*] Çingiz xanın düzənlədiyi yasada da belə bir qanun var idi. Lakin Çingiz yasasına görə qaçanı vurmaq suç sayılırdı. Qaçan əsgəri vuran moğul edam edilirdi.(G.G)

[59] Eyni qaynaq.

[60] Eyni qaynaq.

[61] Eyni qaynaq.

mənafeləri təhlükəyə girir, savaş qənimətlərindən məhrum olurdular. Malikin verdiyi qərar şəraiti tamamı ilə dəyişdirdi. Artıq nə peyqəmbər, nə də müsəlmanlar əldə edilən savaş qənimətlərindən faydalana bilməyəcəkdilər. "Peyqəmbər bütün əsirləri və mal-davarları bir yerə topladı. Özü Məkkəyə getməyə hazırlaşdığı üçün mal-davarın və 10000 əsirin məsuliyətini Məsud ibni Əmroya tapşırdı."[62] Ancaq savaş qanunlarına görə, peyqəmbər ordu ilə məsələhətləşmədən qərar verə bilməzdi. Bu üzdən Bənisə΄d qəbiləsinə təklif etdi ki, bu məsələ cümə namazında dartışılsın. Müsəlmanlar üçün bu, həyati bir aşama idi. Qənimətlər, yoxsa Tanrı seçənəyi ilə qarşı-qarşıya qalmışdılar. Müsəlmanlar üçün bunlardan hansı önəmli idi? Tanrı, yoxsa var-dövlət? "Bir gün sonra cümə namazı peyqəmbərin imamlığı ilə başladı. Peyqəmbər cümə namazından çıxdığında Havazən, Səqif və Bənisəd qəbilələri onun ayağına qapanıb əfv dilədilər. Bu qəbilələrin təmsilçiləri qadınlarını, var-dövlətlərini geri almaq üçün peyqəmbərə yalvardılar."[63] Mövzuyla bağlı cümə namazında qərar veriləcəyini bildirən peyqəmbər dedi: "Bu əsirlər və qənimətlər sadəcə mənə aid deyil, bütün savaşçı müsəlmanlara aiddir."[64] Və artırdı: " mən öz payımı bağışlamağa hazıram. "Ancaq qalanları ilə bağlı islam ordusunun üzvləri qərar verməlidir."[65] Camidə həyəcanlı bir mübahisə başladı. Sadəcə heyvanlar deyil, dəyəri bir neçə dəvəyə bərabər olan qadınlar, çocuqlar və əsir əsgərlər də geri verilməli idi. Qənimətləri geri vermək istəməyən müsəlmanlara xitabən peyqəmbər dedi: "Siz öz haqqınızı saxlaya bilərsiniz. Ancaq hər kəs öz haqqından keçsə, məndən altı qoyun ala bilər."[66] 630-cu ildə cəhad fəlsəfəsi savaşda qazanılan zənginlik üçün alver vasitəsinə dönüşmüşdü. Belə bir durumda peyqəmbər öz missionunun gələcəyini qurtarmaq zorunda idi. Peyqəmbərin missionu sadəcə savaşda qənimət əldə etməkdən ibarət deyildi. Bu dartışmalarda Məhəmmədin peyqəmbərlik missionu təhlükəyə girmişdi. Peyqəmbər öz savaşçılarına necə anladacaqdı ki, savaşlarda yaxalanan əsirlərlə heyvanlar (dəvə, at, eşşək, qoyun, keçi) arasında fərq var. Qəzəvə qanununa görə, əsirlə heyvan arasında fərq yoxdur. Peyqəmbər bu törəni dəyişdirməyə hələ müvəffəq ola bilməmişdi. Bir tərəfdən, yeni müsəlman olmuş, digər tərəfdən, əski həyat tərzindən və fəlsəfəsindən hələ ayrıla bilməmiş müsəlmanların bu qədər qənimət qarşısında nəfsləri baş qaldırmış, hətta peyqəmbərə qarşı da sərt şəkildə çıxa

---

[62] Eyni qaynaq.
[63] Eyni qaynaq, s.299.
[64] Eyni qaynaq, s. 300.
[65] Eyni qaynaq.
[66] Eyni qaynaq.

bilirdilər. Ən önəmli mövzu bu idi: islamı qəbul edən bir əsiri mömin olaraq qəbul etmək olar, yoxsa yox?

Toplantı bir sonuca varmadan sona çatdı. Peyqəmbər bu prosesdə psikoloji bir yöntəmdən faydalandı. Məğlub tərəfləri camiyə dəvət edib müsəlmanlarla ünsiyət qurmalarını, müsəlman olduqlarını isbatlamalarını istədi. Ancaq caminin dışında müsəlman əsgərlər peyqəmbərə qızqın idilər və dərhal qənimətlərin paylanmasını tələb edirdilər. "Savaşçı müsəlmanlar peyqəmbərə yaxınlaşıb dərhal qənimətlərin ordaca bölüşdürülməsini istədilər. Peyqəmbər onlara qənimətlərin bölüşdürüləcəyinə söz verdi. Müsəlmanlar isə peyqəmbəri itələyib dedilər: "Əgər qənimətləri paylamasan, burdan getmənə izin verməyəcəyik. Müsəlmanlar peyqəmbərin əbasını dartıb üstünə bağırdılar. Çox çirkin bir səhnə ortaya çıxmışdı."[67] "Peyqəmbər öz payı istisna olmaqla bütün qənimətləri əski törələr əsasında paylamaq zorunda qaldı."[68] Anlaşıldığı kimi, bir çox islam mücahidləri mömin olaraq öz vəzifələrinin, missionlarının fərqində olmamış, yalnız zənginləşmək amacı ilə savaşdıqları üçün əsir qadınları zənginləşmənin aracı olaraq görürdülər. Onlar üçün insan və qadın haqlarının anlamı yox idi. Anlamlı olan necə olursa-olsun varlanmaq idi. Bu amac üçün də islam onlara çox uyqun ideoloji şərait yaratmışdı. Bu səbəbdən peyqəmbərin bayraqdarlığını etdiyini toplumsal bərabərlik çıxmaza girmişdi. Müsəlmanlar, Tanrı, yoxsa zənginlik seçənəkləri qarşısında Tanrını buraxıb, zənginliyi tərcih etdilər. Burada hadisələrin ardıcıllığını unutmamalıyıq. Hənin savaşı başlarkən, islam öz qələbələrinin zirvəsində idi. Qadınlar savaş və qənimətlər məsələsini daha öncə irəli sürmüşdülər. Hərbi şəraiti nəzərə almazsaq, peyqəmbərin qadınlara qarşı davranışnı anlaya bilməyəcəyik. Hənin savaşında fateh olan peyqəmbərin öz ordusunun istəyi ilə hesablaşmaq zorunda qaldığına şahid olduq. Ordu üzvləri qənimətlərlə bağlı peyqəmbərə sərbəst davranmağa izin vermirdilərsə, onda o, necə peyqəmbər imiş? İqtisadi bazasını savaşın təşkil etdiyi bir şəhərdə peyqəmbərin manevr yapması mümkün deyildi. Gəlir qaynaqları yalnız savaşlarda qazanılan qənimət olan müsəlmanlar üçün peyqəmbərin Tanrısal missionu anlaşılmaz idi.[69]

Ictimai bərabərliyi tətbiq etmək böyük problemlər doğurmağa başlamışdı. Qadınlara cənnət haqqı tanımaq da problem yaradırdı. Çünkü yalnız Tanrı yolunda cəhad edib savaşanlar cənnətlə müjdələnirdi. Bunun üçün isə erkəklərin savaşçılıqları gərəkirdi. Erkəklərin Tanrıya ehtiyacları var idisə, eyni şəkildə Tanrının da erkəklərə ehtiyacı var idi.

---

[67] Eyni qaynaq, s. 301.

[68] بن هشام، سیره، ج4، ص 130

[69] William Montgomery Watt, Muhammad at Medina, Oxford university press, Oxford 1956.

Peyqəmbərin dühası və Tanrının böyüklüyü bu sualla qarşı-qarşıya idi: cinsi bərabərlik önəmlidir, yoxsa islamın davamı? Çünkü cinsi bərabərlik müsəlmanlar tərəfindən anlaşılmırdı. 15 əsr keçdikdən sonra hələ də cinsi məsələyə VII əsrin meyarları ilə yanaşırlar. Tarixçilərin yazdıqlarına görə, Məhəmmədin zamanında Ərəbistan yarımadasında saxta peyqəmbər ortaya çıxdı. "Yəməndə Ənsa və Yəmamədə Müslimə onların ən məşhurları idi. Müslimə çox cazibəli və yaraşıqlı idi və çox estetik və şairanə danışırdı."[70] Müslimə özünü Məhəmmədin rəqibi sanırdı. Məhəmmədə əməkdaşlıq təklifi etmişdi. O, günlərin birində Yəmamədə bir qrup insan önündə dedi: "Mən də Məhəmməd kimi peyqəmbərəm. Yer kürəsinin yarısı mənə, digər yarısı isə Məhəmmədə aiddir."[71] O, daha çox milli duyğuları öz müxatiblərində oyatmağa çalışırdı: "Siz mənim kimi bir peyqəmbər bula bilməyəcəksiniz. Niyə yabancı bir peyqəmbərə tapınırsınız?"[72]

Qadınlar da öz peyqəmbərliklərini duyururdular. Onlardan biri Haris ibni Süveydin qızı Səccah idi. Ərəb şairlər onunla bağlı olaraq deyirdilər:

"Qadın soyundandır peyqəmbərimiz
Erkək peyqəmbərə tapındınız siz."[73][*]

Ancaq Səccah peyqəmbərə yaraşmayan ölçüsüz işlər gördü. O, öz hissini cilovlaya bilməyib Müsliməyə aşiq oldu. Bu ilişki evliliyə qədər sürdü:

Peyqəmbərliyinin başlanqıcında Səccah hiyləgər Müslimənin peyqəmbərlik iddiasını rədd etdi. Ancaq daha sonra onun peyqəmbərliyini qəbul etdi. Bu qadın peyqəmbərlik iddiası etmədən öncə qeybdən xəbərlər verirdi. "Bir gün o, Müslimənin yanına gedib onunla evləndi."[74]

İslam açısından saxta peyqəmbərlər olaraq tanınan bütün bu peyqəmbərlər məğlub oldular. Çünkü Tanrı və insan arasındakı hərəkət və ünsiyyət sənətinə sahib deyildilər. Bu saxta peyqəmbərlərin təlimatlarının tam tərsinə olaraq Məhəmmədin peyqəmbərlik məktəbi insanları sonsuzluğa və toplumu ülküçülüyə doğru yönləndirirdi. İslamda, ancaq cinsi məsələ həll olunmamış qalmışdı.

---

70 Təbəri, Muhammed, Sceaudes prophetes, p. 320.
71 Eyni qaynaq.
72 Eyni qaynaq, p. 321.
73 Masudi, les prairies d´or, vol, 3. p. 321.
* Şeirsəl tərcümə tərcüməçiyə aiddir.
74 Təbəri, Muhammed, Sceaudes prophetes, p. 321.

# Ömər və Mədinə kişiləri

Ömər müsəlman olmadan öncə Qüreyş qəbiləsinin seçkinlərindən və peyqəmbərin ən təhlükəli düşmənlərindən biri idi.[1] O, Məhəmmədi qəbilələr arasında ixtilaf salmaqda, dini törələrə sayqısızlıqda, tanrılara hörmətsizlikdə suçlayırdı.[2] Peyqəmbər Ömərin islamı qəbul etməsindən qürur duyurdu. Əslində Məhhəmməd öz missionunu gerçəkləşdirmək üçün Məkkənin ən güclü adamını ələ ala bilmişdi. Ömər müsəlman olduqdan sonra "Öndə gedir və onun arxasınca bir sürü savaşçı müsəlman hazır olurdu. Ömər Kəbəyə yaxınlaşdığında namaz qılmağa başladı. Müsəlmanlar da onunla bir yerdə namaz qıldılar."[3] Peyqəmbərin Ömərə ayrıca hörməti var idi. Hətta Ömər müsəlman olmadan öncə peyqəmbər onun bəzi özəlliklərini öymüşdü. Məhəmməd onun ədalətsizliyə qarşı olan qətiyyətindən xoşlanır və ona Faruq ləqəbi vermişdi. Faruq, doğrunu yanlışdan, haqqı batildən ayırd edə biləcək qüvvəyə sahib olan şəxs anlamındadır. Faruq, hər şəraitdə doğrunun fərqinə varan seçkin insandır. Ömərin bu yöndə böyük istedadı var idi.[4] Eləcə də peyqəmbər onun tənqidçilik ruhunu təqdir edirdi. Ömər deyirdi: "Ərəb, cilovu çəkilən qızqın dəvəyə bənzər. Cilov çəkən baxmalıdır ki, dəvəni hara aparmalıdır. Kəbənin Tanrısına and olsun ki, bu ərəblərin cilovunu mən çəkməkdəyəm."[5] Tarix kitablarında Ömər haqqında verilən bilgi insanın islama aşiq olmasına zəmin yaradır. O, xalqın diləklərini yerinə yetirən hakim idi. Hər şeydən önəmli bu idi ki, dürüstlüyü və dünya malına bağlı olmamağı yoxsulluq səviyəsinə qədər təbliğ edirdi: "O, çox təvazökar idi və qaba paltar geyirdi. Tanrı işlərində çox qətiyyətli idi..., dəri ilə yamanmış yun

---

[1] Əsqəlani, Əl-İsabət, IV kitab, s. 588.
[2] İbni Hişam, Səyərə, VIII kitab, s. 367.
[3] Eyni qanynaq, s. 366.
[4] Məsudi, Mürəvvic-ul zəhəb, II kitab, s. 313.
[5] Təbəri, Tarix, V kitab, s. 27.

əba geyinirdi. Böyük dövlət adamı olmasına baxmayaraq, bütün şəxsi işlərini özü görürdü. Əlinin altında var-dövlət olmasına rəğmən, onun dəvəsinin üstündəki oturacaq xurma yarpaqları ilə düzəlmişdi."[6] Müsəlman tarixçilər bütün tarixi şəxsiyyətlərin özəlliklərini, hətta mənfi yönlərini də yazmağa çalışmışlar. Ömərlə bağlı da bu şəkildə davranmışlar. Ömərin üstün cəhətlərini yazmaqla bərabər onun qadınlarla çox qaba davrandığını da yazmışlar. Təbəri yazır: "Ömər xəlifə olduqdan sonra bir qadına evlənmək təklif etmiş. Lakin Ayişənin bacısı olan Ümm-Gülsüm adında bu qadın onun təklifini "qadınlarla qaba və sərt davrandığı üçün" rədd etmişdi."[7] Kişi cəbhəsində dayanaraq peyqəmbərin cinsi bərabərlik görüşünə Ömərin qarşı çıxması təsadüfi deyildir. Onun daha üstün əxlaqi yönlərinin olmasına baxmayaraq, ailədə əski dəyərlərin davam etməsindən yana idi. Ömərə görə, islami transformasionlar yalnız və yalnız ictimai və mənəvi ilişkilərlə məhdudlaşmalı, özəl yaşama qarışmamalıdır. Ömərin başçılıq etdiyi cərəyan özəl həyatda əski gələnəklərin davamını istəyirdi. Erkəklər siyasi və iqtisadi planda inqilabın gerçəkləşməsi ilə bağlı hazır olduqlarını duyurdular. Ancaq qadın-kişi ilişkilərinin dəyişməsinə qəti şəkildə qarşı çıxırdılar, özəlliklə başda Ömər olmaqla məkkəlilər əski dəyərlərin davam etməsini istəyirdilər. Onlar Mədinəyə gəldiklərində qadınların bu qədər azad davranmalarına şaşırıb dedilər: "Biz Qüreyş erkəkləri, qadınlarımıza hakimik. Ancaq görünür ki, Mədinədə erkəklərin qadınlar üzərinə hakimiyəti yoxdur. Bizim də qadınlarımızın Mədinə qadınları kimi davranmalarını heç istəməzdik."[8] Ömərin rahatsızlığı əsassız deyildi. Çünkü Ənsara mənsub olan bir qadın onun eşi idi. Bir gün öz qadını ilə dartışan Ömər, Qüreyş kültürünə uyqun olaraq qadınının onun qarşısında diz çöküb üzr istəməsini bəklədi. Ancaq onun qadını bu işi etmədi. "Və Ömərin əsəbləşməsi qarşısında dedi: and olsun Tanrının birliyinə, peyqəmbərin də qadınları onunla dartışır, hətta peyqəmbərin qadınlarından biri səhərdən axşama qədər onunla küsülü qalmışdı."[9] Ömərin tam qorxduğu hadisə gerçəkləşdi. Ənsar qadınlarının sərbəstliyi və erkəkmərkəzli davranışları qəbul etməmələri Qüreyş ailələrini də etkilədi. Məkkədə Ömərin itaətkar qadını indi ona qarşı çıxıb azad şəkildə öz fikrini söyləyirdi. Ömərin qadınının bu şəkildə davranmasının səbəbi var idi. O, belə hesab edirdi ki, bütün müsəlman erkəklər öz qadınları ilə peyqəmbər kimi davranmalı və qadınlarına özgürlük haqqı tanımalıdırlar. Peyqəmbərin qadınları səslərini yüksəldib sərbəst şəkildə qəzəblərini ortaya qoyurlarsa, içlərində saxlamırlarsa, o zaman səhabilərin də qadınları bu

---

[6] Məsudi, Mürəvvəc-ül zəhəb, II kitab, s. 312.
[7] Təbəri, Tarix, V kitab, s. 27.
[8] Buxari, Səhih, III kitab, s. 258.
[9] Eyni qaynaq.

haqdan bərxurdar olmalıdırlar. Peyqəmbərin metodunu seçən adamlar çox çətin bir yola girdiklərinin fərqində idilər. Ancaq əski dəyərləri uçuran islam, qadınlara yeni haqlar tanıyırdı və bu yeni dəyərlərə dayanan qadınlar inqilabi davranırdılar. Hər zaman yeniliyin inqilabi yanı olmuşdur. Hətta qadınlar bu yeniliyə arxalanaraq əski dəyərlərə qarşı üsyan edir, ərlərinin yeni islami dəyərlərə uymalarını istəyirdilər. Qadınların bu kimi radikal davranmağa haqları var idi. Çünkü əsrlər boyu ilk dəfə olaraq qadına haq tanınırdı. Bu tanınan haqdan da özəl həyatlarında yararlanmaq istəyirdilər. Ancaq əski törələrin davam etməsini kişilik qürurlarına uyqun hesab edən səhabilərin səbri daşırdı.

Ömər, yalnız öz qadınını döyməklə yetinmədi. Ömər üçün qadınların bu yeni davranışı çox önəmli idi. Tələm-tələsik peyqəmbərin qadını olan öz qızı Hafisənin yanına gedib peyqəmbərin qadınları ilə davranışı haqda sordu. Bu hadisəni Ömər özü bu şəkildə rəvayət edir: "Bağıraraq Hafisədən soruşdum: Ey Hafisə! Sizlərdən birinizin peyqəmbərdən küsmüş olduğu doğrumu? Hafisə dedi: Doğrudur. Mən dedim: Sizlər yanılırsınız və peşman olacaqsınız. Peyqəmbəri incitdiyiniz üçün Tanrının sizi cəzalandırmasından qorxmursunuzmu? Sən peyqəmbərdən heç bir şey istəmə və ona cavab qaytarma. Onunla qaba davranma. Nə istəsən, mənim yanıma gəl, məndən istə!”[10] Ancaq Ömərin müxatibi sadəcə öz qızı deyildi. Peyqəmbərin bütün qadınlarından ər qarşısında təmkinli olmalarını tələb edirdi. O, peyqəmbərin bütün qadınlarına uğrayıb, səslərini peyqəmbərin önündə yüksəltməmələrini istədi. Ancaq Ümm-Səlmə ilə qarşılaşdığında problem yarandı. Ümm-Səlmə özəl yaşamlarına Ömərin qarışmasından rahatsız olmuşdu. O, heç çəkinmədən Ömərə dedi: “Nədən sən peyqəmbərin və onun qadınlarının özəl yaşamlarına qarışırsan? Əgər bizim davranışımızla bağlı peyqəmbərin etirazı olsa, özü söylər. Bunlar bizim özəl ailə sorunlarımızdır, sənə nə? Biz problemlərimizi peyqəmbərə də deməyəcəyiksə, kimə deyəcəyik? Biz sənin qadınınla olan özəl yaşamına müdaxilə edirikmi ki, sən də bizim özəl həyatımıza qarışırsan?”[11] Ümm-Səlmənin bu cəsarətini peyqəmbərin digər qadınları alqışlayıb ona dəstək verdilər. Ömərin yaxşı özəlliklərinin olması ilə yanaşı bir çox əksik yönləri də var idi. İncə şeyləri görmürdü və ictimai adam deyildi. "Əbubəkir xəlifə olduğu zaman çevrəsinin Ömərlə bağlı fikrini sormuşdu. Bir çoxları onu aqressiv, dəmdəməki, qaba və abtal olaraq anlatmışdılar."[12] "Ömərlə Ümm-Səlmə arasında keçən bu dialoqdan sonra peyqəmbərin digər qadınları Ümmi-Səlməyə təşəkkür etdilər. Ümmi-Səlmənin cəsarətini alqışlayıb onun kimi olmağı arzu etdilər. Ancaq onlarda

---

[10] Eyni qaynaq.
[11] İbni Sə´d, Təbəqat, VIII kitab, S. 180. .180 بن سعد، طبقات، ج8، ص
[12] Təbəri, tarix, IV kitab, s. 51.

Ümmi-Səlmə kimi güclü xarakter yox idi."[13] Nəhayət Ömər belə qərara gəldi ki, kişiləri təhdid edən bu təhlükə ilə bağlı peyqəmbərin özü ilə danışsın. "Ancaq cavab olaraq peyqəmbər yalnızca Ömərə baxıb gülümsədi."[14] Peyqəmbərin gülümsəməsi çox anlamlı idi. Bu, onun ən etkiləyici silahı sayılırdı. Peyqəmbərin bir çox ciddi olaylarla bağlı belə gülümsəməsi o zamankı ərəb şairlərinin şeirini də etkiləmişdi: “Peyqəmbərin üzü çox çəkici və şirin idi. Ona baxmaqdan doymaq olmurdu.”[15] Burada qadınla ilgili iki fərqli görüş ortaya çıxırdı: biri peyqəmbərin, digəri isə Ömərin baxış açıları idi. Peyqəmbərin öz çevrəsi və qadınları ilə yumşaq münasibətləri şiddətə alışmış o mühitin insanlarını şaşırırdı. Ömər mərkəzdə olmaqla bir çox səhabi öz qadınlarını döyməyi məqbul sayırdı. Qadınlara qarşı zor işlətmə yeni islami toplumda böyük problem yaradırdı və qadınlar bunu qəbul etmirdilər. Bu problem islamın varlığını təhlükəyə soxacaq qədər böyük idi.

## Seksual ilişkilərlə bağlı dialoq

Ömərin qorxduğu hadisə gerçəkləşdi. Qadın haqqını savunan peyqəmbərlə qadın haqsızlığını savunan Ömərin zehniyəti arasında təzad mövcud idi. Ənsar qadınları peyqəmbərin görüşünə dayanaraq haqlarını istəyirdilər. Nəhayət, təhlükəyə girmiş islamı qurtarmaq üçün Tanrı öz qərarını verdi.

Bu zaman iki hadisə ortalığı qarışdırdı. Birinci hadisə Ənsara mənsub bir qadının ərinin istədiyi kimi seksual ilişkiyə hazır olmaması idi. Ikincisi isə bir qadının yenə də seksual ilişki ilə bağlı əri tərəfindən döyülməsi idi. Hər iki hadisənin iştirakçısı olan qadınlar peyqəmbərə uğrayıb problemə çözüm gətirməsini rica etdilər. Peyqəmbər bu kimi durumlarda susur və Tanrının əmrini bəkləyirdi. Bir çoxlarına görə, bu mövzu ilə ilgili gələn açınım (vəhy) kişiləri savunmuşdur. Baş vermiş hadisə ilə bağlı Ümmi-Səlmə və Ömər aracı olmuşdular. Ümmi-Səlmə qadınların, Ömər isə kişilərin vəkilliyini etmişdilər. Dəqiq olaraq nə baş verdi? “Qüreyş qəbiləsi yayqın kültür üzrə qadınları ilə sadəcə öndən deyil, arxadan da seks yapırdılar.” Şəhər həyatı yaşayan mədinəlilər üçün məkkəlilərin bu şəkildə

---

[13] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 180.
[14] Buxari, Səhih, III kitab, s. 258.
[15] Təbəri, Tarix, III kitab, s. 185.

seks həyatları anlaşılmaz idi. Ənsara mənsub bir qadın Ümmi-Səlmə ilə görüşüb bu haqda peyqəmbərdən sual sormasını istədi. Peyqəmbər o qadını yanına çağırıb bu mövzu ilə ilgili Tanrının bilgisini onun özünə söyləmək istədi. Qadın gəldiyində peyqəmbər Bəqərə surəsinin 223-cü ayəsini ona oxudu. Bu ayə qadınla hər növ seksual ilişkidə erkəklərin əlini açıq buraxırdı: "Qadınlar sizin tarlalarınızdır. İstədiyiniz kimi bu tarla ilə davrana bilərsiniz."[16] Təbəri bir sürü bəlgə göstərərək isbat edir ki, bu ayə nəinki mövzunu qapatmadı, tam tərsinə olaraq bəzi problemlərin ortaya çıxışına da zəmin yaratdı. Bəzi müsəlmanlar hesab edirdilər ki, bu ayə qadının arxasından da seks yapmağa izin verir. Bəziləri isə hesab edirdilər ki, bu ayəyə görə, qadının arxasından seks yapmaq yasaqlanmışdır. Bu şəkildə müxtəlif görüşlər ortaya çıxdı.

Başqa bir ayə ilə də qarşılaşırıq ki, bu ayə də müxtəlif şəkildə yozulmuşdur. Bu mövzuya açıqlıq gətirmək islam alimlərinin görəvidir. Təbəri böyük ehtiyatla bu ayə ilə bağlı 41 yozumu bir yerə toplamışdır. O heç bir yozuma laqeyd yanaşmadan hamısını bir araya gətirmişdir.[17] Bu, kişilərin nəfinə təhlil edilmişdir. Kişilər öz qadınları ilə onların istəyindən asılı olmayaraq seksual irtibata keçə bilərlər. Qadınlar isə ərlərinin ehtiyacları qarşısında təslim olmaq zorundadırlar. Məsələni bu şəkildə yozumlamaq qadınların bu mövzu ilə ilgili dartışmalara qatılmalarını əngəllədi. Bu ayədən sonra kişilər üçün belə bir sual ortaya çıxdı: "kişilər öz qadınları ilə arxadan da seks yapa bilərlərmi, islam buna necə baxır?"

Olayın tarixi kökünü izah edən başqa bir rəvayət də mövcuddur. Ənsar qadınlarının sualı bir yana buraxılıb, kişilərin məsələsi ortaya qoyuldu. Bu rəvayətdə qadınlar yox, mübahisəni kişilər başlamış. Bir gün bir qrup kişi qadınla seksual ilişki haqqında danışırdılar. Bu söhbət sırasında ləvat (erkəyin erkəklə seks yapması) haqqında da söz düşdü. Ləvat haqqında söhbət edərkən bu haqda bilgisiz olduqları üzə çıxdı. Bu üzdən peyqəmbərə uğrayıb ləvat haqqında sual sormaq istədilər. Bu mövzu ilə ilgili bir çox rəvayətlər mövcuddur ki, burada onların hamısını gətirməyə ehtiyac yoxdur.

Bu ayə ətrafındakı mübahisələr oxumaqda olduğunuz kitabın aydınlatmaq istədiyi məsələnin dərinliyini açıqlayır. Yəni siyasi və erkəkmərkəzli imtiyazlara məşruiyət qazandırmaq üçün məzhəbin bir vasitə, bir alət kimi istifadə edilməsi üzə çıxır. Üç əsrdən sonra bir din alimi olaraq Təbəri bu ayənin məfhumunu möminlərə açıqlamaq istərkən, hələ də bu mübahisə davam etməkdə idi! Və hələ də davam edir! Yəni müsəlmanlar üçün hələ də bəlli olmamış, qadının arxası ilə seks yapmaq olar, yoxsa

[16] Pickthall, The meaning of the Glorious Kuran.
[17] Təbəri, Təfsir, IV kitab, s. 400.

olmaz?[*] Əslində bu mövzuya diqqət etmək gərəkir ki, islami mətnlərdə heç bir dartışmanın sonu olmaz. Heç bir irəliləmə olmadan hər nəsl özündən öncəki nəslin mübahisələrini yenidən başlar. Niyə? Çünkü milyonlarca insanın həyat qanunlarını müəyyənləşdirən bir mədəniyyət əməldə, gerçək həyatda səfsətəyə (sarsaxlığa), səfihliyə yol verməmək üçün bir növ istiqamət və ümumi çərçivə bəlli etmək zorundadır. Təbərinin çox böyük alim və araşdırmaçı olmasına baxmayaraq, öz çağdaşlarına bu problemin həlli üçün yardım etməmişdir. Onları özbaşlarına buraxdı, onlar da islamöncəsi törələri dirildib islam adına təqdim etməkdə önlərini və əllərini açıq gördülər. O, islamın cinsi bərabərlik üsuluna dayanaraq qadın hüququnu açıq şəkildə isbat etmədi. Təbəri, olayları və olmuşları nəql etmənin ötəsinə çıxmadı. Bu üzdən də "cinsi ilişkilər iki fərqli cinsin (qadın-kişi) iradəsindən asılıdır və seksual ilişkiyə qadının da psikoloji hazırlığı olmalıdır, qadın da seksdən ləzzət almalıdır" görüşünü kəşf edə bilmədi. Bu din aliminin dini üsulları toplamaqdan qorxması sadəcə bu ayənin zərər görməsinə şərait yaratmamış, həm də oportonist (fürsət tələb) təfsirlərin islam strukturunun bir parçası olmasına səbəb olmuşdur. Təbəri öz nəzərini bu şəkildə sonuclandırır: "Bu ayə kişiyə öz qadını ilə hər növ seksual ilişkidə bulunmağa izin vermişdir. İstər qadının razılığı olsun, istər olmasın erkək məxluq öz qadını ilə seks yapa bilər."[18] Təbəriyə görə, ləvat (erkəklə erkəyin seks yapması) işi islam tərəfindən rəsmən haram sayılmışdır. Ancaq seksual ilişkilərdə qadının rolu nədir kimi ciddi bir sual islamda cavabsız qalmışdır. Ümumiyətlə müsəlman qadının iradəsi və seçim haqqı islamda rəsmiyətə tanınırmı? Qadın düşünən bir varlıq kimi qəbul edilir, yoxsa sadəcə erkəklərin seks alətləri kimi təqdim edilir? Müxtəlif seçənəklər qarşısında qadının azad iradəyə sahib olması mümkünmü? Qadınlar bu önəmli sualların cavabını Tanrıdan almaq üçün çox çalışdılar. Islamöncəsi gələnklərin qanunları bu mövzuyla ilgli bəlli idi: qadın bir əşya kimi irs sayıldığı və alınıb-satıldığı üçün onun özgür iradəsi ola bilməzdi. İlk müsəlman qadınlar həm irsdən faydalana bilir, həm də seksual ilişkilərdə sərbəst iradəyə sahib idilər. Bu səbəbdən də bu özgür qadınlar yeni islami toplumun memarisi sürəcində qadınların iradəsinin də rəsmiyətə tanınmasını Tanrıdan istədilər. Ancaq bütün təlaşlara baxmayaraq, qadınlar əski törələri dağıda bilmədilər və erkəkmərkəzlilik davam etdi.

---

[*] İran İslam İnqilabının rəhbəri Ruhulla Xumeyni öz dini risaləsinin 435-ci maddəsində yazır: "Qadınlar aybaşı xəstə olduqlarında arxadan seks yapmaq mümkündür." (G.G.)

[18] Eyni qaynaq.

# Kölәlik

İslamöncәsi durumla müqayisәdә qadınlar daha sәrbәst olduqlarının fәrqindә idilәr. Ancaq bunu da anlamışdılar ki, fәrqli bir sınırlılıq onların iradәsinә vә özgürlüklәrinә qoyulmuşdur. İradәlәrinin sınırlanmasını anlayan ilk qrup sadәcә qadınlar deyildi. İslamın kölә ilә qadına yanaşması arasında çox bәnzәrlik var. Bütün möminlәrin bәrabәr olduqlarını peyqәmbәr açıqca duyurdu vә quran da peyqәmbәrin elan etdiyini onayladı. Kölәliklә ilgili dә eyni hadisә baş verdi. Ancaq müsәlmanların peyqәmbәrin tәlimatına vә Tanrı buyruğuna uyqun şәkildә davranıb davranmamaları başqa bir mәsәlә idi. "Yәhudilik vә xristianlıq kimi tövhid dini olan islam kölәliyin lәğvi üçün qәti fәrman vermәmişdir. Ancaq bu dinlәrdәn fәrqli olaraq kölәlәrlә daha yaxşı vә әxlaqlı davranmağı mәslәhәt bilmişdir."[19] Bәrabәrliyi bir әsas kimi önә sürәrәk islam kölәliyә qarşı çıxmışdır. Peyqәmbәr öz möizәlәrindә kölәlәri azad etmәyi savab iş olaraq duyururdu, ancaq kölәliyin lәğvi qәti bir qanun şәklindә ortaya qoyulmadı, sadәcә kölәlәrlә yaxşı vә insani davranmaq tövsiyә edildi. "Peyqәmbәrin anlatılarında kölәlәri azad etmәk Tanrı yolunda sәdәqә vermәk kimi bir әmәl idi."[20] Müxtәlif ayәlәrdә kölәlәri azad etmә әmәli tәşviq edilir. Bәqәrә surәsinin 177-ci ayәsi bu haqda deyir: "Üzünüzü Şәrqә vә ya Qәrbә tәrәf tutmaq yaxşılıq deyildir. Yaxşılıq odur ki, adam Tanrıya, qiyamәtә, sәmavi kitablara, mәlәklәrә vә peyqәmbәrlәrә iman gәtirsin vә öz var-dövlәtindәn yetimlәrә, yazıqlara, möhtaclara, kölәlәrә bağışlasın."[21]

Bu görüş Bәld surәsinin 13-cü, Tövbә surәsinin 60-cı vә Әhzab surәsinin 92-ci ayәsindә dә zikr edilmişdir. 12 kölәni azad etmәklә peyqәmbәr bu mövzu ilә bağlı öz әmәl vә istәyini örnәklәndirmişdi. Bu 12 kölәnin içindә daha öncә haqqında danışdığımız Әbubәkirә dә var idi. Taifin mühasirәsi zamanı peyqәmbәr şәhәrdәki kölәlәrә mesaj göndәrmişdi ki, islamı qәbul edib tәslim olsalar, hәm azad olacaqlar, hәm dә onlara qarşı islam ordusu heç bir tәzyiqdә göstәrmәyәcәkdir. 12 nәfәr kölә tәslim olub peyqәmbәrә gәldilәr. "Bu 12 nәfәr kölәdәn yalnız Әbubәkirә peyqәmbәrin yanında qalıb peyqәmbәrin ev işlәrinә baxdı. Qalanları isә istәdiklәri yerә

---

19 دایره المعارف اسلامی.

20 Eyni qaynaq.

21 Pickthall, The meaning of the Glorious Kuran.

getdilər."[22] Anlaşıldığı kimi peyqəmbərin Taif savaşındakı tutumu əsgər qazanmaq taktikası deyil, yeni dinin bərabərlik anlayışını sərgiləmək idi.

İslam köləni bir insan olaraq qəbul etdi. Ona insanlıq sifəti tanıdı. Bu da toplumsal və seksual ilişkilərə dərin təsir buraxdı. "Özəlliklə qadın kölələri cinsi sömürü aləti etmə yasaqlandı." Fahişəliyə son vermək üçün islam kişiləri kənizləri ilə evlənməyə təşviq etdi. Ancaq islamın ən böyük və uca qərarı azad qadın və kişilərin kölə qadın və kişilərlə evlənməsini rəsmiyətə tanıması idi. Peyqəmbər Haris qızı Cüviyriyə və Səfiyə kimi kölə qadınlarla evlənməklə bir örnək oluşdurdu. Cüveyriyənin qəbiləsi məğlub edildikdən sonra o, savaş qəniməti kimi müsəlmanların əlinə keçmişdi. Savaş gələnəyinə görə o, Sabit ibni Qeys adında bir müsəlman əsgərə aid idi. Ancaq Cüveyriyə aristokratlardan olduğu üçün Sabit ibni Qeys alacağı yüksək miqdar para qarşılığında onu azad buraxacağını söylədi. Sabit peyqəmbərə uğrayıb mövzunu ona söylədi. Peyqəmbər ona dedi ki, istədiyin paranı mən sənə ödərəm, Cüveyriyəni burax, azad olsun. Sonra da Cüveyriyə ilə evləndi.[23] Peyqəmbər eyni işi Səfiyə ilə də etdi. Səfiyə yəhudi idi və savaşda əsir düşmüşdü.

İslam, qadınlarla ilgili olduğu kimi, kölələrlə bağlı da əski törələri dəyişdi. Kölənin azad edilməsi bir mövzu, onlarla yaxşı rəftar etmək isə başqa bir mövzu idi. Peyqəmbər ordu başçılığını Zeydin oğlu Üsaməyə tapşırmaq istədiyində müsəlmanlar etiraz etdilər, çünkü Üsamə sərbəst buraxılmış kölənin oğlu idi. Əslində müsəlmanların bu hadisəyə olan etirazları ilə qadın azadlığına etdikləri etiraz eyni anlamda idi.

Romanın böyük bir ordusunun Suriyənin sınırlarında hərəkətlənməsi ilə bağlı peyqəmbərə bilgi verdilər. Peyqəmbər xəstə olmasına baxmayaraq, Suriyəyə tərəf hərəkət etmək üçün əhaliyə əmr verdi və Üsaməni ordu başçısı təyin etdi. Üsamə hərəkət bayrağını Mədinənin darvazalarında dalğalandırdı. Məhəmmədin ordusu hərəkətə hazır idi. Ancaq müsəlmanlar şikayət etdilər: "Niyə peyqəmbər azad edilmiş bir kölə oğlunu Ənsarın, Mühacirlərin və Qüreyşin başçısı təyin etdi?" Peyqəmbər bu söhbəti eşidib dedi: "O, bu görəvə layiqdir." Üsamə peyqəmbərin yanına getdiyində peyqəmbər ona dedi: "Onların söylədiklərinə üzülmə. Onlar bu sözü sənin atana da dedilər. Sənin atan hər kəsdən daha çox orduya başçılıq etməyə layiq idi. Sən özün də hər kəsdən daha çox bu vəzifəyə uyqunsan." Üsamə böyük iradə və qətiətlə xeyməyə geri döndü. Ordu Suriyəyə tərəf hərəkətləndi."[24]

---

[22] Tabari, Muhammed, Sceaudes prophetes, p. 33.
[23] Eyni qaynaq, s. 328.
[24] Eyni qaynaq, s. 338.

Peyqəmbərin həyatı boyunca bərabərlik nəzəriyəsinə müxalif olan cəbhə çox güclü idi. Hətta bir nəsl keçməsinə rəğmən, bir kölə oğlunun ordu başçısı olmasını qəbul edə bilmirdilər. Çünkü qadın azadlığı kimi kölələrin də azadlığı bir çoxlarının iqtisadi mənafelərini təhlükəyə soxurdu: "Kölәlik yalnız iki qanuni şəkildə davam edirdi: ata-anası kölə olduğu üçün doğuşdan kölə olaraq doğulanlar və bir də savaşda əsir alınanlar."[25] Yeni din hər iki kölәlik anlayışını dəyişdirmək istəyirdi. Ancaq Quranın açıq bəyanlarına, peyqəmbərin təlimatlarına rəğmən yüz illər boyu islam tarixində kölәlik davam etdirildi. XX əsrdə Qərb dövlətlərinin basqısı altında kölәlik islam ölkələrindən tədricən dışlanmağa başladı. Qadınların şəraitini daha yaxşı anlamamız üçün kölәlik tarixini araşdırmaqda fayda var.

İslamın köləliyi məhkum etməsinə baxmayaraq, necə və niyə kölәlik islam ölkələrində davam etmişdir? Köləliyə də bəraət qazandırmaq üçün dilçilik hiylələrindən və qeyri-insani qanunlardan faydalanmışlar. İslam, müsəlman köləliyini məhkum etmişsə bu önəmli sayılmamış. O zaman müsəlman olmayanları kölə etmək lazımdır zehniyəti islam tarixində hakim olmuşdur. Müsəlmanlar müxtəlif ölkələri işğal etdikləri zaman bütün əsirləri kölə olaraq qullandılar, kölə bazarında satışa çıxardılar. İslamda kölәlik, yalnız müsəlmanlar üçün keçərsiz olmuşdur. Fərqli inanışda olanlar üçün keçərliliyini qorumuşdur. Qəniymətlər yolu ilə zənginləşən müsəlmanların saysız kölələri oldu. Müsəlman olmayanların köləliyi iki şəkildə idi: "ya savaşlarda əsir alınırdılar ya da kölə bazarlarında satılıq olaraq alış-veriş əşyası kimi başqa ölkələrdən gətirilirdilər."[26] Başqa ölkələr "dar-ul hərb" (savaş evi) adlanırdı. Kölәlik məsələsi islamın bərabərlik üsulu ilə ziddiyətdə olduğu üçün kölәlik və kölələrin aqibəti hər zaman tarixçilərin, islam bilginlərinin və fəqihlərin ilgisini çəkmişdir.[27] Peyqəmbərin vəfatından 40 il sonra Müaviyə öz siyasi rəqibi Əbutaliboğlu Hüseynə yaltaqlanmaq üçün o zaman cariyə adlanan bir neçə kəniz göndərdi. Havva adında bir cariyənin həyatı islam tarixində köləliyin necə çirkin bir vəziyyətdə davam etməsini ifşa etməkdədir. Çünku Havvanın Quranla dərin tanışlığı olmasına baxmayaraq, müsəlman olmaq istəməməsi diqqəti cəlb edir. Ən diksindirici hadisə odur ki, Havva Quranı əzbər bilsə də, ancaq müsəlman olmaq istəmir. Nədən? Çünkü müsəlmanların davranışlarından, iyrənc, qeyri-əxlaqi və alçaq davranışlarından qorxmuşdu. "Bir nəfər Müaviyəyə gözəl bir kəniz gətirdi. Müaviyə kənizin qiymətini sorduğunda adam "min dirhəm" dedi. Müaviyə bu məbləği ödəyib, digər əşyalarla bir yerdə kənizi Əlioğlu

---

[25] دایره المعارف اسلامی.
[26] Eyni qaynaq.
[27] Təbəri, Təfsir, VII kitab, s. 151.

Hüseynə hədiyə göndərdi."[28] Hüseyn, dinin qaydaları əsasında yaşayan müsəlman idi. Bu qadından bir neçə soru sorduqdan sonra dərhal onun azad insan olmasına qərar verdi. Tarixi sənədlərdə Hüseynin bu qadının gözəlliyinə heyran olduğu söylənir. Onların arasında keçən söhbət bu şəkildə olmuşdur:
Hüseyn: Sizin adınız nədir?
Kölə qadın: Havva.
Hüseyn: Bu ad sizə çox uyqundur. Nə iş görərsiniz?
Havva: Quran və şeir oxumağı başarıram.
Hüseyn: Qurandan bəzi parçalar mənə oxuya bilərsinizmi?
Havva: "və qeyb xəzinələrinin açarları onun yanındadır. Bunu onun özündən başqa kimsə bilməz. Torpaqda və dənizdə nə varsa, hamısından o xəbərdardır."[29]
Hüseyn: İndi bir şeir də söyləyə bilərsinizmi?
Havva: Özgürcə danışa bilərəmmi? Sən mənim özgürlüyümü təmin edirsənmi?
Hüseyn: Bəli, edirəm.
Havva:

> Səninlə daima bir yerdə olmaq,
> Mutluluq və sevgi qaynağıdır, bax.
> Ancaq nə etməli? Fanidir həyat,
> Mutlu birlikdəlik mümkünmü? Heyhaat...![*]

Tarixi qaynaqların verilərinə görə, Əlioğlu Hüseyn bu zaman ağlamağa başlamış və demiş: "Artıq sən özgür bir qadınsan və Müaviyənin mənə göndərdiyi bütün hədiyələr də sənin olsun." Daha sonra Hüseyn qalxıb namaz qılmışdır.[30]

Əgər desək ki, bütün müsəlmanlar köləliyin davam etməsində israrlı olmuşlar, yanılmış olarıq. İstər keçmişdə, istər indiki zamanda toplumun içində bir olqunu anlamaq üçün müxtəlif təbəqələrin, qrupların durumlarını, onların bir-birləri və siyasi iqtidarla olan ilişkilərini araşdırmalıyıq. Əlioğlu Hüseyn, Əməvi xilafətini məhkum etdi. Çünkü Əməvilik islam dəyərləri əsasında bir dövlət deyildi, qəbilə bağları, qəbilə kimliyi üzərində qurulmuş dövlət idi. Yəni islamın tam olaraq ortadan qaldırmaq istədiyi törələri Əməvilər yaşatmaqda israrlı idilər. İslam ölkələrində köləlik o zaman ləğv edildi ki, sömürgəçi dövlətlər öz müstəmləkələrinə quldarlığı ortadan qaldırmaq üçün basqı yapdılar. Uluslararası Cenevrə konvensionu 25

---

[28] ابو حسن المالکی، الحدائق الغناء فی اخبار النساء، للنشر، تونس 1987، ص 73.
[29] Ənam surəsi, 5-ci ayə.
[*] Şeirsəl tərcümə çevirmənə aiddir.
[30] ابو حسن المالکی، الحدائق الغناء فی اخبار النساء، للنشر، تونس 1987، ص 73.

sentyabr 1926-cı ildə bütün dünya dövlətlərinin imzasına göndərildi. Səudiyə Ərəbistan, Yəmən istisna olmaqla bütün ölkələr imzaladılar. 1924-cü ildə köləlik İraqda yasaqlandı. 1923-cü ildə fərdi azadlıq ilkəsini (prinsipini) Misir öz anayasasına yerləşdirdi. Fransanın müstəmləkəsi olan Mərakeş bu ölkənin basqısı nəticəsində köləliyi yasaq elan etdi.

Göründüyü kimi, peyqəmbərin başlatdığı insan haqları hərəkəti onun vəfatından sonra XX əsrə qədər tarix səhnəsindən silinmişdir. İnsan haqlarını öz idealı hesab edən islam, zalimlərin zülmlərini artırmaq üçün vasitəyə dönmüşdür. Sonra isə müsəlmanların gavur olaraq tanıyıb tanımladıqları Qərb ölkələrinin basqısı nəticəsində insan haqları kağız üzərində olsa da, islam ölkələrində də rəsmən tanınmışdır.

## Qadınlara qarşı şiddət

Ilk müsəlmanlar indiki maddi həyatın nemətlərinə sahib deyildilər. Onlar elə bir əsrdə yaşayırdılar ki, ruhani aləmlə maddi aləm insanın axtarışlarını bütövləşdirirdi. Bu dönəmdə peyqəmbərin vəfatına qədər insanların ilahi aləmlə irtibatları mövcud idi. Daima sual sormaq üçün peyqəmbərə uğrayırdılar. Bir gün bir dəstə kişi elm öyrənmək üçün peyqəmbrin arxasınca yürüyür və israrla sual sorurdular. Yorqun peyqəmbər çox nəzakətlə onu rahat buraxmalarını istədi. “Ömər dedi: Müxtəlif sorular həddini aşdığında peyqəmbər, “gedin və məni rahat buraxın”[31]- dedi. İbni Sə´d deyir: "Peyqəmbər qalxıb evə getdiyində əhalı onu çevrələyib, arxasınca yürüyürdü."[32] Tanrı peyqəmbərin rahatlığını qorumaq üçün müdaxilə etdi, çünkü bir qrup müsəlmanlar onu rahat buraxmırdı. “Şübhəsiz ki, səni arxadan çağıranlar ağılsız adamlardı. Səni yüksək səslə çağırmadan, evdən dışarıya çıxmanı bəkləyib səninlə danışsalar daha yaxşı olar.”[33] İnsanlar peyqəmbər vasitəsiylə Tanrı ilə təmasa girib soru sora bilirdilər.

Mədinədə qadın məsələsi ilə bağlı iki fərqli baxış mövcud idi: şiddəti qəbul etməyən peyqəmbərin görüşü və şiddəti məqbul sayan Ömərin görüşü. Peyqəmbərin görüşü nədən uzun müddətdə islam qanunlarının ruhunu təşkil etmədi? Peyqəmbərin sünnətini əsas alan fiqh elmi nədən peyqəmbərlə Ömər arasındakı ziddiyəti ortaya qoymamışdır? Bu suallara cavab bulmaq

---

[31] Buxari, Səhih, IV kitab, s. 271.
[32] İnbi Səd, Təbəqat, VIII kitab, s. 174.
[33] Pickthall, The meaning of the Glorious Koran, Sura 49, verses 4 and 5.

üçün məzhəbi mətnləri diqqətlə oxumamız gərəkir. Bu günə qədər bu mətnlər üzərində düşünmək yalnız fəqihlər (din bilginləri) adlanan bir qrupa tapşırılmışdır. Bu araşdırmalarda islamın bərabərlik və cinsi eşitlik mesajı üzərinə söz açmamışlar. Məlum olan odur ki, peyqəmbər qadınlara zor qullanmağı qəbul etməmiş, hətta buna nifrət etmişdir.

"Peyqəmbər, qadınlarınızı döyməyin dedi, ancaq əhali onu dinləmədi. Ömər peyqəmbərə uğrayıb dedi: "Ey Tanrı elçisi, qadınlar ərlərinə qarşı üsyan etmişlər." Bu hadisədən sonra peyqəmbər qadınların döyülməsinə izin verdi. Ömər peyqəmbərə dedi: 70 nəfərdən ibarət qadın bu gecə ərlərindən şikayət etmək üçün sizin hüzurunuza gələcək."[34]

Nisa surəsinin 34-cü ayəsində keçən noşuz sözündən nə anlaşılır? "Noşuz" sözünün anlamı budur ki, qadınlar kişilərinə qarşı üsyan etdiklərində onlara zor işlətmək olar. Möminlərə zor qullanmaq haram sayıldığı bir halda bu söz Quranda keçmişdir. Şərhçilər belə hesab edirlər ki, "noşuz" sözü qadınlar ərlərinin cinsi ehtiyacları qarşısında təslim olmamaları, etiraz etmələri anlamındadır. Burada məqsəd yalnız xəyanət deyil. Şərhçilər hesab edirlər ki, qadınlar tərəfindən ən ciddi xilaf iş ərlərinin seksual istəklərinə qarşı çıxmaları və təslim olmamalarıdır. Təbəri bu ayə ilə bağlı öz izahlarında yazır: "Noşuz, qadının öz əri ilə təkəbbürlü davranması və onun seksual ehtiyaclarını məsxərə etməsi anlamındadır. Bunun yanı sıra öz əri ilə bir yerdə yatmaqdan, seks yapmaqdan imtina etməsi anlamındadır. Bu da qadının öz ərinin doğal istəklərinə qarşı üsyan və nifrət etməsi deməkdir."[35] Bu gün bir çox fəqihlərin qadına qarşı zor qullanmaq üçün istifadə etdikləri bu ayə Təbəri üçün daha ciddi və həyati anlam daşımışdır. Müsəlmanlar arasında fitnəni əngəlləmək üçün Təbəri bu ayənin gəliş səbəbini anlatma zərurətini hiss etmiş. O, bu ayəni 27 səhifədə şərh etmiş, bu ayə ilə bağlı 200 müxtəlif görüşləri də vermişdir. İbni Sə´ddən bir əsr sonra yaşayan Təbəri onun əsərlərindən faydalanırdı. "Peyqəmbər həyatı boyunca bir kərə də olsun nə bir qadına, nə də bir köləyə əl qaldırmadı."[36] Yalnız bir kərə öz qadınlarının üsyanı ilə qarşılaşdığında bir ay müddətincə onlardan ayrılıb caminin yanında yerləşən başqa otağa daşındı. Şəhər sakinləri peyqəmbərin bu davranışlarına şaşırmışdılar: "Peyqəmbər 29 gün öz qadınlarından ayrı yaşadı. O, qadınlarından çox incimişdi. Onlara dedi ki, bir ay sizi danışdırmayacağam. Bir ay sizdən ayrı yaşayacağam. Tanrı bu işə görə peyqəmbəri tənqid etdi."[37] Peyqəmbərin qadınları ilə olan münasibəti yayqın və hakim kültürə dönüşmədi. Bu üzdən də öz qadınlarını döyən səhabilərlə

---

[34] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 205.
[35] Təbəri, Təfsir, VIII kitab, s. 299.
[36] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 204.
[37] Buxari, Səhih, III kitab, s. 259.

peyqəmbər arasında ixtilaf çıxdı: “Peyqəmbər hər zaman qadının döyülməsinə qarşı idi. Əhali ona deyirdi: Ey Tanrı elçisi, qadınlar iğtişaş toxumu əkirlər.”[38] Səhabilər peyqəmbərin qadınlarla bu qədər nəzakətli davranmasını anlaya bilmirdilər. Onlar bilirdilər ki, peyqəmbərin qadınlar qarşısında nəfsən zəif tərəfi yoxdur. Peyqəmbər onlara dedi: “Çox yaxşı, qadınlarınızı döyün. Ancaq ən pisiniz bu kimi davranışda bulunanlar olacaqdır.”[39] Ömər fürsəti qaçırmadı. Ömərin qadınları döyməsi ilə bağlı tarixdə ən az iki örnək qalıbdır. “O, bir dəfə öz bacısı Fatiməni çox sərt şəkildə döydü. Vurduğu zərbələrin yeri Fatimənin bədənində qalmışdı."[40] Səbəbi də bu idi ki, "Fatimə islamı qəbul etdikdən sonra öz evində Quran oxuma kursları düzənləyirdi. Bu yığıncağa qatılanlar islamda qeyd olan müxtəlif mövzularla bağlı fikir alış-verişində bulundular.”[41] İkinci dəfə isə “öz qadını Cəmiləni döydü. Qadınını döydüyünü Ömər özü peyqəmbərə dedi.”[42] “Cəmilə, Ənsarın Us qəbiləsindən idi.”[43] Təbəridən dörd nəsl daha öncə yaşayan İnbi Sə´d də peyqəmbərin qadınlara qarşı zor işlətmənin əleyhinə olduğunu yazır: “Qadınlara qarşı zor işlətmək doğru deyil. Kişilər peyqəmbərin yanına gəlib öz qadınlarından şıkayət etdilər. Peyqəmbər onlara qadınlarını döymə izni verdi və artırdı: Qadınlarını döyən kişiləri görmək istəmirəm.”[44] Peyqəmbərin qadınlara qarşı zor işlətmənin əleyhinə olduğunu bilən Təbəri Nisa surəsinin mübahisəli 34-cü ayəsini necə açıqlamışdır? O, müxtəlif əqidələri və görüşləri ortaya qoyur və nəticə alır ki, “bu ifadənin məqsədi sorumlu (məsul) olan kişilər”dir. Bu kişilər öz qadınlarını tərbiyə etmək və Tanrı buyuruqlarını qadınlarına çatdırmaqla görəvlidirlər. Çünkü Tanrı sizlərdən bəzilərini digərlərinin sahibi təyin etmişdir.”[45] O artırır ki, bu sahib olmanın səbəbi evlənərkən qadına verilən başlıq parasıdır. Alimlərin bir çoxu kişilərin qadınlardan daha üstün olmalarında həmfikirdilər. Ancaq noşuz mövzusunda tam olaraq eyni görüşdə deyillər.

Əgər bir qadın öz ərinin seksual istəklərinə təslim olmursa, əri onu bu ilişkiyə zorlamalımı, yoxsa onunla soyuq davranmalıdır? Qadını ilə yatarkən soyuq davranmalı və yatağını ondan ayırmalımı? Və ya tərsinə, onunla küsmədən bir yataqda yatmağa davam etməlidirmi? Və ya qadının istəməməsinə rəğmən, onunla həm küsüb, həm də zorla ilişkiyə

---

[38] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 204.
[39] Eyni qaynaq.
[40] İbni Hişam, Səyərə, I kitab, s. 369.
[41] Eyni qaynaq.
[42] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 179.
[43] Təbəri, Təfsir, V kitab, s. 16.
[44] İbni Sə`d, Təbəqat, VIII kitab, s. 204.
[45] Təbəri, Təfsir, VIII kitab, s. 209.

girməlidirmi? Göründüyü kimi, çox başgicəldici bir mövzudur. Fəqihlər və din alimləri də bu haqda anlaşılmaz və şübhəli olmuşlar.

Ayəni kəlmə-kəlmə təfsir edən Təbəriyə dönəlim. “Üsyankarlıqlarından narahat olduğunuz qadınlardan... yataqda uzaq olun.” Bu ifadənin anlamı nədir? Bəziləri hesab edirlər ki, “kişi qadını ilə danışdıqdan və ondan rəftarını dəyişməsini istədikdən sonra onunla bir yerdə yatmalıdır, ancaq arxasını qadınına çevirib yatmalıdır. Əgər qadını ilə seksual ilişkiyə girərsə, bu işi onunla söhbət etmədən yapmalıdır.”[46] Bəziləri isə bu açıqlamanı tamam yanlış sayır və hesab edir ki, bu ayə cinsi irtibatdan uzaq olmağı açıqca önərir, danışıb-danışmamaq bir o qədər də önəmli deyil. Bu anda kişi qadınla bir yerdə yatmaq ləzzətindən məhrum olmalıdır. “Qadın ilk normal durumuna dönənə qədər onun yatağına yaxınlaşmamalısınız.”[47] Qətadə adında bir alim isə hesab edir ki, bu mərhələni yaşamaq lazımdır. “Öncə danışmaqla qadınınıza anladın..., əgər qadın anlamaq istəmirsə, onunla bir yerdə yatmayın.”[48]

Təbəri son sözünü deyir: “Peyqəmbər bizə dedi: bir müsəlman üç gündən artıq kimsə ilə küsülü qalmamalıdır.” Bu üzdən də tarixçi belə nəticəyə gəlir ki, uzaqlaşmağın məqsədi danışıq yolu ilə irtibat qurmaq deyildir. Sonra artırır: “əgər qadın açıqca üsyan edib ərinin istəklərini inkar etsə, onunla danışmamaq və onu görməmək daha ləzzətli olar.”[49] Təbəri belə ərə necə təklifdə bulunur? Peyqəmbərin hədəflərinə sadiq olan Təbəri elə bir şey təklif edir ki, bir çox islam alimi onun təklifini yanlış sayır. Mömin kişiyə Təbəri, üsyankar qadının əl-ayağını bağlamağı önərir: “Onların yatağını ayırın və bağlayın.” Sonra da Təbəri mövzunu dilçilik elmi üzrə şərh edib yazır: “Əl-həcər, yəni ərəblərin dəvəni bağladıqları ip. Qadını bu iplə bağlayın.”[50]

Böyük bilim adamı olan Məhhəmməd Şakir, Təbərinin əsərlərini yenidən işləmiş, ona bir müqəddimə də yazmışdır. Şakir bu işi dargörüşlü adamların yanlışlıqlarını önləmək amacı ilə etmişdir. O, Təbərinin görüşlərini bu şəkildə rədd edir: “Təbərinin bu təfsiri doğru deyil və şaşırdıcıdır.” Və bir neçə din aliminə dayanaraq rəvayət edir: “Quran və sünnət üzrə böyük alim olan Təbəri bu mövzuda ciddi xətaya yol vermişdir.” Və belə nəticə alır: “Ərəb dili və məzhəb elmi ilə bağlı mütəxəssis olan Təbəri necə də böyük səhvə yol vermişdir.”[51]

---

[46] Eyni qaynaq, s. 302.
[47] Eyni qaynaq, s. 304.
[48] Eyni qaynaq.
[49] Eyni qaynaq, s. 308.
[50] Eyni qaynaq, s. 309.
[51] Eyni qaynaq, s. 313.

Çağımızdakı duruma baxdığımızda görürük ki, demokrasini dərk etmək istəməyən siyasi iqtidarlar, öz yanlışlıqlarına, zorakılıqlarına bəraət qazandırmaq üçün necə də bu ayədən sui-istifadə edirlər. Onlar bu ayəni kişi mərkəzliliyi isbat etmək üçün qullanırlar. Sanki bu ayə ilə bağlı bu qədər müxtəlif açıqlamalar olmamış və yalnız qafaları demokrasiyə qapalı olan siyasilər bu ayənin gerçək izahını bilir və tətbiq edirlər.

Göründüyü kimi peyqəmbər öz qadın və kişi tərəfdarlarına eşit davranmışdır. Lakin islam öncəsi törələrin təmsilçisi olan Ömərin görüşü islam tarixində hakim cərəyan olmuşdur.

## Hərbi rəhbər olaraq peyqəmbər

Hicrətin III ilindən, yəni Ühüd savaşındakı məğlubiyətdən Məkkənin fəthinə, hicrətin VIII ilinə qədər peyqəmbərin qadın-kişi bərabərliyi planı yenildi. Çünkü o, özəl və sosial həyatı bir-birindən ayırmırdı, bu iki sahənin sıx əlaqəli olduğunu düşünürdü. Peyqəmbər Ayişənin otağının kiçik qapısından camiyə girib namaz qılırdı. O, Ömərin bütün etirazlarına baxmayaraq, bir və ya iki qadınını özü ilə bərabər savaş meydanına aparırdı. Siyasi işlərlə uğraşan peyqəmbərin qadınları sərbəst davranır və müxtəlif məsələlərlə maraqlanırdılar. Bu mövzu ilə bağlı Təbərinin yazdıqlarından örnək gətirəsək yaxşı olar: "Bir gün Ömər gördü ki, Ayişə də savaş meydanındadır. Ona dedi: Nədən buraya gəlmişsən? Ayişə yüksək səslə cavab verdi: And olsun Tanrının birliyinə, artıq sənin cəsarətin qabalığa dönüşmüş.[1]"

Peyqəmbərin qadınları siyasi və hərbi hadisələrə laqeyd deyildilər. Onlar üçün məhbusların azadlığı ailə məsələsi kimi çox önəmli idi. Örnəyin, "Hicab" ayəsinin gəlişindən öncə hicrətin V ilində yəhudilərin Bəniqurizə qəbiləsinə qarşı savaşında Əbulübabə adında bir yəhudi əsir tutulmuşdu. Caminin həyətində əl-ayağı bağlı bu əsirin azad edilməsində Ümm-Səlmə də iştirak etdi. O, bu sürəcdə qərarverici şəxs olmasa da, öz görüşünü ortaya qoyub cavab gözlədi. Peyqəmbər Əbulübabəni sərbəst buraxmaqla bağlı qərar verdikdən sonra Ümm-Səlmə özü bu xəbəri Əbulübabəyə çatdırdı.[2] Ümm-Səlmə bu davranışı ilə qadınların da belə hadisələrə qatılma haqlarının olduğunu isbatladı. Sadəcə, ev mühiti qadınların qanuni məkanı deyildi.

[1] Təbəri, Tarix, III kitab, s. 49.
[2] Eyni qaynaq, s. 54.

Belə anlaşılır ki, "Hicab" ayəsi qadınları kişilərdən və toplumdan ayırıb evə qapatmadan öncə qadınların siyasi olaylara qatılma haqları daha çox imiş. Əgər "Hicab" ayəsindən öncə qadınlar siyasətə qatılmasaydılar, sadəcə ev işləri ilə məşğul olsaydılar o zaman hicab ayəsinə də gərək qalmazdı. Anlaşılan budur ki, hicab ayəsi qadınların mövcud durumu ilə ilgili gəlmiş və mövcud durumu məhdudlaşdırmışdır. Hicab ayəsi peyqəmbərlə Zeynəbin toy gecəsi gəlir və bu zaman peyqəmbərin qadınları daha sonra yasaqlanan bir çox azadlıqlara sahib idi, siyasətə müdaxilə edirdilər. Ərləri tərəfindən təşviq edilən, camini və savaş meydanlarını öz fəaliyət sahələri görən qadınlarla özünü evə qapamış qadınlar arasında, əlbəttə ki, böyük fərq olacaqdı. Ordunun belə bir gələnəyi var idi. Gecələr savaşçı kişilər bir araya gəlib planları haqqında danışırdılar. Belə durumlarda peyqəmbər öz qadınlarına baş çəkərdi. Bu da bir çox müsəlmanların xoşuna gəlməzdi. Peyqəmbərin siyasi düşmənləri onun qadınları ilə olan belə sıx əlaqəsini məsxərə edərdilər. Bu siyasi düşmənlər onun özəl həyatını silah olaraq ona qarşı qullanırdılar. Sonunda peyqəmbəri qadın-kişi bərabərliyi kimi hədəfindən vaz keçməyə zorladılar. Bütün bunlar elə bir zamanda baş verir ki, hərbi baxımdan intizamsızlıq və xaos mövcuddur. Yaşlanmış peyqəmbərin də artıq əski enerjisi qalmamışdı. Peyqəmbər 60 yaşında ikən, Ümm-Səlmə, Ayişə və Zeynəb kimi qadınlarları ilə bir yerdə yaşayırdı. Bu qadınlar peyqəmbərdən daha gənc idilər. Ən önəmli isə onların siyasi fəaliyyətlərdə aktiv olmaları idi. Peyqəmbərin qadınları bütün qadınların durumlarının daha da yaxşılaşdırılmasını, onların sosiallaşmalarını istəyirdilər. Peyqəmbərin düşmənləri onu incitmək üçün Ayişəyə zina böhtanı atdılar. Peyqəmbər çox yorğun halda Ömərin qarşısında dirənməyi məsələhət bilməyib qadınların siyasi-toplumsal həyatdan uzaqlaşdırılmalarına razılıq verdi. Erkəkmərkəzli yapılanmış olan yeni müsəlman toplum da peyqəmbərin azadlıq anlayışına dözə bilmədi.

627-ci il islam tarixi baxımından diqqət edilməsi gərəkən bir dönəmdir. Bu tarixə aid olan macəralar Nisa və Əhzab surələrində öz əksini tapmişdır. Bu ayələrdə peyqəmbərin problemləri açıqca dilə gətirilmişdir. Bu problemlərdən biri savaşla ilgili, digəri isə peyqəmbərin qadınlarına atılan böhtanlarla bağlıdır. Ayələrdə Mədinədə davam edən qadın-kişi bərabərliyi mövzusuna da işarə edilmişdir. Özəlliklə qadınların və gənc qızların irs məsələsi, Ayişəyə atılan böhtan, hicabın gəlişi və ilk dəfə olaraq peyqəmbərin Zat-ül Rəqa´ qəzəvəsində qıldığı "Qorxu namazı" və Mədinənin mühasirəsi zamanı baş verən Xəndək savaşı haqqında bilgi mövcuddur.

Burada xatırlamaq gərəkir ki, Quranda surələr tarixi ardıcıllıq əsasında toplanmamışdır. Hətta bir surədə həm Məkkədə, həm də Mədinədə

peyqəmbərə gələn ayələr yerləşdirilmişdir. Regis Blanchere Quranı fransız dilinə tərcümə etmişdir. Mən onun görüşünə qatılıram. O deyir: “Demək olar ki, bu gün biz Quranı surələrin gəlmə zamazı baxımından tam tərsinə oxuyuruq. Çünkü uzun həcmli surələr peyqəmbərin həyatının sonlarında Tanrı qatından göndərilmişdir.”[3] İndi əlimizdə mövcud olan Quranın mətnləri Osmanın xilafəti dönəmində tərtib edilmişdir. Quran üzərinə nüsxə yazmaq peyqəmbərin zamanında başlamışdır. [4] Ancaq Quran mətnləşərkən surələr tarixi ardıcıllıq, yəni surələrin gəliş tarixləri əsasında düzənlənməmişdir. Alimlərin təsbitinə görə, Quranın mətn olaraq düzənlənməsinin və surələrin tarixi ardıcıllıq əsasında olmamasının bir səbəbi var: Quran təlim-tərbiyə ehtiyacları əsasında mətnləşdirilmişdir. Seyvətinin “Quranın tərtibinin sirləri” adlı kitabında dediyi kimi, Məkki (Məkkədə gələn) surələr bütpərəst toplumda, Mədəni (Mədinədə gələn) surələr isə islami toplumda gəlmişdir. Mədəni surələr müsəlmanların gündəlik yaşamları ilə bağlı soruları cavablandırmışdır. Bu üzdən Mədəni surələrin çoxu Quranın tərtibində daha öncə yerləşmişdir.[*] “Çünkü bu surələr bütpərəstlərə deyil, müsəlmanlara xitab etmişdir”[5] Lakin tarixçilərin də əsas problemi surələrdə tarixi ardıcıllığın olmamasıdır. Yəni Quranın mətnləşdirilməsində, məsələn daha sonra gələn bir surə daha öncəyə yerləşdirilmişdir. Durum belə olduğunda ayələrlə ilgili tarixi hadisələri bulmaq üçün nə etmək gərəkir? Ayələrin nasix və mənsux olmalarını bəlli etmək tarixi baxımdan çox önəmlidir. Nasix və mənsux nədir? Bir mövzuya aid Tanrı qatından iki təzadlı ayə endirilmişdir. Eyni mövzu ilə bağlı daha sonra gələn ayə, birinci ayənin keçərliliyini ortadan qaldırmışdır. Keçərliliyi ortadan qalxan ayəyə mənsux və keçərliliyi ortadan qaldıran yeni ayəyə nasix deyilir. Məsələn, Quranda müsəlman olmayanlarla, özəlliklə yəhudi və xristianlarla bağlı iki yanaşma mövcuddur. Yəhudiliyə və xristianlığa mənsub olanlarla həm təmkinli yanaşmaq, həm də onlara qarşı cəhad hökmü verilmişdir. Alimlər bu ziddiyətli ayələrin ayrıntılarını araşdırırlar. Daha sonra gələn ayəni dəqiqləşdirib və ona çox diqqət etmişlər. Bu üzdən də ayələri öz zaman şərtlərinə görə, tarixi ardıcıllıqları əsasında dəyərləndirməliyik.[6] Nəzərdə tutduğumuz Nisa və Əhzab surələri Mədinədə

---

[3] Regis Blanchere, Le Coran, Maisonneuve et Larose, Paris, 1980, p. 180.

[4] بن سعد، طبقات، ج2، ص 355.

[*] Bu haqda fərqli düşünmək də mümkündür. Peyqəmbərin vəfatından sonra islam geniş coğrafiyaya yayılmağa başlamışdır. Bu yayılım isə savaş yolu ilə gerçəkləşirdi. Məkkədə gələn surələrdə savaş və cəhad yoxdur. Savaşa əmr edən ayələr daha çox Mədinədə gəlmişdir. Savaş yolu ilə yayılmağı uyğun görən o zamankı islam böyükləri ən son gələn surələri Quranın əvvəllərinə və ilk başlanqıcda gələn surələri isə Quranın sonlarıana yerləşdirmişlər. Quranın bu şəkildə mətnləşməsinin fəlsəfəsini anlamaq üçün o zamankı sosial duruma nəzər salmaq lazımdır.

[5] سیوطی، ترتیب اسرار قرآن، دار الاعتصام، قاهره 1978.

[6] بن حزم، الناسخ وامنسوخ، دارالکتب العلمیه، بیروت، 1986.

nazil olmuşdur. Quranın mətni bu iki ayənin sadəcə Mədinədə gəldiyini söyləməz, bütün alimlər də eyni görüşdədirlər. Mən burada surələrin tərtibi ilə bağlı Seyvəti və İbni Həzm´in verdiyi bilgilərdən yararlanmışam.[7] Quranın 114 surəsinin tarixi ardıcıllığı içində Əhzab surəsi 90-cı və Nisa surəsi 92-ci yerdədi. Hicrətdən sonra Mədinədə nazil olan ilk surə Bəqərə surəsidir. Tarixi ardıcıllıq baxımından 87-ci yerdə olan Bəqərə surəsi Quranda ikinci yerdə mətnləşdirilmişdir. Nəzərdə tutduğumuz Nisa və Əhzab surələri demək olar ki, bu surədən bir neçə il sonra nazil olmuşdur. Bu üzdən surənin tarixi zamanını nəzərə aldığımızda hər üç surə (Nisa, Əhzab, Bəqərə) hicrətin beşinci ilində nazil olmuşdur. Bu il çox gərgin keçmiş, ayrıca, eyni ildə peyqəmbər "Qorxu namazı" da qılmışdır. İbni Hişamın yazdığına görə, birinci "Qorxu namazı" hicrətin 6-cı ilində beşinci ayda Zat-ül Rəqa´ qəzəvəsində qılınmışdır. Hərbi durumu yaxşılaşdırmaq və Ühüd savaşı məğlubiyyətinin təsirini xatirələrdən silmək üçün peyqəmbər bu savaşı başlamaq istəmişdi. Ancaq düşmənlə qarşılaşdığında birbaşa savaşmaqdan vaz keçməyi tərcih etdi. "Onun qarşısında Qətfan qəbiləsindən böyük savaşçı grup durmuşdu. Qarşı tərəflər bir-birinə yaxınlaşdılar, ancaq savaş olmadı. Müsəlmanları və qarşı tərəfi qorxu duyğusu tam olaraq sarmışdı. Bu zaman peyqəmbər "Qorxu namazı" qılıb geri çəkildi."[8] Müsəlmanlardakı qorxunun əsas səbəbi bu idi ki, onlar məğlub olacaqları savaşa qatılmaq istəmirdilər. Eyni zamanda passiv də qalmaq istəmirdilər. Müsəlmanlar bilirdilər ki, Ühüd savaşındakı məğlubiyyətdən sonra çox zəifləmişlər və qalib gələ biləcək imkandan məhrumdurlar. Bu üzdən də peyqəmbər bir stratejist kimi bütün mövcud durumları yaxşıca dəyərləndirir və böyük ehtiyatla davranırdı. "Qorxu namazı" bu vəziyyəti açıqca göstərməkdədir. Burada xatırlatmaq gərəkir ki, peyqəmbərin izlədiyi stratejinin başında əsgərlərini boşuna qurban verməmək dururdu. Çünkü peyqəmbər hər bir müsəlman əsgərə çox dəyər verirdi. Peyqəmbər düşmənlə üz-üzə gəldiyi zaman üç gün boyunca nə edəcəyi haqda düşünüb durdu. Ühüd savaşının xatirəsi zehnində canlanırdı. "Mədinə əhalisi ağlaya-ağlaya cənazələri bulmaq üçün şəhərdən savaş meydanına tərəf qaçırdı. Onlar meyitləri şəhərə gətirmək istəyirdilər, ancaq peyqəmbər "onları öldükləri yerdə dəfn edin."- dedi."[9] Ühüd savaşının məğlubiyyətindən sonra peyqəmbərin ordusu özünə olan güvənini itirmişdi. Qarşı cəbhə də çox zəifləmişdi. Onların da savaşmağa cürəti çatmırdı. Hər iki tərəfdə savaşmaq niyəti olsa da, savaşı gerçəkləşdirəsi imkan mövcud deyildi.

---

[7] بن حزم، ص 69.
[8] بن هشام، سيره، ج3، ص 220.
[9] Tabari, Mohammed, Sceau des prophetes; p 205.

Düşmən, peyqəmbərin ordusuna yaxın bir yerdə yerləşmişdi. Tanrı düşmən ordusunda hər kəsin qəlbini qorxu ilə doldurmuşdu. Onlar çadırlarını tərk edə bilmirdilər. Bir-birindən qorxan iki ordu iki gün qarşı-qarşıya durdu. Sonra da düşmən ordusu savaşmadan fərar etməyə başladı. "Üç gün boyunca peyqəmbər “Qorxu namazı” qıldı. Nisa surəsinin 102-ci ayəsi belə bir durumda nazil olmuşdur."[10] Nisa surəsinin 102-ci ayəsində düşmənlə qarşı-qarşıya gələrkən namazın qısa şəkildə qılınması təklif olunur. “Qorxu namazı”nda ordunun düzəni ilə bağlı da danışılır. Məsələn, savaş meydanında hər kəsin eyni zamanda namaz qılması vacib sayılsa da, hər kəsin eyni zamanda rüku və səcdəyə getməməsi təklif olunur. “Qorxu namazı” islamın əməli fəlsəfəsini göstərməkdədir. Mömin, durumu dəyərləndirmədən məzhəbi şüarları həyata keçirmək zorunda deyil. O, daima öz ağlını istifadə etməyi başarmalıdır. Təhlükəli durum varsa, mömin ya namazı ya da öz cangüvənliyini seçməlidir. Belə durumda tərəddüd etmədən öz cangüvənliyini öncə düşünməlidir. “...Tanrını durduğunuz, oturduğunuz və böyrü üstə uzandığınız yerdə xatırlayın. Güvənlikdən əmin olduğunuzda namazı tam olaraq qılın.”[11] İnsan təhlükə ilə qarşılaşmadığında Tanrı haqqında düşünməyə zaman bula bilər. Ühüd savaşına qədər peyqəmbər hücum taktikasını tətbiq edirdi, ancaq Ühüd məğlubiyətindən sonra savunma taktikasını tətbiq etməyə başladı. O, düşmən qarşısında öz etibarını qorumaq üçün çox düşünüb daşınırdı. Düşmənlə üz-üzə döyüşməkdən çəkinirdi. Bütün Məkkə qəbilələri peyqəmbərə qarşı birləşmişdilər. Peyqəmbər onlara cavab vermək zorunda idi. Ayrıca, hərbi əməliyata keçmədən öncə, ordusunu nizam-intizam, savaş hazırlığı və silah baxımından təkrar-təkrar gözdən keçirirdi. Zat-ül Rəqa qəzəvəsi peyqəmbərin istədiyi kimi sona çatdı.

O zaman Mədinə mühasirədə idi. Peyqəmbərin düşmənləri və məhəlli müxaliflər gündən-günə artırdı. Şəhərdə güvənlik yox idi. Güvənsizlik elə səviyəyə çatmışdı ki, azad və seçkin qadınlar sayılan peyqəmbərin də qadınları evdən dışarı çıxa bilmirdilər. İlk dəfə idi ki, peyqəmbər müsəlmanların və məkkəlilərin qarşılaşacaqları yer haqqında qərar vermirdi. "627-ci ilin yazında Qüreyş qəbiləsinin hərbi rəhbəri Əbusüfyan 10 000 nəfərlə peyqəmbəri Mədinədə mühasirə etdi. Peyqəmbər xeyli təlaşdan sonra yalnız 3000 nəfər müdafiə üçün səfərbər etdi."[12] Mühasirə çox çətin və uzun oldu. Çünkü bütün Məkkə qəbilələri bu mühasirədə iştirak edirdi.[13] Düşmən imkanlarının üstün olduğu halda peyqəmbər özünəməxsus taktika həyata keçirdi: qarşıdurmanı əngəlləmək istəyirdi. Ancaq düşmənin Mədinə

[10] Eyni qaynaq.
[11] Nisa surəsi, 103-cü ayə.
[12] بن هشام، سیره، ج3، ص 231
[13] Eyni qaynaq, s. 46.

darvazalarına yaxınlaşdığı vaxt bunu necə başaracaqdı? O, ərəblərə tanış olmayan bir yöntəmdən faydalanmaq istədi. Şəhəri qorumaq üçün Mədinənin çevrəsinə xəndək qazılmasına əmr verdi. Xəndək qazılmağa başlandığında Mədinə əhalisi şaşırmışdı. Peyqəmbərin bütün siyasi qərarlarını məsxərə edən münafiqlər yenə də aşağılayıcı şayiələr yaymağa başladılar. Ancaq nə əhalinin heyrəti, nə də münafiqlərin məsxərəsi peyqəmbəri öz qərarından vaz keçirə bilmədi. Peyqəmbər öz əsgərlərinə silah yerinə bel-külüng götürmələrinə əmr verdi.

Peyqəmbər öz əsgərlərinə Mədinənin çevrəsinə 20 zira´[14] dərinliyi və eni olan xəndəyin qazılmasına əmr verdi. Hər 40 zira´ üçün 10 əsgər təyin etdi. Münafiqlər peyqəmbəri məsxərə edirdilər ki, o, özünü şəhərdə həbs edir. Bütün bunlara baxmayaraq, peyqəmbər işin necə getdiyinə ciddi nəzarət edirdi.[15] Bu iş bir ay içində sona çatdı. Düşmən ordusu xəndəyi gördüyündə geri çəkildi: "Düşmən ordusu Mədinənin çevrəsinə qazılmış xəndəyi gördüyündə şaşırdı. Onlar bu günə qədər belə bir hadisə ilə rastlanmamışdılar. Peyqəmbər, hətta gecələr də xəndəyin qazılmasına nəzarət edirdi. Münafiqlər isə "peyqəmbər üçün bir hadisə baş versə də önəmli deyil, əsas odur ki, biz güvəndə olacağıq,"-deyirdilər." [16]

Münafiqlərə görə, peyqəmbər onları azdırmışdı. Peyqəmbər onlara zəfər və´d etdiyi halda düşmən Mədinənin darvazalarına dayanmışdı və şəhər düşmək üzrə idi. Əhzab surəsinin 12-ci ayəsi onların qorxu və ümidlərini göstərir: "Və o zaman qəlbi təmiz olmayan münafiqlər dedilər ki, Tanrı və onun elçisi Məhəmməd bizə yalan və´dlər verir."[17]

Ancaq sadəcə onlar qorxmamışdılar. Surənin 9 və 10-cu ayələrinin də bəlirtdiyi üzrə, möminlər də qorxmuşdular: "Ey möminlər, ordular sizə hücüm edəndə Tanrı nemətlərini özünüz xatırlayın. Düşmənə külək fırtınası göndərdik. Tanrı etdiyi bütün işlər haqqında bilgi sahibidir. Düşmən hər tərəfdən sizə basqın edəndə Tanrı haqqında sevimsiz şeylər düşündünüz."[18]

Mədinə 27 gün mühasirədə qaldı. Düşmənin üç savaşçısı ölmüşdü, çünkü "ara-sıra qarşı tərəflər bir-birinə ox atırdılar."[19] Ancaq davam edən mühasirə şəhərin güvənliyini təhlükəyə soxmuşdu və təcili əməliyyat lazım idi. Peyqəmbər düşmən ordusu içində şayiələr yaymaqla psikoloji bir savaş başlamaq istədi. Bu iş üçün düşmən ordusunda vəzifəli olan islama yeni tapınmış şəxslərdən faydalandı. Onlarla gizlin irtibat quruldu. Bu yalanlar və şayiələr yəhudi ordu başçıları və Məkkə qəbilələri arasında güvənsizlik

[14] zira´, dirsəkdən əl barmaqlarına qədər olan uzunluqdan ibarətdir. O zamankı ölçü vahidi olmuşdur.
[15] Tabari, Mohammed, Sceau des prophetes; p. 224.
[16] Eyni qaynaq, s. 225.
[17] Pickthall, The meaning of the Glorious Koran.
[18] Eyni qaynaq.
[19] Tabari, Mohammed, Sceau des prophetes; p. 225.

yaradırdı.”[20] Güclü tufanın başlaması mühasirəyə son verdi. “Gecənin qaranlığında birdən qorxunc bir tufan başladı və düşmənin bütün alaçıqlarını yerindən qoparıb sökdü. Düşmən ordusuna qorxu düşmüşdü.”[21] Bir gün sonra Əbusüfyan mühasirədən əl çəkib geri döndü. Peyqəmbər yeni savaşın başlanacağını sezmişdi. O, fəlakət doğuracaq iç savaşın başlanacağını daha öncədən sezə bilmişdi. Mədinənin mühasirəsi zamanı peyqəmbərin hərbi çətinliklərini Quran çox dəqiq olaraq göstərmişdir. Quran, peyqəmbərin müxaliflərinin onun özəl həyatına olan tənqidi münasibətlərinə də toxunmuşdur. Bu tənqidlər get-gedə düşmənliyə dönürdü. Peyqəmbər müsəlmanların qətlamının qarşısını alsa da, əhalinin də fədakarlığı bu arada denənmiş oldu. Çünkü Mədinə əhalisi mühasirəyə görə qida qıtlığı ilə qarşı-qarşıya gəlmişdi.[22] Mədinənin içində də düşmən mövcud idi. Bir qrup əhalinin düşmənliyi şəhəri iç savaşa sürəkləyirdi. Ümumi yerlərdə görünən hər qadın qaba sözlərə və təcavüzə məruz qalırdı. Bu hadisə peyqəmbərin qadınları ilə ilgili olaraq da gerçəkləşdi. Onlar ümumi yerlərdə, hətta evdə belə, peyqəmbərin gözləri önündə təhqirə məruz qalırdılar. Bu şəraiti göz önündə tutaraq “Hicab” ayəsinə və Təbərinin təhlillərinə yenidən baxmaq gərəkir. Hicab ayəsinin ikinci bölümü belədir: “Peyqəmbəri incitmək sizə yaraşmaz. Onun vəfatından sonra qadınları ilə evlənmək tanrı qatında böyük suçdur.” Təbəriyə görə, bu ayə “bir müsəlmanın peyqəmbərin yanına gəlib və sənin ölümündən sonra gənc xanımlarının biri ilə evlənmək istəyirəm. Adını daha sonra söyləyəcəyəm,” deməsindən sonra gəlmişdir. Bu rəvayətə görə, bu söz ancaq peyqəmbərin özünə söylənməmişdir. Bütün şəhərdə ağızdan-ağıza dolaşırdı. Nişaburinin təfsirində peyqəmbərin bu qadınının adı da yazılmışdır. Bu müsəlman o qədər ədəbsizmiş ki, öz istəyini peyqəmbərin və onun qadının önündə dilə gətirmişdir. Uyəynət ibni Hesan adlı bu adam adı tərbiyəsizlikdə məşhur olan bir qəbilənin başçısı idi. O, müsəlman olduqdan sonra bir gün peyqəmbərlə görüşərkən Ayişəni gördü. “Bir gün Uyəynət ibni Hesan peyqəmbərin görüşünə gəldi. Qapını döymədən açıb izinsiz olaraq içəri keçdi. Peyqəmbər ona dedi: “Bilirsənmi ki, birinin evinə girmək istərkən, ədəb icabı izin almaq lazımdır?” O adam peyqəmbərə dedi: “Həyatım boyunca bir kərə də olsun birindən izin alıb onun evinə getməmişəm.” Sonra da peyqəmbərə dedi: “Sənin yanında oturan o gözəl qadın kimdir?”[23] Peyqəmbər ona “Bu Ayişədir, ləqəbi də Ümm-ül Mömінindir (möminlərin anası), yəni heç bir kişinin onunla evlənmək haqqı yoxdur” dediyində adam peyqəmbərə dedi: “Mənim də qadınım çox

---

[20] بن هشام، سيره، ج3، ص 243.
[21] Tabari, Mohammed, Sceau des prophetes; p. 228.
[22] بن هشام، سيره، ج3، ص 243.
[23] تفسير قرآن نيشابورى، تفسير غرائب القرآن 1972، ج22، 27.

gözəldir, istərsənsə, gəl qadınlarımızı dəyişək.” Peyqəmbər ona çox soyuq bir tərzlə dedi: “Tanrı belə işləri yasaq etmişdir.”[24]

Başqa bir rəvayətə görə, "Ayişə bu adamın “gəl qadınlarımızı dəyişək” sözünü eşitdiyində sinirlənmiş və “bu kimdir?” deyə yüksək səslə soruşmuş."[25] Peyqəmbər hər zamankı kimi öz təmkinini qoruyaraq cavab verdi: “Gördüyün bu adamı onun qəbiləsi özünə başçı seçmişdir.”[26]

Bəzi tarixçilərin yazdığına görə, peyqəmbərin vəfatından sonra onun yalnız bir qadını başqası ilə evlənmişdir. Bu qadının adı Zibyan qızı Aliyə idi. O, qısa sürəliyinə peyqəmbərlə yaşamış və daha sonra peyqəmbər onu buraxmışdı. Ancaq tarixçilər bu qadının adı ilə bağlı eyni fikirdə deyillər. Bəzi tarixçilər isə yazırlar ki, bu qadının adı Kilə olmuşdur. Təbərinin yazdığına görə, bu qadının adı Əşəs qızı Kilə imiş. Peyqəmbərin vəfatından sonra Əbubəkirin xilafəti dönəmində bu qadın Əkrəmət ibni Əbucəhllə evləndi. Evləndikdən sonra isə vicdan əzabına düçar oldu. Ömər onun evlənməsinə bu şəkildə bəraət qazandırdı ki, o, peyqəmbərin gerçək qadını olmamışdı. Çünkü Tanrı qatından peyqəmbərə seçim ayəsi gəldiyində o qadın peyqəmbərdən artıq ayrılmışdı. Peyqəmbər qadınları arasındakı ixtilafları azaltmaq üçün onlara “Nə zaman istəsəniz məni tərk edə bilərsiniz,”- demişdi.[27] Peyqəmbər müsəlmanların rəhbəri kimi, hər tərəfdən gələn nümayəndələri qəbul etmək məcburiyətində idi. Bu nümayəndələr Uyəynət ibni Hesan örnəyində olduğu kimi, fərqli kültürlərə, törələrə mənsub idilər. Peyqəmbər bu təmsilçiləri adətən öz evində, qadınlarının yanında qəbul edirdi.[28] Təbərinin yazdığına görə, "peyqəmbərin bu şəkildə təmsilçiləri öz qadınlarının bulunduğu ortamda qəbul etməsi “Hicab” ayəsinin gəlişindən öncə idi."[29]

Özəl və ümumi yaşam arasında sınırın olmamasına peyqəmbərin israr məsi öz zərərinə oldu. Yayqın törələrin basqısına baxmayaraq, qadınlara geniş haq tanıması, hər tərəfdən ona həmlə edilməsinə, böhtan atılmasına səbəb oldu. Cəmiyət bir çox hallarda ona mane olur, izin almadan evinə girirdilər. “Bir gün bir müsəlman izinsiz olaraq peyqəmbərin evinə girib soruşdu: İçəri gələ bilərəmmi?” Peyqəmbər öz kənizinə dedi: “Onu dışarı çıxar və evəgəlmə mədəniyətini ona öyrət. Ona de ki, öncə salam versin, daha sonra evə girmək üçün izin istəsin.”[30] Elə vaxt olurdu ki, bəzi müsəlmanlar peyqəmbərlə bir yerdə onun evinə gəlib, onunla bərabər yemək

---

[24] Eyni qaynaq.
[25] عسقلانی، آلاصابه، ج4، ص27.
[26] تفسیر قرآن نیشابوری، تفسیر غرائب القرآن 1972، ج22، 27.
[27] طبری، تفسیر، ج22، ص 41.
[28] Əsqəlani, Əl-isabət.
[29] Təbəri, Təfsir, XXII kitab, s. 27.
[30] Əsqəlani, Əl-isabət, VII kitab, s. 258.

yeyirdi. Bə´zən elə qarışıq vəziyət yaranırdı ki, yemək yemək mümkün olmurdu.[31] Belə nəticəyə gəlmək mümkündür ki, münafiqlərin və mövcud törələrin peyqəmbərin özəl həyatına müdaxilə etmələri səbəb olmuşdur ki, Tanrı elçisi özəl həyatı ilə toplumsal həyatı arasında bir sınır bəlli etsin. Tanrı elçisinin bu istəyi "Hicab" ayəsinin gəlməsi ilə tamamilə təsdiqlənmiş olur. Qurandan və tarixi verilərdən bəlli olduğu üzrə, daha öncə qadınlar evlərdə məhbus kimi yaşamağa məhkum deyildilər. Haqqında danışdığımız əziyətlər və maneələr ortaya çıxmadan öncə onlar öz şəxsi işlərini görmək üçün gecələr belə, sərbəst dolaşırdılar. Qadınların gecələr sərbəst dolaşa bilmələrinin səbəbi iqlim şərtlərindən asılı idi. Ərəbistanın qorxunc isti günlərində insanlar kölgələrdə və evlərdə yatıb, əsas işlərini və əmək fəaliyyətlərini gecənin sərinliyində edirdilər. "Peyqəmbərin də qadınları öz şəxsi işlərini gecələr evdən dışarıya çıxıb gecənin sərinliyində edirdilər. Bu zaman bəzi münafiqlər onlara söz atmaq üçün yol kənarında durub gözləyirdilər."[32] Əhzab surəsinin 60-ci ayəsində deyildiyi kimi, peyqəmbərin qadınlarına qarşı bu əziyət və maneələr elə bir həddə çatdı ki, Tanrı bu mane olanları açıqca təhdid etməyə məcbur oldu. "Əgər münafiqlər, xəstə ruhlular və şayiə yayanlar öz çirkin əməllərindən əl çəkməsələr, səni onlara hakim edəcəyik. Qısa sürədən sonra onlar artıq Mədinədə sənin kənarında olmayacaqlar."[33]

Təbərinin yazdığına görə, birinci qrup xəstə ruhlular aşırı dərəcədə seksual ehtiyacları olanlar imiş. O, 60-ci ayəyə müraciət edərək belə qərara gəlir ki, bu ayədə qeyd olunan xəstə ruhlular "aşırı seksual istəkləri olan" dəstələrdir. "Seksual basqıların altında psikoloji bunalım (böhran) içinə girən dəstələr."[34] İkinci qrup isə şəhərdə iğtişaş yaratmaq istəyənlər olmuşlar. Bunlar Ayişəyə də böhtan atmışdılar.

Anlaşıldığı kimi, iki növ əziyət mövcud olmuşdur: 1. Küçələrdə peyqəmbərin qadınlarına qarşı fiziki əziyətlər. 2. Peyqəmbərin qadınlarına və özünə qarşı böhtan atmalar. Təbəri, Əhzab surəsinin 69-cu ayəsinə şərh vermişdir. Bu ayədə deyilir: "Ey möminlər, Musanı əziyət edənlər kimi davranmayın. Musaya atılan bütün böhtanların qarşısında Tanrı onu qorumuşdur. O, Tanrı yanında heysiyətli idi."[35] Təbəriyə görə, "burada peyqəmbərə atılan xəstəlik bötanından məqsəd onun fətq* xəstəliyinə düçar olması imiş. Fətq xəstəliyi peyqəmbərdə irsi imiş."[36]

---

[31] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 174.
[32] Eyni qaynaq, s. 176.
[33] Pickthall, The meaning of the Glorious Koran.
[34] Təbəri, Təfsir, XXII kitab, s. 47.
[35] Pickthall, The meaning of the Glorious Koran.
* İngilis dilində bu xəstəliyə **hernia** və **rupture** deyilir. Kişinin xayasının şişməsi kimi bir xəstəlik.. (G.G.)
[36] Təbəri, Təfsir, XXII kitab, s. 50.

Əlbəttə, bu böhtanların ortaya çıxmasına şərait yaradan hadisələr də baş vermişdir. Peyqəmbərin evində ailə münasibətlərində anlaşılmazlıq olmuşdu. Peyqəmbər də məsələni çözmək üçün öz qadınlarından küsüb qısa sürəliyinə tək yaşamağı tərcih etmişdi. Bu da şayiə yayanlar üçün uyğun şantaj vasitəsinə çevrilmişdi. Peyqəmbərin özəl həyatında baş verən bu hadisə bir ayənin gəlişinə səbəb olmuşdur ki, alimlər onu "İxtiyar ayəsi" adlandırmışlar. Bir çox şərhçiyə görə, peyqəmbərin qadınlarının yarısının narazılığı iqtisadi məsələyə görə idi. Digər yarısının problemləri isə seksual ilişkilərlə bağlı idi. Əhzab surəsinin 28-ci ayəsinin iqtisadi anlamı varkən, 51-ci ayə isə seksual narazılıqlara düzən vermək amacı daşımaqdadır. İslam qanunlarına görə, bir neçə qadını olan kişi gecələrini bərabər şəkildə qadınlarının arasında bölüşdürməli, bütün qadınlarını razı salamağı başarmalıdır. Əks təqdirdə qadınlarından biri və ya bir neçəsi öz seksual ehtiyaclarını bərtərəf etməkdə çətinlik çəkəcəkdir. Bu da qadının və ya qadınların başqa yollara sövq edilməsinə şərait yarada bilər. Təbəri belə izah edir ki, Əhzab surəsinin 51-ci ayəsi peyqəmbəri bu durumdan istisna edir. Tanrı əmr edir ki, peyqəmbər xoşlanmadığı qadınla bir yerdə olmağa məcbur deyil. Seçim ayəsinin müəyyən etdiyinə görə, peyqəmbərlə bir yerdə yaşamaq istəməyən qadınlara boşanmaq haqqı tanınmışdır. Təbəri və İbni Sə´d kimi mötəbər qaynaqların verdiyi bilgiyə görə, bu durum peyqəmbərin beş qadınına şamil imiş. Peyqəmbərin digər dörd qadını daha çox onun diqqət və təqdirini cəlb edirmiş. Ayişə və Ümm-Səlmə də bunların arasında olmuşdur.[37] 60 yaşlı peyqəmbər o qədər də yaşlı görünmürdü, saçları tam ağarmamışdı. Sağlıq durumu yerində idi və çox çəkici görünüşü var idi. Ərəb tarixçiləri siyasi şəxsiyyətlərin zahirinə və bədən quruluşuna çox önəm vermişlər.

"Peyqəmbər qısa sürəli küsülülükdən sonra "Seçim" ayəsini tək-tək qadınlarına oxudu ixtiyar sahibi olduqlarını onlara dedi. İstəsəniz boşana da bilərsiniz, mənimlə yaşamağa davam edə də bilərsiniz. Qərar vermək sizin iradənizə, istəyinizə bağlıdır. Ancaq qalmaq istəyənlər bilməlidirlər ki, peyqəmbər onları iqtisadi və seksual baxımdan təmin etmək zorunda deyildir. Peyqəmbər Ayişədən qərar vermədən öncə ata-anasıyla məsələhətləşməsini istədi. Ayişə peyqəmbərin bu sözündən inciyib dedi: Bu mövzu ilə ilgili heç bir zaman ata-anamla danışmağı ağlıma gətirmirəm. Özüm qərar verə bilərəm."[38]

Peyqəmbərin səs-küy yaradan ilk evliliyi əmisi qızı Zeynəblə olmuşdur. Zeyd ibni Hars kölәlikdən azad edildikdən sonra müsəlman

---

[37] بن سعد، طبقات، ج8، ص 196. و طبری، تفسیر، ج21، ص 155.

[38] Təbəri, Təfsir, XXI kitab, s. 157.

olmuşdu. Peyqəmbərin israrı üzərinə Zeynəb onunla evləndi. Peyqəmbəri çox sevən Zeynəb onun bu təklifinə qızmışdı. Peyqəmbər Zeydi evladlığa qəbul etmişdi və onu o qədər sevirdi ki, əhali Zeydi peyqəmbərin evladı kimi sanırdı. O zamankı ərəb törəsində evladlıq, ata ilə evlad edilən adam arasında həm də qan bağı oluşdururdu. Zeyd Zeynəbi boşadıqdan sonra peyqəmbər Zeynəblə evləndi. Peyqəmbərin rəqib və müxalifləri "Məhəmməd öz gəlini ilə evləndi" deyə şayiə yaymağa başladılar. Bu üzdən də peyqəmbər bütün müsəlmanların bu toya dəvət edilməsini istədi. Bu hadisə bütün təfərrüatı ilə bir yerdə "Hicab" ayəsinin gəlişinə şahid olan Ünd ibni Malik tərəfindən rəvayət edilmişdir. Zeynəbin Zeyddən boşanıb peyqəmbərlə evlənməsiylə bağlı gələn ayələr Mədinədə yayılmış bütün şayiələrə cavab idi. Bu əsasa görə, evladlığa götürülmüş şəxs ailənin tam və gerçək üzvü deyil. Əhzab surəsinin 37-ci ayəsi bu mövzu ilə bağlıdır.[39] Evlad edilmiş şəxs gerçək evlad kimi irs apara bilməz. Tunisdə qanunilaşən evladlıq, islami toplumlara görə, islam kültürü dışında gəlişən bir olaydır və Batıdan etkilənmənin nəticəsidir. İslam qanunlarına görə, evladlıqla gerçək evlad arasında əsas fərq bundan ibarətdir ki, həqiqi atalıq duyğusu birini evladlığa götürməklə atanın fitrətində yaranmır.

Reaksion doğuran peyqəmbərin digər evliliyi isə Səfiyə adında yəhudi qadınla olmuşdur. Xeybər qalası fəth edildikdən sonra peyqəmbər Səfiyə ilə evlənmişdi.[40] Xeybər yəhudilərin əlində idi. Bu qala yəhudilər üçün olduqca önəmli idi, çünkü çox güclü müdafiə sisteminə sahib idi."[41] Səfiyə yəhudi qəbilələrindən birinin başçısı olan Kənanənin qadını idi. Səfiyənin qohumları məkkəlilərlə bir yerdə Xəndək savaşında peyqəmbərə qarşı savaşırdılar.[42] Peyqəmbər Səfiyənin gözəlliyinə heyran olmuşdu, bu üzdən də ona "müsəlman olmağı təklif etdi." Müsəlman olduqdan sonra əsirlikdən qurtaracağını və onunla evlənəcəyini söylədi. Əlbəttə, bütün bunlar Səfiyənin razılaşacağı təqdirdə gerçəkləşəcəkdi.[43] Təbərinin və İbni Sə´din yazdıqlarına görə, peyqəmbər öz əbasını bir əsir qadının üzərinə atması peyqəmbərin o qadınla evlənəcəyinə işarə idi. Ancaq İbni Sə´d artırır: "Əhali soruşdu ki, peyqəmbər bu qadınla evlənəcək, yoxsa onu ümm-vəlid kimi saxlayacaqdır? Ümm-vəlid nə demək idi? Ümm-vəlid kölə qadın anlamında idi, yalnız onun doğurduğu çocuq azad insan sayılır, özləri isə kölə qalırdılar. Ümm-vəlid qadınlarla öz ağaları seksual ilişkidə bulunurdular. Bu növ kölə satılmırdı. Onun doğurduğu çocuqlar atalarından irs aparma

[39] Təbəri, Təfsir, XXII kitab, s. 45.
[40] Eyni qaynaq, s. 45.
[41] Tabari, Mohammed, Sceau des prophetes; p. 253.
[42] Eyni qaynaq, s. 255.
[43] Təbəri, Təfsir, III kitab, s 92.

hüququna sahib olurdular."[44] Anlaşılan budur ki, Səfiyə bu qaydadan istisna imiş, çünkü o, yəhudi idi. Yəhudilər zəngin olduqları üçün kölə olmurdular. Peyqəmbərin evləndiyi digər iki qadın Mariyə və Reyhanə idi. Xristian olan Mariyəni İskəndəriyənin hakimi peyqəmbərə hədiyə göndərmişdi. Reyhanə isə yəhudilərin Bəniqüreyzə qəbiləsindən idi. Mariyənin peyqəmbərə daha çocuq yaşda ölən İbrahim adlı oğlan doğurmasına baxmayaraq, yenə də peyqəmbərin ailəsində onun statusu savaşda əsir alınan kölə səviyəsində idi.[45] Peyqəmbərin Səfiyə ilə bu şəkildə davranacağını kimsə bəkləmirdi. "Müsəlmanlar deyirdilər ki, peyqəmbər onu ümm-vəlid olaraq almışdır."[46] Ümm-vəlidlik islamın gətirdiyi bir qanun idi. Zaman axışı içində köləliyi ortadan qaldırmaq üçün islam ümm-vəlidlik anlayışını ortaya qoydu. Bu qanuna görə, kölə qadından dünyaya gələn qız və ya oğlan artıq azad insan sayılır və köləliyi öz anasından irs olaraq daşımırdı. Kişilərin kölə qadınları fahişəliyə zorlamalarının böyük iqtisadi səbəbi var idi. Kölə fahişədən dünyaya gələn çocuqlar satılırdılar. Ümm-vəlidlik isə kölə qadına kölə olmayacaq çocuq sahibi olma haqqını tanıdı. Ayrıca kölə qadından dünyaya gələn uşaq atasından irs də apara bilirdi. Bu qaydaya görə, bir çox kölə qadın evladlarının gələcəyi ilə bağlı ümidləndilər. Onların çocuqları dövlətin ən üst düzeyində vəzifə sahibi oldular.[47]

Səfiyə mövzusuna dönəlim. Unutmayalım ki, o dönəmdəki kültürəl inqilab zamanında peyqəmbərin bütün davranışları çox önəmli idi və yeni islam toplumu üçün örnək oluşdururdu. Topluma yön verən və onu əski törələrdən ayıran peyqəmbər idi. Peyqəmbər Səfiyənin başına hicab atıb onun ata minməsinə yardım etdiyində hər kəs bildi ki, peyqəmbər onunla evlənəcəkdır. Bir yəhudi əsiri öncə azad edib sonra onunla evlənən peyqəmbər çoxlarını, özəlliklə Məhəmmədin bütün davranışlarını təqib edən münafiqləri şaşırtdı. Zeynəbdən sonrakı evliliyi Səfiyə ilə gerçəkləşdi. Bu iki evlilik arasındakı zamanda elə bir hadisə baş verdi ki, münafiqlər ondan peyqəmbərə qarşı sui-istifadə etməyə başladılar. Hicrətin 6-cı ilində münafiqlər Ayişəyə zina (xəyanət) böhtanı atdılar. Fəqihlər və alimlər bu hadisəni böhtan adlandırmışlar. Səsli-küylü mövzular axtaran şərqşünaslar isə bunu "boyunbağı macərası" adlandırmışlar.

Mövzu bundan ibarət idi: Bənimüstələq qəzəvəsində peyqəmbərin yanında olan Ayişə çox xoşlandığı sədəf boyunbağını itirdi. Karvanın bir neçə dəqiqədən sonra hərəkət edəcəyini öyrəndiyində sürətlə boyunbağını

---

[44] İbni Sə´d, Təbəqat, II kitab, s. 117.
[45] Təbəri, Tarix, III kitab, s. 180.
[46] İbni Sə´d, Təbəqat, II kitab, s. 116.
[47] احمد البرى، احکام ام ولد فى الاسلام، دار القيومه للطباه، قاهره 1964. بن هشام، سيره، ج3، ص 309. بخارى، صحيح، ج4، ص 174. اصفهانى، الاغانى، ج4، ص 157.

axtarmağa başladı. Boyunbağını bulduğunda artıq karvan yola düşmüşdü. Ayişənin kəcavəsini (kəcavə-dəvənin üstündə qadınların rahat oturmaları üçün qurulan oturacaq) dəvənin üstünə qoyan qulluqçular da onun kəcavə içində olub-olmadığının fərqinə varmamışlar. Çünkü Ayişə şişman deyildi, incə bir qadın idi. Ayişənin kəcavənin içində olmadığı bəlli olduqdan sonra peyqəmbər karvanın dayanmasına əmr verdi. Ayişəni gözləməyə başladılar. Peyqəmbər yavaş-yavaş əndişələnməyə başlamışdı ki, Ayişənin uzaqdan gəldiyi görüldü. Səffan adında gənc bir səhabi ilə bərabər gəlirdilər. Bu hadisə münafiqlərin Ayişəyə böhtan atmalarına səbəb oldu. Mövzu o qədər ciddiləşdi ki, peyqəmbər onu ümumi toplantıda müzakirəyə çıxarmağa məcbur oldu. Peyqəmbər minbərə çıxıb müsəlmanlara xitab edərək dedi: "Tanrı elçisinin ailə üzvlərindən kim cəsarət edib şübhələnmişdir?"[48] İslam tarixində adətən bir siyasətçi öz qadınının paklığını savunmaq yerinə şər atanları savunmuş və qadınını ölümlə cəzalandırmışdı. Çünkü iqtidarda qalmaq ehtiraslarına günahsız qadınları qurban etmişlər. Lakin peyqəmbər şər atanları məhkum edib Ayişəni savundu. Peyqəmbərin bu davranışı Us və Xəzrəc qəbilələrini məcbur etdi ki, böhtan atdıqlarını boyunlarına alsınlar. Bu qəbilələr şər atan üzvlərini cəzalandırmalı idi. Şər atanın adı Abdulla ibni Əbi idi. Nəhayət, Tanrı da bu işə qarışdı və Ayişənin suçsuz olması ilə bağlı 17 ayə gəldi. Ayişənin suçsuzluğu və təmizliyi beləcə qəti olaraq isbatlandıqdan sonra yeni islami qanuna görə, böhtan atanlara şallaq vurdular.[49]

Təməli yeni atılmış olan islam toplumundan qadının dışlanması üçün bütün bu hadisələr şərait yaradırdı.

[48] Tabari, Mohammed, Sceau des prophetes; p. 239.
[49] Eyni qaynaq, s. 240.

# Hicab Mədinədə nazil olur

Hərbi baxımdan islam sınaqdan keçirdi. Bu baxımdan Mədinə əhalisi böyük rol oynayırdı. Kölə qadınlar kübar qadınların güvənliyi uğrunda fəda edilirdi. Müxtəlif siniflərə mənsub olan bütün qadınlar Mədinənin küçələrində təərrüzə məruz qalırdılar. "Təərrüz" lüğət olaraq, "bir kişinin bir qadının yolunu kəsib onunla zorla cinsi ilişkiyə girməsi" anlamındadır. Bu durumda artıq qadınları əski törələrin basqısından qurtarmaq gündəmdə deyildi, əsas hədəf onların can güvənliyini sağlamaq idi. Peyqəmbər öz üslubuna uyğun olaraq bu hadisələrin səbəbini bulmaq üçün məlumat toplamağa başladı. O, güvənilir müsəlmanlardan bir neçəsini qadınları incidənlərlə danışmağa göndərdi. Onların belə çirkin davranışlarda bulunmalarının səbəbini bilmək istəyirdi. Onlar belə cavab verdilrə: "Biz yalnız kölə sandığımız qadınlara təərrüz edirik."[1] Onlar bu şəkildə öz davranışlarına bəraət qazandırırdılar ki, kölələr şəxsiyətsizdir və özgür insan kimi ehtirama layiq deyillər. Bu səbəbdən də Tanrı Əhzab surəsinin 59-cu ayəsini göndərdi. Bu ayədə peyqəmbərin qadınlarına deyilir ki, başqalarından seçilmələri üçün cəlbablarını başlarına atsınlar. Cəlbab yeni paltar deyildi. Ancaq cəlbabın istifadə şəkli bu ayənin istəyi və bəlirtdiyi üzrə yeniləşdi. Yəni bu ayədən sonra cəlbab öncəkindən fərqli şəkildə istifadə edilməyə başladı.[2]

"Cəlbab" sözünün ərəb sözlüyündə bir neçə mənası var və bir çox paltar növlərini ehtiva edir: sadə qadın köynəyindən tutmuş, əbaya qədər paltar türlərini içərir. Ayrıca, həm də qadının başı ilə bədənini örtəcək qədər böyük olan örtükdən ibarətdir. O zamankı qadınların ağır vəziyətlərini göstərmək üçün kölə qadınların necə fahişəliyə sövq edilməsini Quran ortaya qoyur. Nur surəsinin 33-cü ayəsi zina haqqındadır. Bu ayədə Mədinədə örgütlənmiş fahişəlik haqqında söhbət gedir: "Əgər qadınlarınız sağlam və əxlaqlıdırsa dünya malı qazanmaq üçün onları fahişəliyə zorlamayın."[3] Belə işlərlə məşğul olanlara xitabən Tanrı deyir: "Əgər bu işdə xeyir varsa, o qadınları satın alın ki, fahişəlik etməsinlər."[4] Əsqəlaninin

[1] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 176.
[2] Eyni qaynaq.
[3] Pickthall, The meaning of the Glorious Koran.
[4] Eyni qaynaq.

"Əl-isabət" əsərində Abdulla ibni Əbiyə aid olan Ümimə və Müsəykə adlı iki kölə qadının həyatları haqqında ayrıntılı bilgi verilməkdədir. "Bu iki qadın Abdulla ibni Əbi tərəfindən fahişəliyə sövq edildilər. Onlar bu durumdan peyqəmbərə şikayət etdilər." Bu şikayətə cavab olaraq Tanrı buyurdu: "Və əgər kənizləriniz sağlam və əxlaqlıdırsa dünya malı qazanmaq üçün onları fahişəliyə zorlamayın."[5]

Peyqəmbərə qadınlarını dəyişməyi təklif edib və Ayişənin Səffanla zina etdiyini söyləyən Abdulla ibni Əbi, Xəzrəc qəbiləsinə mənsub olan münafiq idi. Bu adam çox aqressiv idi, kölələri ilə çox sərt davranırdı. "Abdulla ibni Əbi Müsəykəni döyür və onun təslim olmasını istəyirdi. O, kölə qadınlarının çocuq doğurmalarını istəyirdi ki, daha sonra bu çocuqları satıb para qazansın." Əsqəlani təkid edir ki, Abdulla ibni Əbi sadəcə öz seksual ləzzətlərini güdmürdü, həm də kölə qadınların ona çocuq doğurmalarını tələb edirdi."[6] Müsəykə müsəlman olduğu üçün islamın Tanrısı bu işə müdaxilə etməli idi. Yuxarıda qeyd olunan ayədə qadınlara qarşı şiddəti Tanrı məhkum etmişdir. Abdulla ibni Əbinin zorlamalarına qarşı Müsəykə dirəndi, təslim olmadı. Beləliklə də bu adamın peyqəmbərə bu qədər düşmənlik etdiyinin səbəbi anlaşılır. Peyqəmbərin qadınlara bağışladığı azadlıq, azad insan olma kimi yeni nemətlər bu növ adamların gəlir qaynağını qurudurdu. İslam əski törələrdən uzaqlaşmaq zorunda idi. Bu uzaqlaşmanı kübarların kölələr üzərindəki imtiyazlarını ortadan qaldıraraq sağlaya bilərdi. Bu üzdən möminlərin haqqını qorumaq həm məntiqli, həm də əqli bir zərurət kimi ortaya çıxdı. Mömin anlayışı içində aristokrat və kölə arasındakı fərq yox edilirdi.

Qadınların şəraitini dəyişdirmək üçün İslamın başqa praqmatik dəlili də var idi. Islamdan öncəki seksual azadlığın məhdudlaşdırılması yeni bir hadisə idi. Əlbəttə, indi bu məsələni dərk etmək bir az çətindir. Çünkü bu gün bir çox islam ölkələrində çoxqadınlılıq yayqındır və kişi çox rahatlıqla qadınlarını boşaya bilir, qazi də kişinin iradəsini təsdiqləyir. VII əsrdə cinsi ilişkilər sərbəst idi. Islamın iddə və atamərkəzli qanunları cinsi sərbəstliyə məhdudluq gətirdi. (İddə nə idi? Qadın boşandıqdan və ya əri öldükdən sonra təqribən altı ay bəkləməli idi. Bu müddət ərzində onun daha öncəki ərindən gəbə olub-olmadığı bəlli olurdu. Hamilə olmadığı müəyyən olduqdan sonra evlənə bilərdi, hamiləliyi bəlli olsaydı da evlənə bilirdi. Ancaq qadının bətnindəki uşağın atasının kim olduğu bu vəsilə ilə dəqiqləşmiş olurdu.) VII əsrdə aristokrat və ya məşhur ailəyə mənsub olmayan, savaşçı əri olmayan gözəl qadınlar daima təhdid altında idilər.

---

[5] Əsqəlani, Əl-isabət, VII kitab, s. 517.
[6] Eyni qaynaq, VIII kitab, s. 120, 121.

Onlar daima əsiralınmağa, seksual sömürüyə məruz qalırdılar. İslam kölə qadınların durumuna aydınlıq gətirmədən ailə anlayışını gerçəkləşdirə bilməzdi. Mənim inancım bu şəkildədir ki, şəhvətləri kontrol etmək üçün hicabdan yararlanmaq bir qrup qadınların haqqını qorumaq amacı ilə gerçəkləşmişdir. Lakin bu hərəkət digər qadınların və daha sonrakı uzun tarixi sürəcdə qadınlığın zərərinə tamam olmuşdur.

Hicab təərrüzə (cinsi təcavüzə) qarşı bir reaksiya olmuşsa da, eyni vaxtda o zamankı aqressiv durumu da yansıtmaqdadır (əks etdirir). Mədinədə iç savaş şəraitində ortaya atılan hicab ümumi yerlərdə qadınların çətinliklərini göstərməkdədir. Yəni qadınların sərbəst dolaşdığı yerlərdə onlara qarşı saldırılar (hücumlar) ortaya çıxmışdı. "Təərrüz" sözü aqressiya, basqı və sınırlama anlamındadır. İbni Sə´d bu durumu belə anladır:

"Mədinədə axmaq, nadan və səfihlər tərəfindən kölə qadınlar saldırılara məruz qalırdılar. Azad qadınların geyimləri onları kölə qadınlardan fərqləndirməsə idi, onlar da eyni saldırı və təcavüzə məruz qalırdılar. Özgür qadınları da kölə qadınlarla qarışdırırdılar."[7]

İbni Sə´d hadisələr üzərinə araşdırma yapmış olan nadir tarixçilərdəndir. O, VIII əsrdə yaşamışdır. Zeynəblə peyqəmbərin toy gecəsi gələn "Hicab" ayəsi üzərinə araşdırma yapmış, dərin və ciddi səbəblər ortaya qoymuşdur: Mədinəni saran zinanı əngəlləmək üçün hicab məsələsi ortaya çıxmışdır. VII əsrdə Mədinənin ictimai həyatında qadınların zina aləti kimi istifadə edilməsini dərk etmədən, hicab məsələsini anlaya bilməyəcəyik. Bu amacla VII əsrdə yayqın olan qadın-kişi münasibətlərini araşdırmağa ehtiyac hiss olunur.

O zamankı ərəb qəbilələrində yayqın dörd növ evlilik haqqında Buxari bilgi verməkdədir: İzdivacın birinci növü günümüzdə mövcud olduğu kimi idi. Yəni kişi qızın atasından, atası olmasa qohumlarından bir erkəklə danışır və bir növ elçilik edirdi. Razılıqdan sonra kişi qızın başlıq parasını verib evlənirdi. İkinci növ izdivac bu şəkildə idi ki, kişi qadına deyirdi: Aybaşı xəstəliyin bitdiyində filankəsə onunla yaşayacağınla bağlı xəbər göndər. Üçüncü növ evliliyi qrup seks də adlandırmaq olar. Ən azı on nəfər bir qadınla seksual ilişkiyə girirdi. Qadın hamilə olduğunda bu on nəfəri toplayıb onlardan onlardan gəbə (hamilə) qaldığını söyləyirdi. Uşağı doğurduğunda onlara deyirdi ki, bu uşaq sizə aiddir. Nə ad istərsəniz, ona qoyun. Dördüncü izdivac isə belə idi ki, bir neçə kişi, yalnız bir qadınla seksual ilişkiyə girirdi. Qadın da onların heç birisini rədd etmirdi. Bu növ qadınlar qapılarının önündə bir bayraq asırdılar. Bu, o demək idi ki, hər kəs istəsə, içəri girib onunla seks yapa bilər. Qadın doğduğunda bütün

[7] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 176, 177.

müştərilərini toplayırdı. Çocuğu tanımaqda təcrübəsi olan bir adam gətirirdilər. Çocuğun kimə bənzədiyini bu adam bəlli edirdi. Beləliklə də çocuq o müştəriyə aid olurdu.[8] Buxari burada bu növ ilişkilərin yaxşı və ya pis olduğu haqda fikir yürütmədən "izdivac" sözünü işlədir. Son iki növ izdivacı fahişəlik adlandırmaq mümkündür. Burada belə bir soru ortaya çıxır: Abdulla ibni Əbinin Müsəykə ilə olan münasibətini izdivac adlandırmaq olarmı? Təbərinin mətnlərində bu kimi önəmli sorular cavabsız qalır. Peyqəmbərin zamanında olduğu kimi, islamın ilham və ədalət qaynağı ola bilməsi üçün gələcək araşdırmalar bu mövzulara aydınlıq gətirməlidir. Təcrübələri tam olaraq reallıqdan qaynaqlanan və bilgini önəmsəyən bir din əlbəttə ki, araşdırılmalıdır, araşdırılmalara açıq olmalı, qapalı olmamalıdır. Tarix boyunca ciddi və elmi araşdırmalar rəsmi və siyasi islam tərəfindən qəbul edilməmişdir. *Məsələn, Fatimilər dövləti fahişəliyi yasaqlamaq yerinə ondan vergi alaraq azad buraxmağı tərcih etdilər.*[*] Bu davranışlarına bəraət qazandırmaq üçün də siyasətin qulluğunda olan din xadimlərinin fətvalarından faydalandılar. Bu isə gerçək islam bilginlərini şaşqına çevirmişdi.[9]

İslam öz yeni dəyərlər sistemi ilə bütün toplumsal davranışlara nəzarət etmək istər. Ömər kimi səhabilərin, ayrıntılarını dərk edə bilmədikləri peyqəmbərin proqramı çox incə əsaslar üzərində bərqərardır. Peyqəmbərdən sonra qadının seçim və iradə özgürlüyü toplumsal yapının əsası kimi hesab edilmədi. Ömərin önərdiyi çözüm çox sadə idi: Ömər israrla qadınlara hicabın tətbiq edilməsini istəyirdi. Ömər daima peyqəmbərə deyirdi: Ey Tanrının elçisi, sən müxtəlif adamları öz evində qəbul edirsən. Bunların içində şarlatan və kötü adamlar da var. Niyə Ayişəyə demirsən ki, hicaba bürünsün?"[10] Bütün etirazlara baxmayaraq, Ömər kimi düşünməyən peyqəmbər bu sözləri qəbul etmirdi. Ömər ədalətli, sədaqətli, cəsur və fədakar müsəlman idi, ancaq o, peqyəmbərin qadınlara qarşı aqressiv deyil, yumşaq olma çağrısını nə teoridə, nə də əməldə qəbul edə bilrdi. Ömər ciddi şəkildə qadınlara qarşı aqressiv davranmanın tərəfdarı idi. Peyqəmbər insanları ədəbli, nəzakətli və həlim olmağa çağırırdı. Bir çox ayələrdə peyqəmbərin bu özəlliklərinə işarə edilmişdir. Göründüyü kimi, peyqəmbər Zeynəblə toy gecəsində mane olan qonaqlarına belə, sayqısız davranmaq yerinə hicabı qəbul etmiş, pərdə çəkmişdir. Peyqəmbər hesab edirdi ki, birinin qapısı hər kəsin üzünə açıqsa bu, o demək deyil ki, kimsə istədiyi

[8] Buxari, Səhih, III kitab, s. 248.
[*] 2007-ci ilin yazında Libi diktatoru Qəzzafi "tarixi" bir qonuşma yaparaq, islam dünyasını Qərbə qarşı birləşməyə çağırdı. O, bu qonuşmasında Fatimiləri də islamın ən parlaq dövrü olaraq adlandırdı! (G.G.)
[9] الحضاره الاسلامیه فی القرن الرابع الهجری، مکتبه الخانجی، بی تا.
[10] دیشابوری، غرائب القرآن و طبری، تفسیر، ج22، ص 9.

zaman içəri girib ev yiyəsinin özəl həyatına müdaxilə etməlidir. Peyqəmbərin özəl həyatı araşdırıldığında görünür ki, hicab peyqəmbərin sosial həyat fəlsəfəsinə tam zidd olaraq ortaya çıxmışdır. Hicab iç kontrolun və müstəqil iradənin olmamasını rəmzləşdirən bir görüntüdür. Fərdi haq anlayışını Ömər qəbul edə bilmirdi. Yeni dinin fərd haqları və fərdin müstəqil iradəsi ilə bağlı Ömər heç düşünmək də istəmirdi. O, bu mövzunu dərk edə biləcək yetənəkdən yoxsun idi. Ömərə görə, toplumda düzəni bərqərar etmənin bircə yolu qadınları gizlətmək, toplumsal yaşamdan uzaqlaşdırmaq idi. Nə yazıq ki, bu dartışmalar peyqəmbərin ömrünün son zamanlarına təsadüf etdi. Ayrıca, hərbi baxımdan Mədinədə xaos hakim idi. Toplumda düzəni yalnız zorla bərqərar etmək istəyən Ömər, şiddət və aqressiyanı öz bağrında barındıran qəbilə kültürünün, törələrin təmsilçisi idi. Ömər, müsəlman olmasına baxmayaraq, bir çox hadisələrə əski qəbilə zehniyəti ilə yanaşırdı. Peyqəmbəri sevməsinə və onun yolunda hər növ fədakarlığa hazır olmasına rəğmən, Məhəmməd peyqəmbərin cinsi bərabərlik düşüncəsini qəbul edə bilmirdi. Bir çoxları kimi, o da gerçək savaşçı idi. Düşmən cəbhəsində davranışlarının necə reaksiya doğuracağını hesablamazdı. Bəzi mövzularla bağlı peyqəmbər öz çevrəsinin fikrini öyrənmək istərkən, hər kəsdən öncə Ömər danışar, strateji baxımdan heç bir dəyəri və dərinliyi olmayan təhlükəli önərilər irəli sürərdi. Bu durumda peyqəmbər üzünü digər səhabilərə tutub eyni mövzu ilə bağlı daha dərindən düşünmələrini istərdi. Örnək üçün, Hənin savaşında Ömər bütün əsirlərin öldürülmələrini təklif etdi. Ancaq Ömərin bu təklifini qəbul etməyən Məhəmməd başqa tür düşündü. İslamın gələcəyi ilə bağlı bu əsirlərdən faydalanmaq istədi.

Peyqəmbərin islam anlayışı hər növ nəzarət təfəkkürünü və ya polis kontrolu sistemini inkar edir. Bu üzdən də islamda rəsmi olaraq ruhani vəzifə mövcud deyildir.* Peyqəmbərin islam anlayışında bütün müsəlmanlar öz fərdi çabaları ilə Quranı anlamağa təşviq edilməkdədirlər. Qadınların iradəsini və seçim özgürlüklərini rəsmiyətə tanımaq da bu ilkəyə

* Ruhani adında islamda bir vəzifə olmamışdır. Bu vəzifə Səfəvilər dönəmində ortaya çıxdı. Səfəvi dövlətini quran Ələvilərin fiqh (islam hüququ) kitabları olmadığı üçün fars milliyətçiliyi mərkəzli şiə fiqhi dövləti ələ keçirdi. Farslar Səfəvilərlə Sasanilər arasındakı 900 illik zamanı fətrət olaraq adlandırırlar. Fətrət iki hadisə arasındakı zaman boşluğu anlamındadır. Yəni fars milliyətçiliyi Şah İsmayılı, Sasaniliyi diriltdən şəxs sayırlar. Böyük Nadir Şah Səfəviliyə aid bütün xürafatı ortadan qaldırmaq istəmişdi. Lakin o da fars milliyətçiliyi mərkəzli şiə teroristləri tərəfindən öldürüldü. Nadir Şaha görə Səfəvilik həm islamı, həm də türk birliyini parçalamışdı. M.Ə. Sabir, Nadir Şahın bu təşəbbüsünü "Fəxriyə" adlı şeirində öymüşdür. Yalnız Səvəfilər dönəmində "şah" sözü ismdən əvvəl gəlmişdir. İsmdən əvvəl gələn "şah" fars dilinin cümlə quruluşuna, ismdən sonra gələn "şah" türk dilinin söz birləşməsinə məxsusdur. "Şah İsmayıl", "Şah Abbas" fars dilinin cümlə quruluşu və "Nadir Şah", "Qacar Şah" türk dilinin cümlə quruluşudur. Səfəvi dövlətinin quruluşu ilə eyni zamanda Azərbaycan türkcəsi digər türkcələrdən uzaqlaşaraq farscanın qarşısında savunmasız qalmışdır. (G.G)

dayanmaqdadır. Yəni hər kəs istər qadın və ya kişi olsun öz əməllərinin cavabdehidir, öz davranışları ilə bağlı məsuliyət daşıyır. Öncülüyünü Abdulla ibni Əbinin etdiyi qrup çox yaxşı bilirdi ki, əgər Ayişə və Ümm-Səlmə bütün qadınların azadlıqları məsələsi ilə bağlı öz istəklərinə çatsalar, artıq onlar kölə qadınlarına təcavüz edə bilməyəcəklər. Abdulla ibni Əbi bu mövzunu doğru bilmişdi. Əgər qadınların müstəqil iradəsi islam tərəfindən rəsmiyətə tanınsa idi, artıq onlar seks əşyası kimi oğurlanıb bazarlarda satıla bilməzdilər. Bu hadisənin gerçəkləşməsini əngəlləmək üçün peyqəmbərin qadınlarına saldırmağı, küçələrdə onlara çirkin sözlər deməyi planladılar. İslam ilkələri əsasında qadınların bərabərlik hüququnu savunan peyqəmbərin qadınları Mədinədə ağır vəziyətlə qarşılaşdılar.

Ömərin savunduğu hicab fəlsəfəsi bəlli idi. Qadınları incidən münafiqlər öz əməllərinə bəraət qazandırmaq üçün deyirdilər: “Onlar kölə qadınlardır.” Belə bir durumda Tanrı qadınlara əmr etdi ki, “kölələrdən fərqlənmək üçün özlərini cəlbabla örtsünlər.”[11] Kölələrdən fərqlənmək üçün müsəlman qadınlara bir yol bulunmalı idi. Çünkü kölə qadınlarla hər növ seksual ilişkiyə girmək törəsi yayqın idi. “Azad və kölə olmayan qadınlar elə örtünməyə başladılar ki, yalnız bir gözləri örtüyün dışında, digər gözləri örtüyün altında qalırdı.”[12] Tanrı bir ayə göndərərək azad qadınların hicab örtmələrini istədi: “Ey peyqəmbər, öz qadınlarına, qızlarına və müsəlman qadınlara söylə ki, fərqlənmək üçün başlarını örtsünlər. Bu vəsilə ilə onlar fərqlənmiş olurlar, kimsə onları incitməz. Tanrı bağışlayan və mehribandır.”[13]

Peyqəmbərin bütün çabalarına və toplumda cinsi bərabərlik bərqəraretmə fəaliyətlərinə rəğmən, qadınları seks makinası və kölə olaraq görən cərəyanın arzuları həyata keçdi, onlar qalib gəldilər. Əslində isə peyqəmbərin təlimatında fərdin (qadın və ya kişi) özəl həyatını nəzarət altında saxlama prinsipi yoxdur. Çünkü islamda toplumsal düzəni sağlayan və insan nəfsini tərbiyə edən amil imandır. Hicab, münafiqlərin qələbəsinin göstərgəsi şəklində meydana çıxdı, çünkü şəhərin ümumi yerlərində kölə qadınlar saldırılara və təcavüzə məruz qalırdılar. Beləliklə, hicab qadınları ikiyə böldü: 1.Təcavüz və saldırının haram olduğu azad qadınlar. 2. Təcavüz və saldırının cayiz olduğu kölə qadınlar. Hicab məntiqində qəbilələr kültüründən qaynaqlanan şiddət və aqressiya, Tanrının öydüyü müsəlman ağlının yerinə oturdu. Tanrı yaxşını pisdən, haqqı batildən sezmək üçün insana hicab deyil, ağıl vermişdir. İnsanda iç kontrolu sağlayan hicab deyil, ağıldır. Tanrının önərdiyi sosial yasaların həyata keçməsi üçün daha öncədən

[11] İbni Sə´d, Təbəqat, VIII kitab, s. 117.
[12] Eyni qaynaq.
[13] Pickthall, The meaning of the Glorious Koran, sura 33, verse 59.

yayqınlaşmış və həyatın bütün sahələrində təsirli olan ərəb qəbilələrinin törə və kültürləri ortadan qalxmalı, tarixdən silinməli idi. Ancaq belə olmadı. İslam əski törələrlə bir yerdə yaşamaq zorunda qaldı. Hicab isə əski ərəb qəbilələrinin qadınla bağlı görüşlərinin davam etməsinə yardımçı oldu. O ərəb kültürü ki, qadınların səfih olduqlarına inanırdı. Səfihlər də öz əxlaqlarını, nəfslərini kontrol edə bilmədikləri üçün o zaman onlara nəzarət lazımdır. Hicab ərəb qəbilələrində qadının səfih olması ilə bağlı yayqın olan inancı bir şəkildə təsdiqləmiş oldu. Hicrətin 5, 6 və 7-ci illərində Mədinədə böyük bir bunalım (böhran) və xaos var idi. Peyqəmbər bu xaosu ortadan qaldırmalı və şəhərdə güvənlik sağlamalı idi. Peyqəmbər vəziyətin ya bu şəkildə sürüb getməsini qəbul edib təhlükəli, güvənsiz bir həyatı davam etməli, ya da güvənliyi sağlamaq üçün alternativ planlar gəlişdirməli idi. O, bu durumu ortadan qaldırmaq üçün ya Tanrı tərəfindən gələcək təklifləri və əmrləri bəkləməli, ya da qəbilələrin imkanlarından faydalanıb şəhərdə düzəni bərqərar etməli idi.[14]

Əgər peyqəmbər birinci yolu seçib Tanrıdan gələn əmrləri bəkləsə idi, güvənsiz və təhlükəli sosial durum davam edəcəkdi. İkinci yoldan, yəni qəbilələrin iqtidarından faydalanmaqla şəhərdə dərhal güvənlik bərqərar edə bilərdi. Ancaq belə olduğu təqdirdə yeni islam toplumu və onun yeni qayda qanunları tarixdən silinə bilərdi. Peyqəmbərin öyrətiləri (təlimləri) insanları hansısa bir qəbiləyə məxsus olduqları üçün dəyərləndirmirdi, islam öyrətilərində insanlar imanlarına görə fərqlənirdilər. Ancaq əski qəbilə törələrinin toplumun bütün qatmanlarında yerləşməsi səbəbi ilə yeni öyrətilər çətinliklərlə qarşılaşırdı. Çox çətin bir dönüş idi. Qəbilələrin iqtidarı çox təhlükəli idi. Qəbilələrin imkanlarından güvənliyi sağlamaq uğruna istifadə etmək islamın qəbilə kültürləri və törələri qarşısında güzəştə getməsi anlamında idi.

Ömərin təklifləri belə gərgin bir ortamda ortaya çıxdı. Ömərə görə, islamın qəbilələr kültürü qarşısında güzəştə getməsi yerinə qadınların bürünməsi iğtişaşın və böhranın ortadan qalxmasına yardımçı ola bilərdi. Ömərin təklifi üzərinə qadınların bürünüb sosial həyatdan uzaqlaşmaları 1500 il davam etdi. Ancaq maraqlı olan budur ki, 15 əsrdən sonra sömürgəçi dövlətlər islam ölkələrini insan və qadın haqlarını qəbul etməyə zorladılar.

---

[14] İgnace Goldziher “The Arab Tribes and islam”, in his Muslim Studies, Chicago, Aldine, 1966, p. 41.

# Sonuc

İç savaş ərəfəsində Mədinəyə xəyali səfər edib sonra da oranı tərk etmək, tarixi qaynaqların axtarışına son vermək üçün bəlkə də uyğun bir metod deyildir. Peyqəmbərin Məkkəni fəth etdiyi hicrətin VIII ilinə qədər səbr edə bilərdik. Peyqəmbər bilirdi ki, qalib gəlməyən peyqəmbər öz ölkəsində də güvəndə ola bilməz:

Başında qara əmmamə (sarıq) ilə bir dəvənin üstündə oturan peyqəmbər şəhərə daxil oldu. Əbutaliboğlu Əli onun arxasınca gəlirdi. Mühacirlər və Ənsar çevrəsinə toplaşmışdılar. Şəhərin darvazasına çatdığında Zübeyr islam bayrağını dalğalandırdı. Peyqəmbər bayraq dalğalanan yerdə dəridən düzəldilmiş çadırının qurlmasına əmr etdi. Ramazan ayının 12-də peyqəmbər rəsmən Kəbəyə daxil oldu. Giriş qapısında dəvədən enib Kəbənin təvafına (ətrafına dolanmağa) başladı. Bu müddət ərzində Məkkənin sakinlərinə çatdırmışdılar ki, şəhərdə kimsə öldürülməyəcək. Şəhər sakinləri evlərinin qapılarını açıq buraxıb Kəbəyə tərəf qaçırdılar. Təvaf bitdikdən sonra peyqəmbər Kəbənin qapısının açılmasına əmr verdi. Bütün bütləri Kəbənin içindən çıxarıb yox etdilər. Kəbənin içindən çıxarkən qapıda dayanıb orada toplaşan cəmiyətə baxdı. Qapının kilidindən yapışıb dedi: "Tanrıya şükürlər olsun ki, O, öz quluna qələbə qismət etdi. Tanrı öz qulu olan peyqəmbərinə verdiyi sözü yerinə yetirdi. Tanrı söz vermişdi ki, məni Kəbəyə qalib olaraq geri göndərəcək və düşmənlərimi məğlub edəcək."[1]

Məkkə əhalisi və qəbilə başçıları iman gətirmək və peyqəmbərlə birlik müqaviləsi bağlamaq üçün Səfa dağına toplaşdılar. Məkkənin fəthindən dörd gün sonra iman gətirən qadınların andiçmə mərasimi başladı. Peyman bağlamaq üçün peyqəmbər Öməri görəvləndirmişdi. Əbusüfyanın qadını Hind, Ömərlə peyman bağlamağı qəbul etmədi. Öməri uzaqlaşdırıb peyqəmbərə yaxınlaşıb dedi: "Biz sənə beyət etmək, səninlə peyman bağlamaq istəyirik." Qadınların iman gətirmək üçün andiçmə törəni başlarkən, mərasimin çox ciddi olmasına baxmayaraq, Hind özünü cilovlaya bilməyib dedi: "Ey peyqəmbər, sən qadınlardan tələb etdiklərini nədən kişilərdən də tələb etmirsən? Ancaq biz qəbul edirik ki, xain olmayacağıq." Peyqəmbər qadınlardan öz evladlarını öldürməməyi istəmişdi. Hind dedi: "Ey peyqəmbər, sən bir çox savaşlarda iştirak edib çoxlu qan tökmüsən. Qadınlardan belə bir istəkdə bulunmaq doğru deyil. Biz dünyaya evlad gətirib böyüdürük, ancaq sən onları Bədr savaşında öldürdün."[2]

---

[1] Tabari, Muhammed, Sceaudes prophetes, p. 282.
[2] Eyni qaynaq, s. 286.

Nədən qadınların andiçmə törənində bu şərt irəli sürüldü? Bu mövzu ilə bağlı mütəxəssislər arasında fikir birliyi mövcud deyil. “Evladlarınızı öldürməyin” deməkdən məqsəd uşaq saldırmaq imiş, yoxsa doğulan qızları diri-diri gömmək imiş? Bir çox müsəlman tarixçilər qız çocuqların diri-diri gömülməsini qabartmış, həddindən artıq şişirtmişlər. Bir çox tarixçilər qızları diri-diri gömməyi qəbilə şərəfinin göstərgəsi kimi hesab etmirlər. Bəzi tarixçilər isə belə hesab edirlər ki, bu diri-diri gömmədən məqsəd bütpərəstlərin dini mərasimlərdə qızları qurban kəsmələri imiş. Bu da çox nadir hallarda gerçəkləşirmiş.[3] Hind adlı qadın örnəyi göstərir ki, Qüreyş zadəganlarının qadınları kişilər kimi hörmətə layiqmişlər və cəmiyyətin yeni rəhbəri ilə peyman bağlayarkən cəsarətlə islamı da tənqid etmişlər. Onlar yeni dini ehtiyatla qəbul edirdilər. Çünkü yeni inancın onların aqibətini hansı istiqamətə yönləndirəcəyini bilmirdilər. Qadınların siyasi rəhbəri tənqidetmə gələnəyi Müaviyənin hakimiyyəti başladığı zamana qədər davam etmişdir. Müaviyənin iqtidarı ilə eyni zamanda islam sisteminin yerini sülalə iqtidarı aldı. Bir çox islam dəyərlərinə, o cümlədən qadınların tənqid haqlarına da yasaq gətirildi. Yəni Əməvi dövlətinin quruluşu və hakimiyyətin atadan oğula keçmə gələnəyi özünə yer etdikdən sonra peyqəmbərin ədalət və bərabərlik fəlsəfəsi ortadan qaldırıldı.

Peyqəmbər Məkkədən Mədinəyə döndükdən sonra da qadınların həyatında heç bir yenilik ortaya çıxmadı. O tarixdən etibarən qadınlar şəhərlərin güvənsiz küçələrində hicaba bürünüb ehtiyatla davranmağa, qorxuyla yaşamağa başladılar. Mədinənin güvənsiz və iğtişaşa qərq olduğu bir dönəmdə qadınları qorumaq üçün istifadə edilən hicab əbədi olaraq qadınların yazqısına, taleinə yazıldı. Belə anlaşılır ki, 1500 il keçməsinə baxmayaraq, hələ də qadınlar üçün barış sağlanmamışdır. Qadınlar yenə də özlərini 1500 il bundan öncəki Mədinənin güvənsiz küçələrində hiss etməli, ona görə yaşamalı, o psixologiyaya görə geyinməlidirlər! Yəni Mədinədəki 1500 il bundan öncəki güvənsizlik qadınların ruhuna daşınmalı, qadınlar əbədiyən bu güvənsizlik durumunu unutmamalıymışlar! Mədinənin böhranlı dönəmini bütün islam ölkələrinin qadınları əbədi olaraq yaşamalıymışlar. İslam ölkələrinin qadınları daima özlərini sanki 1500 il bundan öncəki Mədinədə yaşayırmışlarcasına hiss etməlidirlər. Ancaq kişilər üçün artıq 1500 il bundan öncəki Mədinənin bir anlamı qalmamışdır.

İslamın ilk onilliyində bəzi qadınlar dirənməyə çalışdılar. Onlar ümumi yerlərdə hicab örtməyərək göründülər. Qadınlara qarşı bu basqıların qarşısında dirənən müsəlman qadınlar kimlər idi? Bu qadınların ən məşhurlarından biri peyqəmbərin nəticəsi və Əbutaliboğlu Əlinin nəvəsi

---

[3] صالح احمد على، محاضرات فى تاريخ العرب، مكتبه المتنبى، بغداد 1970، ص 139.

Səkinə idi. Səkinə atası Hüseyn şəhid edildiyində Kərbəlada idi. Əlioğlu Hüseyn Əməvi sülaləsinin islam anlayışına qarşı çıxdığı və Yəzidə beyət etmədiyi üçün öz çevrəsi ilə bir yerdə Kərbəlada qətl edildi. Səkinə hicrətin 49-cu ilində dünyaya gəldi. Onun gözəlliyi çox təsirli idi. Ayrıca, Səkinə gözəlliyi ilə bərabər güclü zəkaya və dəyərləndirmə qabiliyətinə sahib idi. Onun çox güclü və təsirli nitq qabiliyətinin olduğunu tarixçilər yazmaqdadırlar. Səkinənin həyatında elə hadisələr baş verdi ki, beş dəfə evlənmək məcburiyətində qaldı. Ərlərinin bəziləri ilə yola getməyib ayrıldı, bəzilərini də səmimi qəlbdən sevdi. Ona xəyanət etdiyi üçün ərlərindən birini məhkəməyə verdi. Ərlərinin heç birinə kor-koranə itaət etmədi. Qadının ərinə kor-koranə itaət etməsi, mahiyətindən sapdırılmış ənənəvi islam kültürünün üsullarından biri olmuşdur. Səkinə evləndiyi zaman ərinə kor-koranə itaət etməyəcəyini yazılı anlaşmaya çevirirdi. Ayrıca, ərinin bir neçə qadınla evlənəcəyini də qəbul etmirdi. Səkinənin siyasi və sosial məsələlərə özəl rəğbəti var idi. Şairləri və bilim adamlarını öz evinə dəvət edir, ədəbi, elmi söhbətlərdə iştirak edirdi. Qüreyş qəbilələri şura toplantılarına da qatılırdı.[4]

Tarixçilər Səkinənin həyatına çox maraq göstərmiş, onun həyatı haqqında geniş araşdırma aparıb yazmışlar. Atası Hüseynin Kərbəlada qətl edilməsi Səkinənin həyatını dərindən etkiləmişdi. Əlioğlu Hüseyn barışsevər bir insan idi. O, yazılı anlaşma ilə xilafətdən imtina etdiyini Müaviyəyə bildirdi. Müaviyə öldükdən sonra Hüseyn Yəzidə beyət etmədi. Hicrətin 61-ci ilində bütün ailəsinin, o cümlədən Səkinənin gözləri önündə şəhid edildi.[5] Səkinə ömrünün sonuna qədər Əməvilərə nifrət etdi, bu nifrətini də dəyişik yollarla dilə gətirirdi. Camilərdəki nitqlərində Əməvilərin zülmündən və islamı necə yanlış uyquladıqlarından danışırdı. Əməviləri məhkum etmək üçün əlinə düşən fürsətləri qaçırmırdı.[6] Səkinə nikahlarının birində ərini noşuz haqqını imzalamağa məcbur etdi, yəni ərinə qarşı etiraz və hətta üsyanetmə haqqının olduğunu evləndiyi kişiyə qəbul etdirdi. "Noşuz" sözünün anlamı budur ki, qadınlar kişilərinə qarşı üsyan etdiklərində onlara zor qullanmaq olar. Ancaq Səkinə əri ilə bağladığı müqavilə ilə etiraz haqqını həm qəbul etdirdi, həm ərinin ona qarşı zor qullanacağı təqdirdə onu məhkəməyə vermə haqqını əldə etdi. O, noşuz haqqı olmaq şərti ilə evliliyi qəbul edəcəyini bildirdi. Səkinə qadınların haqqını açıq şəkildə savunurdu. Bu üzdən də onun şəxsiyəti bir çox tarixçinin diqqətini çəkmişdir. Bir çox araşdırmaçılar onun macəra və həyəcan dolu yaşayışını araşdırmışlar. Səkinənin həyatındakı önəmli macəralardan biri budur: o, təkqadınlılıq

---

[4] اصفهانی، الاغانی، ج16، ص 168-169.

[5] طبری، تاریخ، ج6، ص 251.

[6] اصفهانی، الاغانی، ج 16، ص 143.

ilkəsini (prinsipini) və anlaşmasını pozan əri haqqında məhkəməyə şikayət etdi. Qazi onların arasındakı yazılı evlilik sənədinə və bəlgədəki şərtlərə şaşırsa da, Səkinəni dinləmək zorunda qaldı. Bu məhkəmə prosesində Səkinə və onun ərindən başqa xəlifənin təmsilçisi də iştirak edirdi.[7]

1984-cü ildə Malaziyada bir konfransda danışırdım. Səkinəni islam tarixində örnək qadın kimi təqdim edərkən, yalançılıqda suçlandım. Məni müttəhim edən şəxs Londonda islam dərgisinin baş redaktoru idi. O, söhbətimi kəsərək yüksək səslə bağrıb dedi: “Səkinə 6 yaşında Kərbəlada ölmüşdür.” Əsəbləşmiş və sifətindən nifrət tökülən bu adam mikrofonu zorla mənim əlimdən almağa çalışarkən, dedi: “Səkinə atası ilə bir yerdə Kərbəlada şəhid edildi.” Sonra da məndən Səkinə ilə bağlı söylədiyim sözlərin qaynağını tələb etdi. Mən də ərəb dilində bir sürü qaynaq göstərdim. Bu qaynaqlar bunlardı: İbni Qətibə, İbni Əbdərbe, İbni Əsakir, Zümüxşəri, İbni Sə´d, Əbül-Fərəc İsfahani, Zəhəbi, Səfdi, Buxari. Adam aşağılayıcı baxışlarla mənə baxaraq dedi: “Bunlar yetərli deyil.” Daha sonra aydın oldu ki, islam dərgisinin redaktoru olan bu adam ümumiyyətlə ərəb dilini bilmir.

Səkinə 68 yaşında Mədinədə öldü. Bəzi qaynaqlar onun 77 yaşında Kərbəlada öldüyünü yazırlar. Ancaq bu görüş doğru görünmür. Çünkü Səkinə İraq və iraqlıları sevmirdi. O, öz dulluğu ilə bağlı iraqlılara dedi: “Siz mənim babam Əlini, atam Hüseyni, əmimi və ərimi öldürdünüz.” Səkinənin ən çox sevdiyi əri Mösəb ibni Zübeyr beşinci Əməvi xəlifəsi Abdulməlik Mərvan tərəfindən öldürüldü.[8]

Corci Zeydan qadınlarla bağlı aşağılayıcı görüşlərin Abbasilər zamanında ortaya çıxdığına inanır. Bu dönəm bizə müsəlmanların fəthləri səbəbi ilə “altun islam çağı” olaraq tanıdılmışdır. Daha doğrusu islamın siyasətə alət edildiyi dönəm altun çağ olaraq bizə təqdim edilmişdir. Bu dönəmdə müxtəlif ölkələrdən bolluca kölə qadın gətirilmişdi. “Ərəb kişilər bir-birlərinə rum, türk, fars və sair kölə qadınlar hədiyə edirdilər.”[9] “İqtisadi inkişaf və şəhərlərin böyüməsi ilə eyni zamanda müsəlman qadınlar tam olaraq sosial həyatdan kənarlaşdırıldılar. İslam tarixində qadınlar öz azadlıqlarını və qürurlarını itirdilər. Onlarla alçaldıcı metodlarla davranıldı. Qadınlar qapalı qapılar, pəncərələr arxasında həbs edildilər.”[10] Ölkələri işğal edən ərəb müsəlmanlar əldə etdikləri savaş qənimətləri hesabına zənginləşdilər. Onlar zəkalı, yaxşı şeir söyləyən gözəl qadınlardan xoşlanırdılar. Bu durumu anlayan kölə qadınlar bu sahədə özlərini

---

7 بن سعد، طبقات، ج8، ص 475. و اصفهانی، الاغانی، ج3، ص 361. و بن عساکر، تاریخ مدینه دمشق، بی تا، دمشق، 1982. و بن حسن المالکی، حدائق الغناء فی اخبار النساء

8 Eyni qaynaqlar.

9 Corci Zeydan İslam mədəniyəti tarixi, V kitab, S. 76..76 جرجی زیدان، تاریخ اتمدن الاسلامی، ج5، ص

10 Eyni qaynaq.

gəlişdirməyə və zəngin ərəb müsəlmanların diqqətlərini çəkməyə başladılar. Kölə qadınlar zəngin ərəblər üçün oğul doğdular. Oğullarının vəzifə sahibi olmaları üçün bütün yollara əl atdılar. Bu üzdən kölə qadınların oğulları, hətta xəlifəlik rütbəsinə qədər yüksəldilər. Harun-ül Rəşid bu münasibətlərin ən bariz örnəyidir. "Min bir gecə nağılları" da Harun-ül Rəşid dönəminə aiddir. Bu dönəmdə siyasi istibdadın zirvədə olmasına baxmayaraq, "Min bir gecə nağılları"nda qadınlar və kişilər Bağdad küçələrində bir-birləri ilə görüşüb azadca əylənə bilirlər. Gerçək sosial həyatda mövcud olmayan qadın azadlığı nağıllara yüklənmişdir. İslam tarixində bu dönəm "altun çağ!" kimi bilinməkdədir.

Hələ də bu soru cavabsız qalmaqdadır ki, nədən "altun çağ"ın fitnələr törədən kölə qadınları müsəlman qadınların əbədi örnəyinə dönüşdü? Ancaq ümm-Səlmələrin, ayişələrin və səkinələrin xatirələri heç bir hərəkətlilik və canlanma yaratmadı, örnək oluşdurmadı. Şübhəsiz ki, bu sualın cavabı zaman güzgüsündə görünəcəkdir. Elə bir güzgü ki, müsəlman kişi ona baxdığında öz gələcəyini görəcəkdir. Müsəlman erkəyin "öz qadını" ilə bağlı təsəvvürləri o zaman dəyişəcək ki, gələcək ehtiyacları ilə ilgili duyğularını azad bir xatirələr ortamında yarada bilsin. Müsəlman qadın isə öz özgürlüyü uğrundakı daimi mübarizəsi ilə ona yardımçı olmalıdır. Müsəlman qadın özünü sosial və politik meydandakı fəaliyətləri ilə təsdiqlədikcə həyat daha gözəl olacaq, erkəkmərkəzli tarix və sosial həyat anlayışı tarixə gömüləcəkdir. Bu şəkildə olduğunda indiki zaman onun üçün gözəl və yaşanılır olacaqdır. İndiki zaman daima dəyərli və önəmlidir, çünkü hər şey indiki zamanda mümkün ola bilir. Hətta keçmişə heyranlıq duyğusunun bitməsi və insanın öz nəfsinə güvənərək mövcud anlardan ləzzət alması da indiki zamanda mümkün ola bilir.

# Tarixi olayların özəti

Bu bölümdə kitabda qeyd olunan önəmli olayların tarixi verilmişdir. Hicri tarix ilə miladi tarixi bir-biri ilə müqayisə etmək üçün aşağıdakı qaynaqlardan istifadə etmişəm:

- Shorter Encyclopedia of İslam, İthaca, Gibb and Kramers, New York.

- Richard Bell, Bell´s Introduction to the Koran, revised and enlarged by William Montgomery Watt, Edinburgh University Press, Edinburgh, 1970.
- Marshal G.S Hodgson, The Venture of Islam: Conscience and History in a World Civilization, University of Chicago Press, Chicago, 1974.

Hicri il ilə miladi ili bilməniz üçün bunları xatirinizdə saxlamalısınız: 1990-cı miladi il 1410-1411-ci hicri tarixi ilə bərabərdir. Çünkü islam tarixi peyqəmbərin Məkkədən Mədinəyə getdiyi zamandan etibarən başlayır. 622-ci ildə peyqəmbər Məkkədən Mədinəyə getmişdi.

570-ci ildə Hz. Məhəmməd anadan olmuşdur.

579-cu ildə Sasani padşahı Xosrov Ənuşirəvan ölmüşdür. Sasani və Roma imperatorluqlarının savaşdığı bir ortamda islam doğmuşdur.

610-cu ildə ilk açınım (vəhy) gəlmişdir.

610-14-cü illərdə Heraklius Roma imperatorudur.

613-cü ildə peyqəmbər Məkkədə islamı açıqca təbliğ etməyə başlayır.

613-cü ildə müsəlmanlar ilk dəfə olaraq Məkkədən Həbəşəyə mühacirət etdilər. Ancaq peyqəmbər Məkkədə qaldı və öz təbliğatını davam etdi.

619-cu ildə peyqəmbərin qadını Xədicə və əmisi Əbutalib vəfat etdilər. Əbutalibin ölümündən sonra peyqəmbərin cangüvənliyi təhlükəyə girdiyi üçün Məkkədən ayrılmağa qərar verdi.

619-cu ildə Sasanilər Misiri işğal etdilər.

621-ci ildə peyqəmbər mədinəlilərlə ilk təmasa girir.

622-ci ildə peyqəmbər Məkkədən Mədinəyə gedir (hicrət). Peyqəmbərin Məkkədən Mədinəyə getməsi hicri tarixinin başlanqıcı olaraq sayılır.

624-cü ildə Bədr savaşı başladı. Məkkəlilər müttəfiqləri ilə bir yerdə müsəlmanlara saldırdılar. Bu savaşda islam ordusu qalib gəldi.

625-ci ildə Ühüd savaşı başladı. Məkkəlilər Mədinə yaxınlığındakı Ühüd dağına hücum etdilər. Bu savaşda müsəlmanlar məğlub oldular.

627-ci ildə Xəndək savaşı başladı. Məkkəlilər Mədinəni mühasirə etdilər. Şəhəri qorumaq üçün peyqəmbər Mədinənin ətrafına xəndək qazdırdı.

628-ci ildə Hədibiyə müqaviləsi imzalandı. Peyqəmbər məkkəlilərlə barış andlaşması imzaladı.

630-cu ildə peyqəmbər Məkkəni fəth etdi və Suriyə sınırlarına ordu göndərdi.

632-ci ildə peyqəmbər vəfat etdi. Peyqəmbər 10 il Mədinədə yaşadı.

634-cü ildə birinci xəlifə Əbubəkir vəfat etdi.

644-cü ildə ikinci xəlifə Ömər terror edilərək öldürüldü.

655-ci ildə üçüncü xəlifə Osman terror edilərək öldürüldü.

656-cı ildə Əbutaliboğlu Əli xəlifə oldu.

658-ci ildə Əbutaliboğlu Əli xilafətdən uzaqlaşdırıldı.

661-ci ildə Xəvaricə mənsub olan İbni Mülcəm Əbutaliboğlu Əlini qətlə yetirdi.

Daha sonra islam Əməvilər tərəfindən sapdırılaraq padşahlıq sisteminə dönüşdürüldü.

2007- payız